Əli Rza XƏLƏFLİ

# Həyatın Dastanı

ədəbi-fəlsəfi düşüncələr

Hamlet İsaxanlının
"Ziyarət" poemasının motivləri əsasında

Xəzər Universitəsi Nəşriyyatı

2012

© Xəzər Universitəsi Nəşriyyatı, 2012
Bütün hüquqlar qorunur

Redaktor və ön sözün müəllifi: *Hafiz RÜSTƏM, şair-tərcüməçi*

Əli Rza XƏLƏFLİ (Əzizli Əli Rza Zal oğlu)
Həyatın Dastanı
ədəbi-fəlsəfi düşüncələr
(Hamlet İsaxanlının "Ziyarət" poemasının motivləri əsasında).
– Bakı: Xəzər Universitəsi Nəşriyyatı, 2012. 239 səh.

ISBN 978-9952-20-071-3

1. Ədəbi-fəlsəfi əsər. 2. Poeziya. 3. Azərbaycan Poeziyası.
4. Ədəbiyyat tarixi. 5. Ədəbiyyatşünaslıq

894.361/3-dc-22

## İÇİNDƏKİLƏR

"Həyatın Dastanı"nda "Ziyarət"in fəlsəfi mahiyyəti (Redaktordan) ........ 5

Kövrək sözün işığında ........ 14
"Bitik"lər nəsillərə ünvandır ........ 17
Hamlet İsaxanlı və onun "ziyarət"i ........ 28
Atadan gələn yol ........ 38
Göynəyin köynəyində ........ 51
Yurda könül ziyarəti ........ 60
Obrazın məntiqi - həyatın mənası ........ 69
Söz var, kimsəyə deyilməz ........ 75
Yaşamağın vətəndaşlıq mahiyyəti ........ 78
Səsin işığı ........ 90
Poeziya - ruhun zərrələri ........ 102
Çiçəklər önündə təzim ........ 112
Aristarxlara cavab ........ 120
Zaman körpüsü ........ 130
Bir uşağın dünyası ........ 137
Bənzərsiz anların poeziyası, ........ 141
Həyatdakı həqiqət - yuxudakı səadət ........ 149
Dedal və ikar əfsanəsi ........ 158
Sevdaların ən gözəli ........ 167
Hamlet - olum-ölüm arasında ........ 179
Vətən nədi, qoy desin ........ 192
Soruşun vətənsizdən ........ 198
Əxlaqın meyarı ........ 201
Dərdini göyə açanda ........ 208
Zirvədən görünən dünya ........ 215
Xəyalın qanadlarında ........ 219
Həyat enerjisi - eşqin görünməz gücü ........ 227
Yaddaş simfoniyası - son akkordlar ........ 232

Əli Rza XƏLƏFLİ (Əzizli Əlirza Zal oğlu)

Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, Cəbrayılın Şahvəlli, Tatar və Aşağı Xələfli kəndlərində müəllim işləmişdir. Həmin illərdəki pedaqoji fəaliyyətinə görə "Qabaqcıl maarif xadimi" fəxri adına layiq görülmüşdür.

80-ci illərin əvvəllərindən mətbuatda çalışır. Əli Rza Xələfli zəngin yaradıcılıq yolu keçmişdir. "Karvan körpüdən keçir" (1997), "Baş daşımın yazıları" (1998), "Yurdun övladları" (E.Kamalla birlikdə, 2000) ədəbi-bədii publisistik, "Sözə doğru" (2003), "Dünyanın söz üzü" (2007) ədəbi-tənqidi, "Ocağımın işığı" (2001), "Həsrət körpüsü" (2003) şeirlər və poemalar kitablarının müəllifidir. O, "Mənəviyyatın ekologiyası" (2005), "Fənayənin sualları" (2006), "Yana-yana yaşadım" (2006), "Koroğlu - Hoydu dəlilərim, hoydu" (şair İslam Sadıqla birlikdə, 2006) kitablarının tərtibçi müəllifidir. Ə.Xələfli "Meyar", "Dünya yazana qaldı" ədəbi publisistik və "Daş yazısı" şeirlər və poemalar (2008), "Dilimiz-Varlığımız" (2009), "Axtala əfsanəsi" (2010) ədəbi-tənqidi, "Damcılı" poema (2011), "Üçüncü dünyanın qorxusu" (2011) povest kitablarının da müəllifidir. "Yaddaşa aparan yollar" kitabı isə "Kövsər" nəşriyyatında çapa hazırlanır.

Ə.Xələfli "Qızıl qələm" və "Araz" ali ədəbi təltiflərinə və Yazıçılar Birliyi Bədii Ədəbiyyatı Təbliğ Bürosunun "Qılınc və qələm" yaddaş mükafatına (2004) layiq görülmüşdür. Ə.Xələfli Rəsul Rza mükafatı (2008) və Şahmar Əkbərzadə adına Ədəbiyyat mükafatına da (2010) layiq görülüb. Prezident təqaüdçüsüdür (2010). Professor Abbas Hacıyevin "Sənətin işığında" (2010) monoqrafiyası Ə.R.Xələflinin yaradıcılığına həsr edilib.

*Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Kredo" (1999) qəzetinin baş redaktorudur.*

# "Həyatın Dastanı"nda "Ziyarət"in fəlsəfi mahiyyəti

Yaxşı tanıdığım, ruhu etibarilə, mənəvi mühitilə mənə doğma olan dostum Əli Rza Xələflinin bu il yazıb başa çatdırdığı həyatın romanı əsərini ardıcıl izləmişəm, oxumuşam və redaktə etmişəm. Sözün həqiqi mənasında məmnuniyyətlə, böyük zövqlə. Adından da göründüyü kimi, həyatın ən müxtəlif tərəflərinə işıq salan bir əsər kimi "Həyatın Dastanı" poetik bir əhvalla əzəlindən sonunadək müşayiət olunur. Əsər şair Hamlet İsaxanlının "Ziyarət" poemasının motivləri əsasında yazılmış ədəbi-fəlsəfi düşüncələrdən ibarətdir. Bu müəllif qənaəti olsa da, mən "Həyatın Dastanı"nı monoqrafiya kimi görürəm. Çünki bu əsərin həm də dərin elmi siqləti var. Əsərin kütləvi dildə, emosional bir ruhda yazılması geniş oxucu kütləsinin marağına səbəb olacaq. Mən buna şübhə etmirəm.

* * *

Əmir Ünsürül-məali Keykavus ibn İsgəndər ibn Qabus ibn Vəşmgir ibn Ziyar (1021 - 1082) şairlik qaydaları haqqında oğluna nəsihətində buyurur:

> "Şeir (qəzəl, qəsidə, mərsiyə və s.) yazdıqda o barədə nə mümkünsə, hamısını de, bitkin bir əsər yarat, heç vaxt yarımçıq yazma. Bir də ki, nəsrdə işlənən sözləri şeirdə işlətmə, nəsr - rəiyyətdir, şeir - şah. Rəiyyətə yaraşmayan şey şaha heç yaraşmaz"[1].

[1] "Qabusnamə"."Şərq-Qərb" nəşriyyatı. Bakı , 2006, s.147.

Deməli, şeir sənətin gözü, bütün yaradıcılıq növlərinin başçısıdır, şahıdır. Elə buna görə də poeziyaya bu qədər boz-bulanıq axın var. Elə buna görə də hər şairəm deyən gücü çatdı-çatmadı, *"poetik şedevr"* yaratmağa, *"şahbeytlər"* icad etməyə can atır. Elə buna görə də hər ürəyindən şahlıq keçən şah ola bilmir. Çünki ən azı iddiayla tələb, imkanla gerçəklik, formayla məzmun, təsadüflə zərurət bir-birini tamamlamayanda, başqa sözlə, real həyatla tale yazısı üst-üstə düşməyəndə heç nə alınmır. Əksinə, bütün bunlar düz mütənasib olanda, ədəbi şəxsiyyətin missiyası qismən müəyyənləşir.

Hamlet İsaxanlının da şairlik missiyası yuxarıdakı qanunauyğunluqlarsız İlahi töhfə sayıla bilməz. Hərçənd o, *"A millət"* adlı şerində yüngül qazanc dalınca qaçmaq, rüşvətlə təhsil almaq, qeyri-qanuni yolla vəzifələrə yiyələnmək və s. kimi neqativ halların, mənfi milli xüsusiyyətlərin elm və sənət sahələrinə də sirayət etdiyini sarkazmla bildirir:

- Elmdə sıramız? - Bəli, seyrəkdir,
Bizimki o deyil, sevən ürəkdir.
On səkkiz min şair nəyə gərəkdir?
Sən məni də şair etdin, a millət?!

Məncə, bu prizmadan yanaşsaq, qətiyyən elmə dəxli olmayan, ancaq elmi dərəcə almaq uğrunda dəridən-qabıqdan çıxan *"alimlərin"* sayı heç də yuxarıdakı *"şairlərin"* sayından geri qalmaz.

H.İsaxanlı süjetli *"Ziyarət"* poemasınadək kiçikhəcmli, ancaq yüksək mündəricəli lirik- poetik təcrübələrini doğruldanadək, heç şübhəsiz, uzun və məşəqqətli yaradıcılıq axtarışları aparıb. Hansı böyük şairəsə bənzəməyə, hansı klassikisə təqlid etməyə, yamsılamağa, milli və qeyri-milli məşhurların həyat və ədəbi fəaliyyətlərini öyrənməyə cəhd edib. Bu yolda dəfələrlə daxili-mənəvi böhranlarla, ruhi-psixoloji sarsıntılarla qarşılaşıb. Bəzən zahirən uğurlu, özünəməxsus görünən poetik işartıların ilğımlarında azıb, sonradan aldandığının dərin məyusluq və peşmançılıqlarını yaşayıb. Yalnız təbii istedad, ağır zəhmət, özünəinam və əzmkarlıq sayəsində bədii üslubun hamıya məlum tərəflərindən və nəzəri postulatlarından əldə edilməsi mümkün olmayan, ancaq zatən həqiqi sənətkara sirr kimi, sehr və möcüzə kimi əta edilən fərdi üslubun açarını tapandan sonra yeni, işlənməmiş poetik mövzuların qapıları onun üzünə taybatay açılmağa başlayıb.

* * *

Oxucular üçün maraqlı olacağını nəzərə alıb əvvəlcə, Aristotelin *"Poetika"*sı və ona sanballı şərh yazan A.Aslanovun Ön sözü əsasında *"Ziyarət"*in yaranma səbəblərini, yüksək zövq məhsulu kimi onu şərtləndirən amilləri, janr xüsusiyyətlərini müəyyənləşdirməyə çalışaq. Məlum olduğu kimi H.İsaxanlı bu əsərində doğulduğu kəndə qonaq gəlməsinin, kənd obrazlarının, kəndlə bağlı əziz, müqəddəs uşaqlıq xatirələrinin poetik təqlidini verib:

> "Zənn etmək olar ki, poeziya sənətini, ümumiyyətlə, iki, həm də təbii səbəb doğurmuşdur. Əvvələn, təqlid uşaqlıqdan bütün insanlara xoşdur və onlar digər canlılardan bununla fərqlənirlər ki, təqlidə daha çox maildirlər və ilk bilikləri də onun sayəsində əldə edirlər; ikinci, təqlid və onun nəticəsi hamıya zövq verir. Həyatda baş verən hadisələr də bunu sübut edir: həyatda bizə iyrənc görünən (yaxud gözəl görünən - H.R) şeylərin təsvirinə baxarkən xoşumuz gəlir. Bunun səbəbi isə ondadır ki, bilik qazanmaq nəinki filosoflar, eyni zamanda başqa adamlar üçün də son dərəcə xoşdur, yalnız bir fərqlə ki, bu sonuncular bilikləri uzun zaman üçün əldə etmirlər"[1].

H.İsaxanlı ziyarət etdiyi kənd təbiətinin, o təbiəti təşkil edən canlı və cansız predmetlərin fiziki, bioloji keyfiyyətlərini deyil, estetik-fəlsəfi qavrayışını əsas götürür. O, təkcə ata ocağı ilə, doğma, tanış şəxslərlə, həmkəndliləri ilə görüşmür, o, həm də ana yurdun, yurddaşların tipik obrazlarını canlandırır. İndi onun ziyarət etdiyi, haqqında bəhs açdığı yer-yerlərdir, adam-adamlardır .

H.İsaxanlı artıq tamamilə yeni dövrün - sovet dövrünü tarixə tapşırmış, bütün ideoloji yasaqlara son qoymuş müstəqil, milli bir respublikanın qələm əhli kimi partiyalı, formaca milli, məzmunca sosialist buxovlardan azad dünyagörüşün yaradıcı təmsilçisidir.Elə buna görə də onun *"Ziyarət"*i təbii və orijinaldır.

Bu mənada H.İsaxanlının *"Ziyarət"*ində ədəbi qəhrəmanın hiss və həyəcanları, dövrün dramatik hadisə və əhvalatları müvafiq söz, ritm və ahəng daxilində oxuculara çatdırılır. Bu üç haldan ikisi daha fəal və xarakterik olduğuna görə, yəni H.İsaxanlının *"Ziyarət"*i bədii təhkiyənin vasitəsinə və predmetinə görə janr etibarilə epik-lirik poemadır.

---

[1] Aristotel. “Poetika”. ”Şərq - Qərb” nəşriyyatı. Bakı , 2006, s. 27.

* * *

Yuxarıda xatırlatmışdım ki, H.İsaxanlı məhz sirli, sehrli, özünəməxsus fərdi üsluba yiyələndikdən sonra poetik mövzuların qapıları onun üzünə açılmağa başladı. Əslində bu spesifik yaradıcılıq qüvvəsini özündə hiss etməyən, bu qüvvəyə sahib olmayan şəxslər istəsələr də heç bir sənət əsəri yarada bilməzlər. Məhz bu “fərdi üslubu olmayanlar, həyatı obrazlarla düşünməyi bacarmayanlar” elmi də, sənəti də özlərinin ruhsuz, cansız, məzmunsuz, ehtirassız söz yığınları ilə ancaq gözdən salırlar.

Məlum olduğu kimi fərdi üslub birbaşa fəlsəfi-əxlaqi, intellektual dünyagörüşlə, vacib estetik kateqoriya olan tipiklik məsələsilə, yüksək dərəcədə özünəməxsusluqla, nəhayət fərdi üslubu reallaşdıran, maddiləşdirən fərdi dil, bədii təsvir və ifadə vasitələrilə sıx surətdə bağlıdır.

Əli Rza Xələfli *"Həyatın Dastanı"* adlı bu monoqrafiyasını H.İsaxanlının məhz fərdi üslubunu qabarıq nümayiş etdirən *"Ziyarət"* poemasının ədəbi təhlilinə, şərhinə həsr etmişdir. Yaxşı yadımdadır ki, bu əsəri təşkil edən məqalələr ilin əvvəlindən *"Kredo"*[1] qəzetində ardıcıl olaraq dərc olunmağa başladı və geniş ədəbi ictimaiyyətin mühakiməsinə verildi. Qabaqcadan deyim ki, əsər məhz Əli Rzaya məxsus elmi-publisistik üslubda yazılıb, olduqca maraqlı və oxunaqlıdır. O, təhlilə cəlb etdiyi ədəbi obrazları, tipləri və hadisələri oxucu yaddaşına həkk etmək, sözə qüvvət vermək üçün onlarla mötəbər ədəbi-elmi mənbələrə uğurla müraciət edib və tam əminliklə deyə bilərəm ki, o, bu istəyinə çox qısa bir müddətdə nail olub. Həm də nəzərə almaq lazımdır ki, qələmdən istifadə etməyən Əli Rzanın bu diktələri, şifahi nitqlər toplusu yeni bir yaradıcılıq nümunəsi kimi ağır və şərəfli əqli mülkiyyətin məhsulu olaraq çox qiymətli və dəyərlidir. Qeyd etmək yerinə düşərdi ki, o, hələlik bu son əsərinədək qısa müddət ərzində, yorulmaq bilmədən araya-ərsəyə gətirdiyi *"Dilimiz – varlığımız"* **(2009)**, *"Axtala əfsanəsi"* **(2010)**, *"Sözün çağlar şəlaləsi"* **(2010)**, "*Yaddaşa aparan yollar"* (2011) adlı ideya və məzmunlarına görə bir-birindən fərqlənən, yüksək elmi-ədəbi məziyyətlərə malik olan, son dərəcə mükəmməl, sanballı, irihəcmli ədəbi-tənqidi əsərlərin müəllifi kimi də tanınır.

H.İsaxanlının *"Ziyarət"*i bir növ ziyarətnamə, daha doğrusu onun ərəbcə sinonimi olan səyahətnamədir. Dünya ədəbiyyatında irili-xırdalı, məşhur-

---

[1] ” Kredo”qəzeti, 2011, 15 yanvar.

qeyri-məşhur səyahətnamələrdən fərqli olaraq H.İsaxanlı məhz özünəməxsus, çox da irihəcmli olmayan, ancaq dərin məzmunlu bir səyahətnamə yaradıb. Bu səyahətnamə naməlum, xarici ölkələri səyahətdən deyil, bir ölkə daxilində artıq məşhurlaşmış bir şəxsiyyətin öz doğma yurdunu səyahətindən, öz ata ocağını ziyarətindən və bu səfərin yaratdığı poetik təəssüratdan bəhs edir:

> "H.İsaxanlı kəndimizə (Borçalının Qarayazı bölgəsinin Kosalı kəndinə) yalnız hərdən imkan olanda gedə bilir. Doğma kəndinə gələndə sanki arzuladığı bir ziyarətgaha qovuşur. Bu ziyarətgahla bağlı yaddaşı yenə oyanır, xəyal dünyasında əziz xatirələri yenidən canlanır. Oxucu poemanın əzəlindən başlamış bütün bunları diqqətlə izləyir:
>
> ...Duyğu hakım oldu bizə
> Sevgi özü ibadətdir
> Şükür, gəldik kəndimizə,
> Bu nə gözəl ziyarətdir!
> Güllər tanış, qoxu tanış,
> Göy otların çoxu tanış,
> Ocaq tanış, tüstü tanış,
> Kəndin altı, üstü tanış...
>
> Bu sadə müşahidədə kəndin zahiri təbiətinin bir vaxtlar oyatdığı hissi təəssürat təzələnir"[1].

H.İsaxanlı təkcə doğulduğu çağdaş kəndlə, kənd adamları ilə, həm də ucqar kənd təbiətilə zahirən görüşmür, o, eyni zamanda həmin kəndin artıq xatirəyə çevrilmiş sərt həyat tərzilə, məhrumiyyət dolu tarixi keçmişilə bizi görüşdürür. Ə.R.Xələfli H.İsaxanlının fərdi üslubunu şərtləndirən özü ilə, onun dünyagörüşü ilə elə ilk səhifədən bizi tanış edir: *"H.İsaxanlının "Ziyarət"i yaddaşın ziyarəti mahiyyəti daşıyır. O, indiyədək nəşr olunmuş kitablarında "lirik mən" kimi görünürdü. Amma bu əsərdə həm də avtobioqrafik xarakter hiss olunur".* Ə.R.Xələfli H.İsaxanlının dünyagörüşü haqqında kifayət qədər geniş təsəvvür yaradan portret cizgilərinə, onun tərcümeyi-halına, cəmiyyətdə tutduğu şərəfli mövqeyinə də aydınlıq gətirir: *"H.İsaxanlı Azərbaycanın görkəmli riyaziyyatçı alimidir, sözün həqiqi mənasında, böyük təhsil təşkilatçısıdır".*

---

[1] C.Mustafayev.*"Ata ocağı"*. "Kredo" qəzeti, 2011, 15 iyun.

Ə.R.Xələfli əsərin əvvəlindən diqqəti cəlb edən, *"Ziyarət"*in əsas güc mərkəzi olan çox maraqlı bir Yaddaş Sahibi obrazı yaradıb. Bu obraz, ümumiyyətlə, ədəbiyyatda bir ədəbi vasitə kimi, xitab obyekti kimi son dərəcə yeni bir obrazdır: *"Bu obraz bütün əsər boyu xüsusi hərəkətverici gücə malikdir. Biz onun ətrafında, onun haləsində baş verən hadisələri məxsusi olaraq onun özünün münasibətilə qavrayır, başa düşürük. Ancaq demək lazımdır ki, "Ziyarət" əsərindəki Yaddaş Sahibi obrazı Azərbaycan ədəbiyyatındakı tarixi yaddaşı canlandıran obrazlardan fərqlənən, bir növ qeyri-ənənəvi obrazdır",* - deyir Ə.Xələfli. Bu obraz daha yığcam ifadə etsək, təkcə müəllifin özünü deyil, ümumiyyətlə müəllifin simasında bütün tarixi-milli dünyagörüşü təmsil edir.

Ə.R.Xələfli bu Yaddaş Sahibi obrazı vasitəsilə H.İsaxanlının *"Ziyarət"*-ini təşkil edən, həqiqi könül nəğmələrindən ibarət olan *"Şükür gəldik kəndimizə", "Böyüklərim yada düşdü", "Qismətdənmiş bu görüşmək", "Dilimiz gödək olmasın"* və s. başlıqlar altında onun bədii təxəyyüldən keçirdiyi, tipikləşdirdiyi obrazları, əhvalatları, demək olar ki, eyni poetik səviyyədə duran ədəbi-tənqidi qeydlərilə, professional ədəbiyyatşünas mülahizələri ilə ehtiva edir.

H.İsaxanlının nəsil şəcərəsinə daxil olan, hər bir azərbaycanlıya ancaq başucalığı gətirən, adı milli müqavimət hərəkatının liderlərindən biri kimi tarixə düşmüş babası Qaçaq İsaxandan, himayəsində min bir əziyyətlə böyüdüyü nənəsi Zeynəbdən tutmuş, sevimli ata-anası, əmisi, həmkəndliləri - şərti olaraq adlandırdığımız Ağsaqqal və Ağbirçəyəcən, eyni zamanda heç vaxt yaddan çıxmayan, unudulmayan, məşəqqətli olduğu qədər, həm də hərdən lirik-romantik görünən qələmə aldığı adi həyat lövhələrinə qədər hər şeyi nə qədər canlı və real əks etdirmişsə, Ə.Xələfli də bir o qədər həmin obraz və əhvalatlara böyük qayğı və diqqətlə yanaşmış, bütün bunların hamısını ən xırda detal və təfərrüatlarınacan təhlil müstəvisinə gətirmiş, hətta indi yurdun qıraqda qalan yerlərinə çevrilmiş Borçalı və borçalıları həm də ədəbi-geosiyasi baxımdan nəzərdən keçirməyi də yaddan çıxarmamışdır.

Ə.R.Xələfli H.İsaxanlının özünəməxsusluğuna dəlalət edən, onun yaradıcı təbiətini, poetik gücünü şərtləndirən ştrixləri, incə nüansları açıqlayır: *"Onsuz da H.İsaxanlı istər şeirlərində, istərsə də "Ziyarət" poemasında sözü, fikri qafiyə xatirinə divana çəkmir. Elə təbii axarla öz ritmində ifadə edir. Bu ritm, bu ahəng onun mənəvi aləmindədir. Müəllifin üstünlüyü kimi*

*bunu mütləq qeyd etməliyik ki, o, daxilində olan ritmi formaya tabe etməyə cəhd göstərmir".*

Ə.R.Xələfli poemanın məziyyətlərini qeyd etməklə yanaşı yeri gəldikcə müəllifə kömək məqsədilə haqlı iradlarını da bildirir: *"Yaylaq yerinin, xüsusilə buz kimi suların çağladığı bulağın, yarpızlığın, əvəlikliyin ətri, bihuşdarı kimi insanı məst edən kəklikotu çiçəklərinin, çayçiçəyinin, qantəpərin, lilparın, qazayağının, quzuqulağın... olduğu yerlərdə "yarpız, yasəmənin qoxusu" yox, "çiyələyin qoxusu" məntiqi, mənzərəni daha yaxşı tamamlayır".*

Ə.R.Xələflinin izahlarında həm də bədii üslubun təzahürləri valehedicidir. Bir də görürsən ki, nəqli cümlə çox şairanə bir təşbehlə ifadə olunur: *"Bir vaxt gəlir ki, o pıçıltılar onun xəyalındakı səliqəli ata, ana zəhmətilə düzəldilmiş ləklər kimi misralara çevrilir".*

Ə.R.Xələfli öz şərhlərində yaxın dövrün Qərb və Şərq mütəfəkkirləri ilə yanaşı yunan mifologiyasına (İkar və Dedal haqqında əfsanə), böyük tənqidçi Belinskinin üz tutduğu, e.ə. ikinci əsrdə yaşamış qədim yunan alimi və tənqidçisi Aristarxa və digər məşhur söz adamlarına müraciət etməklə öz fikir və arqumentlərini daha da qloballaşdırır.

Ə.R.Xələfli poema haqqında yazarkən o, poemanın da daxil olduğu kitabda gedən bəzi lirik şeirlərə də münasibətini bildirir. *"Gələcəkdə"* adı ilə təqdim olunan şeirdə H.İsaxanlının təbirincə desək, *"gələcəyin qələmçalanı"* indinin qələmçalanı ilə müqaisə edilir. Gələcəyə ünvanlanan bu şeir həqiqətən də çox obrazlı və düşündürücüdür:

Sən ey bizi bizdən sonra yada salan,
Haqqımızda fikrə dalan,
Və bu yolda qələm çalan
Qız, ya oğlan!
Keçmişinə baxanda sən,
Biz nələri qurub-çatdıq?
Nə dağıtdıq, nə yaratdıq?
Onu bizdən daha yaxşı biləcəksən.
Dayaz, səthi, ibtidai fikirlərə
Baş bulayıb güləcəksən.

Bu, H.İsaxanlının təmsil etdiyi ədəbi nəsillərin sualları kimi heç də dəyərsiz deyil, əksinə təəssüfqarışıq məzmunludur.

Ə.R.Xələfli obrazları tipikləşdirmədə, ədəbi qəhrəmanı ümumiləşdirmədə fövqəladə və xariqüladə hünər və istedada malikdir ki, bunu aşağıdakı nümunədə bütün gücü və parlaqlığı ilə nümayiş etdirir. Bu, həm də cüzi, cılız ədəbi uğurlarını və əllaməçiliklərini hər cür vasitələrlə gözə soxmaqdan çəkinməyən, ancaq Əli Rzanın məhsuldar və zəngin yaradıcılığını bəyənməyib ona həsəd aparanlara kiçik bir mesajdır: *"Ziyarət" poeması xarakter etibarilə bizim müasirimiz olan bir insanın taleyindən danışır. Yəni biz əsər boyu Yaddaş Sahibini görürük, onun düşüncələrini dinləyir, həyatının ayrı-ayrı məqamlarını gözlərimizin önündən keçiririk. Onun uşaqlığı da, körpəlik, fidanlıq çağları da, əlləri əsə-əsə, soyuqdan iliyi dona-dona bağda-bağatda işlədiyi günləri də, barmağını oxuduğu kitabın dayandığı səhifəsinin üstündə saxlayıb bir arx kənarında axıb gedən sulara atdığı balaca daşlara qoşulan, o suların harayacan axması haqqında düşünən anlarını da görürük. Özünün körpə uşaq qəlbilə sevgisini götürüb dünyanın hansısa yaşıl bir adasına uçmaq xəyalları da bizi təsirləndirən, özümüzün uşaqlıq dünyamızı təzədən yaddaşımıza gətirən məqamlardır. Bunlar əsərin ən parlaq, ən işıqlı görünən tərəfləridir. Dünyanın elm mərkəzlərində yeni tədqiqatları ilə, elmi nəticələri ilə, məntiqi hökmləri ilə həmkarlarını bəzən təəccübləndirən, dünyaya meydan oxuyan ölkələrin fikir, düşüncə sahiblərilə mübahisələrə girişən, inandığı məntiqindən bir addım da geri çəkilməyən Yaddaş Sahibi tarixi yurd yerlərinə qayıdanda yenidən həmin o arx kənarındakı uşağa çevrilir".*

Burada Yaddaş Sahibinin təqdimatında həm də Əli Rzaya məxsus təfəkkür dərinliyi, təxəyyül zənginliyi parlaq şəkildə üzə çıxır.

O, H.İsaxanlının xalq təfəkküründən qaynaqlanan, ən passiv beyinləri də silkələyən, əxlaqi-didaktik misralardan ibarət bayatısını təhlil obyektivində iri planda göstərir:

Müdriklər tez od almaz,
Boş sözü saya salmaz.
Hər hürənə daş atsaq,
Yurdumuzda daş qalmaz.

Zənnimcə, Ə.R.Xələfli bu kitabında heç də subyektivliyə yol verməmiş, *"Ziyarət"*in ideyasını, onun ədəbi-bədii xüsusiyyətlərini obyektiv, canlı və dolğun şəkildə açıb göstərmiş, yüksək zövqlü oxucuların tələbatını ödəyəcək orijinal, oxunaqlı bir əsər yaratmağa müvəffəq olmuşdur. Bu *"Ziyarət"*, yaxud ziyarətnamə Kəbə evini ziyarət etməyə bərabər ziyarətdir.

P.S. Yeri gəlmişkən bu poema - hərçənd yüksək sənətkarlıqla yazılmış parçalarının olduğunu, ideya-bədii xüsusiyyətlərinin orijinallığını və təbiiliyini nəzərə almaqla bir dünyagörmüş müdrik insanın, hikmət sahibinin aforistik, fəlsəfi misralarıyla yekunlaşır. Bu misraların mahiyyətini nə qədər açmağa çalışsaq da, yenə də o misralardakı ilahi gözəllik və hikmətin sehrləri və sirləri müəmmalı qalacaq. Biz burada keçmişini unutmayan, gələcəyinə biganə olmayan, Şərq ürəkli, Qərb təfəkkürlü, müasir, milli bir ziyalının ölməz obrazını görürük. Böyük həyat eşqinə malik bu obrazın poetik Bisütunun hündür və əlçatmaz qayasına həkk etdiyi köhnəlmək bilməyəcək misraları ən azından Milli Yaddaş Sahibinin hafizəsindən heç vaxt silinməyəcək, əbədi yaşayacaqdır:

Bu yerlərə çox gəlmişəm,
Gəldikcə də kövrəlmişəm.
Nəşəm qəmlə görüşübdür,
Sevincimə xal düşübdür.
Ey Tanrıdan aldığım nur,
Sən göstərən yol doğrudur.
De, keçmişdənmi gəlmişəm?
Ya mən özüm köhnəlmişəm?

***Hafiz RÜSTƏM***
***11 - 15 iyul 2011***

# Kövrək sözün işığında

İnana bilmirəm, şair təbiətən sərt ola, bir insan kimi qəddar ola, amma insanlığın son həddinəcən hissiyyatında, poetik duyğularında kövrəkliyini qoruyub saxlaya bilər. Hətta bəzən biz insanları tanıya bilmirik. Amma zənnimcə, insanın mənəvi pasportu onun mənəvi dünyasını təsdiq edən ən dəyərli sənəd, ən tutarlı şəxsiyyət vəsiqəsi onun kövrək duyğularını ifadə elədiyi misralarda öz əksini tapır. Söz insanın rişəsidir. İnsan danışanda onun kökünü hansı torpaqda bitdiyini, hansı mənəvi münbitlik üstündə boy göstərdiyini təsəvvür etmək olur. Təsadüfi demirlər ki, insan doğulduğu yerə, yurda, torpağa, təbiətə daha çox oxşayır. Ümumiyyətlə, bu, o demək deyil ki, insan düzəndə *"bitəndə"*, yaxud dağda *"göyərəndə"* yaxşıdır, ya pisdir. Biz insanın təbiətindəki nadir cizgiləri mənsub olduğu yerin, geniş mənada, nəslin, kökün, soyun təbiətinə uyğun görmək üçün onun mühitindəki - əlbəttə, mənəvi mühitindəki *"dağlığın"* və *"düzənliyin"* mahiyyətinə varmağı bacarmalıyıq. Əgər insan bütün duyğuları ilə sözündə, nəslin, soyun səsini eşidə bilirsə və bu səsi öz sözü ilə qaytarıb cəmiyyətə verə bilirsə, demək, o, öz kökü üstündə göyərib. Bu mənada, Hamletin, əlbəttə, bəşərin mənəvi tarixindəki Hamletin olum və ölüm klassik sualının XXI əsrdə təzahürünü bizim Hamletin səsində ancaq bu cür dinləmək olar:

Son günü məni istəmiş -
Eşidəndə içim yandı.
Nənə-nəvə görüşmədi
Bir daha fürsət düşmədi
Arada divar dayandı.

Əlbəttə, söhbət şairdən gedir. H.İsaxanlı imkanına güvənib dəbin qurbanı olan şair deyil. Bütün varlığı ilə yaşadığı ağrıları az-az, yəqin ki, qarşısında dayana bilmədiyi məqamlarda dilinə gətirə bilmədiyi şairdir. O, sözün övladıdır, elmin övladı olmaqdan əvvəl. Bu dünyanın maddi təminatlarının övladı olmaqdan əvvəl yazısının, kövrək duyğularının tarixi nə zamandan başlamasından asılı olmayaraq, şeirin, poeziyanın övladıdır. Elə bilirəm ki, nənə son anında nəvəni - Hamleti görməyi elə buna görə istəmişdi. Sözdən üstün insanın başqa hansı ünvanı var?

Bu dünyanın bizdən əvvəl hörülməkdə olan, qurulmaqda olan mənəviyyat sarayına biz ancaq səmimiyyət kərpicləri gətirə bilərik.

...Hamlet İsaxanlı hər sözü ilə, hər misrası ilə, auditoriya qarşısındakı çıxışları ilə, cəmiyyət içərisindəki görüşləri ilə bu dünyaya ancaq səmimiyyət gətirdiyini təsdiq edən ziyalıdır.

...Görəsən, səmimiyyətdən üstün daha bu dünyaya nə gətirmək olardı?

* * *

Əgər şair ömrü boyu - bəlkə də, yaradıcılığı boyu desəydik daha düzgün olardı - bircə obraz yaradıb və həmin obrazın mənəvi təlatümlərinin qabağında dayana bilirsə, o təlatümlərin arzuladığı, istədiyi duyğuları ömrü ilə, həyatı ilə əvəzləyə bilirsə, yəni həmin hissləri və duyğuları ona doğru istək açan bütün canlı aləmə və insanlara xüsusi bir istəklə verə bilirsə, əsirgəmirsə, bu yöndə ruhunun, mənəvi dünyasının qapısını səxavətlə aça bilirsə, demək, o, şair ömrü yaşayıb. Və yalnız bundan sonra demək olar; o, insan ömrü yaşayıb. İstər təbiətlə qarşılaşmada, istərsə də insanlarla üzləşmədə onun alnı açıq olacaq. Nə qədər təsirlidir *"Dənizdə bir quş"* şeiri:

İstanbul boğaz içi
Tüğyan edir dalğalar.
Dayan, bir an, gəmiçi
Dənizdə bir quş ağlar.

Burada şairin, daha dəqiq desək, müəllifin mənəvi dünyasındakı təlatümlərin mahiyyətini axıracan dərk etmək, duymaq üçün yalnız misraların arasında bir-iki sözün yerini dəyişmək lazımdır. Yerini dəyişmək yox, daha dəqiqi, dənizdə ağlayan quşun əvəzinə, cəmiyyətin içində arzularını göyərdə

bilməyən bütün mənəvi dünyasında yaşayan enerjisini, gücünü insanlara sərf edə bilməyən, bir sözlə, gəldiyi həyatın mahiyyətinə uyğun bütün gücü ilə görünə bilməyən insanın daxili-mənəvi təlatümlərinin qarşısında dayanırıq. Bəli, həmin ağlayan quşu Vətəndə, ya qürbətdə, uzaqda, ya yaxında olmağından asılı olmayaraq, arzularını göyərdə bilməyən insan kimi təsəvvür etmək bəs edərdi müəllifi başa düşmək üçün....Bəlkə, elə bu cür düşüncələri axıracan aparaq və o müəllifin adını çəkməyək. Hətta, belə bir ədalətsizlik eləsəydik də kimlərsə, həmin misraları oxuyan kimi deyəcəkdi ki, o, Hamlet İsaxanlıdır.

Biz hamımız bir gəminin sərnişinləriyik. Vaxtilə böyük sənətkarımız Bəxtiyar Vahabzadə də belə deyirdi. Bizim mahnılarımızın birində də *"Gəmini sür gəmiçi qardaş, Gün oldu yarı"* deyilir. Amma H.İsaxanlı "*Dayan, bir an, gəmiçi"* - deyə müraciət edir. Bəlkə, bu gəmidən bir qalan var, bəlkə, elə o gəmidən qalan quşun ağlamağında bir məqsəd var. Bəlkə, elə onun bircə arzusu bəs eləyəcək bu dünyanın üzündən müharibələrin, qanların, qadaların kökü kəsilsin. Hamlet İsaxanlı bütövlük kompleksi olan ziyalıdır. Kifayət qədər tanınmış riyaziyyatçı alim, tələbələri tərəfindən sevilən pedaqoq, auditoriyada dinləyicilərinin maraqla qulaq asdığı natiq, ədəbiyyat aləminin kövrək duyğulu bir şairi kimi tanınır. Onun həyatının mənası dünyaya gözəllik gətirmək istəyinə bağlıdır. Özünün özünə verdiyi *"Bu dünyaya nə gətirdim?"* sualının cavabı da elə bu istəklə üst-üstə düşür.

Biz fenomenləri bir çox hallarda qeyri-insani formada təsəvvür edirik. Amma unuduruq. Fenomenlər çox vaxt elə bizim əhatəmizdə olur. Son nəfəsdə nənənin arzuladığı nəvə dünyanın sinəsində əbədiyaşarılıq gücündə olan həyat ağacını bitirəndir.

...Həyat ağacı. Öncə insanların ruhi-mənəvi aləmində göyərməlidir. Söhbət Xəzər Universitetinin rektoru, dünyaşöhrətli riyaziyyatçı alim və kövrək duyğular şairi Hamlet İsaxanlıdan gedir.

...O, dünyanı sevir və bu dünyanın içərisində Vətənini sevir, dilini sevir, doğmalarını sevir, tələbələrini sevir...

# "Bitik"lər nəsillərə ünvandır

Çox hörmətli Hamlet müəllim, əvvəlcə dostum, əzizim, şair-tərcüməçi, görkəmli alim, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin daşıyıcısı olan soydaşım... demək istədim. Ancaq bunların heç birisini demədim. Çünki mənim zənnimə görə, indiki zamanədə dəyərlərin çox ucuzlaşdığı, ümumiyyətlə, bir çox nəsnələrin təmənnalara qurban verildiyi bir dövrdə müəllim adını kim qoruya bilirsə, elə onun özü daxili-mənəvi dünyasında ehtiva olunan mənəviyyat mərtəbələrinin hamısını özündə birləşdirmiş olur.

Hamlet müəllim, ümumiyyətlə, məktub yazmaq özü bir səlahiyyətdir. Doğrusu, mən o fikirdə deyiləm ki, sizə məktub yazmaq səlahiyyətində olum. Ən azı ona görə ki, sizin pedaqoji, elmi, ədəbi fəaliyyətinizin sferası, əhatə dairəsi o qədər genişdir ki, bu kosmik ərazidə Nəriman Nərimanovun təbirincə desəm, sıravi bir publisistin məktubunu oxumaq əlbəttə, sizin vaxtınızı oğurlamaq deməkdir. N.Nərimanovun adını təsadüfi xatırlamadım. Xronikalardan məlum olduğuna görə, onun MK-ya sonuncu məktublarının məzmununda belə cümlələr varmış. *"Mənim Bakıya qayıdıb publisistik fəaliyyətlə məşğul olmağıma icazə verməyinizi xahiş edirəm"*. Əlbəttə, bu cümlənin arxasında N.Nərimanovun nə mənəvi gücü, o cümlədən, nə də böyük yazıçılığı, dramaturqluğu inkar olunmurdu. Amma məsələ burasındadır ki, N.Nərimanov onu oxuyan, başa düşən, duyan insanların arasına can atırdı. Bax bu mənada mən də Azərbaycanın mənəvi dəyərlərini özündə ehtiva eləmiş olan beş-üç ziyalısından birinə məktub yazmağı qərarlaşdıra bildim. Ən azı ona görə ki, onun ziyalılığına inanıram. İnanıram ki, o, aldığı məktubu axıracan oxuya bilmək əzmindədir. Sovet dövründə SSRİ kinematoqrafının yaratdığı *"Azadlıq"* filmindən bir epizodu xatırlatmaq istəyərdim. Çörçill

Stalinə məktub göndərir. Məktub sovet dövlətinin başçısına təqdim olunur. Əlbəttə, rəsmi şəkildə Stalin məktubu açır, məktubun içərisindən iri bir portret - Çörçilin şəkli çıxır. Qərbin böyük siyasət adamının imzaladığı portreti Stalin - SSRİ xalqlarının tiranı laqeydliklə süzüb, kənara atır. Zənnimcə, bu sadəcə bir tiranın digər bir ölkənin analoq olaraq başçısına münasibət deyil. Bu, sadəcə insani dəyərlərə, münasibətə, ülvi duyğulara laqeyd münasibətdir. Bəlkə də, həmin məktubla - həmin portretlə bir siyasi lider ikincisinə daha sıx dostluq münasibəti təklif edirdi. Söz yox, siyasətdə dostluğun mahiyyəti həyatda ən yaxın, ülvi, təmiz mənəvi əlaqələrdə olan insanelərın dostluğundan çox fərqli olar.

Hörmətli Hamlet müəllim, bu mənada hesab edirəm ki, siz də N.Nərimanovun təbirincə desək, şairliyinə, naşirliyinə, yazıçılığına güvənməyən bir publisistin sizə ünvanlanmış olan məktubunu axıradək oxumaq imkanınız olacaq. Mənim, konkret olaraq bu məktubu imzalayan şəxsin yəni Əli Rza Xələflinin *"Həsrət körpüsü"* şeirlər və poemalar kitabını Azərbaycan ədəbiyyatının ən görkəmli, ən müxtəlif söz sahibi olan tənqidçi və ədəbiyyatşünasları - akademik Bəkir Nəbiyev, professor Abbas Hacıyev, professor Nizaməddin Şəmsizadə, professor Əzizxan Tanrıverdiyev, professor Təyyar Salamoğlu, Azərbaycanın digər görkəmli alimləri - Qurban Bayramov, Mahmud Allahmanlı... və başqaları ədəbiyyatımızın tarixində yüz illər boyu yaşayacaq ədəbi nümunələr sırasında olacağını qeyd ediblər. Əzizim, qətiyyən elə düşünmə ki, məqsədim özümü təqdim etməkdir. Yalnız məqsədim ondan ibarətdir ki, Sizin telefon açmanızda bircə cümlə bəs elədi ki, mənim şair Hamlet İsaxanlının ədəbi yaradıcılığı ilə bağlı düşüncələrimi qələmə almaqda yönümü ədəbi janr baxımından istiqamətimi dəyişim. Əgər yadınızdadırsa, həmin telefon zəngində belə bir cümlə işlətdiniz - *"Şair şairin dilini daşa yaxşı bilir"*. Sözün həqiqi mənasında əgər desəm ki, mən bu dünyada yalnız bircə dil bilirəm, o da poeziya dilidir, onda yalnız bircə adam məndən inciyə bilər. O da mənim anamdır. Axı poeziyanın dilindən əvvəl mən anamın dilini daha yaxşı bilirəm. Və düşünürəm ki, siz səhv etməmisiniz. Mənim kimi dünya dillərindən kasad olan sıravi bir publisist əgər şairin dilini bilirəmsə, demək, ondan əvvəl anamın dilini daha yaxşı bilirəm.

Əzizim Hamlet müəllim, sizin zəngin yaradıcılığınız, hətta *"Təzadlar"* (2001), *"Bu da bir həyatdı"* (2004), *"Dördlüklər"* (2007), *"Ziyarət"* (2009) adı altında çap olunan kitablarınız bəs eləyir ki, biz Azərbaycanın ədəbi-mə-

nəvi tarixində yeri olan, yeri görünən poetik sözü ilə özünü diktə edən bir sənətkar haqqında danışa bilək. Bax söhbət məhz bu yöndə anlaşmadan gedir. Yəni mən ayrı-ayrı misraları oxuduqca sizin insan hisslərinin rəngarəng xəritəsində ən ecazkar, bəlkə də, ekzotik ərazilər zonası olaraq təsvir elədiyiniz məqamları gözümün önünə gətirirəm və həmin anlarda düşünürəm ki, insan hisslərinin bu qeyri-adiliklərini ancaq şair görə bilər.

Söz qardaşım, doğrusu, Hamlet müəllim, bu ifadə də mənə əzizim, Nəriman Həsənzadədən yadigar qalıb. Artıq basmaqəlib təbiətdə görünən "*qələm dostum*" ifadəsini N.Həsənzadə *"söz qardaşım"* şəklində ifadə etmişdir. O, bizim evimizin, ailəmizin dostudur. Atamın da qonağı olub. Ruhi etibarilə atalıq mahiyyəti kəsb eləyən bir insandır. Əlbəttə, onun özünün atalıq mərtəbəsi elə şairliyi və sənəti ilə bir sözlə, poeziyası ilə daha böyük əlçatmazlıq mərtəbəsi kəsb edir. O, mənim atama deyəndə ki, *"Əli Rza mənim söz qardaşımdır"*, mən bundan fəxarət duymuşdum. Yəni bu mənada mən hiss edirəm ki, Hamlet İsaxanlı həm də mənim söz qardaşımdır. Axı Azərbaycan mənəvi mühitində qan qardaşı, süd qardaşı, siğə qardaşı... kimi ifadələr var. Zənnimcə, yazılarımda əvvəllər də qeyd etdiyim Əli ibn Əbu Talibin *"ruhu mənə doğma olan babamdan daha yaxın qohumdur"* ifadəsi söz qardaşım mahiyyətinə daha çox uyğun gəlir. Əgər biz söz qardaşıyıqsa, onda gərək bizim aramızda kifayət qədər ərkyana, açıq-aşkar münasibət olsun. Uşaqlıq yaddaşımdan, orta məktəb illərindən çox qəribə bir görüntü elə indicə, bu məqamda başını qaldırdı. Və özünü göstərib yada salmağı özünün məhzun, uşaqlıq duyğuları ilə məndən istədi. Sinfimizdə çoxlu şüarlar var idi. Və qara rəngli hərflərlə yazılmış belə bir cümlə də sinif otağının görkəmli yerindən asılmışdı: *"Müəyyən dərəcədə şair olmayan riyaziyyatçı, əsl riyaziyyatçı ola bilməz"* imza da göstərilmişdi: *"Veyerştrass"*. İndiyədək hər dəfə yadıma düşəndə, bəlkə də poetik təfəkkürü olan hər hansı riyaziyyatçı ilə qarşılaşanda həmin müdrik kəlamın mahiyyətinə təkrar-təkrar varmağa çalışıram. Nəyə görə Veyerştrass müəyyən dərəcədə şair olmayan şəxsi riyaziyyatçı hesab etmir? Və üstəlik hələ bir daha təkrar edir ki, *"əsl riyaziyyatçı ola bilməz"*. Yalnız Hamlet İsaxanlı dünyası ilə tanış olandan sonra bilirəm ki, bu, nə deməkdir? Hətta Hamlet İsaxanlı bütün yaradıcılığı boyu bircə misra da olsun şeir yazmasaydı belə, onu yenə də müasirləri elə şair hesab edəcəkdilər. Ona görə ki, Hamlet İsaxanlı riyaziyyata gətirdiyi bütün yenilikləri ilə dünyanın elmi mərkəzlərində qəbul olunan riyazi mühakimələri ilə

özünün ilhamına söykənir. İlham isə yalnız və yalnız şairlik təbiətinə mənsubdur. Mənim zənnimcə, şairliyin, ruhi-mənəvi qida mənbəyi olaraq poetik aləmin bircə düsturu var. O düstur insanı bütövlik kompleksində görməkdir, daha doğrusu, görmək istəyidir. Şairlik əslində, bəxtəvərlik deyil, şairlik faciədir. Cəmiyyətdən gələn zərbələri özünün ruhuna, mənəvi aləminə qəbul etməkdir. Yalnız mənəvi dünyasından başqaları tərəfindən görünməyən qanların axmağını görə bilən bu qanların - o qanların axdığı yaraların açdığı şırımlardan gələn sızıltıların səsini dinləyə bilən adam şairdir və yalnız o, özünün aləmində ola bilər. Yalnız o kəs özünə sual vermək gücündədir, özünü ittiham etmək gücündədir. O, tək olmaq istəyəndə də, təzadlar arasında qalanda da, insan duyğularının mənəvi mehrabını ziyarət edəndə də nə qədər düsturlarla, nə qədər qanunauyğunluqlarla düşünürsə, bir o qədər də ruhlarla sirdaş ola bilir, bir o qədər də ilhamın qanadlarında uça bilir, bir o qədər də sözü, fikirləri ilə qanadlana bilir. Azərbaycanın fəlsəfi fikrində XX əsrin ikinci yarısına mənəvi gəncliyin mənəvi dünyası üçün ruhi-mənəvi qida mənbəyi olan yaradıcılığı ilə sevilən bir filosofumuz var. O, sovet ideologiyasından fərqli olaraq ruhu bizə qaytaran filosofdur. Yalnız onun təbirindən sonra biz dərk elədik ki, ruh heç də bizdən kənarda deyil. Bu, fəlsəfə elmləri doktoru, professor Camal Mustafayevdir. O, Hamleti də yaxşı tanıyır, onun yaradıcılığına da yaxşı bələddir. Əzizim, burada birinci şəxs müraciətindən çıxıb üçüncü şəxs ünvanı ilə danışmağım sənə qəribə gəlməsin. Axı biz üzbəüz sözümüzü deyə bilməyəndə üçüncü şəxsə müraciət edirik. Qoy Hamlet İsaxanlı da üzbəüz mənim sözümü yox, mənəvi fikrimizin atası olan müdrik bir kişinin, Azərbaycan mənəviyyatının atası olan bir varlığın fikrini, hökmlərini dinləsin:

> "Ancaq poeziyanın tapındığı məhəbbət geniş növlü bir anlamdır. Gəncliyin eşq aləminin hüdudlarına adlayan sonsuz çeşidli dünyadır. Təbiətə heyranlıqdan başlamış İlahi eşqə qədər tutumu var. Onun mənası əzəldən mövcudluğu vəhdətini yaşatmaqla bağlı olub. Valideyn - övlad, xüsusən ana - övlad, məhəbbəti bu anlamı şərtləndirən əsas başlanğıclar sırasındadır. Ana mövzusu, təbii olaraq, bədii sənətdə yüksəkdə durur. Həyat axarının qaynağı olan, müqəddəs qayəli ana varlığı! Hər ananın öz taleyi, ömrünün öz dünyası var"[1].

---

[1] Hamlet İsaxanlı. "Təzadlar". Xəzər Universitəsi nəşriyyatı. Bakı , 2001, s.14.

Professor sənin yaradıcılığını kifayət ədər dərk edən, duyan, ardıcıl izləyən oxuculardandır. Əslinə qalsa, sənin yaradıcılığında, daha dəqiq desək, Hamlet İsaxanlı poeziyasında ən qabarıq obrazları görən, duyan və onu özünün xarakterik cizgiləri ilə fəlsəfi ümumiləşdirmə süzgəcindən keçirərək daha geniş oxucu aləminə təqdim edən də elə odur:

> "Bu nəcib mövzunun Hamlet İsaxanlı "Susma, danış, ay ana!" şeirində həssalıqla canlandırıb. Burda yaradılan ana surəti dərin kövrək duyğulardan yoğrulub. Ömrün ixtiyarlığını yaşayan, zaman yorğunluğundan acizləşən, mərhəmət dolu ehtiram oyadan ana surəti! Nədən daim bu ağbirçək dərin fikirlərə dalan görünür? Nədən sükuta qərq olmaq deyib – danışmaqdan ona üstündür? Bəlkə, xəyal dünyasında ipə-sapa düzür ömür yükünü?
>
> Baxışların nə məhzun...
> Keçmişəmi baxırsan,
> Sabahımı görürsən ay ana,
> Cansız barmaqlarınla
> Fikir - zikir tellərindən
> Nə hörürsən, ay ana?
> De, baxırsan hayana?
> De, gözlərin yol çəkir
> Nə uzun?
> Baxışların nə məhzun?
>
> Belə qayğılı suallar, həzin hisslər "Susma, danış, ay ana!" şeirində hakim motivdir. İxtiyar ana ruhunu oxşamaq, səsini, təbəssümünü duymaq mənəvi ehtiyac kimi təcəssüm edilib. Ana taleyi, müqəddəs övlad borcu xüsusunda düşündürür oxucunu.
>
> Hamlet İsaxanlı poeziyası, sadəcə, bədii zövqü oxşamaqla məhdudlaşmır"[1].

Professor təsadüfi olaraq *"Susma, danış, ay ana"* şeirini tədqiqat obyekti seçmir. O, bu şeirlə demək istəyir ki, H.İsaxanlı ruhların dili ilə danışa bilir. Axı insanın müəyyən yaşından sonra onun anası istər əbədiyyətə qovuşmuş olsun, istərsə də, həyatının ixtiyar çağında olsun, fərqi yoxdur - ruhun təmsilçisidir. Ona görə də professor Caval Mustafayev H.İsaxanlının poe-

---

[1] Hamlet İsaxanlı."Təzadlar". Xəzər Universitəsi nəşriyyatı. Bakı , 2001, s.15.

ziyasında anna obrazına münasibəti ruha münasibət kimi və bu yöndə onun estetik baxışları kimi şərh edir:

> "Onda estetiklik canlı fikirlə vəhdətdə poetik əksini tapır. "Söz fikirlə canlananda mövcud varlığa çevrilir", - Hegelin bu kəlamını burda demək münasibdir. Bu, təzadlı gerçəkliyin batini mahiyyətinə varmaq niyyətindən doğur. Düşünən "Mən" dünya gedişatından məna çıxarmağa ehtiyac duyur. İnsan-dünya nisbətini düşünmək şeirdə, sənətə daimi mövzudur. Hamlet İsaxanlı eyni mövzunu müxtəlif əhval - ruhla canlandırıb. Bəzi şeirlərində mənəvi "Məni" zahiri təzadlara qarşı qoyur.
>
> Özü üçün sağlam istinadgahı öz ruhuna mərkəzləşməkdə görür. Yaradıcı yalnızlıqda aradığı gerçəkliyə məhrəm arzu kimi baxır. "Tək qalmaq istəyirəm" şeiri bizi düşündürməyə bilməz:
>
> ...Təklik -
> Fikrimin süsləndiyi
> Ən uca yüksəklik.
> Təklik -
> Xəyalımın bəsləndiyi
> Ən xoş gerçəklik.
>
> Təklik, sakitlik istəyi zahiri mövcudluğun aldadıcı görüntülərindən təcrid olub yaradan ruha sığınmaqdır. Yaradıcı öz "Məni"nə dönəndə ilhamı uçmağaənginlik tapır. Gerçəkliyin səthində - təsadüflər qarışıqlığında ilham, xəyal qanadlana bilməz. Ruhun həyatına dönmək dünya müəmmalarını içəridən dərk etməkdir. İdealla gerçəklik arasında ziddiyyət kəskin hiss edilir. Poeziya bu ziddiyyəti daha bariz şəkildə əks edir. O cümlədən, poetik fikrimizdə ənənəvi olan "Dünya" şeirləri. Hamlet İsaxanlı bu ənənəni öz fərdiliyinə uyğun yaşayıb. "Dünya", "Dumanlı dünya", "Baş açmadım bu dünyadan" şeirlərindən bunu aydın görmək olar. Birincidə romantik bir əhval – ruhla dünyadan söhbət açır. Onun düşüncələrində həyatın gözəlliyinə heyranlıq ahəngi açıq duyulur"[1].

Ümumiyyətlə, insanın yerlə, göylə əlləşməsi insanın daxili-mənəvi aləminin təlatümləri içərisində olması başqa nə cür görünə bilər? Zahirən sakit,

[1] Hamlet İsaxanlı. "Təzadlar". Xəzər Universitəsi nəşriyyatı. Bakı , 2001, s.16.

hüznlü, bir qədər də məhzun, kədəri daha çox hiss olunan insan o deməkdirmi ki, o gücsüzdür. Onun mənəvi sərhədləri çox məhduddur. Xeyr, ən azı Hamletin poeziyasında professorun qeyd elədiyi kimi, dünya ilə üzbəüz danışmağa cəsarət edən bir şair obrazı, bir şair mənliyi var. Lap elə yeri gələndə o, qeyri-adi bir varlıq olaraq, bəlkə də, ruh olaraq insandan kənar fövqəl qüvvələrlə danışa bilir. Lap elə bu dünya adlanan cəng meydanında insanın hisslərinə, arzularına, duyğularına qarşı durmuş olan dünyanın özü ilə üzbəüz danışmaq gücü və qüdrəti var Hamletin şeirlərində. Onun cəsarəti dəlibaşlıq cəsarəti deyil. Sıravi bir insanın özünə, daxili-mənəvi dünyasına inanan insanın cəsarətidir. Əslində, professor Camal Mustafayevin, bizim gəncliyimizin mənəvi memarı olan Camal Mustafayevin ruhunu dilləndirən də Hamlet İsaxanlının şeirlərindən gələn həzin musiqi səslərinin, ruh ladlarının əks-sədasıdır:

"Həyata inam, sevgi, ümid dolu nəşəli hisslər yaşanır:

Ümid xəfif olsa belə könüllərə şəfəq saçar,
Xoş əməllər bar gətirər, xoş niyyətlər çiçək açar.
İnsanları qanad verən sevgi adlı möcüzə var,
Nəhayətsiz eşq, ehtiras, duyğu çələngidi dünya.

Həyati başlanğıcları belə romantikləşdirmək ideal baxımdan irəli gəlir. Yaşamaq, mənalı ömür, əlbəttə, özü ən ali nemətdir. Ancaq bu qoca dünyada həyat zərurətdir, ölüm-qaçılmaz. Üstəlik, bütün varlığı sarsıdan qanlı savaşlar, dürlü faciələr:

...Sükunətin sinəsində rəqs eləyir vəlvələlər,
Ölüm-dirim davasıdı, aramsız cəngidi dünya.

Yaradılışın əksliyi - ölüm sonluğu, qırğınlar - kədər, əndişə doğurur:

...Qəlbimdəki təlatümlər müthiş həyəcan zəngidi,
Duysan lərzəyə düşərsən, gidi dünya, gidi dünya...

Ziddiyyətli gerçəkliyə münasibət özlüyündə mühəqqəq tənqidi fikrə gətirir. Bu tənqidin biçimləri, şübhəsiz, çeşidli olur, xüsusilə şeirdə.

Bunu Hamlet İsaxanlı poeziyasında maraqla müşahidə etmək olur. Ictimai mövcudluqda müxtəlif fənalıqların fəallığı onu narahat edir. Həyata inamla birgə şübhəçilik çalarları daşıyan düşüncələrə qapılır:

...Haqqa sığınan döyülür,
Haqqı tapdayan öyülür,
Düz söz söyləyən söyülür,
Başa keçir yalan, nadan,
Baş açmadım bu dünyadan.

Gəl, ey həyat, həmdəmimsən,
Həm qəmimsən, həm dəmimsən,
Çox düşündüm, nəsən, kimsən?
Əl çəkmədim bu xülyadan,
Baş açmadım bu dünyadan

Hüseyn Cavidin söylədiyi kimi: "Şübhədir hər həqiqətin anası, Şübhədir əhli - hikmətin babası... " Gətirilən çətirlərdə şübhəçilik çalarları idrakdan əl çəkmək deyil, həqiqət anlamı sövq edir"[1].

Sən niyə tək qalmaq istəyirsən? Nəyə görə sən *"Təzadlar"* arasındasan? Sən həqiqətən *"Ziyarət"*dən sonra özünü belə rahat, təmin olunmuş hesab edə bilirsənmi? İndi özün de, "Bu da bir həyatdı" demək, nə dərəcədə caizdir? Özü də söhbət rəhmətlik N.Nərimanovun dediyi kimi, - indi açıq danışmağın vaxtıdır - Azərbaycanın görkəmli alimindən, Azərbaycanın təhsil sistemində kifayət qədər nüfuzu və yeri olan təhsil təşkilatçısından, böyük riyaziyyatçı alimdən gedir. İndi o, necə bilir, bütün bunlar mənəvi sıxıntıdan çıxmaq üçün, ümumiyyətlə, insanın mənəvi havası üçün rütbələrin, maddi təminatların, adların, sanların köməyi varmı? Əzizim, Hamlet müəllim, əgər belə olsaydı, siz bircə misra da olsun şeir yaza bilməzdiniz. Özü də insan hisslərinin, insan duyğularının tərcümanı olan, orijinal, təkrarolunmaz münasibət çalarlarının rənglərini özündə daşıyan şeirləri başqa cür necə yazmaq olardı. Bütün bunların hamısı onu göstərir ki, birinci növbədə, insan daxili aləmində qurulmuş olan mənəvi mühakimənin qabağındadır və ona cavab verməlidir. Bax o lirik şeirləri, o bənzərsiz duyğuları qələmə almağın səbəbi budur. O mühakimənin qabağında dayana bilmək, o suallara cavab verə

[1] Hamlet İsaxanlı."Təzadlar". Xəzər Universitəsi nəşriyyatı. Bakı , 2001, s.17.

bilmək ali insanlıq məqamıdır. Ümumiyyətlə, insan olmadan insana aid olan suala cavab vermək, ali insan olmadan ali duyğuların gətirdiyi suala cavab vermək mümkün olan şey deyil.

İnciməsən bir-iki kəlmə də sənin lirik duyğularına ünvan tutardım. Söz qardaşım, inan ki, hələ də elə bilirəm sənin o səmimiyyətlə, o təbiiliklə qələmə aldığın duyğuları poetik yaddaşa çevirməyin bir çoxlarının diqqətini cəlb etməyib. Yoxsa, min illərdən bəri hələ də sirli-sehirli qalan sevginin, məhəbbətin elə görünməyən tərəfləri açıqlana bilərdi ki, insanlar əzablardan, mənəvi iztirablardan bir qədər yüngülləşmiş olardılar. Axı mən keçən dəfə də demişdim. Demişdim ki, sənin bütün yaradıcılığın, bütün mənəvi dünyan bircə amala xidmət edir. Bu dünyaya bircə çimdik, bircə misqal, bircə ovuc gözəllik gətirməyə, bir *"bukvoyet"* birdən irad tuta bilər gözəlliyin ovucla ifadəsinə. Qoy nə istəyir desin. Mən Azərbaycan ədəbiyyatının o şairləri ilə fəxr edirəm ki, onlar özləri də bilmədən mənəvi dünyamıza bircə çimdik duz qədərində olan mənəvi saflıq gətirir və bu azlıqda olan saflığı gətirməklərilə heç qürurlanmırlar. Halbuki onların qürurlanmağa haqqı var. Elə biri də sənin özün. Əsərləri Rusiyada, Çində, Yaponiyada, İranda, Gürcüstanda... tərcümə olunub yayılan bir sənətkarın ədəbi iddiasının qabağına kimin nə sözü ola bilər? Bir sözlə, biz müasirlərimizi görsək də, görməsək də, tanısaq da, tanımasaq da onların gücü yeni yaranan nəslin simasında daha çox görünür. Və bu yöndə tale sənə daha böyük imkan bəxş edib. Təsis elədiyin dünya məktəbində - qeyd etmək yerinə düşər, bu məktəbdə Azərbaycan gəncliyinin mənən zəngin olan bazası formalaşır - o məktəbdə ki, orada gəncliyin daha ali və saf duyğularla formalaşması üçün sənin ideyaların qaynaqdır, ən başlıcası, rektor olduğun Xəzər Universitetində dünya səviyyəsində dura biləcək gənclik və üstəlik milli-mənəvi köklər üstə göyərə bilən bir gənclik, bitə bilən bir gənclik formalaşır. Bütün bu yeni nəslin böyük bir stixiyası özünün mənəvi dünyasında Hamlet İsaxanlı adında poetik bir obraz formalaşdırır. Zənnimcə, bu, bir çox dərsliklərdən basmaqəlib stereotip - şablon öyrətmənlərindən daha kəsərlidir. İndi necə bilirsən, kitab-dəftərini qoltuğuna vurub çayxanalarda özünü *"ədəbi mühit"* hesab edən dəllallara şeir oxumaq yaxşıdır, yoxsa, başını aşağı salıb ali məqsədlər uğrunda mübarizəni aparmaq və yeri gəldikcə ruhi-mənəvi aləmin diktəsi ilə aliməqam vəhyləri qələmə almaq yaxşıdır? Elə bilirəm, bu barədə dünya elminin tanınmış nümayəndələrindən birinə - Hamlet İsaxanlıya məsləhət vermək yersiz olardı.

Mən özümü az məlumatsız oxucu hesab etmirəm. Ən azı ona görə ki, özümü ən çətin oxunan materialı da diqqətlə nəzərdən keçirməyə vadar edə bilirəm. İndi sənin yox, Hamletin şeirləri haqqında danışmalı olsam, onu deməliyəm ki, bu şeirlərdə insan hisslərinin *"bit-bit"* ifadəsini görürəm. Əzizim Hamlet müəllim, bizim tərəflərdə - mən qarabağlıyam. Cəbrayıl rayonunun Xələfli kəndində doğulmuşam, Xudafərin üstə böyümüşəm. Mənim mənəvi dünyamdakı harmoniyanın mahiyyəti, zənnimcə, sizə aydın olar. Əgər az-çox mətbuatda dərc olunan, radio-televiziya verilişlərində səslənən şeirlərimdəki Vətən yanğısının haradan qaynaqlandığını kifayət qədər təsəvvür etmək olar - hər hansı bir əhvalatı olduğu kimi yadında saxlayıb təkrar eləyən adama *"o, heç nəyi yaddan çıxatmayıb, bit-bit təkrar eləyə bilir"*, - deyirlər. Qədim türklər hərfə *"bit"* deyirdilər: *"Heroqliflərdən sonra türklər samit və saitdən ibarət yeni yazılar yaratdılar. Onlar hərfə "bit" deyərdilər. Bunların ən möhtəşəm nümunəsi Orxon-Yenisey yazılarıdır"*[1]. Olub-keçənləri *"bitcə-bitcə"* təkrar eləmək əslində, yaddaşı qorumaq mahiyyəti daşıyır. Qədim türk qranit daşların üstünə *"bitik"*ləri yazanda sövq-təbii ilə bu hissə xidmət etmişdi. İndi düşünürəm ki, söz adamları hissləri, duyğuları *"bit-bit"* yazmaq missiyasını unudub. Öz hisslərinin ambisiyalarına qapanırlar. Amma Hamlet İsaxanlının şeirlərində nadir insan hisslərini və duyğularını ifadə edən poetik deyimlərdə *"bit-bit"* gəzişmə imkanı görünür. Bu, nadir insan hisslərinin qorunma instinktidir. Bəlkə də, nadir insan hisslərinin ayrı-ayrı sənətkarların qələmində təzahür edən həyat uğrunda mübarizə gücüdür. Zənnimcə, Hamlet İsaxanlı poeziya tarixində nadir hisslərin ifadəsinə görə, yaşamaq haqqını qoruyub saxlaya biləcək. Böyük riyaziyyatçı olmaqdan, böyük pedaqoq olmaqdan tərcüməçi olmaqdan, dost olmaqdan əvvəl o, həm də gözəl şairdir. Yəqin ki, şair olmadan, əsl şair olmadan bütün bunların heç birisi, əslində, mümkün ola bilməzdi. Və yalnız bu zaman inandım ki, Hamlet İsaxanlı Veyerştrassın dediyi həmin ikinci dəfə təkrar elədiyi birinci riyaziyyatçıdan yox, ikinci riyaziyyatçıdandır, yəni əsl riyaziyyatçıdandır.

...Yalnız indi özümdə güc tapdım. İnandım ki, sənin adına - sizin yox! - məktub yazmaq səlahiyyəti mənə də qismət ola bilər.

...İnsanlar da planetlər kimi bir-birinin haləsindədir. Mən də özümü bu cazibə məkanında görürəm.

---

[1] Həsən Əzizoğlu."Türklüyümüz". AzAtaM nəşriyyatı. Bakı, 2007, s.89.

Ola bilsin ki, əziz dostum, səni məndən də daha yaxın tanıyanlar ola bilər. Mən belələrini sənin indiki həyatının bölümünü əhatə edən kübar aləmlə bağlaya bilmərəm. Və bir daha inanıram, əlbəttə, səni məndən yaxşı tanıyanlar ola bilər. Amma şeirlərində, yaradıcılığında həsrətlə xatırladığın, gəncliyini qoyub gəldiyin, uşaqlığını qoyub gəldiyin o uzaq kənddə, bir arx kənarında, bir çay qırağında, bir cığır üstündə ayaqyalın gəzib-dolaşan bir uşaq var. Bəli, o uşaq səni məndən daha yaxşı tanıya bilər.

...Və bir daha inandım, sənin bu dünyaya sözün qədər gözəllik gətirməyinə.

***Əli Rza XƏLƏFLİ***
***20.05.2010***

# Hamlet İsaxanlı və onun "ziyarət"i

*"Xəzər Xəbər"* jurnalında (2010) Dədə Camalın - fəlsəfə elmləri doktoru, professor Camal Mustafayevin Hamlet İsaxanlının *"Ziyarət"* poeması haqqında *"Ata ocağı"* sərlövhəli essesi xüsusi maraq doğurur. Əgər maraq doğurursa, biz öz sözümüzü də deməyə özümüzdə güc tapmalıyıq. Əlbəttə, həm *"Ziyarət"* əsərinin müəllifinə hörmət, həm də *"Ata ocağı"* adı ilə bu əsər haqqında fikir deyən görkəmli filosof Dədə Camala ehtiramla.

Hamlet İsaxanlının *"Ziyarət"* əsəri (2009) nəşr olunub. Bu əsərin - əslində, əsərin yox, bu kitabın mahiyyəti tarixi yaddaşın ziyarəti mahiyyətini daşıyır. H.İsaxanlının indiyə qədər nəşr olunmuş kitablarından fərqli olaraq *"Ziyarət"*də biz həm də müəllifin çox dəqiq, aydın cizgilərlə obrazını görə bilirik. Çünki *"Təzadlar"*da və digər kitablarında H.İsaxanlı *"lirik mən"* kimi görünürdü. Amma *"Ziyarət"*də, həm də avtobioqrafik xarakter hiss olunur. Biz onun real şəxsiyyətini, mənəvi simasını tam müşahidə edirik. Və ən başlıcası, müqayisə aparmaq imkanımız da olur. Biz onun mənəvi potensialının, ruhunun fonunda həyat gerçəkliklərini və bu gerçəkliklərin ziddiyyətlərini də görürük. Ümumiyyətlə, *"Ziyarət"* özünü dərketmə kitabıdır. *"Ziyarət"*in timsalında mənəvi ziyarətlə yanaşı, həm də bu ziyarətin doğma yurdla bağlı müqəddəsliyini, dini-mənəvi-ideoloji aspektlərini də dərk etmək mümkün olur.

Ümumiyyətlə, *"Ziyarət"* kitabının məziyyətləri haqqında çox geniş danışmaq olar. Və elə bu qeydləri də geniş danışmağın girişi hesab etmək olar. Ən başlıcası, şair-publisist və Azərbaycanın görkəmli elm xadimi Hamlet İsaxanlının manifest olaraq *"Ziyarət"* kitabının əvvəlində, öz şəklinin altında verdiyi bu sözləri unutmamaq şərti ilə:

"Kitaba heca, hecalı sərbəst və ya ritmik sərbəst, həmçinin digər vəznlərdə yazılmış, qəmli və sevinc dolu, fəlsəfi və sadəcə xoş əhval yaradan müxtəlif şeirlər daxildir. Epik-lirik "Ziyarət" poeması şairin öz uşaqlığına, doğulduğu kəndə səyahəti ilə, yaxın və uzaq keçmiş haqqında mülahizələri ilə bağlıdır".[1]

Bütün insani mahiyyətə uyğun olaraq ziyarət hər birimizin ruhunda, mənəvi dünyasında vaxtilə gördüklərimizə, yaşadıqlarımıza yenidən qovuşmaq cəhdi, ovqatıdır. Bizim hər birimiz arzulayırıq ki, son məqamda olsa belə, bir ziyarət ocağı olaraq qəlbimizdə tutduğumuz məkanı sonuncu dəfə olsa belə, ziyarət edək, onun ətrafını axırıncı dəfə olsa belə görək, həmin məkanın bizim ruhi-mənəvi dünyamızdakı əks-sədasını yalnız səs və səda kimi yox, həm də həyatımızın mənası kimi dərk edək.

Ümumiyyətlə, ziyarət nədir? Ziyarətin doğurduğu mənəvi-estetik mahiyyət nədən ibarətdir? Biz bu yöndə indiyə qədər düşünmüşükmü? Ziyarət elə bir mənəvi anlamdır ki, burda şəxsin daxili-mənəvi mühitində müqəddəs hesab elədiyi ən böyük kriteriyalar, ölçülər əsas götürülür. Bu baxımdan yanaşdıqda hər şeydən əvvəl hər bir adamın ürəyində daşıdığı, öz gizlinində saxladığı bir ziyarət yeri var. Bu ziyarət yeri bizim hər birimizin yox, yalnız o ziyarət yerinin gücünü bilən adamların düşüncələrinə uyğun olaraq, onların fikir və mülahizələrinə uyğun olaraq qiymətlidir.

H.İsaxanlı kimdir? Bu suala axıradək cavab vermək yəqin ki, müasirlərimiz üçün olduqca çətin olacaq. Buna görə də onun şəxsiyyətindən, bir müəllif olaraq yaradıcılıq dünyasından, ən başlıcası, onun elmi-bədii yaradıcılığından danışmaq məsuliyyət ədəbi-elmi cəsarət tələb edir.

Ümumiyyətlə, H.İsaxanlının ictimai-fəlsəfi görüşlərini, insani məhəbbət duyğularını əks etdirən poetik örnəklərində biz onun həm fiziki, həm də mənəvi gücü ilə qarşılaşırıq.

Poeziya nədir? Ümumiyyətlə, bu suala konkret cavab vermək üçün dünyanın nəinki klassikləri, lap elə, burnumuzun ucunda olan müasirlərimiz belə fikir döyüşlərinə çıxıblar. Doğrudan da, poeziyanı yalnız peşəkarlıqla yaratmaq olar, yoxsa, ilhamın və təbin, səmimiyyətin və romantik duyğuların təhrikiylə?

H.İsaxanlının *"Ziyarət"* kitabında dərc olunmuş ***"qaramtil işiq"*** sərlövhəli bir şeiri var. İlk baxışdan işıqla qaramtıllıq ziddiyyət təşkil edir. Bu

[1] Hamlet İsaxanlı. " Ziyarət". Xəzər Universitəsi nəşriyyatı. Bakı , 2009.

tərəflərin bir-birilə yoldaşlıq etməsi qeyri-mümkün hesab olunur. Ancaq həm insanın düşüncəsində, mənəvi aləmində, həm də zahiri görkəmində işıqla qaranlığın döyüşdüyü məqamlar olur. Məsələn, olur ki, biz kimisə qarasaç hesab edirik. Ancaq başqaları onun saçlarına baxıb: *"Çoxdan çallaşıb, saçı ağarıb"*, - deyir. Bu düşüncə, bu anlam insanın mənəvi aləminə də şamil oluna bilər. Şair də insandır və onun daxili-mənəvi dünyasında belə ziddiyyətlər, belə qaramtıllıq - işıq kimi, belə işıq - qaramtıllıq kimi təzahür edə bilər. Ümumiyyətlə, sənət ziddiyyətin, təzadın övladıdır desək, səhv etmərik. Bəlkə, qaramtıl işığın sayrışan kölgələrində, buludlu axşamlarında başını bulayan qəmli qərənfilin özünəməxsus dildə pıçıltılarını dinləyək:

Saçımda meh gəzir, ayağımda şeh
Xəyalım sevdalı, əməlim saleh
İçdiyim su Zəm-zəm,
Şair ruhum dəm...
Duyan varmı görən?
Varsa - xeyli kəm...
Düşünürəm hərdən: meydanda təkəm
Mənə soyuqdur
Ölmüşəm, ortadan götürən yoxdur.
Gül təzə açmışdı, tezcə də soldu,
Sərin meh, büllur şeh sanki yox oldu...
Göy çəmənə xəstə bir kölgə qondu,
Soyuq yellər əsdi can otağımda.
Meh saçımda dondu,
Şeh ayağımda.

Səma buludludur,
İşıq qaramtıl.
Sürünə-sürünə əriyir kölgəm,
Başını bulayır qəmli qərənfil...

Təsadüfi deyil ki, biz burada şairlə, daha doğrusu, lirik mənlə başını bulayan qəmli qərənfilin obrazını bir-birinə qovuşmuş halda, onları bir ruhda, bir canda gördük. Biz bəzən şairin uğurunu tamam başqa-başqa məqamlarda axtarırıq. Bu qovuşmanın özü şairin tapıntısı və uğuru deyilmi?

* * *

Bizim ədəbi qəhrəmanımız və elə bugünkü mənəvi ədəbi mühitimizdə kifayət qədər yeri olan H.İsaxanlı etiraf edək ki, bir gözəl şair kimi artıq özünütəsdiqə nail olmuşdur.

Ümumiyyətlə, tarixən görmüşük, inanmışıq ki, şair stereotip - şablon adamı deyil. Şairin sözün həqiqi mənasında, ona güc bəxş edən ilahi bir şəhpəri var. Və H.İsaxanlının da istər *"Təzadlar"*, istərsə də *"Ziyarət"* kitablarında bu ilahi şəhpərin gücünü hiss etməmək mümkün deyil. Ən başlıcası, ona görə ki, müəllif yaratdığı söz-sənət arenasında yaddaş mexanizminin gücünü qaytarmaq istəyir. Bu yaddaş mexanizmi nəyi qaytarmalıdır? Kənd idilliyası - əlbəttə, kəndi idealizə etmədən kəndin kənarındakı bulağın başına yığılan qızların şaqraq gülüşləri ilə müşayiət olunan axşam görüşləri, səhəngləri doldurub çiyinlərinə aşıran qızların təkəbbürlü, iddialı yerişləri... kənd, doğmalar, evlər, bulaqlar, cığırlar, ətrafı meşələrlə əhatə olunan xatirə yerləri - bütün bunların hamısı bizim bugünkü mənəvi dünyamızda axtardığımız həsrətlərin son ucları deyilmi? Gəlin, həqiqətə tapınaq, H.İsaxanlı *"Ziyarət"* kitabı ilə bizi hara çağırır? Doğrudanmı Məkkəyə, Mədinəyə, Kərbəlaya çağırır? Mən qətiyyən mənəvi-dini, psixoloji durumda bu yolun əksinə deyiləm.

Amma sənətkar üçün, poetik ruhun hakimliyini duyan adam üçün ən böyük ziyarət yeri özünün dədə-baba yurdudur, xatirəsində canlanan bulaqdır. O yerə qayıtmaq, o yerin hiss və həyəcanlarını yaşamaq, əslində, ən böyük ziyarətdir. Bu gün Azərbaycan ədəbi-mənəvi mühitində fikir döyüşlərinə şərait yaratmaq üçün, yaxşı mənada fikir və düşüncələri çulğaşdırmaq üçün, qarşılaşdırmaq üçün ziyarət adı ən gözəl *"bəhanədir"*.

Həqiqətən də dünya, cəmiyyət, sənə həyatı bəxş edən ilkinlik, doğmalıq haqqında ən səmimi duyğularla necə danışmaq mümkün ola bilər? Yalnız o zaman mümkün ola bilər ki, sən bütün çətinlikləri, bütün mənəvi ziddiyyətləri özünün daxili dünyanda həzm edə biləsən. Ümumiyyətlə, ziyarətin mahiyyəti fikirdə və düşüncədə doğulduğun yerin, yurdun mənəvi dünyasını axıracan yaşamaq gücündədir. Budur dünyanın, budur ədəbi sözün mənəvi sərhədləri! Ümumiyyətlə, ziyarətin mənəvi mahiyyəti çox vaxt qədərincə anlaşılmır. Amma ən müqəddəs ziyarətlər çox vaxt özünün istək və arzulara uyğun olaraq missiyasını yerinə yetirib. Ən başlıcası, istər məkan baxımından, istər də mənəvi-psixoloji baxımdan ziyarət o vaxt kamil hesab olunur

ki, ziyarət edənin məmnunluğu duyulur. H.İsaxanlının *"Ziyarət"* poeması özünün siqlətinə görə, mənəvi əhatə dairəsinə görə tam əsas verir ki, bu əsər elə *"Ziyarət"* adlansın. Bizim mənəvi mühitimizdə mübahisələr, tərəddüdlü, ziddiyyətli görüşləri ilə toqquşan adamlar az deyil. Ancaq H.İsaxanlı Azərbaycanın görkəmli riyaziyyatçı alimidir, sözün həqiqi mənasında, böyük təhsil təşkilatçısıdır. Ümumiyyətlə, qabaqcıl pedaqoji fikir tarixi ilə kifayət qədər tanış olmayan adam belə bir universiteti yarada bilməzdi. Ona görə ki, universiteti yaratmaq, ona rəhbərlik etmək çox böyük risk və yüksək mənəvi potensial tələb edir. H.İsaxanlı isə təkcə şair olmaqdan başqa, XIX əsrin rus mənəvi mühitinin fəlsəfi mahiyyətini axıracan dərk etmiş, XIX-XX əsr Avropa və dünya ədəbi-mənəvi mühitinin təlqin elədiyi əsas ideyanı özünün yaradıcılığında, xüsusilə, poetik yaradıcılığında göstərən və təsdiq edən bir tədqiqatçıdır.

H.İsaxanlı istər tədqiqatlarında, istərsə də publisist düşüncələrində şairdir. Çünki o, hissləri ilə danışan müəllifdir. İstər *"Təzadlar"*, istərsə də *"Ziyarət"* kitablarında biz H.İsaxanlını özünün fərdi düşüncələri ilə cəmiyyətin mənəvi arenasını uyğunlaşdırmaq istəyən bir müəllif kimi görürük. H.İsaxanlının ən böyük uğuru və estetik tələbi bundan ibarətdir ki, o, cəmiyyəti özünün arzuladığı kimi görmək istəyir. Bu məsələdə onun bir sənətkar kimi, bədii cəhətdən ədəbi uğuru kimi, qiymətləndirə biləcəyimiz misraları ədəbiyyatın öhdəsinə düşür. Hər halda, H.İsaxanlı sağlam, estetik qayəsinə görə (Dədə Camal), sözün həqiqi mənasında fərqlənən və təqdiredici qiymətini almağa layiq olan bir sənətkardır. Ona görə ki, o, ürəyi ilə, qəlbi ilə tənha qalmağı bacarır. Dünyanın, həyatın şəxsin mənəvi aləminə təsir gücünü görə bilir. ***"Bu nə sevgi, nə fəlsəfə?"*** şeirinə diqqət edək:

Məğrur idim,
Əyilmirdim.
birdən-birə dizə gəldim.
Səni görmək istəmirdim,
Dözəmmədim,
Xəyalımda sizə gəldim.
Bu nə sevgi, nə fəlsəfə?
Sevməyənlər kef-damaqda.
Mənsə səni sevə-sevə
Gözə gəldim?!

O zaman ki
Düşdüm məhəbbət toruna -
Yadındamı hüzuruna
Bir qara saç təqdim etdim?!
Əvəzində sən nə etdin?
Saçlarıma dən gətirdin.

Vüqardan əyilməz idim,
İçimdəydi bütün dərdim.
Birdən-birə
Taqətdən düşdüm, əyildim,
Başıma duman gətirdin, çən gətirdin.
Vallah, billah,
Başqa səbəb görəmmirəm,
Məni dizə sən gətirdin.

Bu güc isə o qədər həssas, o qədər vüsətlidir ki, orada biz nəinki bir şairin dünyasını görə bilirik, eləcə də, ümumiyyətlə, şairlə həyatın, şairlə dünyanın arasındakı təzadı görə bilirik.

Dədə Camal - fəlsəfə elmləri doktoru, professor Camal Mustafayev H.İsaxanlının poetik örnəkləri ilə bahəm, *"Ziyarət"* poeması haqqında təsadüfi söz açmır. Onun danışmaq istədiyi, aşkarlamaq istədiyi mətləblər əslində, əsərin özündə bütövlüyü ilə görünür. Biz də bu yöndən Dədə Camalın mənəvi dünyasına hörmət əlaməti olaraq H.İsaxanlının poetik örnəklərini kifayət qədər qədərincə anlamağa çalışırıq. Və bu örnəklərdə səmimiyyəti duyuruq.

H.İsaxanlı, siz kimsiniz? İndi bu suala özünüz cavab verin. Elmlər doktoru, professor kimi, riyaziyyat elmləri üzrə görkəmli mütəxəssis kimi, şair kimi, təhsil təşkilatçısı kimi Siz Azərbaycanda məşhursunuz. Bizim qiymətləndirdiyimiz Sizin çox böyük mənəvi aləminiz, şairlik dünyanızdır. Əgər rəva bilsəniz, dünyanın bütün riyaziyyatçılarından və Azərbaycanın ən görkəmli pedaqoq alimlərindən təmənna edərdik ki, sizi bizdən almasınlar. Sadəcə, tərifsiz, titulsuz, sıravi bir qələm adamı olaraq Azərbaycanın iddiasız bir şairi olaraq sizi görək. Budur bizim istəyimiz.

Ancaq daha geniş planda cavab veriləsi suallar var: Dədə Camalı *"Ziyarət"*də müşayiət edən hansı duyğulardır? O, hansı hisslərin təsiri altında *"Ata ocağı"*na gəlib çıxır?.. Bu ziyarətin ata ocağında görünən və görünməyən hansı tərəfləri var?

H.İsaxanlının *"Ziyarət"* poeması bir çox ədəbi-bədii məziyyətləri ilə diqqəti cəlb edir. Ümumiyyətlə, yaddaşa qayıtmaq, yaddaş fenomeninin əsasında müəllifin tarixi-mənəvi gerçəkliyi sözə gətirmək, obrazlar yaratmaq ənənəsi tarixən mövcud olub. Biz bu ənənənin köklərini, izlərini qədim türk mənbələrində, *"Şu"* dastanında, *"Dədə Qorqud kitabı"*nda, Nizamidə, klassik ədəbiyyatın çox dəyərli digər örnəklərində də görürük. Nizami öz qəhrəmanlarının taleyini həll edəndə özbaşına qərar çıxarmır. Mütləq daha əvvəlki keçmişlərə müraciət edir. Gəncliyində müşahidə etdiyi hadisələri yada salır, doğma yurdunu, Gəncə zəlzələsini, Bərdənin vəsfini - bütün bunları yaddaş fenomeninin təsiri altında qələmə alır. Mübahisəyə ehtiyac yoxdur ki, yaddaş fenomeninin ali obrazını məktəb səviyyəsinə qaldıran, altmış ilə yaxındır ki, Azərbaycan, İran, İraq, Anadolu, Dərbənd, Borçalı, Göyçə ərazilərində yaşayıb, qələm sahibi olan şairlərin (müəyyən mənada, həm də nasirlərin) yaddaş fenomeninə müraciət edən çox böyük nəsillərini bu məktəbin təsiri altına almışdır. Şəhriyar düsturu ilə, Heydərbaba ruhu ilə yazılmış əsərlərin dəqiq sayını bu gün bilən yoxdur. İraqdan Əlbüllətif Bəndəroğlu və onun *"Yurt"* dərgisi ətrafında birləşən çoxlu sənətkarlar *"Heydərbabaya salam"* poemasına nəzirələr yazmışlar. Cənubi Azərbaycanda da şairlər onun səsinə çox böyük hiss və duyğu ilə cavab vermişlər.

Bu günə qədər Cənubi Qafqaz əhatəsində olan azərbaycanlı şairlər də *"Heydərbabaya salam"* kitabxanasına özlərinin zəngin töhfələrini vermişlər. Çox böyük məmnunluq hissi ilə qeyd edərdim ki, bu sətirlərin müəllifi olaraq mən də *"Bir Xələfli var imiş"* adlı əsərimlə o möhtəşəm "salam" qarşısında mənəvi borcumu verməyə çalışmışam. Təəssüflə bunu da deməliyəm; Şəhriyar düsturundan istifadə ilə yazılmış *"qrafoman"* əsərlər də az deyil. Bunu da təbii qəbul etmək lazımdır. Hər kəs yaddaş fenomeninin ecazkar sarayına özünün istedadı, düşüncəsi və təxəyyülünün imkan verdiyi güclə daxil olur. Son vaxtlar yaddaş fenomeninin təsiri altında yazılmış Şəhriyar ənənəsini yalnız mənəvi olaraq qəbul edib özünün orijinal forması ilə diqqəti çəkən çox maraqlı əsərlər yaranmaqdadır. Xalq şairi Nəriman Həsənzadənin *"Poylu beşiyim mənim"* eposu, Hafiz Rüstəmin *"Ba-*

*kıdan Yardımlıya səyahət"* yaddaş poeması, bu sıradan heç şübhəsiz, çox dəyərli yerlərdən birini tutan H.İsaxanlının *"Ziyarət"* poeması ədəbi-bədii dəyərinə, *"sağlam-estetik əsaslarına"* görə yaşarılıq haqqı qazanacaq, zaman-zaman müəllifinə şöhrət qazandıracaq əsərlərdəndir. *"Ziyarət"* yolunda kimi görürük? Ömrün ekvator xəttinə çatmış, alim kimi şöhrətlənmiş, müasirləri arasında sağlam, mənəvi ölçüləri ilə tanınan bir ziyalı, incə, kövrək qəlbli bir şair yaşına görə çox erkən eynək taxmış, yurd həsrətlisi uşaqlığında və yeniyetməliyində, uzaqda - Vətənin qıraqda qalan yerlərində onu çağıran xatirələrin arxasınca ata ocağına dönür. Bütün hadisələrin mahiyyəti də elə bu dönüşlə bağlıdır. O, kimi görür, kimləri yada salır, həmin uşaqlıqda və yeniyetməlikdə qalmış cığırları axtarmaq istəyir. Onun yaddaşını hansı *"tikanlar qanadır"*, o, hansı hisslərin təsiri ilə könül dünyasındakı kövrək hisslərin əsirinə çevrilir?

Məlumdur ki, *"Ziyarət"*də insan özünü ruhi-mənəvi aləmdə hiss edir. Demək olar ki, müəyyən mənada, gerçəklikdən təcrid olunur. Özünə qapanma, hətta yaşını unutma, həmin yerlərdəki yaşın çağlarına qayıtma burada əsas şərtdir. Həmin o erkən yaşlarından dünya işığını ona qaytaran şəffaf eynəyinin arxasından boylanan gənc - əslində, eynəkli adam - o adam ki, indi kifayət qədər ömür yolu keçmiş, həyatın ağırlıqlarını çiyinlərində duyan bir ziyalı özü yurd atasına çevrilib. Amma bu yerə, bir yurda bir uşaq kimi qayıdır.

Elə öz-özünə pıçıltılarla danışır. Və danışa-danışa özünün ata ocağına qayıtma hissinə görə məmnunluğunu da bildirir. Bəli, o, şükranlıq içindədir. Çünki *"doğulduğu, boy atdığı /gecələrlə sevdalaşıb/, səhərləri oyatdığı"* yerə qayıdıb. ***"Şükür, gəldik kəndimizə"*** lirik lövhə həmin qayıdışın ilk addım səslərini kövrək misralarla çatdırır:

Doğulduğum, boy atdığım,
Gecələrlə sevdalaşıb
Səhərləri oyatdığım,
Doğma eldə, obadayam.
Qəribədir, köhnə adam...
Sanki əski zamanları,
Açılmayan dumanları
Yarıb gəlmiş səs-sədayam,
Gəzəyən ruhlara tayam.

Doğrudur, xatirələrlə Yaddaş Sahibinin arxasında az qala qırx illik bir məsafə var. Elə ona görə də özünü *"köhnə adam"* adlandırır Yaddaş Sahibi. Və sanki ən qədim zamanları, sıx-sıx dumanlıqları yarıb gəlib - təsəvvüründədir. Və o, həmin anlarda özünü sanki cismən hiss eləmir. Xəyal quşu kimi, can quşu kimi, başqa sözlə, ruh kimi səsə, sədaya çevrilib özünün azadlıq qanadları ilə yaddaşın göstərdiyi hər yerdə və hər zaman olmaq qüdrətindədir. Hər yerdə və hər zaman mövcud olmaq gücü mifoloji, mənəvi düşüncədə tanrılara xas keyfiyyətdir. Amma ruhların da belə bir haqqı var. Və bu mənada, həmin köhnə adamın özünü gəzəyən ruhların biri kimi duyması bizə qəribə gəlməməlidir.

*"Ziyarət"*in başlanğıcında bir ozanlıq mahiyyəti də duyulur. Uşaqlığını, gəncliyini bir yuxu kimi xatırlayan Yaddaş Sahibi asta-asta könül sazını çalmaqdadır. Yaddaşın titrək barmaqları mizrabı simlər üstündə gəzdirir. Tazanə simlərə dəydikcə həzin səslər eşidilir. Bu, köhnə havadır, bəlkə də, çoxları unudub, bəlkə də, onun tay-tuşları bu geniş dünyanın müxtəlif tərəflərinə səpələnib. Bu havanı unutmasalar da bəlkə, heç ziyarətə gəlmək imkanları yoxdur. Onsuz da ziyarət arzulayanların hamısı öz ziyarətlərini gerçəkləşdirə bilmir ki:

Dindirərəm pərdə-pərdə,
Ötən günün havasını.
Həzin-həzin nəğmələrdə
Tapdım ruhun sevdasını.

Və bu həzin sədalar altında Yaddaş Sahibi axtardığı ruhun sevdasına qovuşur. Amma asanlıqla yox, həzin-həzin nəğmələri oxumaqla, özünün ecazkar, qeyri-adi sədaqətini təsdiq etməklə və bu sədaqətin təsiri altında həmin sevdanın vüsalına çata bilir. İndi onun hakimi mənəvi aləminə hökm edən duyğularıdır. Bu hakimin sualına cavabında isə onun bircə sözü var: axı sevgi özü də bir ibadətdir:

Duyğu hakim oldu bizə,
Sevgi özü ibadətdir.
Şükür, gəldik kəndimizə,
Bu, nə gözəl ziyarətdir!

İndi o, fəxr edə bilər. Çünki bu müqəddəs ziyarətin müsafiri, bu gözəl ziyarətin ibadətçisi gəlib ziyarət yerinə çatıb. Bu ziyarət yeri onun doğulduğu kənddir. Nə qədər əziz, nə qədər doğma, nə qədər kövrək bir aləmdir. Sanki özünü ərşi-əlada hiss edir, ayaqları yerə dəymir. Axı bayaq demişdik, o, özü elə bir ruhdur. Və artıq çoxdan bu gerçək dünyadan qopmuş və daha gerçək dünyanın və daha əbədi dünyanın sakini olan ruhların arasındadır.

Amma hər şey ona tanış gəlir. Elə bil ki, elə dünən çöldə, çəməndə qoyub getdiyi gülləri görür. Göy otların arasında ona tanış gələn, yadından heç vaxt çıxmayan, ilk dəfə adını böyüklərin dilindən eşitdiyi cincilimin, əməköməcinin, quşəppəyinin, gülxətminin, çobanyastığının, yarpızın, dağnanəsinin, sularda bitən acı qıcının... səhər mehi altında titrək çöhrələrinə baxır. Elə qoyub gəldiyi evlərin də damı-divarı ona yad deyil. Bir sözlə, burada hər nə varsa, oddan tüstüyəcən ona doğmadır:

Güllər tanış, qoxu tanış,
Göy otların çoxu tanış.
Ocaq tanış, tüstü tanış
Kəndin altı, üstü tanış...

Bu altı-üstü tanış olan, onu doğmalıqla qucağına çəkib saçlarına əl çəkən, qabarıq eynəyinə ehtiyatla əlini toxunduran duyğular Yaddaş Sahibini əzizləyir. Amma yenə onu fikirli görür, amma yenə onu qayğılı görür. Və elə Yaddaş Sahibi yəqin ki, bu duyğuların təsiri altında özünə suallar verir:

Bəs nədən qərib kimiyəm,
Yenə yol çəkir gözlərim?
Niyə belə kədərliyəm,
Pərişandır nəğmələrim?

Həzin nəğmələr isə ozanın - Yaddaş Sahibinin dilindən çağlamaqdadır. Onun yaddaşı düşüncələrini bir axara yığa bilmir, çox dağınıqdır. Axı birdən-birə o, sel kimi axıb gələn xatirələrin arasına düşür. İndi onları bir-bir sapa düzməlidir. Ümumiyyətlə, epos xalqın yaddaşında minillərlə yaşayan tarixi-mənəvi sərvətin müəyyən ahəngə, məntiqi ardıcıllıqla düzülüşüdür. Və ozan da əslində, xalqın əvəzindən o nəğmələri oxuyur. Sanki xalq öz yaddaşının ahəngini ozana vermiş olur.

# Atadan gələn yol

Beləliklə, qayım-qədim ozanın - Yaddaş Sahibinin duyğular aləmində birinci onun böyükləri yada düşür. Və elə beləcə də göstərir: ***"böyüklərim yada düşdü".*** Böyüklük anlamı burda qoşa çalar mahiyyəti daşıyır. Birincisi, əlbəttə ki, mənəvi böyüklükdür. Bu birinci anlam düzgün yol göstərən, özü haqqın, həqiqətin yolunda olan böyükdür. İkinci anlam isə o böyüklüyün mahiyyətini kəsb edir ki, bunun arxasında baba-nənə, ata-ana, kənd müdrikləri, aqillər dayanır. Və həm də o adamlar dayanır ki, onlar artıq tarixin bir parçasıdır, hansı əməlləri isə yadda qalandır, yaddaşda yaşayandır. Kimdir onlar?

Ömrümüzdən keçən illər,
Bəhsə girdi xeyirlə şər.
Əyrilərə baş əyməyən
Doğru yolda oda düşdü.
"Oğul, haqqa sığın" deyən
Böyüklərim yada düşdü,
Canım yenə oda düşdü.

Böyüklüyün birinci anlamdakı mahiyyəti elə ilk misralardaca özünü göstərir: *"Oğul, haqqa sığın"* nəsihəti oğulun - Yaddaş Sahibinin əslində, ömür kitabı olub. Bütün ömrü boyu bu nəsihətin və vəsiyyətin düsturu ilə yaşadığı üçün qazandığı bütün uğurların əsas güc mənbəyini də elə bu sağlam düsturda görər. Yada düşən həmin böyüklərdir. O böyüklər ki, cəmiyyət uzun illər repressiya tufanlarından üzü bəri onların ağrısını yaşayıb. Cəmiyyətin rəngi, daxili-mənəvi siması bu böyüklərin xarakteri, təbiəti ilə formalaşırdı. Bütün varislik ənənələri, əlaqələr, qırılmaz bağlar, ən yaxşı mənəvi

genlərin nəsillərdən-nəsillərə ötürülməsi bu böyüklərin cəmiyyətdə mövcudluğu ilə mümkün ola bilərdi. Yaddaş Sahibinin canını yenə oda salan elə bu dərdlərdir. Mahiyyətcə, repressiya tufanlarının kökündən qoparıb aparmağa çalışdığı və bir çox hallarda nail olduğu (N.Nərimanov, H.Cavid, M.Müşfiq və başqalarının nəsillərindən bir kimsə qalmayıb) həmin mənəvi gen sahibləri yaşasaydılar bu gün Azərbaycanın mənəvi siması daha zəngin olardı.

Söhbət kimdən gedir? Yaddaş Sahibi elə buradaca atasının ən xarakterik cizgilərini xatırlayır:

Atam comərd bir insandı,
El-obaya yaraşandı-
Ağlı iti, qəlbi yumşaq,
Tez yetişdi, tez də yandı.
Bəzən tale haqqı dandı-
Ağrı çəkdi neçə uşaq
Ruzgarı sərt, qəlbi yumşaq.

Mən ən kəskin, sərt mövqeli müsahiblərimlə razılaşa bilmərəm, əgər desələr ki, burada Şəhriyarın təsiri yoxdur:

Mənim atam süfrəli bir kişiydi,
El əlindən tutmaq onun işiydi.
Gözəllərin axıra qalmışıydı,
Ondan sonra dönərgələr döndülər,
Məhəbbətin çıraqları söndülər

Yaddaş Sahibi də atasının comərdliyini, elə-obaya yaraşan olduğunu, iti ağıl sahibi olmaqla bərabər, həm də onun çox qəlbi yumşaq bir insan olduğunu xatırlayır. Təəssüf ki, o, tez yetişib, tez də yanıb. Təəssüf doğuran, acı kədərlə xatırlanan doğruların yanmağını elə belə xatırlamaq olar və özü də yana-yana.

Zaman, siyasi rejimlər burada tale obrazı ilə görünür. Bu qəddar hakim haqqı danır və bu haqqı danmaqla bərabər neçə uşağa ağrı bəxş edir. Bəli, onların kövrək aləmləri sərt rüzgarın məngənəsi arasında öz əzablarını yaşamaqda olurlar.

Burada bütün aydınlığı ilə görünən ən dəqiq cizgilərlə verilmiş atanı biz yalnız Yaddaş Sahibinin cismani atası kimi qavramırıq, onu həm də tarixdən gələn bir ata kimi görürük. Tarixdən gələn atanın obrazı bu gün necə qavranılır?..

Fəlsəfə elmləri doktoru Camal Mustafayevin təbirincə desək, ən müqəddəs ziyarət yeri ata ocağıdır. Niyə məhz ata ocağı? Professor

> "Bir zamanlar milli düşüncəmizdə müqəddəs sayılan ata ocağı anlamı indi yaddaşdan sıxışdırılıb. Yeni nəsil, əslində, bu xüsusda təsəvvürə malik deyil, ancaq sınanmış gerçəkdir - yurd yaddaşı, Vətən hissi həmin ilk başlanğıcdan nəşət edir"[1]

qənaətindədir. Göründüyü kimi, müdrik alim əslində, Vətən hissinin, yurd yaddaşının bir-birinə qovuşmuş və bir-birilə sıx əlaqədə olan iki anlamın - ata və ocaq obrazlarının vəhdətində təzahür etdiyini təsdiqləyir. Bəli, ata və ocaq obrazları birləşəndə daha möhtəşəm, daha zəngin yaddaş obrazını yaradır. Əvvəlcə ata mahiyyətinə diqqət edək. Əvvəla, onu qeyd edim ki, ata adı ilə bağlı çoxlu onomastik adlar *"Ata"*nın zəngin tarixi-mənəvi keçmişindən xəbər verir. Belə adlar Qarabağ ərazisində də tarixi abidələrin ünvanı olaraq bu gün də mövcuddur. Bir daha suallara qayıdaq: Qədim türk mənbələrində və bu mənbələr əsasında təsdiqlənən qədim türk düşüncəsində ata kimdir? Onun hansı tərəfləri var? Ən diqqətçəkən mənbələr atanı necə xarakterizə edir? Mən bu barədə fikrimi artıq bir dəfə - *"Yaddaşa aparan yollar"* (**məktub-roman**) adlı ədəbi düşüncələrimdə yazmışam:

> "Birinci münasibət bildirdiyimiz atanın kimliyi, təbiəti şamanlıq ruhu ilə bağlıdır. O, ata bizi əcdadlarımıza nə qədər bağlayırsa, gələcəyimizə də o qədər bağlayır. Sanki əzəlimiz və axirətimiz bu ata mahiyyətindən keçir. Ata keçmişlə gələcəyi bir-birinə bağlayan düşüncə körpüsü yaradır. Bu obrazın əzəməti, ruhu məhz bu cür yanaşma ilə daha yaxşı qavranıla bilir, daha asan dərk olunur.
>
> Qədim türk düşüncəsində ata kimdir? Bu suala cavab vermək üçün yenə mifik anlama qayıdaq:
>
> "ATA - Mifoloji düşüncədə axirət dünyası, yer stixiyası və bu mənada da əcdadlar dünyası ilə bağlanır. Çünki mənəvi-ruhani yaradıcı olan "Ata"nın başlanğıcındakı bir funksiyası da əcdadlar dünyasına qırıl-

[1] C.Mustafayev. "Ata ocağı". "Xəzər Xəbər" jurnalı, 2010 Noyabr , № 290, s.26.

maz tellərlə bağlı mərasim hamısı obrazına aid olmağı idi. Yəni "Ata" axirət dünyası ilə, axirət dünyasının sakinləri olan varlıqlarla bağlılıqdaydı. "Ata" adı özlüyündə əcdad haqda təsəvvürlərə açıq-aydın işarə edir. "Ata" obrazında mədəni qəhrəman, bəlli bir ölçüdə də demiurq cizgiləri aydın sezilir. Axirətlə bağlandığından "əcdad" inisiasiya aktındakı hami (əcdad şaman) ruhunun eynidir. Təsadüfi deyil ki, sonralar xalq inanclarındakı ilk türk övliyaları da çox zaman elə bu adla adlandırılmışdır. Xızır peyğəmbərin müqəddəslik bəxş etdiyi "Həkim" adlanan Süleyman Bakirqanı isə öz əsərini məhz onun haqqında dediyi: "Xızır İlyas atam var" - sözləri ilə başlayır.

Ata bəlalardan qoruyan, hifz eləyən ruhdur. Qırğız Ata qırğız elini və b. qoruyan ruh olduğu kimi. Türk etnik-mədəni ənənəsində mifoloji zəmində təşəkkül tapan və mədəni qəhrəman, ilkin əcdad, eləcə də mərasim hamisi olaraq səciyyələndirilə bilən Qorqut Ata, İrkıl Ata və daha neçə obraz var ki, bu adla birgə anılır. Qaraimlərin dini-mifoloji görüşlərindəki qoruyucu ruhlardan biri də Karqıl Ata adında mifoloji varlıqdır. Xarəzmdə şiələr axırıncı imamına həsr olunan ibadətgah Qaib Ata adını daşıyırdı. Teleutlarda isə yeraltı dünya ruhlarından olan Erlikə böyük sayğı əlaməti olaraq "Atam" (adam) deyərdilər. Sayaq miflərinə görə də Erlik xanın bir adı "Ada" (ata)dır.

Müqəddəslik haləsinə bürünüb xalq arasında böyük ehtiram qazanan ulu ozanlar, qamlar da bu "ata" adını daşıyırdılar. Sonralar xalq sufiliyi ruhunda şeirlər yazan Ata ünvanlı sufiləri isə əski baxışların davamçıları saymağın mümkünlüyü haqda fikir bu mənada özlüyündə elmi əsasdan məhrum deyil. Yəni türklər içərisində sufilik bir axın kimi gücləndikcə şeyxlərə (şıxlara), hikmət sahibi olan şəxslərə, kəramət sahibi övliya dərvişlərə də "Ata" adı verilməyə, məs., Çoban ata, Mənsur Ata, Hakim Süleyman Ata, Zəngi Ata, Dəmirçi Ata... deyilməyə başlanmışdı.

Türk "ata" anlayışının onun müqəddəsliyindən gələn "əcdad ruhu", "övliya" məzmunu vardı. Türküstanın müxtəlif bölgələrində, qırğız çöllərində Övliya Ata kimi coğrafi adlar oralarda qəbirləri olan türk övliyalarının adları ilə bağlıdır. Yer adlarında isə həmçinin "pir, ocaq", anlamı daşıyır. "Baba" kimi "Ata" ünvanı bəzən ulu dağların adlarında da işlənə bilmişdir. Əbülqazi Bahadır xan (XVII əsr) "Türk şəcərəsi" əsərində yazır: "Türk xalqı əziz adamlarına "ata" deyir; məsələn, Həkim Ata, Seyyid Ata".

"Ata" adını daşıyan varlıqların bilici olmaları onların qeyb aləmi – görünməzlər dünyası ilə bağlılıqlarından gəlir. Kökündə "ata" məfhumu dayanan "ata-saqun", M.Kaşqari "Divan..."ında "həkim, hikmət sahibi, müdrik, bilici" kimi mənalandırılır.

"Saqun" isə karluqlarda "qam" demək idi. Maraqlıdır ki, Atillanın qurduğu Hun dövlətində də "Ata-kam" bir bilgə - müdrikin adıdır"[1]. Yeri gəlmişkən, ata obrazının müqəddəsliyini tarixi abidələrdə, qədim türk-alban məbədlərində qoruyub saxlayan toponimik adlara bizim Cəbrayıl rayonunda da rast gəlinirdi. Cəbrayıl ata, Çomaq ata, Tumas ata, bəlkə də, hansısa bir mahiyyəti ilə elə bu adlarla səsləşən Gordu baba... ata adı ilə bağlı belə müqəddəslik məkanları Orta Asiyada, Ön Asiyada və Kiçik Asiyada da çox yayılmışdır. Bir sözlə, qədim türkün tarixini yaşadan möhürlər kimi zamanlar keçərək, qəddarlıq müharibələrinə qarşı döyüşərək tarix yolunda qalib çıxmış adlar kimi etnosun ruhunu özündə yaşadır"[2].

*"Ziyarət"* isə davam edir. Daha doğrusu, bu ziyarət elə atanın adından, onun yaddaşdakı obrazından, mənəvi dünyasından başlanır. Sanki ata illər boyu gözlədiyi günə - işıqlığa indi çıxıb. Həsrət çəkən Yaddaş Sahibi də tarixin çox böyük, yarım əsrlik bir mərhələsini zirvədən-zirvəyə çatan ayaqları ilə keçə bilib. Fikrimizin təsdiqi olaraq professor C.Mustafayev sözünə davam edir:

"H.İsaxanlının yaxınlarda nəşr etdirdiyi "Ziyarət" poemasını oxuyan hər kəs buna bir daha inanır. Bu poemanı ata ocağı haqqında kədərlə sevincqarışıq xatirələri əsasında yazıb. Burda əks edilən əsas əhvalatları yaxından izləmək, bunların mənasına varmaq oxucunu düşündürür".[3]

Yaddaş Sahibi böyük dərgahın qapısı ağzındadır. Bu qapıdan keçməklə o, bütün ağrı-acılarıyla bərabər, həm də ruhunu səfərbər edən, düşüncələrini müəyyən ahəngə, nizama tabe edən bir aləmə düşür.

H.İsaxanlı *"Ziyarət"* poemasında artıq keçmişdə qalmış olan obrazlara daha hissiyyatla, daha emosional duyğularla müraciət edir. Şübhəsiz, onun artıq tarixə çevrilmiş olan obrazlara müraciətinin mahiyyətində bugünkü ziyalının, geniş mənada, bəşər nəsli qarşısında və əlbəttə, həm də mənsub ol-

---

[1] Cəlal Bəydili. "Türk mifoloji sözlüyü". Elm, Bakı, 2003, s. 46.
[2] Ə.Xələfli. "Yaddaşa aparan yollar"."Kövsər" nəşriyyatı . Bakı, 2011.
[3] C.Mustafayev."Ata ocağı". "Xəzər Xəbər" jurnalı, 2010 Noyabr , № 290, s.26.

duğu xalq qarşısında məsuliyyəti ilə bağlıdır. Borçalı son üç yüz ilə yaxın dövr ərzində bir çox tarixi təcavüzlərə məruz qalıb. Demək olar ki, Borçalının tarixi taleyi ilə hərbi güc sahibləri kefləri istədikləri kimi davranıblar. Qüdrətli Səfəvilər dövləti, orta əsr feodal çəkişmələrin qurbanı olduqdan sonra, böyük Osmanlı imperiyası Avropa müstəmləkəçilərinin təzyiqi altında sarsıldıqdan sonra demək olar ki, Borçalının taleyi başlı-başına buraxıldı. Və təkcə Borçalının yox, Azərbaycanın bir çox ərazilərinin də.

Rusiya imperiyası caynağını Şərqə doğru uzadırdı. Və artıq Qafqaz və bütün Azərbaycan onun pəncələri altında idi. Beləcə, Azərbaycan ərazilərində yaradılan qonşu dövlətlər nəinki əraziyə yiyələndi, hətta onun tarixi, mənəvi mədəniyyətinə sahib çıxmağa çalışdı. Qərbi Azərbaycan bütövlükdə daha uzaq gələcək üçün Qafqazda və Şərqdə jandarm olacaq riyakar erməni siyasətçilərinin ixtiyarına verildi. Dərbənd Azərbaycandan qoparıldı. Və bu sırada Borçalı da Vətənin qıraqda qalan yerinə çevrildi. Heç kimə sirr deyil ki, bu gün ən müxtəlif yollarla borçalıların torpaqları əllərindən alınır, Qarapapaqlar dədə-baba torpaqlarında sıxışdırılırlar. Və demək, H.İsaxanlını yalnız nostalji duyğular deyil Borçalıya çəkən. Atasının, babasının, nənəsinin, ulu keçmişinin tarixini canlandırmaq istəyi ötəri bir həvəs deyil və yalnız poetik duyğularla bu hissi bağlamaq olmaz. Bu gün Borçalıda doğulub böyümüş sənətkarların, ziyalıların - Xalq şairi Zəlimxan Yaqubun saza üz tutması, Borçalının mənəvi simasını özündə əks etdirən poetik örnəkləri dilə-ağıza çəkməsi Əməkdar memar, yazıçı-publisist, rəssam Ömər Qoçulunun *"Nənəmin nağılı"*nı yazması və təbii ki, bu yöndə H.İsaxanlının *"Ziyarət"*ə önəm verməsi yalnız ədəbiyyatla bağlı məsələ deyil. Bu, həm də xalqın real-siyasi taleyi ilə bağlı məsələdir. Əslində, bu məsələdə insanın özünün şəxsi həyatını necə yaşaması, bu şəxsi həyatın özündə ictimai həyatı necə qavraması, bir sözlə, insanın mübarizələrinin mahiyyəti cəmlənir. Bəli, insan həyatının mənasını nədə görür? - sualına cavab vermək istəyən müəllif hələ *"Ziyarət"* poemasından çox-çox əvvəl yazdığı, yaratdığı şeirlərdə də bu suala cavab verməyə çalışmışdır. Onun *"Əl-ələ"* adlı bir şeiri *"Ziyarət"* kitabının lap əvvəlində özünə yer alıb:

Ömür var mənası - ye, iç, yat,
Nə dərin həyəcan, nə fəryad.
Sevdasız bir həyat - nə həyat?!

Bu şeir insan həyatının mənasını ehtiva edən, bəsirət gözü açıq olmayanların görə bilmədiyi tərəflərə işıq salır. Şeirin özündən də göründüyü kimi, müəllif üçün həyatın mənası sevdalı yaşamaqla daha zəngin olur. Onun üçün nə dərin həyəcanların, nə də fəryadların olmadığı yerdə yaşanan həyat və yaxud, könül dünyası zəmanənin tufanları ilə üz-üzə gəlməyən insan üçün ömür yeməkdən, içməkdən və yatmaqdan başqa bir şey deyildir. Bəs bunun üçün nə etmək lazımdır? Bu suala da müəllif dəqiq və aydın cavab verir:

Sizə bir söz deyim, nəhayət,
Tutuşaq, a dostlar, əl-ələ.
Keçməsək arzudan əmələ,
Böyük bir təhlükə, qorxu var -
Məhv olar, puç olar arzular.
Könüllər coşub nəğmə deməz,
Dünya biz deyənə bənzəməz.

Təəssüf ki, müəllif *"Ziyarət"* kitabında toplanmış bir çox şeirlərinə tarix qoymayıb. Zənnimcə, şairin ən dəqiq özkeçmişi (həyat yolu, ömürlüyü, tərcümeyi-halı, avtobioqrafiyası) onun şeirləridir. Çünki şeirlər sanki insanın mənəvi aləminin ən dərin gizlinlərində qalmış sirlərini açır. Bu şeirin özü də göründüyü kimi, müəllifin *"Əl-ələ"* adlandırması təsadüfi deyil. Müəllif insan həyatının zənginliyini insanların bir-birində doğmalığında görür, bir-birini daha dəqiq, daha aydın başa düşməsində görür. Hiss olunduğu kimi, bu kiçik, poetik parçada müəllif hələ gələcəkdə tufan kimi üzə çıxacaq *"Ziyarət"*in həyəcanlarının ilk mərhələsini yaşayır. Başqa sözlə, *"Ziyarət"* kitabında toplanmış şeirlər *"Ziyarət"*in yazılması üçün psixoloji hazırlıq mərhələsini öz üzərinə götürmüşdür. Elə ona görə də *"Ziyarət"*in ayrı-ayrı məqamlarına aşkarlıq gətirdikcə, sanki ilk baxışdan *"Ziyarət"*ə dəxli olmayan, amma daha dərindən yanaşdıqda *"Ziyarət"*in əzəmətli ruhunu tamamlayan, onun mənəvi zənginliyini açmağa kömək edən belə şeirlərə də müraciət edəcəyik. Biz dünyanı necə görmək istəyirik və görmək istədiyimiz dünyanın mövcud durumunu necə görürük? Əslində, H.İsaxanlını dərindən düşündürən, onu həyəcanlandıran, onu insanlara üz tutmağa vadar edən bu sualların cavabında gizlənən həqiqətdir.

Şübhəsiz, müəllif öz məqsədini daha yaxşı çatdırmaq, ideyasını qabartmaq üçün tarixi yaddaşdan qidalanan emosiyalarına da rəvac verir. Hisslə-

rin, emosiyaların ideya ilə bağlı tərəflərini V.Q.Belinski çox böyük məharətlə göstərir. Şairin mənəvi aləmində bu əsas tərəflərin bir-birilə qarşılıqlı münasibətlərini açmaqla, müəllifin əsas məqsədə doğru hərəkətini aydınlaşdırır. V.Q.Belinskinin fikrinə istinad edək:

> "Beləliklə, hər bir poetik əsər pafosun məhsulu olmalıdır, pafosla dolu olmalıdır. Pafos nəzərə alınmazsa, şairi əlinə qələm almağa nə vadar etdiyinin və ona bəzən çox böyük əsər başlamağa, bu əsəri qurtarmağa nəyin qüvvə və imkan verdiyini anlamaq olmaz. Buna görə də "bu əsərdə ideya vardır, bunda isə ideya yoxdur" təbiri o qədər də düz və müəyyən deyidir. Bunun əvəzinə "bu əsərin pafosu nədən ibarətdir?" yaxud, "bu əsərdə pafos var, onda isə yoxdur" təbiri daha müəyyən və dürüst olar. Çünki bir çoxları ideyanı bədii əsərdən başqa hər yerdə ideya ola bilən və bu əsərdə görmək istədikləri, lakin əslində, sadəcə olaraq, nəsihətçilikdən ibarət olan bir şeyi ideya kimi qəbul edirlər ki, bu şey də yoxsul formanın baxyalanması, şəlpə-şültəsi ilə birtəhər örtüldüyünə baxmayaraq, yenə də bütün çılpaqlığı ilə meydana çıxır. Pafos tamamilə başqa bir şeydir. Hər cür estetik duyğudan tamamilə məhrum olmaq lazımdır ki, soyuq, cansız bir əsərdə pafos artırasan, çünki belə əsərdə yağ suya necə qarışırsa, ideya ilə forma da eləcə birləşmiş olur və ya qara parça üzərində ağ sapla köklənmiş tikişə bənzəyir".[1]

Göründüyü kimi, Belinski pafosu əsəri canlandıran, əsərə ruh verən, onu daha oxunaqlı edən bir əlamət kimi qavrayır. H.İsaxanlının *"Ziyarət"* poemasında həsrət motivlərinin yandırıcı cizgiləri keçmişin xatırlandığı anlarda Yaddaş Sahibinin yaşadığı hisslər sözə çevrildikcə emosiyaları artırır, hisslərə, həyəcanlara çevrilir, oxucunu səfərbər edir. Onun köksünü qabardır. Başqa sözlə, oxucunun yaddaşını təzələyir, oxucunun özünün oxşar duyğularını tərpədib oyadır, silkələyir, ona indiyə qədər yadına salmadığı, düşüncələrində təzələmədiyi duyğuları xatırladır. Təbii ki, bu əsər, bu hisslər, duyğular, bu əlamətlər yoxdursa, onda əsər də cansız və soyuq olacaqdır. Belə məqamlarda Belinskinin qeyd etdiyi kimi, əsərin mahiyyəti ilə uyğun gəlməyən, mənanı tamamlamayan, mənanı qabartmayan emosiyalar (tənqidçinin anlamında pafos) əsərdən kənar bir hiss olaraq qalacaqdır. Və onun heç bir təsiri də müşahidə edilməyəcək. Emosiyaların təsir gücünü

[1] V.Q.Belinski."Rus ədəbiyyatı klassikləri haqqında". Bakı, 1954. s.96

yaxşı anlamaq və onun mənanı tamamladığını daha yaxşı başa düşmək üçün Yaddaş Sahibini *"Ziyarət"*ə aparan yolları dəqiq və düzgün müşahidə etmək lazımdır. Dədə Camal *"Ziyarət"*ə aparan yolları daha çox reallıqda görür. Onun nəzərinə görə və həm də çox doğru müşahidəsinə görə, əsəri yaradan əsas səbəb həyatla bağlıdır. Kökü həyatla bağlı olmayan əsər öz oxucusuna da təsir edə bilməz. Və yəqin ki, Dədə Camalın qeyd etdiyi kimi, həyatdan gələn təsir olmasaydı, heç *"Ziyarət"* də baş tutmazdı.

> "H.İsaxanlının "Ziyarət"i yazmasını şərtləndirən əsas səbəbdən başlayaq. Onun Xəzər Universitetinin rektoru vəzifəsində, ictimai fəaliyyətdə gərgin çalışdığını hamı yaxşı bilir. Bununla birlikdə tez-tez xarici ölkələrdə ezamiyyətdə olur. Kəndimizə (Borçalının Qarayazı bölgəsinin Kosalı kəndinə) yalnız hərdən, imkan olanda gedə bilir. Doğma kəndinə gələndə sanki arzuladığı bir ziyarətgaha qovuşur. Bu ziyarətgahla bağlı yaddaşı yenə oyanır, xəyal dünyasında əziz xatirəsi yenidən canlanır"[1].

Beləliklə, *"Ziyarət"*i yaradan səbəblər nə qədər tarixlə, keçmişlə bağlıdırsa, bir o qədər də Yaddaş Sahibinin bugünkü həyatı ilə bağlıdır. Keçmiş nə qədər mənaya və məqsədə xidmət edirsə, bugünkü həyat bir o qədər emosiyalara (tənqidçinin anlamında pafosa) qol-qanad verir. Hər bir müəllifin emosiyaları, duyğuları fərdi olduğu kimi, hər bir müəllifin yaratdığı əsərin də özünəxas, fərdi cəhətləri var. Bu, Yaddaş Sahibinin portretində daha aydın, qabarıq duyulur. Biz burada H.İsaxanlının bir müəllif olaraq yaradıcılıq aləminin emosional çalarlarını nə qədər müşahidə ediriksə, elə bir o qədər də əsərin əsas qəhrəmanının daxili aləmini görə bilirik.

Belinski fikrinə davam edir:

> "Böyük şairin yaratdığı əsərlər nə qədər çox və nə qədər müxtəlif olsa da, onların hər birinin həyatı, buna görə də öz pafosu vardır. Bununla bərabər, şairin bütün yaradıcılıq aləmi, onun bütün poetik fəaliyyəti də vahid bir pafosa malikdir ki, ayrı-ayrı əsərlərdəki pafosun bu vahid pafosa münasibəti hissənin tama olan münasibətidir, əsas ideyanın bir rəngi, onun başqa bir şəklidir, onun saysız-hesabsız cəhətlərindən biridir"[2].

---

[1] C.Mustafayev."Ata ocağı". "Xəzər Xəbər" jurnalı, 2010 Noyabr , № 290, s.26.
[2] V.Q.Belinski."Rus ədəbiyyatı klassikləri haqqında". Bakı, 1954, s. 97.

Zənnimizcə, burada bir şərtiliyi nəzərə almaq lazımdır. Belinskinin yaradıcılığında pafos anlayışı şairin hisslərini, duyğularını, başqa sözlə, emosiyalarını ifadə etdiyini... Görünür, Belinskinin vaxtında emosiya anlayışı daha çox pafos mahiyyəti ilə ifadə olunub. Yaxud bu ifadələrin mənaları o qədər yaxın olub ki, biri digərini asanlıqla əvəzləyib. H.İsaxanlının *"Ziyarət"*ində də əslində, şairin duyğulanmaları, Yaddaş Sahibinin keçmişə qayıtmaq ağrıları elə onun emosiyaları ilə, hisslərilə görünür. Və bunun özü də *"Ziyarət"*in mahiyyətini daha qabarıq verməyə xidmət edir. Artıq dünyada tanınan bir alim kimi, sözü sevilən bir şair kimi, gur işığı ilə ətrafa nikbinlik, xoş əhval gətirən bir ziyalı kimi Yaddaş Sahibi yurda qayıtmaqla sanki keçmişə gəlir və o keçmişin özünü oyatmaq, o keçmişi yaddaşlarda bərpa etmək məqsədi daşıyır. Onun kövrək aləmi özünün uşaqlığına qayıtmaqla bahəm, həmin uşaqlıqda qoyub gəldiyi zamanın özünü bütün əlvan çalarları ilə gözlərimizin önündə canlandırır:

Mən qapıya yetişəndə
Qarşılardı nənəm özü.
Qucaqlayıb öpüşəndə
Nur saçardı qəmər üzü.
Sinəsinə döyə-döyə,
"Atam-anam sənsən" deyə,
Dönə-dönə yalvarardı,
Mələkmisal lütfü vardı.

Burada biz kədərli bir hekayətin başlandığını hiss edirik. Ancaq məqsəd yalnız kədərli hekayəti yazmaq deyil, müəllifin məqsədi ötüb-keçmiş, az qala yaddaşdan itməkdə olan mənəvi gücü qaytarmaq, bərpa etməkdir. Tarixi-siyasi kataklizmlərlə dağılmış enerjini bir yerə toplamaq, insana güc verən əsas mənbələri aşkarlamaqdır. Hələ vaxtilə F.Köçərli də şairin əsas missiyasından danışanda bu məsələyə xüsusi diqqət verirdi. Akademik Bəkir Nəbiyev qeyd edir ki, F.Köçərli elə bir meyara əsaslanır ki, bu meyar yalnız bir müəllifə aid deyil. Bütün digər müəlliflərin də yaradıcılığına münasibəti əks etdirməkdədir. Beləliklə, F.Köçərlinin fikirləri indiki məqamda bizim də qənaətlərimizin tam doğru olduğunu təsdiq edir:

> "Həqiqi şairin bir vəzifəsi mənanı yetirməkdədir. Çünki hər bir qissəvü hekayətin ruhu onun içində olan məna və məzmundur. Nə qədər

ki, şairin başında doğan təzə fikirlər aydın, açıq və salamat ola, bir o qədər də onları bəyan etmək asan olur. Çətin, ancaq fikrin başda doğub pərvəriş tapmağıdır. Dolaşıq və qarışıq fikirlərin zühura gəlməsi də dolaşıq olur və bəzi şairin yazılarının kəlamı o qədər qarışıq və bulaşıq olur ki, o qədər ağır və qəliz ibarələrlə malamal olur ki, elə ölçüsüz və biçisiz yaraşılmayan dona geyinilir ki, onları oxuyanlar bir şey fəhm edə bilmir və bu kəlamı yazmaqdan şairin ümdə məramının nə olduğunu anlayıb başa düşmürlər"[1].

Beləliklə, şair mənanı əslində, emosiyalarının gücü ilə, Belinskinin təbirincə desək, pafosun təsiri ilə daha qabarıq verir. Yoxsa, artıq çoxdan sınmış olan qədd-qamətləri necə düzəltmək olardı? Başqa cür dağılmış enerjinin az qala yaddan çıxmaqda olan tarixi-mənəvi gücünün yanğısı elə bizi də külə döndərərdi. Əgər razılaşsaydıq ki, gedən geri dönən deyil, şair də elə beləcə deyir. Amma bu geridönməzliyin özünü lirik duyğuların gücünə sözün ovsunu ilə qaytarmağa çalışır. Və demək olar ki, buna nail ola bilir:

Keçənlərə min-min rəhmət,
Sındı neçə qəddi-qamət,
Onlar geri dönən deyil.
Külli-bəşər etsə minnət,
Başımıza yağsa nemət.
Can yanğısı sönən deyil,
Gedən geri dönən deyil.

Məlum məsələdir ki, dünya yalnız təbiət fırtınalarının cəngində çapalamır, həm də siyasi mənəm-mənəmliyin, hərbi güc mərkəzlərinin maraqlarının toqquşduğu, qarşılaşdığı ziddiyyətlər arasında inləyir. Yəqin ki, elə *"Ziyarət"*dəki əsas ağrı-acıların kökü elə bununla bağlıdır:

Günəşin saçını hörə bilmirik,
Zalımın dərsini verə bilmirik.
Həyatın üzü çox tanış olsa da,
İçini dərindən görə bilmirik.

---

[1] F.B.Köçərli. "Azərbaycan ədəbiyyatı". Avrasiya press. Bakı, 2005, cild 2, s. 364.

Müəllif sanki çıxılmazlıq içərisindədir. O, çox aydın görür ki, bu dünya ona tanışdır. Sanki bu dünyada o, əvvəllərdə də yaşayıb. Hansı zamanlarda isə ruhunun göylərdən müşahidə etdiyi nəzərlərilə bu dünyanı yaxşı tanıya-tanıya min illik bir yolu keçib gəlib. Onun keçdiyi yolun, onun tanıdığı həyatın üzü-astarı bəllidir. Elə sonuncu yüz ilin güzgüsündə göründüyü kimi.

XX əsr nə qədər göyləri öyrənməyə can atdısa, bir o qədər də yerləri öyrənməyə çalışdı. *"Yerləri öyrənmək"* anlamını ilkin mənasında qəbul etməkdən çox, onun mənəvi mənasına varmaq vacibdir. Burada *"yerlər"* anlayışı həm də keçmişi, tarixi öyrənmək mənasında başa düşülməlidir. Bu mənada insan özünü dərk etmək üçün göylərə, yəni gələcəyə yol açmazdan qabaq, həm də keçmişə yol açmağa çalışmalıdır. Keçmişin dərinliklərində, qaranlıqlarında qalmış tarixi mədəniyyəti öyrənmək, onun bu günə uzanan bağlarını tapmaq və bununla da yeni həyatın mənəvi kodlarını açmağı özünün əsas ümdə işi bilməlidir.

H.İsaxanlı mənəvi kodların əsas açarı kimi həyat eşqini görür. Yaşamaq həvəsinin, həyata sevginin olmadığı şəraitdə insan ruhdan, hissdən, emosiyadan məhrum olan duyğusuz bir varlıqdır. Yalnız ömrün qısalığı və həyatın şirinliyi təzadında insan yaşarılığın mahiyyətini daha aydın qavraya bilər:

Uzaq ulduzları saya bilmirik,
Yaxın sevgiləri duya bilmirik.
Ömür çox qısadır, həyat çox şirin,
Nə qədər yaşasaq, doya bilmirik.

Həyatın mənasını yaşamaqda və yaşamağın mənasını yaratmaqda görən müəllif - Yaddaş Sahibi çox yaxşı bilir ki, əzəmətli bir keçmişin, tarixin qaranlıqları altında qalsa da, çox zəngin bir mənəvi sarayın özülləri üstündə dayanıb. Elə buna görə də həyatın axarı Yaddaş Sahibinin və əlbəttə ki, həm də onun mənsub olduğu etnosun tale, bəxt formulu ilə üzünə gülməsə də, onun iradəsi və inamı var. Yalnız bu inamın, bu iradənin gücünə onun daxilindəki enerji mənbəyi yeni partlayışlarla üzə çıxır. Və bu işığı onun gözlərində də görürük - sözlərində gördüyümüz gözlərində:

Tale üstümüzə kölgə salsa da,
Ürəklə dil tapmaq çətin olsa da.

Yaşayaq, yaradaq, könül xoş olsun,
Sevinc halal olsun, gülüş nuş olsun.

Bəzən şairin yaradıcılığında sanki epizodik xarakter daşıyan və bəlkə də, ilkin müşahidədə əsərin əsas xəttindən kənara çıxan hissələr, parçalar olur. Və çox vaxt bunları dəqiq müşahidə edə bilməmək əsərin daşıdığı əsas yükü qavramamağa gətirib çıxarır. Bu məqamı böyüklərin yada düşdüyü zaman çox səmimi, doğma, insanın özünün ruhundan gələn hisslərlə müşayiət olunan parçanın sonundakı bəndlərdə də duymaq olar. Elə bil ki, müəllif düşdüyü o sehirli aləmdən qopur, o kənd də, xatirələrin oyandığı yerlər də yaddan çıxır. O dünyanın övladına çevrilir. Elə o xatirə yerlərini yaşadan, kəndi unudan dünyanın haqqında danışır. Amma buradakı əsas bağlılıq unudulmur, Yaddaş Sahibinin qənaətinə görə, elə o bir yetim uşaq kimi boynunu bükən kənd o vaxt yaşarı ola bilər ki, dünyanın özü yaşarı olsun, dünya məhvərindən qopmasın, insanlar dünyaya öz evləri kimi baxsın. Və bu mənada, dünya insan evidir, desək, səhv etmərik. Yaddaş Sahibi nə qədər xatirə yerlərini yaşadan kəndin təəssübünü çəkirsə, bir o qədər də o kəndi öz sinəsində saxlayan dünyanın təəssübünü çəkir.

Burada mənəvi xəritənin paralelləri, kəsişən meridianları həmin kənddən keçməklə dünyanın belinə dolanır. Müəllifin də istədiyi budur. O, dünya ilə gözdən-nəzərdən kənarda qalmış o kəndin daxili-mənəvi bağlılığını görmək və elə bu bağları qorumaq məqsədini daşıyır. Bir ziyalı olaraq öz missiyasını bu qoruyuculuq gücündə görür.

# Göynəyin köynəyində

Zamanlar sürətlə dəyişir. Bu dəyişmə fonunda ayrı-ayrı ölkələr, xalqlar, qitələr ən müxtəlif rənglərdə təzahür edir. Və sanki bu zaman və məkan sonsuzluğunda Dədə Ozana sürətlə dəyişən küləklər heç bir əsər eləmir. Bu küləklər onun uzun, ağ saqqalını üz-gözünə, boyun-boğazına səpələsə də, qopuzu yenə qucağındadır. Dədə Ozan tarixdən gələn nəğməsini oxumaqdadır.

*"Ziyarət"* davam edir. Yaddaş Sahibi sanki Dədə Ozanın dilindən aldığı sözü təkrarlayır: ***"qismətdənmiş bu görüşmək"***. Demək, bu görüş təsadüfi ola bilməzdi. Bu görüş Yaddaş Sahibinin qismətində varmış və əslində, bütün dünyanı gəzə-gəzə onun xəyalında həmişə bir fikir, bir məram onunla sədaqətlə yoldaşlıq edib, onu heç vaxt tərk etməyib. Onunla birgə yatıb, yuxularında da onun yanında olub. Və nəhayət, axır ki, bir gün onun əlindən yapışıb bu gəzdiyi dünyanın ona doğma olan və həmişə onun yaddaşında olan bir bucağına gətirib:

Bir ağsaqqal yaxın gəldi,
Nur yağırdı camalından.
Üzümdən öpüb köyrəldi,
Şikayət etdi halından.

Kimdir bu qoca? Onun adı, ünvanı Yaddaş Sahibinin ağrılarla çulğaşmış olan xatirəsinin içərisindən necə görünəcək? Bu yol, bu ad, bu ünvan ən ümumi şəkildə tarixdir. Bir az ona yaxın getsək, onun üzərindəki zaman küləklərinin yığdığı tozu bir kənara çəksək, əslində, mənəvi mədəniyyətimizin daşlaşmış tarixini görmüş olarıq. Biz sonuncu yüzilliyin keçmişi axtaran gözüyük. Gözümüz bizi aldatmırsa, gördüklərimizə daha yaxından nəzər salaq;

şübhəsiz ki, son yüz ildə "Bilqamıs"ın - qədim şumer mədəniyyətinin, "Avesta"nın - antik dünyadan daha qədimlərdə qalmış olan mədəniyyətin sonrakı mərhələyə, sonrakı qədim mərhələyə - Dədə Qorquda gələn yolu aydınlaşdırılmaqla, əslində, bugünkü dünya düzənində, bugünkü sivilizasiyaya böyük türk etnosunun nə verdiyini öyrənmək mümkün olur. Başqa sözlə, ümumdünya mədəniyyətində türk etnosunun yerini bu yolla daha dəqiq görmək olar. Amma bayaq Yaddaş Sahibi ilə üz-üzə dayanmış qoca gileylidir. Sanki o, bu görüşü çoxdan gözləyirmiş. İndi onun gözləri tor görür, əlləri titrəyir, dizləri taqətdən düşüb. Və elə onun təəssübü də bununla bağlıdır ki, onun övladı - Yaddaş Sahibi niyə belə gec gəlib? Axı indi o, məcburdur həyatından gileylənməyə:

"Ağrın alım,
Yaman artıb ağrılarım.
Ayaqlarım sözə baxmır -
Yeldimi, duzdumu, nədi?
Zəli tək tutub buraxmır.
Yoxsa ayrı nə dərdim var?!
Oğul-uşaq, gəlin, kim var.
Dörd yanımda pərvanədi,
Sağ olsunlar, baxan çoxdu"
Nəfəs alıb o duruxdu:

Qoca həyatının tarixçəsini danışır. Bu həyatın ən önəmli tərəfi odur ki, o, Yaddaş Sahibinə təmsil elədiyi kəndin hələ yaşadığını, hələ onu qoruyanların, onun qayğısını çəkənlərin olduğunu çatdırır. Və yəqin ki, əgər dünya onu bir gün tamam unudacaqsa, indiki məqamda Yaddaş Sahibi gəlməyəcəksə, onun da ömrünün qürubu çatacaq. Hər halda qoca duruxur, dərindən nəfəs alır və yenə həmin qopuzunu sinəsinə sıxmış ozanın asta-asta, bəzən zümzümə ilə, bəzən də kədərqarışıq ovqatla səsləndirdiyi nəğmələr təkcə Yaddaş Sahibinə yox, Yaddaş Sahibinin üz tutduğu insanların hamısına çatır:

Di gəl bütün günü evdə
Qaxılıb qalmaq da olmur.
Ayaqlarım getməsə də,
Könül həvəsdən yorulmur.

Ziyarətə gələnlə ziyarətgah arasındakı münasibət əslində, tərəflərin bütövləşməsinə xidmət edir. Ziyarətə gələn ona görə ziyarətə can atır ki, özündə görmək istədiklərinin bir çoxunu o, vaxtilə yaşadığı mühitdə, doğulub boya-başa çatdığı yerlərdə, başqa sözlə, bu gün ona ziyarətgah olan yurd yerlərində qoyub gəlib. Onun bu yerlərdə qoyub gəldiyi xatirələrdir. Amma xatirələr onun yaddaşında heç nədən bərpa oluna bilməz. Bu oyanış üçün vaxtilə ona doğma olan, onun özündən əvvəlki nəsilləri - babasını, atasını, nənəsini xatırladan insanları görməsi ilə, yenidən onlarla görüşməsi ilə mümkün ola bilər.

Belələrindən biri də *"ayağında köhnə patava"* olan bir qocadır. Ümumiyyətlə, şair yurd yerlərinin təbiətini vermək üçün yeri gəldikcə unudulmaqda olan ifadələri tapıb işlədir və bununla da xarakterik cizgilərə nail olur. Bax, elə bu qocanın da ayağında patava olması, evdə qaxılıb otura bilməməsi, qocalsa da, könlünün həvəsdən düşməməsi - bütün bunlar həyat eşqinin tərənnümü olmaqla bərabər, həm də yurd yerinin timsalı olan qocanın dəqiq cizgiləridir. Hətta o qocanın adı çəkilmir, ancaq oxucu üçün o qoca lap yaxından yaxın olur. Misralarda bir ürək döyüntüsü, kövrək bir çırpıntı hiss olunur. Bu ürək döyüntüsü, bu çırpıntı elə, əslində, qocanın həyat eşqilə ahəngdardır. Qoca öz həyatını danışır. Danışır ki, bir az yüngülləşsin, həm də bu yüngülləşmə ona könül rahatlığı gətirir. Adama elə gəlir ki, qoca yurd yerinə ziyarətə gəlmiş, yarı yaşına çatmaqda olan eynəkli cavanın özündən gileylənəcək, yəni ona deyəcək ki, mənim də zəmanəm qurtarır, bəs bu yurdun keşikçisi kim olacaq? Amma hər halda qocanın dərsləri daha üstündür. O, heç kimdən gileylənmir, başqasını günahkar tutmur. Amma hər halda yurd yerində qalmağın borcunu çox dəqiq, aydın çatdırır: toydan qalmaq olmaz, nişandan qalmaq olmaz, xeyirdən-şərdən necə ayrı düşmək olar... və nəhayət, artıq qeyd elədiyimiz həmin gileyin özünəməxsus tərzdə ifadəsi yurdun övladlarına, yurddan pərvəriş tapıb dünya arenasına çıxmış adamlara şirin bir xitabla müraciət olunur. Və bu müraciətin özü də son nəticədə qocanın özünə ünvanlanır:

Elə ki, açıldı hava,
Ürək ki, birdən döyündü,
Ayaqda köhnə patava,
Gəzib dolaşıram az-az;
Toydu, nişandı, düyündü

Xeyir-şərdən ayrı düşmək
Ay oğul, mənə yaraşmaz.

Tərəflərin qarşılaşması nə qədər kövrək, duyğulu, hətta bir çox hallarda baxışların danışması ilə əvəzlənsə də, ixtilaf yoxdur, ziddiyyət yoxdur, tərəflər bir-birinə doğru can atır. Sanki qoca özünün gələcək həyatını bu yurdun oğlu olub, indi dünyaya səs salmış Yaddaş Sahibinin taleyində görür. Məhrəmliyi də yaradan, doğmalığı da qoruyan elə bu hissdir. Əslində, Yaddaş Sahibi də məmnundur. Qocanın gözlərində parlayan həyat eşqinə baxıb dünyanın ziddiyyətləri arasından gələcək həyatının doğru yolunu görür. Bu yol onu taleyin ən ağır çarpışmalarından keçirər, onu son ana, son mənzilə alnıaçıq, üzü ağ aparar. Ziyarətin dəyəri bundadır. İnsan itirdiklərini qaytarmasa, tapmasa zərrələrə bölünər, ümuminin içində itər. Cəmiyyətin dərdi, ağrısı o qədər artar ki, onun daxili nizamı da pozular. Amma hər halda Yaddaş Sahibi nikbindir. Bəlkə də, nə vaxtsa ümidini itirmişdi yurda qayıdış üçün. Elə onun öz təbirilə desək, ziyarət üçün. Amma bu ziyarət mümkün olub, elə o bədbinliyin, ümidsizliyin nəticəsi olaraq Yaddaş Sahibi buna *"qismətdənmiş bu görüşmək"*, - deyir.

H.İsaxanlı dilin koloritini saxlamağın, dilin daxili enerjisindən istifadə edə bilməyin yolunu canlı dilin imkanlarında görür. Ən böyük bəladan, xatadan, qəzadan xilas olanda insanlar deyirlər ki: *"Allah üzümə baxdı".*

Müəllif görüşün, ziyarətin qədir-qiymətini, onun nə demək olduğunu yaxşı bilir. Bəlkə də, illərlə can atıb ki, bu ziyarəti həyat yoluna çevirsin. Ömrünün bir parası olsun bu ziyarət. Amma uzun illər gələ bilməyib. Və nəhayət, bu ziyarətin baş tutması üçün növ-növ çətinliklərdən keçib, iradəsinin və inadının hesabına maneələri dəf edib. Qəribədir ki, bu halı eynilə qocanın özü də keçirir. Və Yaddaş Sahibinə dedikləri də elə əslində, Yaddaş Sahibinin qəlbindən keçən duyğulardır. Sən demə, elə qocanın da dərdinin çarəsi bu görüşməkmiş. Yoxsa o, dunyadan gözü yolda, əli uzalı gedərmiş:

Qismətdənmiş bu görüşmək,
Allahım üzümə baxdı.
Sürünsəm də durub gəldim,
Dünya fani, ölüm haqdı,
Görüşdük, bir az düzəldim.

Qoca indi özünü arzusuna çatmış kimi hiss edir. Daha onun heç bir dərdi yoxdur. Buradaca qocanın adını, ünvanını bir kənara qoyub bu deyilənləri eynilə yurdun dilindən eşitdiyimizi təsəvvür edək: burada yurdun nə qədər canlı, ruhlu bir varlıq olduğunu təsəvvür etməmək mümkün deyil. Amma hər halda qoca özünü müvəqqəti, yurdu əbədi hesab edir. Könülləri dağlayan bir sözlə üzünün o yana olduğunu dilə gətirməklə, görüşün kədərli ovqatından yaranan həyəcanları bir az da artırır. Artıq dəfələrlə qeyd eləsək də, təkrar-təkrar hər sözümüzün başında Borçalı taleyini xatırlamasaq, Borçalı taleyinin kədərini, ağrısını dilimizə gətirməsək, bir gün Vətənin qıraqda qalan yerləri kimi, Borçalıya da əlimiz çatmaz. Qocanın dediklərini yurdun üzərinə köçürsək və yurdun dedikləri kimi qəbul eləsək, onda Borçalının başının üzərindəki qara buludları da aydın təsəvvür etmək olar.

Qoca sanki vida sözlərini deyir:

Yenə min şükür bu günə...
Amma üzüm o yanadı.
Sən gələn dəfə gələnə
Eh, kim ölə, ya kim qala?!
Bu da belə zəmanədi,
Sən yaşa, sən var ol, bala.

Burada bir məqamı da unutmaq olmaz. Müəllifin insan dərdlərinin, ağrılarının dərinliyinə varmaq gücünü. Əsərdə Yaddaş Sahibinin dil tökməsinə, qocanın xətrini çox istəməsini dilə gətirməsinə ehtiyac duyulmur. İnsani münasibət, qoca ilə ehtiramla görüşmək, qocanı dinləmək, onun hansı hisslərlə yaşamağını duymaq Yaddaş Sahibinin baxışlarından da görünür. Şəffaf eynəyin altından baxan gözləri dolur, bu gözlər qocaya deyir ki, dərdlərimizi bölməmişik, ağrılarımızı ayırmamışıq, qocanı da, cavanı da və demək, yurdu da göynədən elə bircə dərddir. Hamımızın sinəsində göynəyə çevrilmiş dərd. Bu dərdi yurd da, qoca da, Yaddaş Sahibi də eyni biçimdə köynək kimi geyib - ***göynəyin rəngində olan köynək***. Bu dilləşmənin, bu bir-birini asan başa düşmənin, bu üçbucağın arasında yaranan birliyin bircə adı var: insanilik. İnsanilik körpüsünün özülləri qırılmayıbsa, bir-birindən ayrı düşənləri vaxt yadlaşdıra bilməz.

Həyatın davamlılığına inam, yaşarılığa inam, haqqın qudrətinə inam, qocanın son sözlərində çox kədərli simfoniyanın nikbin ovqatlı son akkordu kimi səslənir: *"Sən yaşa, sən var ol, bala!"* Təkcə elə bu sözlər qocanın mənən nə qədər zəngin olduğunu, yurdun nə qədər əzəmətli olduğunu təsdiq edir. Qoca onu ziyarətə gəlmiş Yaddaş Sahibindən maddi yardım istəmir. Yaxşı başa düşür ki, onun ağrısı, acısı üçün həb yox, dərmanlar yox, elə bu insani münasibət bəs edəcək bir çarədir.

* * *

H.İsaxanlının poeziyasında onu fərdiləşdirən, onun poeziyasını müasir şeiriyyətin boz-bulanıq axınından fərqləndirən bir cəhəti mütləq qeyd etmək lazımdır. Bu, bir bayatı ovqatıdır. Sanki onun şeirlərində bayatı ritmi, bayatı ahəngi, eləcə də bayatı ovqatı bütün qabarıqlığı ilə görünür. Söhbət, əlbəttə, bayatı formasından getmir. Onsuz da H.İsaxanlı istər şeirlərində, istərsə də *"Ziyarət"* poemasında sözü, fikri qafiyə xatirinə divana çəkmir. Elə təbii axarla öz ritmində ifadə edir. Bu ritm, bu ahəng onun mənəvi aləmindədir. Müəllifin üstünlüyü kimi bunu mütləq qeyd etməliyik ki, o, daxilində olan ritmi formaya tabe etməyə cəhd göstərmir. Sanki onun başlıca bir prinsipi var - səmimiyyəti qorumaq. Onun daxili aləmində səslənən simfoniya ağır-ağır, təmkinlə, kədərqarışıq bir ovqatla, necə varsa, eləcə də üzə çıxır. Daxili aləmindəki sarsıntılar, psixoloji gərginliklər onun misralarında açıq-aşkar duyulur. Bəzən bu fəryad şəklində, sarsıntıların ifadə olunduğu kədər şəklində görünür. Bəzən də həyatın xoş üzündən ruhlanan, həyat eşqilə alışan bir ürəyin çırpıntıları şəklində. *"Ziyarət"* kitabında toplanan şeirlər də elə bu ovqatla yazılıb. Zənnimcə, *"Ziyarət"*i daha yaxından dərk etmək, daha dərindən anlamaq üçün onun bayatı ovqatı gətirən - bir daha qeyd edilməlidir ki, söhbət formadan getmir - şeirlərinə də nəzər salmaq, bu şeirlərin ruhu ilə *"Ziyarət"*in ruhunu tutuşdurmaq, yaxınlığın, doğmalığın mahiyyətini anlamaq üçün bəs eləyərdi. Məşhur bir mahnı var: *"Anama deyin..."* ayrı-ayrı bölgələrin el-ağız ədəbiyyatında da *"gedin, deyin anama"* şəklində işlədilir. Müəllif anasına ismarıc elədiyi mahnısını belə oxuyur:

Gedin, deyin anama,
Daha çıxmasın dama,
Göy dağlara qar yağıb.

Gedin, deyin anama,
Hələ yetmədim kama,
Amma saçım ağarıb.

Gedin, deyin anama,
Daha toyda oynama.
Qırılıbdır qanadım,
Güllə dəyib sonama.

Nə qədər gözəldir, nə qədər ritmikdir, nə qədər kədərli bir mahnıdır! Şairin bütün varlığını özündə ehtiva edən bu mahnı-oxşama, bu nəğmə-bayatı sanki xalqın min illər boyu ruhundan gələn, varlığına hopmuş olan, az qala onun özüylə əbədiyyətəcən yoldaşlıq edəcək bir kədərin səsidir. Bundan o yanası yoxdur. Budur dildən istifadənin məharəti, budur xalqın ruhundan gələn duyğuların mənimsənilməsi, budur insanlığın dərdini, kədərini sevməyin əsl mahiyyəti!

Yeri gəlmişkən, sözün, fikrin sadə cümlələr şəklində insanın varlığındakı ritmi özündə ehtiva edərək üzə çıxması ilə bağlı mütəxəssis qənaətinə söykənək. Filologiya elmləri doktoru Sevil Mehdiyevanın fikirləri bu cəhət - dən çox maraqlıdır:

> "Danışıq dilinin (nitqinin), ümumən ümumxalq danışıq dilinin sintaktik xüsusiyyətlərindən biri də danışıq aktı, nitq prosesində yığcamlıq, tezlik xatirinə sadə cümlə tiplərindən geniş dairədə istifadə edilməsidir. Bu hal Azərbaycan şifahi poeziya nümunələrində - bayatılarda, ağılarda, əmək nəğmələrində xüsusilə genişdir. Məlumdur ki, şifahi xalq poeziyasının bu janrları özünəməxsus xüsusi ritm, ahəng, intonasiya, vurğu tələb edir. Bayatıların, ümumən xalq şeiri janrlarının məzmununa müvafiq olaraq bəzən emosionallıqdan uzaq, adi informasiya məzmunlu nəqli cümlələrdən (əlbəttə, bunlar azdır), bəzən ekspressiv-emosional intonasiya ifadə edən nida cümləsindən və onun nida-əmr, nida-sual, ritorik intonasiyaya malik, sadə cümlə tiplərindən istifadə olunur. Bayatılarda xalqın içindən gələn emosional halətlər, daxili iztirab, sarsıntı kimi psixoloji anları ifadə edən nida cümlələr, xüsusilə geniş yayılmışdır. Bu, sadə cümlənin bu növünün şifahi da-

nışıq dili üçün səciyyəvi olması və nitqin emosional çalarlarını geniş mənada ifadə etmək keyfiyyətilə əlaqədardır"[1].

Sanki H.İsaxanlının yaradıcılığı haqqında deyilib. Məxsusi elə nümunə üçün seçdiyimiz *"Gedin, deyin anama"* şeiri üçün deyilib. Bir daha qeyd etməyə dəyərdi ki, bu misraları yazmayan müəllif heç ziyarətə də gedə bilməzdi.

Ümumiyyətlə, Şərq ədəbiyyatı üçün doğma olan obrazlar - pərvanə, şam həsrətdən incəlmək, kədərdən üzülmək... H.İsaxanlıya da yad deyil. Amma o, necə qəribə tərzdə bu obrazların yerini dəyişdirir. Anasına xəbər göndərir ki, bu ayrılıq onu şam kimi incəldib. Axı şamda da bir zəriflik, incəlik var. Amma bu şam həm də ona görə özünə qədərki şamlardan fərqlidir ki, onun pərvanəsi yoxdur.

Gedin, deyin anama,
İncəlib döndüm şama.
Ətrafımda dolanan
Pərvanəm yoxdur amma.

Şair tənhalığı, şair təkliyi özünün ağrı-acıları ilə baş-başa qalmaq, bir sözlə, öz dərdini özü çəkmək taleyi yaşayan lirik qəhrəman göründüyü kimi, heç qəhrəmanlıq iddiasında deyil. Deyəsən o, heç böyüklük davası da eləmir. Uşaqlıq səmimiyyəti ilə danışır. Bir körpə balanın qərəzsizliyi, dünyaya sevgi hisslərinin intəhasızlığı, insanlara məhəbbəti də duyulur. Amma bütün bunlarla bahəm, onun dərdinə, onun ağrısına həyan olacaq bircə anası var. Bu ananın gözü yollardadır. Yenə də ana obrazı ilə yurd obrazının qovuşması motivi üzə çıxır:

Gedin, deyin anama,
Uzaqda ki, balan var.
Onu çox da qınama -
Uzaqdadır gələmmir,
Son vaxtlar kefi yoxdur.

H.İsaxanlı elə indi Azərbaycanda dəbdə olan gurultulu Vətən pafosu daşıyan, yurd təntənəsini tərənnüm edən odlu-alovlu şeirlər yazmaq fikrində

[1] Sevil Mehdiyeva."Bayatıdan dastana". Bakı, 2010, s. 41.

deyil. Çünki o, yaxşı bilir ki, Vətənin, yurdun bu cür gurultulu tərənnümlərə etiyacı yoxdur. Yurdun, Vətənin dilində danışmaq ehtiyacı var. Bir şair intuisiyası ilə elə bunu duyduğuna görə gələ bilməməyin, anaya əlinin çatmamağının ağrısını yazmaq hər bir insanın içərisində olan nisgilin, bu nisgillə qövr eləyən yaranın qaysağını qoparmaqdır. *"Uzaqdadır, gələmmir"* sözündə, fikrində, cümləsində hər şey var. Yer də var, göy də var, cənnət də var, cəhənnəm də var, insanı sevindirə biləcək hər şeyin bu həsrətin içində olduğunu görməmək mümkün deyil. Onun həyatı bütün əlvanlığı ilə elə həmin uzaqda olmağın, gələ bilməməyin rənglərində üzə çıxır. Sonuncu misralara diqqət edək:

Yorulub qəm-kədərdən,
Heç ürəkdən güləmmir;
Ölmək istəyir hərdən,
Amma hələ öləmmir...

Poetik cazibədarlığın, insan həsrətinin dəhşətli əzab və iztirablara çevrilməsinin son həddi, son anı görünür. Ölmək istəyəsən, ölə bilməyəsən çalarında. Bəlkə də, insanı qorumağa, insanı yaşatmağa, həyata sevgi hissləri təlqin etməyə çalışmaq üçün insanın dərdlərinə çarə üçün bundan o yana sözə lüzum yoxdur.

Doğrudan da, adam hərdən ölmək istəyir.

# Yurda könül ziyarəti

H.İsaxanlı *"Ziyarət"* poemasında ilk baxışdan heç bir möcüzə yaratmaq fikrində deyil. Sakit, təmkinli bir axarla elə bil ki, heç qələm sahibi olmadan dədə-baba yurduna ömrünün gözünə eynək taxmış bir vaxtında görüşə gedir. Və elə bu görüşün özündəcə ona bir çox həqiqətlər əyan olur. Həyat, cəmiyyət, insanlar haqqında düşünməli olur. Məqsədli şəkildə yox, sadəcə, şairin təəssüratlarından göründüyü kimi, əsl həyatla üzbəüz dayandığı üçün. Və bu zaman yurdla qarşılaşır, yurdun timsalı olaraq elə adamlarla qarşılaşır ki, onların yanında düşünməyə məcbur olur. Mən bu adamlarla üzbəüz dayana bilərəm, ya yox?!

El arasında belə bir söz var: *"Gərək elə iş tutasan ki, qabağa çıxanda dilin gödək olmasın"*. Çox doğrudur, insan ömrü boyu bircə qəbahətin müqabilində o qəbahəti görmüş adamların qabağında açıq alınla, qürurla dayana bilmir. Başqa sözlə, dili gödək olur. Görünür, elə bu səbəbdən, bu mənəvi-əxlaqi kriteriyalar çərçivəsində danışan müəllif indiki məqamında bir hökm verir: *Dilimiz gödək olmasin*!

Dəxli yoxdur, bu hökmü müəllif verir, yurd verir, yoxsa, yurdun təmsilçisi olan qoca kişi verir. Buradaca bir məqama mütləq diqqət yetirmək lazımdır. Elə istedadlı adamlar var ki, onlar cəmiyyətin mənəvi mühitinə təsir göstərmək gücündə olmurlar. Hətta istedadları ilə günəşin qabağını tutmaq gücündə olsalar belə. Səbəbi? Mənəvi-əxlaqi kriteriyalara cavab verə bilmədiklərinə görə. Çünki zaman şahidi olduğu qəbahəti asanlıqla bağışlamır. Amma H.İsaxanlının yaşadığı həyat, onun yaradıcılıq ömrü bir alim kimi, bir ziyalı kimi fəaliyyət ömrü kifayət qədər onun özunu qorumaq gücündədir və onu ayağa qaldırmaq, onu öndə tutmaq iqtidarındadır. Bəlkə V. Q. Belinskinin dediklərini yada salaq:

"Biz demişdik ki, Puşkini oxumaq – adamlarda incə insani hissin tərbiyələnməsinə, inkişaf etməsinə və yaranmasına çox təsir etməlidir. Bəli, belədir: köhnə əqidəli ədiblərimiz, quru moralistlərimiz, qəlbsiz antiestetik öyüdçülərimiz qəzəblənmiş lsalar da deməliyik ki, rus şairlərindən heç biri həm gənc, həm yaşa dolmuş, hətta qoca (əgər onlarda estetik və insani hiss zərrəsi olmuş və hələ ölməmişsə) oxucuların tərbiyəçisi olmaq kimi şəksiz bir haqqı Puşkin qədər qazana bilməmişdir, çünki Rusiyada böyük talanta malik olmaqla bərabər, Puşkindən daha əxlaqlı bir şair tanımırıq"[1].

Nə qədər sərrast və nə qədər dəqiqdir! İndi H.İsaxanlı kimi özünün poetik dünyasında yaşayan sözün ədəb-ərkan gücündə danışan və az qala bütün əxlaqi dəyərləri ayaqlayan iddialardan imtina edən bir şair tanıyırıqmı? Beləcə, təqribən 150 il bundan əvvəl Belinskinin dedikləri ilə nə qədər həmahəngdir, nə qədər səsləşmədədir. Yoxsa, necə yurda ayaq basasan, yurdun ayaq basdığın yerdə kimsənin eşitmədiyi səsləri eşidəsən! Bu, necə mümkün ola bilər? Bu, yalnız ruhi etibarilə yurda son dərəcə bağlanmaqla canın, ruhun, nəfəsin yurda bağlılığı ilə mümkün ola bilər. Başqa cür H.İsaxanlı yurdun obrazı olan qocanın dilindən *"dilimiz gödək olmasın"* deyə bilməzdi.

Şair yurduna qayıdıb. O yerə qayıdıb ki, orada onu görmək istəyən adamlar var. Onun başına yığışıblar. O qoca da, əsə-əsə, titrəyə-titrəyə həyatının keşməkeşlərini, ağrılarını çiyninə alaraq onun hüzuruna gəlib. Əslində, şair o qocanın hüzurundadır. Və bu mənzərə çox təsirlidir. Biz burada qətiyyən hissləri və həyəcanları axtarmırıq. Elə görmək istəyirik, nə baş verir? Kim danışır, kim dinləyir? Kimin əhvalı necədir?

Danışırıq şirin-şirin,
Söz-söhbətdə sən duza bax!
Çay soyuyub, çay gətirin,
Yatıb nədir arvad-uşaq?!
Yeməkmi var? Süfrə salın,
Sözü yoxdur ağsaqqalın.

Yurd həsrət çəkib, ağrı çəkib onun dərdini daşıya biləcək oğul arzulayıb. Oğul isə öz gücünü tapmaq üçün dunyanı gəzib, elmlərə vaqif olub,

---

[1] V.Q.Belinski."Rus ədəbiyyatı klassikləri haqqında". Bakı, 1954,  s. 124.

söz-sənət sahibi olub, adı ilə dünyanın yarısını fəth eləyib. Bundan sonra yurda qayıdıb. Ancaq o, bifəhm, bifərasət kimi yurda qayıtmayıb. O, yurda işıq gətirib, özünün dünyasında olan işığı yurda qaytarıb ki, bu yurdun çırağı sönməsin. Yurd da onu qədərincə qiymətləndirir. Yurdun timsalında qoca dil-dil ötür:

Çox iş görübsən, çox sağ ol,
Bir az da dincəl, ay oğul.
Soruşmuşam qardaşından,
Dedi ki, cavan yaşından
Gözünə gözlük taxıbsan.
Kitablardan daha əl çək,
Gör nə qədər oxuyubsan?!

Yurd qayğılıdır, yurd ağrı çəkir, yurdun dərdi elə şairin dərdinə müvazidir. Elə yurdun dərdi nə qədər ağırdırsa, şairin də dərdi bir o qədər ağırdır. Yurd öz oğlunu ağuşuna çəkib, sinəsinə alıb ki, yarasına məlhəm olsun. Amma görür ki, bu oğulun özü nə qədər dərdlidir, nə qədər qayğılıdır. Heç yarı yaşına çatmamış gözünə eynək taxıb, yarı yaşına çatmamış ömrünü bitirmiş qocaya bənzəyir. Amma yenə oğul oğulluğundan qalmır. Yenə bu yurdun sinəsinə süfrə salmağı, bu yurdun nemətlərindən həyat iksiri kimi dadmağı gələnlərə rəva bilir. Onun bütün varlığı, onun kimliyi elə bu yurdun təbiətilə bağlıdır. Və yurd onu nə qədər öyürsə, bir o qədər daha artıq məsuliyyət duyur. Yurdun öygüsü ona yeni həyat dərsidir, yeni tapşırmalardır:

Deyirlər ki, neçə dəfə
Neçə dəryalar aşıbsan.
Alosmandan o tərəfə
Gedib gəzib dolaşıbsan.
Yaxşı deyiblər dədələr.
Çox gəzib-görən çox bilər...

Bu təriflər, bu tərənnümlər, bu öymələr, bir sözlə, bu öygülər əslində, Yaddaş Sahibinə diktə eləyir ki, indiyə qədər yaşadığın həyatın mənası, qiyməti bundan sonrakı ömrünlə bağlıdır.

Azərbaycan şifahi xalq ədəbiyyatında, ağızda, canlı dildə hər bir azərbaycanlını, türk oğlunu o vaxt mükəmməl hesab eləyirdilər, o vaxt mənəvi

güc sahibi hesab eləyirdilər ki, o, Türkiyəni gəzib dolaşmış olsun. Ən azı XIX-XX əsrlərdə türk mənəvi mühitinin mərkəzi olan Alosmanda oxumuş olsun, o yeri-yurdu gəzmiş olsun, Alosmanın təbiətini götürmüş olsun, yəni türklük məktəbini keçmiş olsun. Elə H.İsaxanlının *"Alosmandan o tərəfə gedib gəzib dolaşıbsan"* sözləri qocanın dilindən deyilən bu sözlər Yaddaş Sahibinin və nəticədə müəllifin özünün mənəvi rütbəsidir. Təsadüfi deyil ki, poemada *"Alosman"* ifadəsi işlənib. Qoca isə - yurdun timsalı olaraq sözünə davam edir; çox gəzmisən, çox görmüsən və yəqin ki, çox gəzib, çox görən daha çox bilər. Elə buna görə də sən kim olduğunu indi daha yaxşı bilməlisən. Budur ən dəqiq mənzərə, ən acınacaqlı mənzərə. Yurd üzə (əlbəttə, qocanın timsalında) durur:

Deyirlər çox qabaqdadır
Bizdən bir para millətlər.
Yəqin bizimkilər yatır,
İşsizlikdən batır kəndlər.

Bundan o yana şair nə deməlidir? Nə qədər dəqiq və aydın, istər Sabirin, istərsə də Şahriyarın zəmanəyə dediklərini H.İsaxanlı da öz zəmanəsinə deyir. Sabirin *"Əcnəbi göydə balonlarla uçur, biz hələ avtomobil minməyiriz"*, Şəhriyarın Avropa haqqında rəğbətli fikirləri, avropalıların işi işbilənə tapşırmaqları və eləcə də ulu babamız Nizaminin *"Xoşbəxtlər ölkəsi"*nin adamları haqqındakı qənaətləri yada düşür. Bəs onda niyə bizimkilər yatmalıdır? Nəyə görə işsizlikdən kəndlər batmalıdır? Bəlkə, elə bu səbəblərə görə, başqa millətlər bizdən qabaqdadır? Bu yerdə istər Yaddaş Sahibinin düşüncələri, istər yurd ağrıları bir fenomendə birləşir - şəxsiyyət fenomenində. Bir vaxt görkəmli rus ədəbiyyatşünası Mixayil Mixayloviç Baxtin (1895-1975) Dostoyevskidən danışanda deyirdi:

> "Fikir son bütövlükdəki sistemə hakim olur, sistem ayrı-ayrı fikirlərdən, yəni ayrı-ayrı ünsürlərdən ibarət yaradılır. Bu mənada Dosteyevski ideologiyası nə ayrı-ayrı fikir, nə də onların sistemli vəhdəti deyilən şey tanımırdı. Predmet etibarı ilə məhdud olan ayrıca bir fikir, müddəa, mühakimə deyil, bütöv nöqteyi-nəzər, bütöv bir şəxsiyyət mövqeyi onun üçün son bölünməz vahid idi. Dostoyevskidə predmet mənası şəxsiyyətin mövqeyi ilə ayrılmaz şəkidə birləşir. Hər bir fikir-

də şəxsiyyət sanki bütövlüklə verilmişdir. Ona görə də fikir birləşmələri bütöv mövqelər birləşməsidir, şəxsiyyətlərin birləşməsidir"[1].

Nə qədər aydın və nə qədər dəqiq düsturdur! Həmmüəllifin fikir və düşüncələri, həm də qocanın fikir və düşüncələri birləşir və mövqelərin birləşməsi şəxsiyyətlərin birləşməsini yaradır. Əlbəttə, söhbət ədəbiyyatdan gedir, söhbət sənətdən gedir. Ədəbiyyatın və bütövlükdə sənətin məqsədi budur ki, həyatda da belə bir bütövlük və birləşmə cazibəsi olaydı. Bu gün Azərbaycan üçün belə bir düsturun öz həllini tapması görün nə qədər əhəmiyyətlidir, dəyərlidir; Qoca isə sözünə davam edir:

Dilimizdə bir söz də var:
Əkib becərməyən yeməz.
Kim işləməz, o, dişləməz.
Siqareti damağında,
Kəklini yan darayanlar.
Eh, nə deyim, gərək onlar
İgidə yedək olmasın.
Çalışaq-vuruşaq ki, qoy
Yad ellərin qabağında
Dilimiz gödək olmasın.

Mühakimələr nə qədər sərrast, hədəf nə qədər aydındır. Halal zəhmətə çağırış, boş-boş danışmaqdan çox real bir iş görmək, çətinlikdən qorxmamaq tələbləri göz qabağındadır. Qoca - yurd çox sərrast danışır. *"Çalışaq-vuruşaq"* ona görə ki, yad ellərin qabağında sözümüz olsun deməyə. Sözü demək üçünsə, gərək güc olsun. Əgər güc olsa, demək, dilimiz də gödək olmaz. Görkəmli rus ədəbiyyatşünasnın fikrinin davamı yenə kara gəlir:

"Paradoksal şəkildə desək, Dostoyevski ayrı-ayrı fikirlər vasitəsilə deyil, nöqteyi-nəzərlər, düşüncələr, səslər vasitəsilə düşünürdü. O, hər bir fikri elə dərk etməyə, elə ifadə etməyə çalışırdı ki, bu fikirdə bütövlüklə İNSAN - əvvəldən axıracan onun dünyagörüşü ifadə edilmiş və səslənmiş olsun. Yalnız bu cür bütöv bir ruhi yönəlişliyi özündə saxlayan fikri Dostoyevski özünün bədii dünyagörüşünün ünsürünə çevirirdi; onun üçün belə bir fikir bölünməz bir vahid idi; bu cür va-

[1] M.Baxtin. "Dostoyevski poetikasının problemləri". Bakı, 2005, s.132.

hidlərdən predmet etibarilə birləşmiş bir sistem deyil, artıq mütəşəkkil insan məqsədlərindən və insan səslərindən ibarət konkret bir hadisə yaranırdı. Dostoyevskidə iki fikir artıq iki nəfər deməkdir, çünki heç kəsin fikri deyilən bir şey yoxdur, hər bir fikir isə bütövlükdə insanı təmsil edir"[1].

Göründüyü kimi, hər bir fikir elə H.İsaxanlının misralarında da ayrı-ayrı adamları təmsil edir. Ancaq bu adamların qovuşan tərəfləri var, birləşən tərəfləri var. Yurdun və qocanın, Yaddaş Sahibinin timsalında böyük insanı təmsil edən fikirləri görürük; amma axı başqa cür düşünənlər də var. Axı elə adamlar da var ki, güc, qüvvət, hərəkət mənbəyi olaraq ümid onlaradır, onlar isə başqa cür düşünürlər. Bax bu yerdə Yaddaş Sahibi ilə belə adamların - ağlı yox, gücü təmsil edən adamların (əlbəttə, zor mənasında), təbiəti də şairin nəzərindən qaçmır. Kimdir onlar?

Arxada sakit dayanan,
Gözündən gülən bir cavan
Sözə bir təzə dəm verdi:
Bulaq suyu, bir az kabab...
Sonra əmr et! İstəsən lap
Dağı yerindən tərpədək!
Əvvəlimci olaq biz də -
Qoy indi də o millətlər
Dolansınlar kölgəmizdə.

Real həyati gücü olmayan, boşboğaz, yurdun özünün üstündə yaşayıb, yurdun özündən çoxdan ayrılmış olan - cavan olsun, ya qoca, fərqi yoxdur, belə adamlar da var - görünür, Hegelin bu pritçasını xatırlamaq yerinə düşür:

"Əlbəttə, mən həm özümlə, həm də dışarı aləmlə bağlı yanıla bilərəm. Düşüncəsiz insanlar boş subyektiv təsəvvürlərə, gələcəkdə reallaşacağına ümid etdikləri, ancaq gerçəkləşməyən arzulara malik olurlar. Onlar tamamilə dağınıq məqsəd və maraqlarla məhdudlaşırlar, birtərəfli prinsiplərə söykənirlər və bununla da gerçəklikdən ayrı düşürlər. Lakin əgər bu mühakiməsiz insanlar özlərindəki subyektiv olanın hələ obyektiv olmadığını bilirlərsə, onda bu məhdudluq yuxarıda qeyd edilən yanlışlıq kimi hələ hansısa bir dəlilik deyildir. Yanılma və ağılsız-

[1] M.Baxtin. "Dostoyevski poetikasının problemləri". Bakı, 2005, s.132.

lıq o zaman dəlilik olur ki, insan özünün subyektiv təsəvvürlərini bilavasitə özü üçün mövcud olan obyektivlik kimi qəbul edir. Və onunla ziddiyyətdə olan gerçək obyektivliyi əksinə olaraq israr edir. Dəlilər üçün onlarda yalnız subyektiv olan obyektiv qədər doğrudur; özlərinin subyektiv təsəvvürlərində, - məsələn, onlar özlərini əslində, olmadıqları Adam kimi canlandırırlar - düzgün olduqlarına inanır və öz varlıqlarını bununla bağlayırlar. Odur ki, əgər kimsə dəli kimi danışır, onda hər şeydən öncə ona münasibətlərini, onun konkret gerçəkliyini tam həcmdə yadına salmaq lazımdır. Əgər o, - obyektiv ilişgiləri təsəvvürünə çatdırıldıqdan və bunları analdıqdan sonra da özünün yanlış təsəvvürlərindən əl çəkməzsə, onda belə insanın dəli olması heç bir şübhə doğurmur" [1].

Şair də heç onu pis cəzalandırmır. Kifayət qədər ədalətli cəzalandırır. Yəni ədalətli olduğuna görə, biz ona pis cəza demirik. Onun cəzası, özü də çox sərt cəzası ağsaqqalın – yurdun ona əhəmiyyət verməməsidir. Başqa sözlə, onu adam saymamasıdır, oğul yerinə qoymamasıdır.

Şair də mənzərəni nəzərdən qaçırmır, sadəcə, salnaməçi təmkini ilə dördcə misrada mənzərəni yaddaşa yazır:

Ağsaqqal fikir vermədi,
Bir azca xəyala daldı.
Sakit bir neçə söz dedi,
Göstərdi ki, ağsaqqaldı.

Amma, əlbəttə, əsas söz, əsas hökm qocanındır, Ən böyük təmkini də o göstərir. Guya ki, qoca çox danışmasaydı, çox təfərrüata varmasaydı, bir səfeh də meydana çıxmazdı, qocanın - yurdun və Yaddaş Sahibinin qarşısında boğazdan yuxarı danışmazdı. Nə məclis o məclisdir, nə məclisdəkilər o Nizami Gəncəvisayaq desək, nadan cavanın görmək istədiyi o adamlardır. Burada mətləb tamam başqadır, burada qocanın - yurdun dərdi kitab-kitab vərəqlənir, sinəsi oda-alova bükülür. O dili bilməyən, o bitiyi oxumayan nə o qocanın - yurdun dilini bilə bilməz, nə də Yaddaş Sahibinin gözlərindən yağan ağrıların mahiyyətinə vara bilməz. Qoca isə günahı özündə görür.:

[1] Hegel. "Ruh fəlsəfəsi". Bakı, 2003, s. 226.

Ürəyim yamanca dolub,
Qocalığın başı batsın.
Qocalarda adət olub
Sözü çeynəsin, uzatsın...

Qocanın bu sözlərindən sonra onu dinləmək yox, tanımaq yox, başa düşmək gərəkdir. Onsuz da klassik məntiqin tələbi də elə budur: tanımaqdan çox başa düşmək.

Yaddaş Sahibi kimdir? Əlbəttə, bu suala birbaşa cavab vermək çətindir. Ən azı ona görə ki, biz onu nə qədər aydınlığı ilə görə bilsək də müəyyən məqamlarda onun daha örtülü tərəfləri üzə çıxır. Görünüşcə, ətraf aləmə münasibətilə bizə yad adam deyil. Amma onun elə xarakterik cizgiləri var ki, biz müəyyən məqamlarda razılaşmaq istəməzdik: o, hər kəsi axıracan dinləməyi sevir. Bəlkə, dinlədiklərinin içərisində təbiətinə qanad verən bir səbəb oldu. Buradan belə bir nəticə çıxır ki, o, klassik təbircə desək, romantikdir. Bir az da xəyalpərvərdir. Bəlkə də, ona elə gəlir ki, ziyarət eləməyə gəldiyi yurdunun bütün ağrı-acılarına məlhəm ola biləcək, daşmış səbirlərə təskinlik gətirəcək. Amma həyat tamam başqa mətləblərdən xəbər verir. Bizim romantik, zəmanəmizin obrazı olan ziyalı nə qədər ayaqları yerdədirsə, bir o qədər də, mənəvi saflığı ilə qanadlıdır. Onun günahı yoxdur ki, torpağına, yerinə sahib olmayan adamların əvəzində cavab verməyə məcburdur. Yurd bütün varlığı ilə onunla üzbəüz danışan qocanın timsalında üzə durub. Beləliklə, biz *"Ziyarət"* əsərində cılpaq bir həqiqət görürük. Ya qoca ona təlqin elədiyi kimi, Yaddaş Sahibi özünün bütün varlığı ilə gücünü göstərməli, yurdun son nəfəsində ona dayaq olmalıdır, ya da sadəcə, acizanə bir şəkildə üzünü döndərib getməlidir. Budur həyatın iç üzü, ən yaxşı günlər, ən xoş ovqat, yurdun bəxtəvər günləri hamısı yada düşür. Yurd nə vaxt bəxtəvər olur? Yada düşənlər nədir? Yurdun üzərində atlar kişnəşir, yurdun oğulları göz-gözə gəlib, bir-birinin kimliyini dərk edir, üzü yağılara tərəf qürurla dayanır, dumanın, çənin gəldiyi tərəflərdən çəkinmir... bax, yurd bu zaman özünü bəxtəvər hiss edir. Amma zaman gəlir ki, dizibərk kişilər zamanlarını başa vurub dünyadan köçür. Dizi aynalı oğullar ona baxıb qürur duyan gözəlləri görmür. Gücdən düşür və yurd beləcə boşalır... Və beləcə yurd yazıq və mağmın olur.

Tarixən böyük Azərbaycan olub. Qonşu ermənilərin təlqin elədiyi böyük Ermənistandan fərqli olaraq böyük Azərbaycanın sərhədləri də məlumdur. Və demək, Yaddaş Sahibinin böyük *"Ziyarət"*lə yad elədiyi yerlər təsadüfi yerlər deyil. Böyük Azərbaycanın bir parçasıdır. Amma o parçasıdır ki, Yaddaş Sahibinin yaddaşında göyərməsəydi, sonuncu nəfəsini yaşayardı.

Danmağa nə hacət, Göycə əlçatmazdır, Borçalı qorunmalıdır, Dərbənd qorunmalıdır, Cənubi Azərbaycan qorunmalıdır. Yalnız bu düsturun təsiri ilə yanaşanda Yaddaş Sahibinin xidmətinin gücünü dərk eləmək olar. Ümumiyyətlə, onun nə demək istədiyini, onun sənətinin məğzində nəyin dayandığını yalnız bu zaman daha ətraflı dərk eləmək olar. Zənnimcə, sözdən və sənətdən əlbəttə, bu baxımdan yanaşanda sənətkardan bundan o yana daha nəyi tələb eləməliyik? Şairin yaratdığı böyük Yaddaş Sahibi obrazı əslində tarixi bir obrazdır, tarixi yaddaşın missiya daşıyıçısıdır.

*"Ziyarət"* nəhəng bir kompleksdir. Ziyarət xüsusi bir mərasimdir. Onu mənəvi borc bilən hər kəs ziyarət yolunda özünün mənəvi təkamül məqamlarını daha yaxşı dərk edir.

H.İsaxanlının *"Ziyarət"*i yurda bağlılığın, yurda can atmağın, yurda qovuşmağın, yurdu qorumağın, ona həyan olmağın, onun yalnız özünün başa düşə biləcəyi bir dildə dərdlərini danışmağın könül *"Ziyarət"*idir.

# Obrazin məntiqi - həyatin mənasi

*«Ziyarət»* əsərinin əsas güc mərkəzi Yaddaş Sahibinin obrazı ilə aşkarlanır. Bu obraz bütün əsər boyu xüsusi hərəkətverici gücə malikdir. Biz onun ətrafında, onun haləsində baş verən hadisələri məxsusi olaraq onun özünün münasibətilə qavrayır, başa düşürük. Açıq demək lazımdır ki, *"Ziyarət"* əsərindəki Yaddaş Sahibi obrazı Azərbaycan ədəbiyyatındakı tarixi yaddaşı canlandıran obrazlardan fərqlidir, yəni bir növ qeyri-ənənəvi obrazdır. Bəzən onun hədsiz dərəcədə sadəliyi sadəlövhlük təsiri bağışlayır. Onun təbiətində bir uşaqlıq, uşağaməxsus kövrəklik əlamətləri görünür. Bir çox hallarda o, bu cəhətləri ilə xüsusi qayğıya möhtac olan bir uşaq zəifliyi təsiri bağışlayır. Sanki təbiətdəki ecazkar görkəminə, sehirli cazibəsinə, nadir olan rayihəsinə, ətrinə görə elə çiçəyə bənzəyir ki, o çiçək görənləri özünə çəkir. Amma yaxınlaşıb ona toxunsan və bəlkə, bir qədər onun zəifliyini nəzərə almasan, elə yerindəcə ovulub tökülər. Amma əslində, bu ilk baxışdan belə görünür. Onun çox güclü məntiqi var. Saydığımız xüsusiyyətlərin hər birisi onun cazibəsini artırır. Əgər o, ilk baxışdan düşündüyümüz kimi, zəif və aciz olsaydı, xüsusi yaddaş ağırlığını öz çiyinlərində daşıyıb, maneələri dəf edib yurdacan gəlib çata bilməzdi. Obrazın məntiqini, xüsusilə, bu məntiqin fəlsəfi mahiyyətini dünyanın görkəmli filosofları mühakimələrində, ədəbiyyatşünasları təhlillərində və eyni zamanda, şairləri yaratdıqları xarakterlərdə açmağa çalışıblar. Y. E. Qolosovker[1] obrazın məntiqi haqqında danışanda mühakimələrini belə təqdim edir:

> "Obrazın məntiqi bütövlükdə tamamlanmış surətlərin mənasının sonacan tükədilməsindədir. Yəni ki, bütövlükdə tamamlanmış surətlə-

[1] Sovet filosofu (1890-1967).

rin saçdığı mənalar ardıcıllığından obrazın məntiqi doğur. Düzü, mifdə o, özünü əyrilər üzrə hərəkət edib bir çevrəni qapadan yeganə konkret surətlərin ardıcıllıq cərgəsində aşkarlayır"[1].

Beləliklə, obrazın məntiqi yaradıcının bütövlükdə təqdim edə bildiyi, mənasını axıracan aça bildiyi surətlərdə tamamlanır. Görünür, tərcüməçi birinci cümlədə artıq bir dəfə *"tamamlanmış"* ifadəsini işlətdiyinə görə, cümlənin sonunda həmin ifadəni təkrarlamamaq üçün *"tükədilməsində"* sözü ilə barışmalı olmuşdur. Əlbəttə, mahiyyət bununla bağlı deyil. Demək, obrazın məntiqi onun estetik təsir dairəsindən, yaratdığı mənalar yükündən və bu mənaların xüsusi məntiqi ardıcıllıqla bir-birini tamamlayan izləməsindən çox asılıdır. Yaddaş Sahibi də ayrı-ayrı məna və mahiyyətlərə vararkən elə incə məqamları diqqətə çəkməli olur ki, biz yalnız bu qabarıq əlamətlər sayəsində zəncirvari ardıcıllığı mənəvi dünyamıza yığdığımız estetik hisslərlə qoruyub-saxlayır, bizə olan təsiri özümüz üçün sərvətə çevirmiş oluruq. Bu əsərdə qəribə bir məqam mənim diqqətimi çəkir. Elə *"Ziyarət"*in əvvəlindəcə Yaddaş Sahibinin eynək taxdığını müşahidə edirik. Hələ yarı yaşına çatmamış bu adam yaddaş aləminə eynəklə baxır. Əlbəttə, söhbət əsərdə həyatdan gedir. Zənnimcə, bunun özü də çox dəyərli və xüsusi məna kəsb edən bir cəhətdir, əsərin daha dərin qatlarla bağlı olduğuna işarədir. Bu mənada, həmin əlamət elə böyük əhəmiyyət kəsb edir ki, onun haqqında daha əsaslı danışmamaq mümkün deyil. Demək, görkəmli filosof təqdim elədiyimiz məntiqin davamı olaraq yazır:

> "Dairənin qapanması ilə bütöv obrazın mənası da tükənir. Yeganə konkret surətlərin məna ayrısı boyunca hərəkəti əksərən qarşıdurma prinsipi üzrə gerçəkləşir. Beləliklə, bütöv "görmə" ("baxan göz" və "korluq") obrazında təkgöz Kiklop yeganə konkret surət kimi mingözlü Arqusun surətinə qarşı qoyulur; gözləri baxa-baxa ruhən kor olan, zorən cani edilmiş Edipə qarşı fiziki cəhətdən şil, amma mahiyyəti mənəviyyatının "gözü" ilə görə bilən, qeybdən xəbərlər söyləyən falçı Tirezi dayanır. Hətta Kolon şəhərində peyda olub daxilən nurlanmış kor Edip də əvvəlki şah Edipin qarşıdurumudur" [2].

Biz təhlilçinin dairənin qapanması ilə obrazın mənasının tükənməsinə ilkin başa düşülən mənada yox, daha geniş mənada yanaşmalıyıq. Yəni, əs-

---

[1] Y.E.Qolosovker. "Mifin məntiqi". Kitab aləmi. Bakı, 2006. s. 63.
[2] Yenə orada.

lində, Yaddaş Sahibi ilə yaddaşın istiqamət verib gətirdiyi obrazın qarşılaşdığı məqam dairənin qapanmasıdır, bundan sonra baş verənlərin hamısı bu dairənin içərisində cərəyan edir. Biz dairənin içərisini bütün maddi və mənəvi aləmin mahiyyəti kimi qavramalıyıq. Qədim yunan mifologiyasına söykənən müəllif təkgözlü ilə mingözlünü yada salır. Onların qarşılaşmasında da əsl həqiqət üzə çıxmır, demək, həqiqəti görmək üçün yalnız cismani olaraq görən gözlər hələ əsas deyil. Qədim yunan mifindəki Tiresi – Orakul cismani olaraq görmür. Amma o, həyatı bildiyinə görə mənəvi aləmdəki hadisələrin məntiqi ardıcıllığını dərk etdiyinə görə, gələcək haqqında da doğru və dürüst məlumatlar verə bilir. Hətta filosof fikrinin sonunda eyni şəxsin iki dövrünü də yada salır. Gözlü tiran Edip mənəvi korluğun nəticəsində necə böyük cinayətlər törədir. Amma həyatı dərk etdikdən sonra - fəqət bu zaman o, gözlərinin ikisini də itirmişdir - hətta başqalarının görə bilmədiyi həqiqətləri görə bilir, dərk edə bilir. Yalnız onun bundan sonrakı həyatı mənəvi, sağlam həyat ola bilərdi. Beləcə, Yaddaş Sahibi aliməqam bir zirvədə görünür. Cismani olaraq gözlərinin nurunu itirsə də, mənəvi gözləri tamam açıqdır, onun bəsirət gözləri o qədər nurlanmışdır ki, cəmiyyətə liderlik etmək istəyənlərin, fəqət mənəvi korların - hiyləgər siyasilərin, onun axtardığı bütün dünyanı gəzdikdən sonra qayıtdığı yaddaş aləminin ətrafında nə qədər dəhşətli torlar hörsə də, yenə bu torların - labirintlərin arasından işıqlı dünyaya aparan çıxışı görə bilir. Əgər onun bu fəhmi, zəkası olmasaydı, demək, onun ətrafında da o qeyri-adi canlanma, dirilmə mümkün olmazdı.

Yaddaş Sahibi yaxşı bilir ki, kristallaşmış həqiqətlərdən başqa dünyada nə varsa, hamısı ötəridir, keçəridir. Yalnız elə həqiqətlər var ki, məna və əhatə dairəsinə görə zamanlarla döyüşə bilir, öz dəyərini qoruyub saxlayır. Müəllif *"Ziyarət"*in ən gözəl fəsillərindən birini gözəlliyin tərənnümünə həsr edib. Onun özünəməxsus açımında gözəllik bütöv mahiyyəti ilə təzahür edir. O, əbədiləşmiş, ömrünün kamillik çağına çatmış gözəllik obrazıdır. Onun gözəli Bayronun, Füzulinin, Titsianın gözəli qədər müqəddəsdir. Ancaq onların heç birisinin gözəlinə bənzəmir. ***"O gözəllik qocalmişdi"*** - bu hökm o gözəlin qənirinə zərrəcə də xələl gətirmir. Ancaq müəllif də - Yaddaş Sahibi də idealı köklü-köməcli onun mənəvi aləmini yaşına uyğun təmkinlə səmimiyyətini elə öz dili ilə təqdim edir.

Bir səs gəldi arxamızdan:

"Ay Bakıdan gələn oğlan,
Bir az da biz tərəfə bax,
Qoy bir az da biz danışaq".

Bəzən müəlliflər obrazın səmimiyyətini təqdim etmək üçün elə cizgilər axtarıb tapmağa çalışırlar və guya ki, elə dərinliklərə varmağa çalışırlar ki... bununla da oxucu ilə obrazın arasında az qala keçilməsi mümkün olmayan uzaq bir məsafə yaranır. Əlçatmazlıq, maneələrin yaratdığı toranlıq obrazın səmimiyyətini qavramağa imkan vermir. Amma nə qədər sadə, nə qədər aydın, duru bir istək var tərəflər arasında. *"Ay Bakıdan gələn oğlan",* təkcə elə bitkin bir mahnı təsiri bağışlayan bu misra bəs edir ki, tərəflər arasındakı bütün maneələr götürülmüş olsun. Doğmalıq, yaxınlıq, ılıq münasibət illərin, zamanın dov gələ bilmədiyi, üstündən bir zərrə də qopara bilmədiyi İlahi saflıq olmadan bu dörd kəlmə söz eyni məna və mahiyyəti daşıyaraq cərgələnə bilməzdi.

İndi tərəflər arasındakı mənzərəyə diqqət edək:

Geri döndüm. Onu gördüm,
Gördüm, köksümü ötürdüm.
Mən uşaqkən, o,.. o zaman
Gözəllikdə ad çıxaran
Bir gəlindi. Amma indi...

Əlbəttə, təəssüflər də var, ötüb-keçmiş zamanın arxasınca baxmaq da var. O gəlinin - o qənirsiz gözəlin bir uşağın yaddaşında buraxdığı aydın izlər var. Bütün bunlar bütövlükdə bir qeyri-adi, şahanə bir gözəlliyin rəsmidir. Sözlərin rəngilə işlənmiş portretidir. Özü də diqqət eləsək, heç bir ifrat təsvir və qarşı tərəfə xüsusi diqqəti yönəltmək məqsədi daşımayan *"rənglərdən"* istifadə olunub. Biz bu rənglərlə qavrayırıq. O qənirsiz gözəl vaxtilə gözəlliyilə ad çıxarıb. Zaman o gənclik təravətini aparsa da, gözəlliyini təsdiq edən cizgiləri silə bilməyib. O gözəl öz gözəlliyini səmimiyyətində qoruyub-saxlayıb:

Yel kimi keçdi o vədə,
O gözəllik itməsə də,
O gözəllik qocalmışdı.

Daha yandırıb-yaxmırdı,
Üstünü bulud almışdı.

Və elə müəllifin özü də çox qəribə obrazlarla yaratdığı lövhəni tamamlayır. O lövhəni ki, indi üstünü bulud almışdı. Bəzən buludlar nə qədər sıx olsa da, biz buludun arxasında günəş olduğunu heç vaxt yadımızdan çıxara bilmirik.

Təbiidir ki, Yaddaş Sahibi yaratdığı aləmdən, döndüyü aləmdən, qovuşduğu aləmdən asanlıqla üzülüşə bilmir. Daha dərin qatlara, zamanın o gözəl üçün şahanə çağlarına qayıdır. O vaxtına ki, Yaddaş Sahibinin özü ətrafın nəzərində bir dilbilməz uşaq idi. Amma o dilbilməz uşaq bu gözəli elə o dilbilməz çağında da görə bilmişdi. Pedaqoqlar arasında belə bir söz, belə bir bitkin fikir çox tez-tez işlənir: *"Uşağı uşaq yerinə qoyma"*.

İndi həmin o dilbilməz uşağın yaddaşında oyananlara baxaq:

O günlərə döndüm bir an:
Yerişi, duruşu, səsi...
Söz bəs etməz, söz hədərdi -
Onun hüsnü cazibəsi
Ürəkləri titrədərdi.

Əgər diqqət edildisə, burada *"o dilbilməz uşağın yaddaşında oyananlara baxaq"* fikrini bir də təkrar eləməklə oxucunun nəzərini müəllifin yaratdığı rənglər aləminə cəlb etmək istədim.

Müəllif elə özü də razılaşır ki, o cazibəni, o ürəkləri titrədən gözəlliyi tərənnüm etmək üçün söz bəs eləməzdi. Kimlərsə ancaq sözə ümid etsəydi cəhdləri hədər olardı. Demək, buradaca müəllifin karına gələn sözlərin renginə tapınmadır - əlbəttə, sözlərin ecazkar renginə... Çox vaxt keçmir, elə o titrək duyğu ilə müəllif daha ecazkar bir hisslə, daha təlatümlü bir ovqatla yaddaşına üz tutur:

Yox! O dilbər yox olmamış,
Gözlər o gözlərdi - tanış.
Danış, ey xəyalım, danış!

Yaddaş Sahibinin çağırışları, qırıq-qırıq xatirələr bəzən sönüb-yanan işıqlarda görünən titrlərdə Yaddaş Sahibinin təəssüflərini, dünyanın ötərili-

yinə, keçəriliyinə heyfslənmələri, hətta bəzən bəsirət gözü bağlı olanların onun həyata, gözəlliyə pərəstişini, sevgisini duymayanların istehzasını, tənəsini də görə bilir.

Yazıq ürək, yenə dərd çək...
Qafil, gülmə kədərimə.
Gör nə qədər "hayıf" demək
Yazılıbdır qədərimə.

Müəllifin yaratdığı obrazlar xarakterlərinə görə, çox özünəməxsusdur. Azərbaycan və eləcə də dünya ədəbiyyatında ürək obrazı orijinal deyil. Və bəlkə də, elə ədəbiyyatın yarandığı ilk gündən, lap elə mifin zamanından üzü bəri ürək təfəkkür süzgəcindən keçib, ürəyin başa düşülən və başa düşülməyən tərəflərinin aydınlaşdırılmasına cəhdlər göstərilib. Ürəyə xüsusi ruh və can verilib, ürək bütövlükdə düşünən bir varlıq kimi tərənnüm olunub. Ancaq göründüyü kimi, H.İsaxanlının ürəyi tamam başqa aləmdən - onun özünün dünyasından insaniliyi özündə ehtiva edən bir gücdə görünür. Beləliklə, *"hayıflar", "təəssüflər"* Yaddaş Sahibinin qədərinə yazılsa da, əslində, insanlığın və insaniliyin qismətidir. Yalnız Yaddaş Sahibinin ölçü və meyarları ilə hayıflar, təəssüflər xüsusi dəyər kəsb edir. O zaman ki, ömür mənasız bir həyatla fənaya verilməyib:

Fikir dəryasına girdim,
O gəlini mən bir zaman
Gözələ heykəl bilirdim...
Heykəl olan dəyişərmi?!
Eh, nə bilim?! Ağlı olan
Heç zamanla döyüşərmi?!

Müəllif sözün həqiqi mənasında gözələ heykəl qoya bilib. Tişədən, daşdan istifadə eləməyib. Onun heykəltəraşlıq emalatxanası özünün zəngin müşahidə aləmidir, təəssürat dünyasıdır, həyata, insanlara sevgi dolu baxışlarıdır.

Zamanla döyüşmək yox, zamanın axarında zamanın gətirdiyi fırtınalardan keçib gedə bilən dəyərlərlə yaşamaq... müəllif üçün həyatın mənası budur.

# Söz var, kimsəyə deyilməz...

Azərbaycan ədəbiyyatında, xüsusilə, son iyirmi illik müstəqillik dövrünü əhatə edən mərhələdə sovet ideoloji qəliblərindən keçmiş söz-sənət adamlarından fərqli olaraq yeni şairlər nəsli çox böyük sürətlə arenaya çıxdı. Bu *"arenaya çıxdı"* ifadəsi təsadüfi deyil. Qəliblər, tələblər, bütün ideoloji basqılar götürüləndən sonra təbiətində ilham olan hər kəs sözü sözə calamağa, söz düzüb-qoşmağa başladı. Amma əlbəttə, bu, tarixi bir ahəng idi. Heç kimsə deyə bilməz ki, bu ahəng, bu ritm indiki qəzəblə qarşılanan axın XIX əsrdə, XVIII əsrdə olmayıb. Təbiidir ki, Azərbaycan xalqının təbiətində poetik harmoniya olduğuna görə bütün zamanlarda belə nəzm, bir az da kobud desək, qafiyəpərdazlıq olub. Amma o qədər çox olub ki, sonra nazimlə şairi fərqləndirmək gərək olub. Necə ki, şeirlə nəzmi ayırmağın vaxtı çatmışdı. Şəxsən mənə belə gəlir ki, poetik anlam müəllifin özünün ruhu ilə bağlıdır, nəinki onun yazdıqları ilə. Eləcə də sənətkarın bir az da qəlibləri boşaldıb daha yumşaq şəkildə desək, nazimin, yaxud da şairin yaratdıqlarına müdaxilə etmək lazımdır. Hansı nəzmdir, hansı şeirdir? Yeri gəlmişkən, indiki dövrümüzdə poeziyanın, daha dəqiq desək, şeiriyyətin daha yeni mərhələsi yaranmaqdadır. Bu mərhələnin xronoloji ardıcıllığı belədir: nəzm, şeir, poeziya.

Poeziya daha çox fəlsəfi ümumiləşdirmədir. Poeziyada bənzərsizlik və təkrarsızlıq var. Poeziyanın ritmik ahəngi şeirə çatmasa da, o, ürəklərdə daha çox hiss və həyəcan doğurur. H.İsaxanlı da özünün səmimiyyətilə müşayiət olunan şeirlərində daha çox poetik ruhun daşıyıcısı kimi görünür. Onun *"Ziyarət"* poemasındakı əhval adi bir adamın, sıradan bir nəfərin əhvalı deyil. Buradakı hiss və həyəcanların mahiyyətində gözəgörünməz tərəflərin görüntüləri üzərinə işıq düşür. Onu dinləyən, onu oxuyan hər kəs özündən xəbəri olmadan, özünü o yerin adamı bilir, özünü elə orada bilir. Nə vaxtsa,

hardasa bir qərib diyarda keçirdiyi hissləri yada salır. Elə H.İsaxanlının ***"xəzana alqiş"*** şeiri də çox qəribə bir məntiqlə yoğrulub. Müəllif bu şeiri 2004-cü ildə Malayziyada - Kuala Lumpurda yazıb. Əvvəlcə şeirin sərlövhəsi barədə. Zənnimcə, hər kəs üçün qərib bir diyara səfər görmədiyi, gəzmədiyi yerləri görməklə onun əhvalında bir bahar təravəti yaradır. Ancaq bu, ötəridir. Tezliklə hər kəs öz hisslərinin xəzanını arzulayır. Qəriblikdə yaşadığı bahar təravətinin sonunu - xəzanını. Müəllif də elə bu şeirdə ilk əvvəlcə yaşadığı bahar sevinclərini tərənnüm edir:

Bu nə xoş diyardır - bəzəkli, zəngin,
Neçə irq, neçə dil, neçə iman, din!
Şairim, burda qal, gəz, dolan bir az
Allah bilir, bir də gəldin, gəlmədin
Gör nə xoş diyardır - bəzəkli, zəngin!

Əvvəla onu deyək ki, H.İsaxanlı ruh adamıdır. Könül quşu onu haraya çəksə, özünü oranın sakini bilər. Amma onun könül quşu da çox sədaqətlidir. Yurda sədaqətli, doğma torpağa sədaqətli, Vətənə sədaqətli. Və elə bu səbəbdən də elə həmin şeirdəcə bu yerlərdə gəzib-dolanmağın, bu yerlərdə həyatdan zövq almağın, daha çox təbiəti duymağın ahəngi ilə yaşayır. Amma tezliklə o, bu qəriblikdəki ecazkarlığın *"turşməzə dadını"* hiss edir:

Başqadır bu yerdə həyatın dadı,
İnsan təbiətlə birgə yaşadı.
Əzəldən gözəllik vurğunuyam mən,
Amma həyat nə kef, nə tamaşadı,
Xeyli turşməzədir həyatın dadı.

Sanki elə bununla da bütün mənəvi problemlər həll olunur. Ən azı ona görə ki, müəllif burada ilin fəsillərini görə bilmir. Payızı qışdan, qışı yazdan, yazı yaydan ayıra bilmir. Deməl, onun mənəvi dünyasındakı rənglərlə dünyanın bu ecazkar, qeyri-adi guşəsində gördüyü rənglər uyğun gəlmir. Elə ona görə də Vətən, yurd yada düşür. Deyilənə görə, bülbül qızıl qəfəsdə oxumurmuş, quş dili bilən Süleyman onu buraxır. Bülbül öz azadlığına tikanlı kol üstündə nəğmə deyir: - Ax, Vətən, ox, Vətən!

Uzaq Malayziyadakı həsrət bu misralarla bitir:
Burda nə payız var, nə bahar, nə qış,
Oğulsansa, gəl bu gərdişə alış.
Burda xəzan olmur, yarpaq saralmır,
Şairim, Vətənə dönməyə çalış,
Burda nə payız var, nə bahar, nə qış.

İndi sual olunur: bəlkə, H.İsaxanlı *"Ziyarət"* poemasını hansısa bir ədəbi mükafatın təmənnası ilə yazır? Bəlkə, elə şairlik borcunu yerinə yetirmək qəsdilə yazır? Hər iki halda cavab düz olmayacaq. Çünki o, dünyanı gəzəndə də, dünyanı addım-addım ayaqlayanda da ecazkarlığın, təbiət gözəlliyinin qoynunda dünyanın gəldi-gedərindən uzaq olan anlarında da yaddaş başının üstündə olub, onu yurda, Vətənə çağırıb. O yurda, o Vətənə ki, orada bir müdrik, bir qoca onu gözləyirdi, ona deyiləsi sözləri vardı. Və ondan başqa kimsəyə o qoca könlünü açmaq istəmirdi.

# Yaşamağin vətəndaşliq mahiyyəti

H.İsaxanlı istər poeziyasında, istər ədəbi-publisistik qeydlərində və istərsə də çıxışlarında özünü ifadə eləməyə çalışır. Bəlkə də, burada ilk baxışdan *"çalışır"* hökmü yerinə düşmür. Daha çox uyğun gələn və həqiqəti özündə ehtiva edən budur ki, biz müəllifin özünü ifadə elədiyini, qeyd edəydik. Ancaq insan dünyası daim hərəkətdə olan düşüncədən asılıdır. Deməli, insan düşünürsə, onun özünü ifadə eləməsi də başa çata bilməz. Olsa-olsa, özünü ifadə eləmə inadlı ola bilər, davamlı ola bilər.

Şairin, mütəfəkkirin özünü ifadə etməsinin də iki istiqaməti var. Bu özünü ifadəetmə subyektiv xarakter də daşıya bilər, obyektiv mahiyyət də kəsb edə bilər. Ancaq şairin mənəvi aləmində gedən proseslərdə təsdiq olunan bir həqiqəti yaddan çıxarmaq olmaz - obyektivliyin və subyektivliyin vəhdətini, sintezini. Şair subyektiv hisslərindən yaza bilər. Amma özünəməxsus ümumiləşdirmə ilə həyatın obyektiv mahiyyətini son dərəcə dolğun və real cizgilərlə təqdim edər. Demək, H.İsaxanlının yaradıcılığı nə qədər subyektiv *"mən"*ə səmimiyyətlə söykənirsə, bir o qədər də həyatın obyektiv gerçəkliyinə söykənir. Və əslində, onun məqsədi bu gerçəkliyi təqdim etməkdən ibarət olur. Həyata, tarixə yanaşmada, cəmiyyətə münasibətdə, mənsub olduğu xalqa münasibətdə, mütəfəkkirlər iki istiqamətə ayrılır. Onlardan bir qismi xalqın mənəvi aləmini özündə ehtiva edərək bu aləmin məntiqi tələblərini özünün tələbləri kimi qarşıya qoya bilər. Amma əslində, xalqın fikrini ifadə eləmiş olur. Bu məramı professor Nizami Cəfərov Bəxtiyar Vahabzadə haqqında danışanda çox dəqiq bölgü ilə belə göstərib:

> "Elə böyük şəxsiyyətlər olmuşdur ki, millətin iradəsini öz subyektiv məqsədlərinə yönəltməyə çalışmışlar - elə şəxsiyyətlər də olmuşdur

ki, millətin tarixi ehtiyaclarını duyub, dərk edib, həmin ehtiyacların ödənilməsi istiqamətində ardıcıl fəaliyyət göstərmişlər"[1].

Bu ikinci qisim şəxsiyyətlər elə ikinci qisim mütəfəkkirlərdir. Doğrudur, burada görkəmli alim Vəxtiyar Vahabzadənin simasında daha çox siyasi obrazın, mütəfəkkir filosofun, liderin xarakterini aşkarlayır. Bunu H.İsaxanlıya da aid etmək olar. H.İsaxanlı da mənsub olduğu etnosun ruhunun ehtiyaclarını dərindən duyur. Bu ehtiyacların hansı səbəblərdən yarandığını yaxşı bilir, xüsusilə torpaqla bağlı, bir vaxt geniş ərazilərə halal sahiblik etmiş böyük türkün indi siyasət civarlarında küncə sıxışdırılmasını qəbul etmir. Bunun üçün ən əsas missiya vətəndaşlıqdır – şairlikdən də əvvəl, filosofluqdan da əvvəl və həmçinin siyasi liderlikdən də əvvəl. Biz H.İsaxanlının poeziyasında, xüsusilə, *"Ziyarət"*də bağrının başı köz kimi qızaran, közərən vətəndaşı görürük. O vətəndaşı ki, indi onun gücü qələminə, xalqın qəbul edə biləcəyi, başa düşəcəyi, anlayacağı bir dildə danışmağa çatır. Zənnimcə, vətəndaş şair üçün mübarizənin yolu və özü də ən düzgün yolu elə budur. Xalqı ətalətdən çıxarmaq, ona tarixi keçmişini yenidən dərs kimi öyrətmək, mənəvi uyğusunun qarşısını almaq... bundan üstün xalqa xidmət yolu varmı? Görünür, elə bu səbəblərdən vətəndaşlıq mahiyyətinin daha əsas olduğunu nəzərə alan görkəmli alim N.Cəfərov fikrinə davam edərək bir az da dəqiq və aydın hökmlər verir:

> "Keçmişi də, gələcəyi də məhz "Vətən tarixi"nin səhifələri kimi vərəqləyən" (Yaşar Qarayev) B.Vahabzadə vətəndaşlığın nə demək olduğunu həm özü, həm də millət üçün aydınlaşdırmağa çalışmaqla, mübaliğəsiz deyə bilərik ki, bu günə qədər bir institutun - "Vətəndaşlıq institutu"nun işini görmüşdür. O, heç təsadüfi deyildir ki, ömür səhifələrini də "Vətən tarixi"nin səhifələri kimi vərəqləmişdir: "Dünyaya göz açdığımız zaman ilk dəfə ayağımızı basdığımız torpaq - Ana Vətəndir. Sonralar min ölkəyə gedə bilər, min ölkənin suyunu içib, havasını uda bilər, neçə-neçə torpağın müvəqqəti sakini ola bilərik. Lakin bu torpaqların, bu ölkələrin heç biri bizə doğma torpağımımzı əvəz edib Ana Vətən ola bilməz" [2]....

Göründüyü kimi, burada da müəllif öz fikirlərinin daha dəqiq, bəlkə də, ən düzgün variant olduğunu nəzərə qabarıq çatdırmaq üçün akademik Yaşar

---

[1] Nizami Cəfərov. Seçilmiş əsərləri. (5 cilddə), cild 2, Bakı, 2007, s. 177.
[2] Yenə orada

Qarayevin mülahizələrinə söykənmişdir. Deməkk, *"Vətəndaşlıq institutu"*nun aparıcısı şəxsiyyətin özündən əvvəl onun tapındığı mənəvi kriteriyalardır. Bu ölçülər, bu dəyərlər şəxsiyyətin mənəvi aləmində o qədər bitkin olmalıdır ki, son nəticədə bütün çıxılmazlıqlarda düşüncə olaraq onun istiqamətini daha dəqiq saxlasın. Bu, sanki şəxsiyyətin mənəvi aləmində bir kompasdır.

Əlbəttə, söhbət şairdən gedirsə, özü də yaradıcılığı ilə istiqamətini çoxdan müəyyənləşdirmiş şairdən, yəni H.İsaxanlıdan danışırıqsa, demək, biz də onun yaradıcılığında vətəndaşlıq missiyasını hansı mənəvi köklər üstündə qərarlaşdırmağına da daha çox diqqət yetirməliyik. Onun obrazları, tanıdığı adamlar sanki yurdun keşikçisi olanlardır. Və onları da narahat edən əsas məsələ yurda kimin sahib çıxacağı məsələsidir. Dünyadan bu gözü tox adamlar dördəlli yapışmayıblar. Amma yurddan dördəlli yapışıblar. Bütün varlıqları ilə yurda bağlıdırlar. Onlar yaxşı bilir, insan cismən bir ömür yaşamağa məhkumdur. Və onlar da öz paylarına düşən ömrü artıq yaşayıblar. İndi Yaddaş Sahibinə danışdıqları həmin nigarançılıqdan irəli gəlir - yurda kimin sahib çıxacağı nigarançılığından.

Həyatın gəldi-gedərliyini nə qədər aydın, nə qədər dəqiq, nə qədər düzgün, iliyinə qədər dərk etməyin mahiyyətini artıq qocalmış, yaşlaşmış ananın dilindən dediyi ***"yaşadiğim mənə yetər!"*** hökmü göstərir:

Görün, mənə nələr dedi:
"Əl mənim, ətək sənindi.
Oğul, bizləri unutma,
Bura sənin Vətənindi.
Yad eli qonaq qalsan da,
Ürəyinə yaxın tutma,
Vətənsiz insan gün görməz.
Misirdə sultan olsan da,
Vətənin yerini verməz.

Dünyadan gözü tox, dünya malında tamahı qalmayan, amma yurd nigarançılığından üzülən ana (söhbət Yaddaş Sahibinin yurdun bütün mənəvi varlığını özündə əks etdirən obrazdan gedir. O obrazdan ki, onu bəzən mənəvi təpəri, qeyrəti, yurd təəssübkeşliyi yaşadan, ayaq üstə saxlayan bir qoca kişidir. Yaxud müəyyən məqamda bu obraz ümumiləşmiş bir anadır və yenə

yurdun bütün ağrılarını, nigarançılıq dərdlərini özündə daşıyan bir qadındır. Hər iki halda biz onları yurdun özü kimi görürük. Ata yurd, Ana yurd anlamlarında) övladı - Yaddaş Sahibini dərdə-ağrıya çəkir. Onu Vətənə çəkib gətirən hisslərin, duyğuların ifadəçisinə çevrilir. Bu hisslər, bu duyğular Yaddaş Sahibini uzaq Malayziyada rahat qoymurdu. Çünki onun özü də yaxşı bilirdi ki, *"...Vətən yaxşı, Geyməyə kətan yaxşı, Gəzməyə qərib ölkə..."* deyən babalarımız, nənələrimiz nəyi nəzərdə tuturdu. Təqdim olunan parçanın mənəvi sələfi *"Qürbətdə xan olunca, Vətənində dilən gəz"*, - dədə-baba nəsihəti, vəsiyyətidir. Hətta şairin xalqdan gələn poetik deyimin alternativi olaraq, paralleli olaraq işlətdiyi ifadələr də (Vətənsiz insan gün görməz, Misirdə sultan olsan da, Vətənin yerini verməz) misralara çevriləndə dərin təəssürat yaradır; bu dərin təəssürat, bu misralardan gələn əks-səda şairin mənəvi aləmində elə bir harmoniya, elə bir bitkin ovqat yaradır ki, bunu həyatın heç bir ötəri şirinliyi, maddi təminatı əvəz edə bilməz. Bu hissin yaratdığı Vətənə çağırış ruhu elə bir istəkdir ki, onun qarşısı alınmazdır.

Ana yuxu görür və özü də öz yuxusunun qəribəliyi, qeyri-adiliyi yaratdığı ağır təəssüratın təsirindədir. Daha bir bitkin lövhə, daha bir dəqiq və aydın mənzərə:

Sən bir mənim yuxuma bax:
Sarı bulaq, buz kimi su,
Yarpız, yasəmən qoxusu -
Dərə keçib dağ aşıram.
Dəli kimi axşam-sabah
Öz-özümlə danışıram.
Bir-birinə oğul-uşaq
"Anam qocalıb" deyirlər.

Buradakı adlar, tarixi yerlər, onomastik vahidlər yuxunun quş qanadlı xəyalla keçdiyi yerlər Vətənin əldən verilmiş yerləridir. Həmin yuxuda yaddaşa gələn Sarı bulaq (müəllif qeydində oxuyuruq:

> "Ermənistanın şimalında Qaraxaç yaylağı adlanan dağ yerində, Gürcüstandan yaylağa gələn azərbaycanlıların seçdiyi yerlərdən birində məşhur bulaq"[1]

---

[1] Hamlet İsaxanlı. "Ziyarət". Xəzər Universitəsi nəşriyyatı. Bakı , 2009, s.96.

sanki Koroğlu dastanındakı Qoşabulaqdır. Elə bil ki, yeni nəsillərin gücü, qüdrəti o bulağın suyundadır. O bulağa dönə bilmək, o bulağın çağladıyı yerlərin təzədən sahibi olmaq üçün vətənin qıraqda qalan yerlərinin adamları yox, bu gün dünyaya səpələnmiş azərbaycanlıların dərdi, istəyi, həll edə biləcəyi problem olmalıdır.

...Müəllifin şeirdə obraza çevirdiyi *"Sarı bulaq", "buz kimi su", "yarpız", "yasəmən qoxusu"* obrazları gözümüzü doyurur deməzdim, gözümüzün üstündə qaysaq bağlamış həsrət pərdəsini qoparıb atır, ruhumuzu didib-qanadır, yaddaşımızı oyadır. Yeri gəlmişkən, müəllifin nəzərinə çatdırmaq olar ki, yaylaq yerinin, xüsusilə buz kimi suların çağladığı bulağın, yarpızlığın, əvəlikliyin ətri, bihuşdarı kimi insanı məst edən kəklikotu çiçəklərinin, çayçiçəyinin, qantəpərin, lilparın, qazayağının, quzuqulağın... olduğu yerlərdə *"yasəmənin qoxusu"* yox, *"çiyələyin qoxusu"* məntiqi, mənzərəni daha yaxşı tamamlayır.

Bu ecazkar yuxunun, bu yaddaşı qanadan yuxunun, bu varlığımızı, ruhumuzu titrədən yuxunun sahibinin yuxusunu yozmalı olanlar - özü də bütün çılpaqlığı ilə, bütün mənəvi tələbləri ilə düzgün yozmalı olanlar *"anamız qocalıb"* deyirlər. Ana isə heç bir dəlil, sübut gətirmədən nə cavab verməlidirsə, özü də dünyanın bütün filosofları, müdrikləri yığışıb başqa bir variantda verə bilməyəcəyi cavabı verir:

Qocalıqdan deyil, vallah,
Yuxuma girir o yerlər.

Ananın ruhu aram ola bilməz. Çünki dünya təlatümdədir. Bu təlatümün içində onun da sərhədlərə bölünüb hərənin bir tərəfdə ağalıq elədiyi, haram sahiblik elədiyi yerlər də od içindədir. Yurdun timsalı olan müdrik Yaddaş Sahibinin bildiyi həqiqətləri deyir. Ancaq çox böyük inamla, ağrı ilə deyir. Özündən qalan özündən sonra qalanlara nəyi əmanətləməlidirsə, nəyi tapşırmalıdırsa, onu deyir. Və H.İsaxanlının misralarının arasından Qarabağın alovları da görünür. Uzaq Borçalıda görünən bu alovlar kənar, yad yerin yanğısı deyil, axı dədə-babadan *"yurdun bu başı, o başı olmaz"*, - deyiblər. Sanki yurdun özü danışır:

Kimdisə o ömrü gödək,
Gərək dünəndən öləydi.

Çörəyə haram qatdılar,
Dünya bir-birinə dəydi.
Davanı çox uzatdılar -
Dəli quyuya daş atdı,
Ağıllıya iş yaratdı.

Müəllifin misralarının altında yatmış məna - çox uzadılan davanı Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ davasını təqdim edir - bir qədər də ironik, müəllifin özünün təəssüfünü daşıyan ağrı-acı illətinə çevrilmiş dərdini göstərir. Vaxtilə qabağı alınmalı olan zəhərli ilanın hələ bala olduğu məqamda boğulmalı olub boğulmadığını, bəlaya çevrildiyini yada salır. Hər halda, müəllif bir humanist kimi, böyük hərflə yazılacaq insan obrazı olaraq Yaddaş Sahibinə imkan verir ki, dünyanın və əslində, bütün dünya sakinlərinin taleyinə də acısın. Əlbəttə, taleyinə acıdığı millətlərdən biri də ermənidir. Erməni faşist partiyası öz xalqını bəlaya salıb. Sonu görünməyən, nəticəsi bilinməyəcək bəlaların girdabına atıb. Və əslində, Yaddaş Sahibinin də demək istədikləri elə budur. Amma son nəticədə həyatı, mənəvi aləmi tarixi yerlərlə bağlı olan Borçalı elləri daha Qaraxaç yaylağına gedə bilmir. Erməni faşizmi insanlığa gedən mənəvi yolların gözəgörünməz bağlarını kəsdiyi kimi, yaylağa gedən yolların da qabağını kəsib:

Bu nə dərddi, nə azardı?!
Millət bir-birini qırdı.
Yaxşı günlərimiz vardı,
Aranı kim qarışdırdı?

Bayaqdan müəllifin sanki təhkiyə ilə, acı bir hekayə kimi danışdığı tarix birdən-birə daha da emosionallaşır, yüksək poetik yük götürür. Və əsl poeziya örnəyinə çevrilir:

Nə gedən var, nə qayıdan,
Yolların yükü azalıb,
Nə köçən var, nə yurd salan,
Dağlar intizarda qalıb.

Bu dörd misrada poetik əhval o qədər güclüdür ki, sanki əsərin özü qədər ağrı və yük daşıyır. Yaddaş Sahibinin bütün varlığı, mənəvi aləminin bütün zənginliyi, onun çiyinlərində daşıdığı yükün ağırlığı, dərdləri, ağrıları, acıları sanki bu dörd misrada ifadə olunub. Təsadüfi deyil ki, elə bu dörd misranın yaratdığı əhval inkişafın növbəti məqamında sanki zərgər əli ilə işlənmiş bayatı-incilərə çevrilir.

Görkəmli filosof Camal Mustafayev də H.İsaxanlının *"Ziyarət"* poemasındakı bayatıların ovqatını, bu ovqatın yaratdığı dərin təəssüratı yaddan çıxarmır:

> "Bu qadın əmin-amanlıq istəyir; Qarabağ müharibəsinə bais olan kimsələrə lənət oxuyur. Müharibədən əvvəl yay mövsümündə elimizin Qaraxaç yaylağına (indiki Ermənistanın) yolları bağlanıb; dağa gedib-gələn yoxdur. Bu söhbətlə bağlı H.İsaxanlı neçə bayatı yazıb. Həmin mövzunun rolunu bu bayatı yaxşı ifadə edir:
>
> Dağlar darda qalıbdır,
> Başı qarda qalıbdır.
> Gözümün nuru, dağlar,
> Nurun harda qalıbdır?.."[1]

Camal dədə (onu Azərbaycan mənəvi mühitində "*Dədə Camal*" adlandırırlar) çox doğru olaraq bir neçə kəlmə ilə mövzunun mahiyyətini özündə ifadə edən, mövzunun daşıdığı ağrını özündə daşıyan bayatını nümunə kimi göstərir. Hətta, o bayatını ki, orada Yaddaş Sahibi bir rəssam qüdrəti ilə mənzərə yaradır: *"Dağlar darda qalıbdır, Başı qarda qalıbdır".* Əslində, professorun diqqətini çəkən canlandırılmış, ölüm-dirim savaşında girov götürülmüş dağların darda qalmasıdır. Əgər o dağlar girovdursa, əsirdirsə, onun azadlığı əlindən alınıbsa və hətta Yaddaş Sahibinin özünün belə ona əli çatmırsa, demək, Yaddaş Sahibinin gözünün nuru itib. Çünki bu nurun, bu işığın mənbəyi o dağlar idi. Cavab və sual Yaddaş Sahibinin Ən böyük mənəvi problemi elə bu sualın və cavabın arasındakı ağrıdır: *"Gözümün nuru dağlar, Nurun harda qalıbdır?"*.

Bayatılar Azərbaycan xalqının ən dəqiq mənəvi tarixidir. Tarixi yaralar olmasaydı, bəlkə, heç bayatılar da yarana bilməzdi. Filologiya elmləri doktoru, professor Sevil Mehdiyeva Azərbaycan xalqının təfəkkürünün mənəvi

---

[1] C.Mustafayev."Ata ocağı". "Xəzər Xəbər" jurnalı, 2010 Noyabr , № 290, s.26.

inkişaf yolunu *"Bayatıdan dastana"* istiqamətində görür. Və bu istiqamətdə bayatının daşıdığı tarixi yükün mahiyyətini belə aşkarlayır:

> "Deməli, "xalqın tarixi sadəcə tarix olaraq qalmamış, həm də şeirə, bayatıya çevrilmişdir. Ayrı-ayrı yüzilliklərin mühüm hadisələri ilə səsləşən bayatılar onu yaradanların həyatında dərin iz buraxan sarsıntıları yada salır, ötən günlərimizdən xəbər verir" (İsrafil Abbasov). Bayatılarda işlənmiş boyat, xəzər, hun, ərəb, tatar etnonimləri həmin bayatıların ən azı XIII əsrə qədərki Azərbaycan xalqının ictimai-siyasi həyatında baş vermiş hadisələrlə, yəni Azərbaycanda ərəb işğalı, tatar-monqol zülmü, boyat qəbilə-tayfa çəkişmələrilə əlaqədar yarandığını nümayiş etdirir. Bununla belə, bu bayatıların leksik-qrammatik quruluşu, habelə poetik qəlibləri və janr xüsusiyyətləri dövrümüzdə işlənməkdə olan bayatı növlərindən seçilmir. Deməli, bayatıların xalq dilində işlək bir janr olması onların illərin imtahanından keçib günümüzə əsasən, toxunulmaz çatmasına imkan vermişdir. Bu bayatılarda işlənmiş modellər, ifadə formaları ən azı 9-10 əsr bundan əvvəl yaranmışdır.
>
> Artıq elmi ədəbiyyatda belə bir fikir özünə yer tapmalıdır ki, "Azərbaycan xalqının etnogenezində böyük rol oynamış və eramızın birinci minilliyində Azərbaycanda yaşamış hunlar, xəzərlər, qıpçaqlar, avarlar, savirlər və başqa türk-oğuz tayfalarının yazısı olmasa da, onların ana dilində zəngin şifahi ədəbiyyat nümunələri olmuş və bu günə qədər gəlib çıxmış bayatıların, laylaların, ağıların çoxu o dövrdə yaranmışdır". (Vaqif Aslanov). Bu, həm də o deməkdir ki, "bayatılar islamdan qabaqkı türk ədəbiyyatında türk şeirinin milli şəklini təşkil etmişdir. Özgə sözlə, bayatı - "mani biçimini dünya ədəbiyyatı tarixində əzəl bir nəzm şəkli olduğunu qəbul etmək lazımdır" (Nizami Xudiyev)[1].

Və özü də bu düşüncələrində Azərbaycanın görkəm li folklor-dil tarixi araşdırıcılarının mühakimələrinə əsaslanır. *"Folklorun bədii təfəkkürün ilki"* (Ağamusa Axundov) olduğu tezisini şübhəsiz ki, qəbul etməliyik. Və elə bu tezisin dayaqları üzərində ucalan mənəvi sarayın zəngin aləminə daxil olmalıyıq. Zənnimizcə, H.İsaxanlını fikrini ifadə etmək üçün və əlbəttə, nəticədə özünü ifadə etmək üçün *"Ziyarət"* poemasında bayatıya gətirən yol budur, bayatının tarix, tarixi həqiqət mahiyyəti daşıması səbəbidir.

---

[1] Sevil Mehdiyeva."Bayatıdan dastana". Bakı, 2010, s.23. ?

* * *

H.İsaxanlının poeziyasının və eləcə də *"Ziyarət"* poemasının bir əsas xüsusiyyətini diqqətə çəkməyə ehtiyac var; o, demək olar ki, seçdiyi obrazı poetikləşdirərkən ona romantik qanadlar verməyə cəhd eləmir. Onun başının göylərə dəyməsindən, ayağının yerin təkinə qədər işləməsindən danışmır, sanki tərənnüm məqsədi deyil. Sadəcə, daha çox dinləməyə üstünlük verir. Üz-üzə dayandığı, qarşılaşdığı adamın, təbiətin, dağın, çayın, uşağın, böyüyün, qocanın, cavanın mənəvi aləminə diqqət göstərir. Onun daxili dünyasında, psixolojisində hansı düşüncələrin cərəyan etdiyini, hansı zəddiyyətlərin toqquşduğunu görməyə çalışır. Gördüklərini, hiss etdiklərini, duyduqlarını, bir sözlə, aşkar edə bildiklərini, özü üçün aydın olanları sözə gətirməyə çalışır. Ona görə də H.İsaxanlının əsərlərindəki obrazların daxili hərəkəti, düşüncə hərəkəti daha çox görünür. Və etiraf etmək lazımdır ki, bu da onun yaradıcılığının səmimiyyətini təmin edən əsas keyfiyyətə çevrilir. Artıq kifayət qədər danışdığımız, haqqında məlumat verdiyimiz *"Bir vaxtın gözəli"*-nin üstündən yellər əsmiş, zamanı, dövranı sovuşmuş qadının analıq haqqını və özü də yurda analıq haqqını qoruyub saxlamış müəllifin özünün təbirincə desək, gözəlliyi qocalmış və *"yaşadığım mənə yetər"* qənaətinə gəlib çatmış obrazın daxili aləminin mənzərəsi onun dilindən səslənən bayatılarda bütün əlvanlığı ilə göz oxşayır:

Tanrım, ruhum şikəstdir,
Qara yeli az əsdir.
Təzədən dərd paylama,
Dərdim özümə bəsdir.

Amma maraqlıdır ki, o, Tanrıya üz tutanda qəlbinin şikəstliyini yada salır, başqa sözlə, buna canlı dildə *"könlü sınıqdır"* deyirlər. Çünki onun zəmanəsinin üstündən qara yellər çox əsib. Özü də o qara yellər çox böyük səxavətlə qucaq-qucaq dərd paylayıb. İndi də o könlü sınıq insan, qanadı qırıq quş az qala Tanrıya yalvarır. Və öz dərdinin özünə bəs olduğunu deyir. Ona görə ki, bu dərd - onun qəlbindəki dərd elə Tanrının payladığı dərddir. O dərd insanları arxasız qoyub,köməksiz qoyub, o dərd elin qürurunu sındırıb. Yağı topsuz-tüfəngsiz onun ruhunu yağmalayıb və bu qədər dərdlərin arasında onun dözümünə bax ki, yenə də dözüm göstərir, haqqının nəyə çatdı-

ğını bilir və ən başlıcası, onu da bilir ki, kiminlə üz-üzə dayanıb, öz dərdini kimə deyir? Dünyanın işığı, göyün günəşi onu məsud eləmir. Çünki bu işıq, bu nur onun təmsil elədiyi yurdun, bu yurdun sahiblərinin qəlbinə, mənəvi aləminə gedib çatmır:

Məsud etmir nur məni,
Kədərim boğur məni.
Tanrım, səndən ricam var:
Təzədən yoğur məni.

Belə çıxır ki, zəmanənin, dövranın kələfi qarışıb, bu dolaşıq aləmdən, bu kələfi qarışmış dünyadan daha heç nə ummur, daha heç nəyin təmənnasında deyil. Yada salaq qədim yunan mifologiyasını. Ədalət ilahəsinin gözləri bağlıdır. Amma o, yenə görür və haqqı-ədaləti qoruyur.

> "Hər necə olursa-olsun, amma bütöv görmə obrazının inkişafında yeni obraz meydana gəlir. Bu, korluq obrazıdır ki, özünü bütöv obrazın mənalar əyrisi üzrə hərəkəti istiqamətində yeni bildirmələr fazası kimi tanıtdırır"[1]

Beləcə, Tanrıdan özünü təzədən yoğurmağı rica eləyən *"Tanrının gözünün bağlı olduğunu"* (özü də söhbət hansı gözdən gedir) bilir. Bütün fəsadların da buradan törəndiyini diqqətə çəkir. Doğrudur, nəzəriyyəçi həmin korluqda femidanın gözlərindəki sarğının ikili mahiyyətini yada salır. Elə mifin cazibəsindən çıxıb həqiqətə qayıtsaq, biz də deməliyik ki, Tanrının da dünyaya ikili nəzəri var. Əslində, həyatın bütün ağrı-acılarını öz ömründə yaşamış olan həmin ana da bu ikili münasibətə üsyan eləyir. Maraqlıdır ki, özünün və əlbəttə ki, həm də yurdun ağrı-acılarını bayatılarının içərisində yoğurub sənədə-sübuta çevirən obraz - ana son anda Tanrının göndərdiyi adamın - Yaddaş Sahibinin hüzurunda özünü günahkar hesab edir. Və günahını da qocalmağında görür. İndi əldən düşdüyünü yada salır və bəlkə, elə bu səbəbdən onun şikayətlənməyi yerində deyil - özü-özündən şübhələnir. Yaddaş Sahibinə axıracan ürəyinin dərinlikdərindən gələnlərin hamısını deyib-demədiyini elə düşüncəsində saf-çürük edir. Bu çək-çevirin görüntüləri onun etiraflarında da hiss olunur:

---

[1] Y.E.Qolosovker. "Mifin məntiqi". Kitab aləmi. Bakı , 2006, s. 78.

Eh, tamam əldən düşmüşəm,
Durduğum yerdə çaşıram.
Yumaq kimi büzüşmüşəm,
Əl-ayağa dolaşıram.

Qeyd elədik ki, H.İsaxanlının obrazlarında daxili hərəkət daha güclüdür. O, daim suallar qarşısındadır. Özünün daxili aləmindən gələn suallara elə özü cavab tapmağa çalışır. Müəllif düşüncələri obrazların təbiətinə uyğun verir. Kim necə düşünə bilərdisə, kim hansı səviyyədədirsə, elə o cür, sanki həmin ifadələrlə sözlərin düzümünü yaradır. Sadəcə, poetik əhvalını əlavə etməklə, poetik formanın donunu dəqiq biçməklə.

Xalq arasında dünyanın sahibi kimi daha çox Süleyman peyğəmbər hallanır, daha çox onun adı ilə dünya hakimiyyətinin obrazı yada salınır. Bu obrazın özü də nisbilik mahiyyəti daşıyır. Və məşhur əfsanədə deyildiyi kimi *"Süleymandan qalan dünya"*nın (hansı Süleyman?) kimə qalacağını təsadüfi yada salmır. Və elə müəllifin özü də sanki həmin əfsanəyə işarə edir:

Süleymandan qalan dünya
Kiminkidir, kimə qalıb?!

Misranın əvvəlində dünyanın Süleymandan qaldığını desə də, ikincisində də onun kiminki olacağını, kimə qalacağını elə dünyanın öz ixtiyarına buraxır. Yəni əsərdə dünyagirlikdən, mənimsəmək istəyindən söhbət getmir. Yurdu qoruyub-saxlamağın, yurdu gələcək nəsillərə ötürməyin, tapşırmağın mahiyyətindən danışılır, məsuliyyətindən danışılır. Yurd - ana sanki özünə qayıdır. Bu dünyanın gəldi-gedərinə sahib çıxacaq bir kəsin olacağına da inanır. Elə sadəcə, özünün qocalıb əldən düşdüyündən, ömrünün tük kimi yuxalmasından, ürəyinin ondan da betər incəlməsindən, əzrayılın üstünü almasından və yaşadığının ona yetərli olduğundan danışır. Bütün bu acımaların kövrəlmələrin kökünü elə bu səbəblərdən dolayı bildirir. Müəllif onun düşüncələrini elə özünün təbiətinə uyğun qələmə gətirir:

Ömrüm tük kimi yuxalıb,
Ürəyim ondan da betər.
Əzrayıl üstümü alıb,
Yaşadığım mənə yetər.

... və uğurla da sona çatdırır. Deyəsən, biz o Yurd-Ananı tanıdıq. Bir vaxt onu Göyçədə də görmüşük, iki yüz il əvvəl Təbrizdə də görmüşük, Dərbənddəki iniltilərinin sorağına getməmişik. Elə iyirmi il bundan əvvəl həmin Yurd-Ana Qarabağın indi ocağı qaralmış yurdlarının üstündə dayanıb yarımintizar, yarımşübhə, yarıminam... dili ilə bunları demirdimi? Və sonda H.İsaxanlı bütün bu mənəvi iztirabların yekunu olaraq bir dördlüklə fikrini tamamlayır:

İnsan ömür sürüb yaşa dolanda,
Xatirələr solub kövrək olanda.
Güc qalarmı canda? Təbiətə bax -
Torpaq da bozarır güllər solanda.

Yaşın, düşüncənin xatirələrlə yaşayan insanın mənəvi aləminin ömrünün son çağlarını yaşayan zamanla harmoniyası bu dördlükdə çox aydın görünür və müəllif çox qəribə bir analoq yaradır; güllərin solması ilə, baharın ötməsi ilə təbiət bozarır, torpaq rəngini dəyişir. Elə bu ahəngin özündə biz yaşının zirvəsindən dayanıb özünün dünyaya gəl-gəl deyən zamanına boylanan obrazı da görürük.

# Səsin işiği

Ədəbiyyatımızda, xüsusilə, poeziyamızda, bəlkə də, dövrün tələbindən kütləvi informasiya vasitələrinin elektron variantının təsir gücündən irəli gələn bir hal müşahidə olunur. Ədəbiyyatın janrlarında, eləcə də poetik janrlarda fikrin daha obrazlı və daha yığcam essevari üslubda ifadəsi daha üstündür. Doğrudur, bu halı müşahidə edən professor Şirindil Alışanlı məsələyə bir qədər başqa yöndən yanaşır:

> "Bizcə, son vaxtlar epik poemaların az yazılması və ya zəif çıxması bir də gerçəkliyin poetik inikasında romantikanın, romantik fəlsəfi ümumiləşdirmənin zəifliyindən doğur".[1]

Fikrimizcə, məsələnin əsl mahiyyəti daha çox ümumdünya poetik ənənələrinin Azərbaycan poetik ənənələri ilə qovuşması ilə bağlıdır. Başqa sözlə, indi mənzum romanlar dövrü sanki qurtarıb. İndi düşüncə poeziyası daha çox hakimdir. O da doğrudur ki, professorun qeyd etdiyi kimi

> "Poema janrının imkanları müqabilində ictimai ideallarımızı, müasirlərimizin ailə-məişət münasibətlərini elmi-texniki tərəqqi və müasir insan səciyyələrini fəlsəfi-romantik üslubda, böyük nikbinlik və ehtirasla, sevərəkdən, bütün kəskinliyi ilə tərənnüm və təsvir etməyə ciddi ehtiyac duyulur. Ədəbiyyatımızda poema janrının yeni mərhələsini yaratmış Səməd Vurğun ədəbiyyatın gələcək vəzifələrindən danışarkən müasir insanın mənəvi böyüklüyünü, qəhrəmanlıq və zəhmət dünyasının pafosunu poeziyada vermək üçün "xəyala sığmayan" həyat hadisələrini yeni, gələcək gerçəkliyin, Qorkinin sözlərilə desək,

---

[1] Şirindil Alışanov. "Sözün poetik yaddaşı". "Elm" nəşriyyatı.Bakı, 1994, s.174.

"üçüncü gerçəkliyin" real əlamətləri kimi tərənnüm və təsvir etməyi poeziyanın müqəddəs vəzifəsi hesab edirdi". [1]

Son dövrlərdə yaranmış poetik örnəklər sırasında, xüsusilə, özündə güclü poetik axar daşıyan və düşüncələr sistemi yaradan əsərlər sırasında Zəlimxan Yaqubun *"Əbədiyyət dastanı"* və *"Peyğəmbər"* poemalarını, Hafiz Rüstəmin *"Bakıdan Yardımlıya səyahət"* əsərini yada salmaq olar. Doğrudur, bu əsərlərdə S.Vurğunun tələb elədiyi müqəddəs vəzifələr yerinə yetirilsə də, böyük sənətkarın özünün yaratdığı poema dəst-xətti bir qədər fərqli şəkildə özünü göstərir. Zənnimizcə, bu gün poema janrı özünün yeni mərhələsini yaşayır. Və bu mərhələnin ən yaxşı nümunələrindən biri də elə H.İsaxanlının *"Ziyarət"* poemasıdır. Çünki bu əsərdə obrazların mənəvi aləminin psixoloji gerçəklikləri əsas götürülür. Əsərdə janrın imkanı daxilində *"xəyala sığmayan həyat hadisələrinin yeni, gələcək gerçəkliyi"*ndən çox, bu günün gerçəkliyindən və bu günün üzərində qurula biləcək gerçəklikdən söhbət açılır.

Bizim fikrimizcə, əlbəttə, mənim mənsub olduğum ədəbi kriteriyaların qoruyucusu olan və eyni zamanda daşıyıcısı olan müəlliflərin, sənətkarların zənninə görə, poeziya təkcə sənət nümunəsi olaraq sonuncu və kamil obraz deyil. Bundan sonra da daha yeni poetik obrazlar tapıla bilər. Amma hər halda, indiki ana qədər biz onu qeyd etməliyik ki, poetik harmoniya müəllifin özünün mənəvi aləmi ilə daha çox bağlıdır. Bu mənada, H.İsaxanlının yaratdığı poetik örnəklər və xüsusilə, *"Ziyarət"* poeması daxili-mənəvi mühitindən gələn təlatümlərlə bağlıdır. Yerin təkindən gələn, bir-birinin əksi olan dalğalar toqquşur və birinci növbədə vulkanlar yaranır, püskürmələr meydana çıxır. Əgər bununla yerin nəfəsi soyumursa, onda daha dəhşətli titrəmələr yaranır. Buna zəlzələlər deyirik. Ədəbiyyatda da belədir. Şair ətrafına soyuqqanlılıqla baxır. Ayrı-ayrı nadir mənzərələri tutur, şeirə gətirir. Qəlbinin hisslərini, həyəcanlarını ifadə eləməyə çalışır. Və bu zaman nadir şeiriyyət inciləri yaranır. Dəxli yoxdur, bu incilər öz hisslərinə və həyəcanlarına görə nə dərəcədə təlatümlüdür? Əsas məsələ odur ki, insanın hisslərinə və duyğularına nə dərəcədə təsir göstərə bilir?

Şair *"Ziyarət"* poemasında daha çox obrazlarının daxili aləminin qapısını açır. Bütün gücünü və istedadını qapının içəri üzündəki görünənlərin əks

---

[1] Şirindil Alışanov. "Sözün poetik yaddaşı". "Elm" nəşriyyatı.Bakı, 1994, s.174.

etdirilməsinə yönəldir. Əslində, elə professor Ş.Alışanlı da təqribən on beş il bundan əvvəlki mənzərədə elə bunları görmək istəyirdi:

> "Poemalarımızın son illərdəki mənzərəsi bu janrda həyatın müasir baxımdan tipik olmayan əhvalatlarının, müasirlərimizin mənəvi aləminin psixoloji təhlili əvəzinə ritorik tərənnümün, zahiri təsvirlərin geniş yayıldığını aydın göstərir. Poemanın janr kimi tutumu genişdir, lakin janrın hüdudları, mütəhərrikliyi baxımından ümumi şəraitin, həyat hadisəsinin real təsəvvürünü yaradan poetik detallar seçilməli, obrazlar silsiləsi məzmunun dolğun çıxmasını təmin etməlidir. Səciyyəvi detalların güclü bədii ümumiləşdirilməsi müəllifi mövzunun zahiri əlamətlərinin təsvirindən qaçmağa, öz qəhrəmanının maraq və düşüncəsinin dərinliyinə enməyə imkan yaradır"[1].

Janrın imkan verdiyi şəraitdə H.İsaxanlı obrazlarının *"maraq və düşüncəsini"* *"Ziyarət"* poemasında özünəməxsus bir forma və üslubda verə bilir. Əsərin yeni ***"könül səsi"*** adlanan hissəsində adından da göründüyü kimi, Yaddaş Sahibinin qarşılaşdığı insanın könül səsini eşidə bilir. Bu adam kimdir? Suala cavab verməzdən əvvəl qeyd edək ki, yenə də H.İsaxanlı öz üslubuna sadiq qalaraq könül səsini dinlədiyi adamın *"insanı insanlıqdan çıxaran"* əlamət və keyfiyyətlərindən danışmır, sadəcə, onu olduğu kimi təqdim edir:

Oxumaq, yazmaq bilməyən,
Şan-şöhrət üçün ölməyən,
Ağbirçəyə, ağsaqqala
Ehtiramla baş endirək.
Dalğın baxan, yorğun gülən,
Üz-gözündən nur tökülən
Kövrək qəlbləri dindirək.
Hal-əhval tutaq, onları -
Sevgimizlə isindirək.

Burada könül səsi dinlənilən adam kimdir - sualının cavabı var. Bu cavabı müəllifin üç-dörd kəlməsi açıqlayır. Məlum olur ki, o, oxumaq-yazmaq bilməyən, şan-şöhrət üçün özündən getməyən ağsaqqaldan, ağbirçəkdən biridir. Onların mənəvi saflığı, təmizliyi, qərəzsizliyi, kinsizliyi elə gözlərin-

---

[1] Şirindil Alışanov. "Sözün poetik yaddaşı". "Elm" nəşriyyatı.Bakı, 1994, s.174.

dən görünür, davranışlarından, danışıqlarından hiss edilir. Onlar kövrək adamlardılar, onların bir xoş münasibətə ehtiyacları var. Kim onların halını, əhvalını soruşsa, dərdini bilsə, ürək qapılarını da onların üzünə açar.

Yeri gəlmişkən, burada H.İsaxanlının *"Ziyarət"* poemasının quruluşu haqqında da bir-iki kəlmə demək olar. Əsər ayrı-ayrı lirik-epik lövhələr kimi yazılıb. Hər bir hadisə, görüş, hər bir obraz özü lövhə yaradır, daxili aləmini açır, nə istədiyini, nəyi görmək istədiyini biz obrazların dilindən eşidirik. Dövran hansı küləyi onların üstündən əsdirib? Onlara qarşı hansı haqsızlıq olub? Qəddarlığın mahiyyəti, humanizmin, insanpərvərliyin dəyəri bu adamların danışığında, düşüncəsində görünür, özü də çox təbii, könüllü, təmənnasızlıq şəraitində. Onların ən böyük ehtiyacı sevgiyədir. Dünya onlar üçün heç nədir. Təki Yaddaş Sahibi sevgisini onlardan əsirgəməsin. Hər bir müstəqil parça özündən əvvəlkinin davamı kimi səslənir və hər biri ayrılıqda nə qədər bitkin olsa da, bütöv zəncirin qırılmaz halqalarıdır. Yaddaş Sahibi də bunu bilir və onu da bilir ki, heç bu sadə adamlara və onların simasında yurda göydən ulduz gətirməyib. Amma əvəzində ürəyinin istisini, hərarətini gətirib. İndi könül səsini dinləmək olar:

Biri deyir: kimə gərək
Rəhm, şəfqət, açıq ürək?
Sentimental bu ax-uflar
Son vaxt yaman çoxalıblar.
Bu şairlər, filosoflar
Xalqın evini yıxıblar.

* * *

Şair yaradıcılığı boyu əsərlərini həyatdan aldığı təəssüratların təsiri altında yaradır. Və demək, ayrı-ayrı əsərlər müxtəlif ovqatlarda yazıldığı kimi ayrı-ayrı poetik emosiya yükü daşıyır. Bu emosional əhval, son nəticədə birləşərək şairin mənəvi aləmini göstərir, son nəticədə bu şairin üslubuna, dəsti-xəttinə çevrilir. Məsələn, Səməd Vurğunun yaradıcılığına məxsus olan hər hansı bir əsəri onun emosiyasından tanıya bilirik. Müəllif sanki öz obrazını əsərin ruhu ilə təqdim edir. Xüsusi emosional duyğu ilə müəllifini təqdim edən yaradıcılıq nümunələri sırasında Zəlimxan Yaqubun poeziyasını

da qeyd etmək olar. Müəllifin poetik emosiyası - Belinskinin təbirincə - poetik pafos yaradıcılığın ideyasının oxucuya çatdırılmasına xidmət edir:

> "Böyük şairin yaratdığı əsərlər nə qədər çox və nə qədər müxtəlif olsa da, onların hər birinin öz həyatı, buna görə də öz pafosu vardır. Bununla bərabər, şairin bütün yaradıcılıq aləmi, onun bütün poetik fəaliyyəti də vahid bir pafosa malikdir ki, ayrı-ayrı əsərlərdəki pafosun bu vahid pafosa münasibəti hissənin tama olan münasibətidir, əsas ideyanın bir rəngi, onun başqa bir şəklidir, onun saysız-hesabsız cəhətlərindən biridir ... "[1]

*"Hissənin tama münasibəti..."* başqa sözlə, ayrı-ayrı poetik parçaların bütöv əsərdə yerini görmək, H.İsaxanlının *"Ziyarət"* poemasında hər hansı bir hissənin əsərin ümumi mənzərəsində yerini görmək... Zənnimcə, Belinskinin düsturu bunu, bu mahiyyəti aşkarlayır. İndi qayıtmaq olar sözə yox, sözçülüyə önəm verənlərə müəllif münasibətinə. Bu münasibəti H.İsaxanlı obrazın dilindən verir, özü də çox sadə, anlaşıqlı, dəqiq aydın bir dillə:

Qara qələm ağ kağızdı.
Ağız dedi, əl də yazdı
Nə qədər boş söz qoşublar...
Qaydasız oyundur həyat,
Yaxşı oyna, arzuna çat.
İndi də belə zamandır,
Bacarana baş qurbandır.

Onsuz da müəllif öz obrazlarını tipikləşdirərkən, onların dəqiq və aydın cizgilərini çatdırmaq üçün canlı danışığın koloritindən məharətlə istifadə edir. Atalar sözü və məsəllərdən yerindəcə yararlana bilir. Obrazın dilindən kinayə, istehza o qədər səmimidir ki, sanki biz də həmin söhbətin şahidi oluruq, bu sözləri deyən adamın öz dilindən eşidirik. Həyatın qaydasız oyuna bənzədilməsi və belə oyunda dırnaqarası fərasətin təqdir olunması... və nəhayət, bu sifətlərlə bizim gördüyümüz, özümüzün şahidi olduğumuz zamanın təbiəti göstərilir. Bu fikirə müəllif obrazın dilindən işlətdiyi *"bacarana baş qurbandır"* məsəli ilə yekun vurur. Onun ironiyası, kinayəsi indiki zamanın təbiətinə uyğun olaraq M.Ə.Sabir kinayəsinin törəməsidir. Acı kinayə

[1] V.Q.Belinski "Rus ədəbiyyatı klassikləri" s. 97.

gülüş içərisində ürək yanğısı... bütün bunlar H.İsaxanlının yaradıcılığına xas olan keyfiyyətdir. Demək, onun tənəsi göydəndüşmə deyil. Müəyyən ənənədən qidalanma ilə yaranıb. Müəyyən ənənənin yeni forma kəsb etməsi, dövrün başa düşəcəyi dildə bu ənənəyə yeni ruh, can verilməsi göstərir ki, H.İsaxanlı qapalı bir dairədə fikir yürütmür. Onun düşüncələrində kinayə obyekti bu gün olsa da, bütöv əsrin süzgəcindən keçmiş olur. Yaddaş Sahibinin önündə dayanan, ona ürək sözlərini deyən adam sözünə davam edir:

Dövlətdən şikayət etmə,
Xoşun gəlmir - yaxın getmə.
Kim ki, dövlət işindədir,
Şərqdə, Qərbdə, ya Cindədir
Hansı irqdə, ya dindədir?
Fərqi yoxdur, qarnı toxdur -
O, səltənət içindədir

İndi dəb düşüb avtobus gecikəndə də, çörək keyfiyyətsiz bişiriləndə də az qala dövlət qınaq obyektinə çevrilir. Yaddaş Sahibinin müsahibi bu fikirlərlə də razı deyil və gileyli olanların çoxunda hakimiyyət ehtirası, vəzifə düşkünlüyü, kürsüyə can atma meyli də hiss olunur. Əslində, müsahibin aydın düşüncəsi var. O, belə ucuz gileylərin arxasında nəyin dayandığını yaxşı bilir. Elə ona görə də ilk baxışdan ibtidai təsir bağışlayan düşüncəsi ilə öz qənaətini bütün kəskinliyi ilə bildirməkdən çəkinmir. Axı dövlətdən nə üçün gileylənməlisən, axı hər bir insanın özünün də üzərinə düşən vəzifə var. Dövlət işində olan adamın bir ayağı burda, bir ayağı Çində ola bilər. Beləsinin dini, irqi yox, işi səni maraqlandırmalıdır. Özü də ki, heç xoşum gəlmir, yaxına getmə, amma unutma ki, onun dolanışığı ilə səninki bir deyil. Bu sadə, bir qədər də bəsit görünən düşüncənin özündə də kinayə çalarları az deyil. Buradaca Yaddaş Sahibi özü müsahibinin danışdıqlarına müdaxilə edir və müdaxiləsi ilə bu günün insanının mənzərəsini yaradır. O mənzərəni ki, çox vaxt gözlə görmək mümkün deyil, onu yalnız bəsirət gözü ilə görmək olar. Yalnız özünə qapanan quru rəsmilər cəmiyyətlə özləri arasında yeganə əlaqə ola biləcək səmimiyyət körpüsündən imtina edirlər. H.İsaxanlı bu səmimiyyəti könül səsi, sevgi dili kimi anlayır. Və əsas dərdi belə göstərir:

İnsan var ki,könül səsi
Sevgi deyil, siyasətdir.
Ehtirası, fəlsəfəsi
Əmr, hökm, rəyasətdir.

Burada fikrin sadəliyi, seçilmiş ifadələrin məqsədəuyğunluğu, sözlə günümüzün şəklinin verilməsi diqqəti cəlb edir. Sanki müəllif ayrı-ayrı ifadələrin mənaya tabe edilməsi üçün heç bir əziyyət çəkmir. Yazdığı kimi düşünür, çünki elə düşündüyü kimi yazır. Onun könül səsi sevgi yox, siyasət olan məqsədi iddia, hökm, rəyasət olan *"insan"* obrazının qarşısına Yaddaş Sahibi obrazını çıxarır. Yaddaş Sahibi isə nə qədər tarixi yük daşıyırsa, bir o qədər də bu günün adamıdır. Bu günün mənəvi mühitini də kifayət qədər yaxşı bilir. İndi insanların bir çoxunun vicdanı gərəksiz bir əşya kimi qəlbinin bir küncünə sıxışdırılması ilə yalanların ayaq açması, haqqın danılması və bu yolla müəyyən mənsəblərə, məqsədlərinə çatmağın mümkünlüyü... əslində ifşaedici mahiyyət daşıyır:

Yalan deyib haqqı danmaq,
Haqqı danıb ad qazanmaq
Acizlik, ya fərasətdir?
(Suallar içində yanmaq
İnsanlarda bir adətdir).

Yaddaş Sahibinin sualına müəllif özü cavab verir. Onsuz da sual ritorikdir, cavab istəmir. Emosiyadan, şeirin özünün təbiətinə uyğun pafosdan doğulur. Ancaq müəllif bu özü-özünə sual verməni insanların tarixi-mənəvi vərdişi kimi qəbul edir. Yəni sualsız da elə mətləb aydındır. Yaddaş Sahibinin mənəvi aləminin hakimi olan vicdan dilə gəlir. Bəlaların kökünü, ən dərin mənəvi qatlardakı qaynaqlarını açıqlayır:

Günaha batmışıq biz də,
Elə bizim sayəmizdə
Çoxu "dahi", "bir dənədir"...
Demə ki, bu zəmanədir.

Deməkk, Yaddaş Sahibinin timsalında bizim hər birimiz günahkarıq. Çünki biz də boğazdan yuxarı təriflərin, şişirtmələrin sayəsində *"hiperbolalar"* yaratmışıq. Yalançı *"dahi"*ləri, *"bir dənə"*ləri zəmanə yox, elə onların öz müasirləri yaradıb. Və bununla da cəmiyyətin mənəvi təkamülünün qarşısına sipər çəkilib. Belələri özlərinin əvəzsizliyi haqqında düşünür, sahib olduğu *"kreslodan"* dördəlli yapışıb. Həyatda baş verən hadisələrə özünün münasibətini daha üstün, daha doğru və daha dəqiq hesab edir. Şairin təəssüfü və özü də çox acı təəssüfü bir məqama daha qabarıq işıq salır. Yalançıların, riyakarların könül səsi sevgi yox, rəyasət olanların arasında əyrinin, ya düzün fərqi yoxdur. Onsuz da mənəvi harmoniyanın pozulduğu mühitdə, əyri də əyilir, düz də. Və bu mahiyyət şairin mənəvi mühitində belə əks-səda verir:

Demə dünya dəyişmişdir.
Nədən adət olub bizdə
Əyilir əyri də, düz də?
Aman, Allah, bu nə işdir,
Məxluqat nə etməlidir?
Min şükür ki, hər yaranan
Bir gün ölüb getməlidir...

Demək, durğunluğun təmsilçisi olanlar, mənəvi mühitin təkamülünə buxov olanlar əgər əbədi yaşasaydılar, onda həyatdakı inkişafdan danışmaq mənasız olardı. Bir çıxış yolu da budur ki, belələri fiziki, cismani ömürlərini başa vurub dünyadan köçür və demək mənəvi inkişafın buxovları da qırılır. Bu inkarın məntiqidir.

"Biz öz mühakimələrimizdə təsdiqləyərək inkar edirik, inkar edə-edə təsdiqləyirik: yəni ki, nəyinsə inkarı başqa bir şeyin təsdiqidir və əksinə. Birini təsdiqləyəndə, o birini inkar edirik. Lakin mifə möcüzənin məntiqi nəyinsə inkar edə-edə ona qarşı duran ayrı bir nəsəni də inkar edə bilər; yaxud bir şeyi təsdiqləyəndə ona əks olan başqa bir şeyi də təsdiqləyər. Bu, o deməkdir ki, möcüzə məntiqində gümanları qarşılaşdırmaq məcburiyyəti yoxdur, yəni mif "kontrimplikasiya" (əksliklərin bir-birinə bağlanması, qarşılıqlı şəkildə bir-birinin içinə hopması) deyilən bir nəsnəni inkar edir" [1].

[1] Y.E.Qolosovker. "Mifin məntiqi". Kitab aləmi. Bakı , 2006, s. 47.

Ziddiyyətlərin, qarşılaşmaların, kəskinliyinə baxmayaraq burada da Yaddaş Sahibinin təmsil elədiyi mənəvi mühitlə onun inkar elədiyi mənəvi mühitin bir-birinə qovuşması, hətta bəzən onların ayrıla bilməməsi hallarını da sezə bilirik. Elə bu xaousun, bu qarışmanın mürəkkəbliyinə cavab olaraq Yaddaş Sahibi insanın imkan məhdudluğuna sevinir. Ən azı ona görə ki:

Nə yaxşı ki, kainata
Tor qurub, kəmənd atmadıq.
Nə yaxşı ki, yeri, göyü
Biz qurub, biz yaratmadıq.

Axır ki, bütün bu mərəkkəbliklərin arasından bir çıxış yolu, bir işıq görünür. Ən böyük həqiqət yenə sözdədir. Baxmayaraq ki, sözü də ucuzlaşdıranlar, sözün də evini yıxanlar az deyil, elə xalqın evini yıxanları Yaddaş Sahibinin müsahibi sözün evini yıxanlar hesab edir. Və çox doğru qənaətdədir. Yaddaş Sahibinin müəllifin öz obrazı ilə qovuşmuş təbiəti bu misralarda daha yaxşı görünür:

Qaçmışam mənsəb cəngindən,
Mən də başqa cür dəliyəm.
Tutmuşam söz ahəngindən,
Düzə doğru deməliyəm.

Biz onun mənəvi saflığına inanırıq, onun kredosu aydındır. Bu kredo düzə doğru deməkdir. Orası da doğrudur ki, düzə doğru demək, sözlə asan başa gəlsə də, bəzən insanın özünün həyatı ilə əvəz-əvəz olur. Mənəvi korluğun hakim olduğu mühitdə sözün ahəngindən yapışmaq, necə deyərlər, müəllifin öz dili ilə desək *"bir cür dəli"* olmaq o qədər də asan deyil. Hər halda bütün çətinliklərə baxmayaraq, həqiqi sözün ahəngindəki işıq, çırağının işığı öləziməkdə olan yurdlara nur gətirir. Qocalıb əldən düşmüş, dizinin kirdarı getmiş, ruhu həyatla ölüm arasında çarpışan Yurd bu nurdan güc alır. Yurd inanır ki, Yaddaş Sahibinin timsalında itirdiklərini qaytara biləcək, daha doğrusu, ondan qopub ayrılmış zərrələr öz tamına qovuşmaq üçün yenidən onun cazibəsinə qayıdacaq. Yaddaş Sahibi də sevinir. Onun da itirdikləri mənəvi varlığına qayıtmaqdadır, çünki onun könül səsi sevgi dili ilə danışır. Bu dilin gücü, qüdrəti, *"təmiz ələ, xoş əmələ"* güvənməkdədir. Onu qo-

ruyan, onu ömrün dolanbaclarından keçirən həyatın çıxılmazlıqlarında ona yol göstərən də bu keyfiyyətlərdir:

Yorularmış insan bəzən,
Süni, yapma təbiətdən...
Təmiz ələ, xoş əmələ,
Saf insana vuruldum mən,
Uzaq durdum bədheybətdən.

Yaddaş Sahibi özündə güc görür, çünki o, bədheybətdən, nadandan uzaqdır. Sözü ilə, əməli ilə, ona qarşı vuruşur. Onun mənəvi arenasında - təmsil elədiyi böyük Azərbaycanda tarixi yaddaş oyanıb. Və bu oyanış Ümummilli Lider Heydər Əliyevin himayədarlığı və öndərliyi ilə müşayiət olunur. Bu oyanış *"öncə Azərbaycan ziyalılarını, daha sonra isə bütün xalqı strateji məqsədlər üçün səfərbər edir"*, bu səfərbərliyin mənəvi qaynaqlarını Yaddaş Sahibi belə görür:

> "Yüzillərin qan yaddaşını daşıyıb gətirən tarixi-mənəvi dəyərlərə, o sıradan folklor qaynaqlarına göstərilən qayğı və diqqət bütün Azərbaycan miqyasında özünü tanıma, özünüdərk və özünəqayıdış proseslərini hərəkətə gətirdi. Əvvəlki onilliklər üçün yasaq olan "Dədə Qorqud", "Oğuz", "Oğuz yurdu", "Ozan" "Türk mədəniyyəti", "Qan yaddaşı" anlayışları respublikada yaranmış münbit zəmindən nəşət taparaq, elmi toplantılarda, ədəbi-mədəni yığıncaqlarda, kitablarda, mətbuatda, radio-televiziya verlişlərində boy göstərdi. Mənəvi yaddaşın və Milli özümlülüyün bərpası İçərişəhər, Şuşa, Ordubad, Gəncə memarlıq komplekslərinin Milli qoruq elan edilməsindən, qədim xalçaların muzey-qoruğa ("Xalça muzeyi"nə) cəmləşdirilməsindən sazı-sözü, muğam sənətini, xalq mahnıları və rəqs-oyun mədəniyyətimizi himayə edən rəsmi qurumların Azərbaycan Aşıqlar Birliyi, "Aşıq Pəri Məclisi", "İrs", "Atəşgah", "Gülüstan", "Yallı" və s. kimi məşhur xalq kollektivləri, "Muğam teatrı", "Dastan teatrı", "Ozan Aşıq Muzeyi" yaradılmasından, kütləvi folklor nəşrlərindən, folklorun geniş miqyasda təbliğindən (folklor festivalları və jurnallarda folklor səhifələri) başladı və az sonra öz uğurlu nəticələrini göstərdi.[1]

---

[1] Məhərrəm Qasımlı "Heydər Əliyev və Azərbaycan folkloru". Bax: "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı". Bakı, 2009, s. 73.

Bu sadalanan adların arxasında dayanan mahiyyət yaddaşın qaynağıdır, güc mənbəyidir. Əslində itirdiklərimizin hamısı bu gücə tapınmamağımızla bağlıdır. Əgər söhbət Borçalıdan gedirsə, bu yerlər tarixi etnoqrafik baxımdan zəngin bir xəzinədir, açar isə yuxarıda sadalanan adlarla, ünvanlarla bağlıdır. Borçalıda da mənəvi hakimiyyəti yalnız bu yolla, bu güclə qoruyub saxlamaq olar. Elə ona görə də, Yaddaş Sahibi bu gücü *"Ziyarət"* üçün gəldiyi yurdda da görmək istəyir. Bu yurd faciəli bir yol keçib, vətəndən qıraqda qalıb. Buna baxmayaraq, onun gözəllikləri, zəngin təbiəti Yaddaş Sahibinin tarixi yaddaşa qayıdışı üçün əsas qapıdır. İlham qaynağıdır, gözəlliklərin gözəlliyinə uyğun tərənnüm, təbiətə sevgili münasibəti Yaddaş Sahibinin könül səsi, özü də bir nəğmə əhvalı gətirən, duyğulara sərinlik gətirən bir külək səsidir.

Nə əmr istər, nə də fərman,
Əsər külək canü-dildən,
Xəbər verər hər mənzildən.
Zəhmi ağır dik qayalar...
Durna keçər, qanad salar.
Möcüzədir vəhşi orman,
Ot üstə şeh, dağda duman.
Günəş gülər, bulud ağlar,
Yerdə, göydə min sevda var.

Müəllifin çox böyük səmimiyyətlə qələmə aldığı ecazkar təbiət ruhu etibarı ilə həm də ona iztirab verir. Onun ağrısını çəkir. Bu yerdə, göydə, min sevda olan yerlərdə Günəş gülüb, bulud ağlasa da onun könül havası çox qəmgindir. Amma o həyatın axarını dəyişmək, birdən-birə tarixin çarxını çevirmək gücündə deyil. Onun məqsədi insanlara bu sevgili təbiətin kimə məxsus olduğunu, kimin olduğunu anlatmaqdır. İnsan sahibliyini biləndə, nəyin ona məxsus olduğunu biləndə güclü olur, çünki ədalətli olduğunu dərk edir. Amma Yaddaş Sahibi unutmur ki, hər bir insan özünün mənəvi gücünə uyğun, kriteriyalarına uyğun, öz ölçülərinə uyğun haqqını görə bilir. Yalnız bu yolla nəyə sahib olduğunu dərk edən insan öz eşqinin rübabını sevgi ilə çalar, könül səsini ruhunun dərinliklərindən gətirər:

Ay, yer, günəş, insan - nə var
Seçər hərə öz babını.

Seçib başına dolanar,
Çalar eşqin rübabını.

Misralar, səmimiyyəti, yığcamlığı, aydınlığı ilə diqqəti cəlb etdiyi kimi mənası tutumu ilə də bir bayatı əhvalı gətirir. Onsuz da bayatı əhvalı H.İsaxanlının ruhunda həmişə hakimdir. Xüsusilə *"Ziyarət"* poemasında bu əhval daha qabarıq duyulur. Şair üslubuna güvənərək səmimi, emosional duyğularına güvənərək oxucuya aşılamaq istədiyi məqsədi cəsarətlə axıracan diktə edir. Yaddaş Sahibinin yaşı hərdən özünü göstərsə də, onun mənəvi güc və mənəvi saflıq tərəfləri onun ruhunun keşikçisi, mühafizidir. Ona görə də öz fikrini, düşüncəsini azad, yolunu açıq görür. Bu yolda aləmin seyrinə çıxmaq ən sirli sandıqları belə açmaq onun üçün çətin deyil:

Fikir azad, yollar açıq,
Gəl, aləmin seyrinə çıx.
Qarşımızda sirli sandıq,
Onu açmaq istəməsək,
Bəs onda niyə yarandıq?!

Yaddaş Sahibinin obrazı ilə qovuşmuş müəllifin *"mən"*i sonuncu misralarda sankı həyatın mənası haqqında danışır. Şüurlu yaranmışın, düşüncə sahibinin həyatının mənası insanlara həqiqəti demək, örtülü olanları açmaqdan ibarətdir. İnsanın həyatının mənası yalnız bu zaman zəngin olar, yalnız bu zənginliyin sahibi ömründə məna görər, səadət görər.

# Poeziya - ruhun zərrələri

Həyat çox mürəkkəbdir və bəzən çox hazırlıqlı adamı da çaşdıra bilir. Çaşqınlıq, əsəbi gərginlik, həyatın gözlənilməz təpkilərinə yetərincə hazır olmamaq insanın faciəsinə də səbəb ola bilər. Amma insan təbiət və cəmiyyət arasındakı görünməz əlaqənin qanunauyğunluqlarını dərk etməklə, bəlkə də vaxtından əvvəl, qabaqcadan insani bir instinktlə, duymaqla özünü mühafizə edə bilər. H.İsaxanlının poetik yaradıcılığını və demək, eləcə də *"Ziyarət"* poemasını insan və cəmiyyət, insan və təbiət arasındakı əlaqələr haqqında ədəbi traktat da hesab etmək olar. Çünki onun həyatla nəfəs alan obrazları cəmiyyət içərisində dünyanın harasında olur-olsun, baş verən ən axır gözlənilməzliklərə təmkinlə münasibət bildirir. Sanki elə hadisələrin gözlənilməz yox, təbii axarla da baş verdiyini qabaqcadan duyur. Bununla da özünü sarsıntılar qarşısında qoymur. Çox ustalıqla özünü baş verən hadisələrin mürəkkəbliyindən kənara çəkməməklə, elə hadisələrin içindəcə çıxış yolunu tapır. Çünki birinci növbədə, o, özünü təbiətdən və cəmiyyətdən təcrid eləmir, özünü cəmiyyətin bir üzvü hesab etdiyi kimi təbiətin də bir parçası kimi duyur. İnsanın formalaşmasına, müəyyən dünyagörüşə malik olmasına qədərki dövr əslində onun həyatının mənəvi əsaslarının yarandığı, mükəmməlləşdiyi dövrdür. Hamletin uşaqlıq və yeniyetməlik çağlarını onun mənəvi həyatının romantik mərhələsi də hesab etmək olar. Bu mərhələni aydın dərk etmək üçün onun yaradıcılığındakı müəyyən məqamlara daha dərindən yanaşma, onun hisslərinin, duyğularının həmin çağları göstərən təzahürünə yaradıcılıq aləminə vara bilmək gərəkdir. *"Ziyarət"*də belə bir hissə təbiiliyi və səmimiliyi ilə xüsusilə diqqəti cəlb edir: ***"suvararkən bağ-bostani"***

Kənddə böyüyənlər, kənd həyatının zəhmətlə yoğrulmuş uşaqlıq çağlarını yaşayanlar bağ-bostanı suvararkən nələrin baş verdiyini yaxşı bilirlər.

Gün başına döysə də, bəzən gücün çatmayıb yorulsan da ləklərin arasındakı körpə şitillərə xəyanət eləmək olmaz. Hətta bəzən su zəif gəlsə də, ləkləri axıracan suvarmalısan. Suyun çatmadığı, bircə şitilin yanğıdan çəkdiyi *"ağrı, əzabları"* özün duymalısan. Əvəzində su içən şitilin xəfif küləkdən titrəyən yarpaqları sanki səninlə dil açıb danışır, sənə təşəkkür eləyir. Bəlkə dəhnədən suyu vaxtsız kəsiblər, su basıb arxı dağıdır, yönünü dəyişir. Arx boyu dəhnəyəcən getməlisən burada da vaxt hesablanır. Su ilə bahəm bağa-bostana qayıtmalısan. Axı suyu da bostana qədərincə verməlisən. Artıq içilən suyun nə dərd gətirəcəyini babamız Nizami zamanında deyib. Həmin gənc yeniyetməlik çağlarını ləklər arasında, bağ-bostanda, arx üstündə kitabları ilə bir yerdə keçirən o gənc, bəlkə hələ uşaq indi Yaddaş Sahibidir. İndi o yerlərə qayıdarkən üstündən yellər əsmiş, zamanlar keçmiş o arxları gözü ilə axtarır. Tanış bir mənzərə görərkən ayaq saxlayır, yaddaşı ilə döyüşə çıxır. Yaddaşın ona qaytardıqlarını pıçıltı ilə danışmağa başlayır. Bir vaxt gəlir ki, o pıçıltılar onun xəyalındakı səliqəli ata, anna zəhmətilə düzəldilmiş ləklər kimi misralara çevrilir.

Meylimi mən kitablara,
Göyə, dağa, düzə saldım.
Bir də əngin xəyallara
Sözə... ala gözə saldım.
Həyat eşqiylə alışdım!
Beləydim, belə də qaldım.

Nə qəribədir, meylini kitablara salmış, kitablarla bahəm göylə, dağla, düzlə qovuşmuş o uşaq, indi ruhunda olan həyat eşqinə görə həmin günlərdəki xəyallarına sığınır və sanki bu gün sevinir ki, bir zaman həmin xəyallara, həmin uçub getmiş dünyaya meylini salıb.

O dünyanın adı indi xəyallarına çevrilmiş həmin göylərdir, həmin dağlardır, həmin düzlərdir və o zaman sinəsinə sıxdığı kitablardır. Elə bil ki, o kitabların içində döyünən ürəyi, çağlayan hissləri, duyğuları o göylərlə, o dağlarla bahəm bir yerdə ruhuna hopdurub. Qətiyyən nəzərdən qaçıra bilmərik. Bu romantik duyğulanmaların arasındakı nadir söz obrazını şair onu *"ala göz"* adlandırır. Və onun ilk sevgisinin adı elə o *"ala göz"*dür. Və bu gün bir də ona sevinir ki, uşaqlıq yaddaşında saf, kövrək duyğuların eyni paklıq və kövrəkliklə yoğrulmuş mənəvi saflığında qoruyub saxlayır. Söz onun üçün yenə elə *"ala göz"*dür. Yenə onun duyğulanmalarının, qeyri-adi

hisslərinin qaynağıdır. İndi yenə elə həmin *"ala gözün"* eşqi ilə çırpınır, qapı-bacadakı çalışmaları, bir kənd uşağının bir vaxt gördüyü işləri təzədən xəyalında canlandırır, beləliklə, o *"ala göz"* sözdür ki, onu şair ala göz adlandırır. O dağlarla bahəm bir yerdə ruhuna hopdurur:

Qapı-bacada çalışdım,
Ala-toran, axşam çağı.
Boş durarmı kənd uşağı?!
İşin tərs üzü də vardı:
Məni aludə olduğum
Kitablardan ayırardı.

DeməK, Yaddaş Sahibinin taleyi nə qədər kitablarla bünövrə daşı qoyubsa, elə o qədər də o bünövrə daşının bir tərəfindən yapışan əl zəhməti olub. Kitablara aludəçiliyə, kitablarla arasında olan məhrəmliyə bir kənd uşağının görəcəyi işlər mane olmayıb. Həmin o tərs üzü olan ağır zəhmət onun gələcək həyatının əsası olub, qələmi ilə dünyanı dörd dolanıb. Gecələri yuxusuz qalıb, əslinə qalsa bu gün yazdıqlarını o elə həmin arx üstündə yazıb, xəyalında yazıb, yaddaşında yazıb və zaman-zaman təzədən o aləmə qayıtmaqla o vaxt xəyalına yazdıqlarını indi kağıza köçürüb:

Suvararkən bağ-bostanı
Qoşardım neçə dastanı...
Suyu incə ram etməyi,
Su üstə söz düzəltməyi
Sevən oğlan indi hanı?
Varmı bir söz ərməğanı?

Kağızların üstündə bostan ləklərinə bənzər bəzən kövrələrək göz yaşları ilə suvarılan misraların hərarəti, odu, atəşi indi də oxucunu ona görə yandırır ki, o misralar, o sözlər, o sözün *"ala gözlük"* timsalında təzühürü ürəkdən su içib. Könül aləmindən qidalanıb, ona görə də bü gün onun rişələri elə Yaddaş Sahibinin mənəvi varlığının dərinliklərinəcən hopub. İndi ona görə o misralar Yaddaş Sahibinin öz təbirincə desək, o *"ala göz"* sevgi ünvanı bu qədər həyatidir, bu qədər yaşarıdır. Çünki o, əbədi sevda, o müqəddəs sevgi bir vaxt onun ruhunun pak olduğu, mənəvi aləminin saf, dumduru bulaq su-

yu kimi çağladığı zamanlarda onun varlığına yol tapıb. Onunla dilbir, əlbir olub. Onun özünə çevrilib:

Bəxtim gülür ara-sıra,
Bir sevda qonur başıma.
Bu fikir, bir neçə misra
Hakim olur yaddaşıma.

Ucalıq eşqilə, könül aləminin daha yuxarılarında pərvaz eləmək diləyi ilə xəyal qanad çalır. Amma insanın özü ruhən göylərdə olsa da, cismən həyatın keçilməzlikləri arasındadır. Çətindir, ruh, xəyal başqa bir aləm istəyir, gözün gördüyü isə tamam başqa bir aləmdir. Hər halda könül öz nəğməsini oxuyur - bəzən zilə qalxa bilməsə də.

Zilə qalxa bilməsək də,
Mahnını pəsdən demək də
Könlümüzün istəyidir.
Vəsf etsək də zirvələri,
Dağın ən səfalı yeri
Gül-çiçəkli ətəyidir.

Ümumiyyətlə, Hamletin yaradıcılığında ziddiyyətləri qarşılaşdırmaq, poetik müqayisələr aparmaq əsas yaradıcılıq üslubudur. Təsvirlər onun məqsədi üçün fikrinin kompleksini tamamlamağa imkan verməyəndə fikrinin gərginliyini belə ziddiyyətlərin qarşılaşması anında həll edə bilir. Zirvələrin vəsf olunması, tərənnüm edilməsi nə qədər onun ruhunu qanadlandırsa da o, yenidən sanki öz əhatəsinə qayıdır, daha böyük gözəlliyi elə öz yanında görür. Necə ki, *"dağların ən səfalı yeri gül-çiçəkli ətəyidir"*. Sanki təbiət onun tapınacaq yeridir. Elə özünü də təbiətin varlığında tapa bilir, təbiətə güvənəndə, təbiətlə qovuşanda körpə uşaq anasının qucağına sığınan kimi rahatlıq tapır. Təbiət onun üçün ana qucağıdır. O, bu aləmdə özünü Tanrının himayəsində görür:

Nəşəlidir sərin axşam,
Göydə aydır, yerdəsə şam.
Sevən qəlb nə duyğuluymuş!
Sevdalı ruh, qaynar ilham -
Şairliyin kökü buymuş!

Demək, ruhu sevdalandıran, ona qaynar ilham verən duyğulandıran qəlb sərin axşamın, göydə Ayın, yerdə ana gözlərindən gülən işığın oxşamalarıdır insanı yaşadan, insanın ruhunu qanadlandıran, ona inam və güc bəxş edən və bəlkə H.İsaxanlı hissi, duyğusu ilə gəldiyi qənaətində - şairliyin kökü bu imiş - daha çox doğrudur.Görkəmli amerikan filosofu, Uill Dürant (1885-1981) *"Fəlsəfi hekayətlər"*ində sanki təkcə özünü yox, dünyanın ən görkəmli filosoflarının - Platonun, Aristotelin, Frensiz Bekonun, Spinozanın, Volterin və fransız maarifçilərinin İmmanuel Kantın və alman idealistlərinin – Şopenhauerin, Herbert Spenserin, Fridrix Nitşenin... və bir çox görkəmli dünya filosoflarının fikirlərini ümumiləşdirməklə dünya fəlsəfi fikrinin mənzərəsini yaratmışdır. Onun Spinozanın düşüncələri ilə bağlı mülahizələri Tanrı və təbiət obrazlarının müqayisəsində çox maraqlıdır. Təbiət və Tanrı zənciri bir çox hallarda bir-birinə qovuşmuş olan bu tərəflər əslində cəmiyyətin özünün formalaşmasının əsasını təşkil edir. Şübhəsiz, birinci növbədə təbiət və Tanrı fərdi mənəvi aləmindən keçib, cəmiyyətdə ehtiva olunur:

> "Tanrının yardımı ilə mən təbiət deyərkən müəyyənləşmiş və dəyişməz nizamı və ya təbii hadisələrin zəncirini nəzərdə tuturam; təbiətin universal qanunları və Tanrının əbədi fərmanı eyni şeydir. Tanrının hüdudsuz təbiətdən qaynaqlanan hər bir şey eyni zərurət vasitəsilə, eyni üsulla baş verir. Bir dairənin qanunu digər dairələr üçün nədirsə, Tanrı da dünya üçün odur. Substansiya kimi, Tanrı da səbəbiyyət zəncirinə və ya prosesinə bağlıdır, hər bir şeyin əsasında yatan şərtdir, dünyanın qanunu və strukturudur. Modusların və şeylərin bu konkret kainatı öz layihəsinə, öz strukturuna bir körpü olaraq Tanrıdır, riyaziyyatın və mexanikanın qanunlarına uyğun bir şəkildə qurulmuşdur; bunlar dünyanı öz üzərində saxlayın bazisdir, başlıca şərtdir, substansiyadır, - onlarsız hər şey çökərdi. Dünyanın özü də sanki bir körpü kimi onun strukturu və qanunları vasitəsilə saxlanılır, - o, Tanrının əlində qorunur".[1]

Nədənsə H.İsaxanlının təbiətlə bağlı poetik düşüncələrini oxuyanda, istər-istəməz Spinozaya əsaslanan Uill Dürantın mülahizələri yadıma düşdü. Mənə elə gəldi ki, Hamletin bu duyğulanmaları ilə Tanrının iradəsi və təbiətin qanunları arasındakı reallıq o, balaca çocuğun - bağ-bostan suvararkən xəyallara dalan uşağın, 30-40 il sonrakı yaşantıları arasındakı reallığın eynidir:

---

[1] Uill Dürant. "Fəlsəfi hekayələr". Zəkioğlu. Bakı, 2006, s. 162.

Ola bilər qaş qaralsın,
Suçunun səbri daralsın.
Ya xəyal göyə ucalsın -
Diqqətli ol, fikir ver ki,
Su bir yerdə göllənməsin...
Bu halətlə mümkünmüdür
Şair qəlbli həssas çocuq
Cuşa gəlib dillənməsin?!

Bu şairin cuşa gəlib dillənən uşaq qəlbində Tanrını görməsidir. Uill Dürantın fikirlərinin davamına diqqət edək:

> "Tanrının iradəsi və təbiətin qanunları müxtəlif frazalarla ifadə olunmuş eyni reallıqdır. Buradan belə bir nəticə çıxır ki, bütün hadisələr dəyişməz qanunların mexaniki fəaliyyətidir, ulduzlarda məskunlaşan amansız hökmdarın şıltaqlığı deyildir. Dekartın mexanisizmi materiyada yalnız cismi görürdü, Spinoza ruhda Tanrını gördü. Bu, determinizm dünyası idi, niyyət dünyası deyildi. Çünki biz şüurlu məqsədin gerçəkləşdirilməsi üçün fəaliyyət göstəririk, güman edirik ki, hər bir proses belə bir məqsədə malikdir. Biz insan olduğumuz üçün güman edirik ki, bütün hadisələr insana aparıb çıxarır və onun ehtiyaclarını ödəmək üçün layihələndirilmişdir. Amma bu, antroposentrik bir gümandır. Bizim təfəkkürümüz çox zaman belədir. Fəlsəfədə ən böyük səhvlərin kökü ondadır ki, biz öz insani niyyətlərimizi obyektiv kainatdan üstün tuturuq. O vaxtdan da bizim "şər problemimiz" başlayır; biz həyat xəstələrini sağaltmaq üçün Tanrının xeyirxahlığı ilə mübarizə aparırıq, amma biz belə bir dərsi unuduruq ki, Tanrı bizim kiçik yaxşılıqlarımızdan və pisliklərimizdən, xeyirimizdən və şərimizdən kənardadır". [1]

Görkəmli filosofun qeyd etdiyi kimi Tanrının təbiətlə eyniləşməsi varlığı və qırılmazlığı insanın təbiətə can atması, insanın təbiətlə bahəm gözəllik aləminə, saflığa can atması Tanrıya qovuşmaq istəyindən başqa bir şey deyil. Tanrı bizim yaxşılıqlarımızdan və pisliklərimizdən ona görə kənardadır ki, biz ona pisliklərimizlə bahəm qovuşa bilmərik. H.İsaxanlı təbiətlə qovuşma anındakı düşüncələrində nə qədər yerlə, göylə əlləşsə də, son nəticədə onu sehrli aləmə aparan təbiətin bir parçasında qərar tutur və real insan olaraq sanki uşaqlığının tarixçəsini danışır əlbəttə, Yaddaş Sahibinin

[1] Uill Dürant. "Fəlsəfi hekayələr". Zəkioğlu. Bakı, 2006, s. 163.

timsalında. Danışılan əhvalat çözülən hekayə o qədər kövrək, o qədər duyğuludur ki, sanki qar altından çıxan zərif bir çiçəkdir. Artıq qeyd etdiyimiz kimi o zərif çiçəyin özü qar altından çıxmağın əzablar daşıyıcısıdır, onunla kobud rəftar etmək olmaz. Elə onun özü qədər, o qar altından çıxan çiçəyin zərifliyi qədər incəliklə, zərifliklə, kövrəkliklə ona yanaşmaq istəyi olmalıdır. Bu yanaşmanın bəhrəsi əlbəttə, kövrək pıçıltılara çevriləcək:

Yadındamı, xoş baxışdan
Könül həyəcan duyardı?
Bir oğlan da yaranışdan
Xəyallarla yaşayardı?!

Burada ünvan nə qədər dəqiq və aydındırsa, bir o qədər nazik bir tül altına, dağdan keçən seyrək duman altına düşüb. Sanki Yaddaş Sahibinin *"ala göz"* sözə ünvanladığı sevginin sahibi də üz göstərir. Çəkinə-çəkinə, utanan, həyalanan bir ismətlə. Biz uşağın birini görürük. O, uşağı görürük ki, hələ incəlik, zəriflik, kövrəklik aləmindən çıxmayıb, bu aləmdən qopmayıb. Ancaq onun bu sirli-sehrli aləminə mərhəm olan da var. İndi xəyalın dumanlıqları arasından baxıb onu görə bilir. Onun - o *"ala göz"*ün bir xoş baxışından bu uşağın könlü həyəcana gəlirmiş. Həm də o arx kənarındakı oğlanın həyəcana gəlməyi təsadüfi deyil, axı o elə yaranışdan xəyallarla həmdəm olub, xəyallarla yaşayıb. İndi zaman keçəndən sonra onun *"yadındamı?"* deyə müraciəti çox səmimi səslənir. Bu uşaqlıq aləminin sakinləri gərək yaddan çıxarmasınlar. Axı o vaxt onların arxından (həm də arasından) boz-bulanıq sular axardı:

Yadındamı, arxımızdan
Boz-bulanıq su axardı?
Bir oğlan da ağ kağızdan
Hey gəmilər axıdardı?!

O, oğlan o vaxt yol axtarırdı, bəlkə bu arxla gedən su arzuların o başınacan geib çatacaq, bu su o qədər gedəcək ki, son anda, son mənzildə insanların ürəklərindəki arzularının hamısının çiçəkləndiyi müqəddəs bir məkana çatacaq. Onun öz əli ilə düzəltdiyi kağız gəmilər onu həmdəmi ilə birlikdə arzuların çiçəkləndiyi yerə aparacaq:

Yadındamı, lövbər salıb
O gəmilər dayanardı?
Bir oğlan da izin alıb
Göy sahilə yollanardı?!

İnsan hisslərinin, insan duyğularının ən nadir yaşantılarının sözə gətirilməsi, sözə çevrilməsi və bu yolla insanların mənəvi aləminə bir-birini başa düşmək üçün körpü yaratmaq istəyi... bu, H.İsaxanlının müəllif kimi böyük uğurudur. O uşağı qanadlandıran duyğular, onun dayandığı sahilin qarşı tərəfindəki könlünə həmdəm olan qız elə həm də onun ruhunun ən zərif çiçəyidir. Onun şəninə nəğmələr oxuyur, bülbül kimi ötür, uçmaq, qanadlanmaq, səmada qoşa göyərçin kimi pərvazlanmaq istəyi uşaq aləminin ən gözəl lövhələridir:

Yadındamı, o sahildə
Gülə bənzər bir qız vardı?
Bir oğlan da xeyli zildə
Bülbül kimi oxuyardı?!

Buradakı saflığı, təmizliyi görməmək, sözlə yaranmış mənzərədəki İlahi gözəlliyi duymamaq mümkün deyil. Bu mənzərə hər birimizin həyatında var. Əlbəttə, o aləmi yaşamış olanlardan söhbət gedir. Amma eyni zamanda bu bir tarixi hadisə deyil, ancaq bütün tarixi hadisələrdən daha canlı, nəfəsli və ruhludur. Ona görə ki, biz o misraların arasında döyünən şair ürəyini görə bilirik. Hekayət isə davam edir. Bəs o gəmi hara getdi? Bəs o qız necə oldu? O oğlanın izsiz, soraqsız itməsi qızın taleyində hansı izi buraxdı?

Və yenə müəllifin özü bu suallara qəlbindən qopmuş hisslərin, duyğuların bir parçası kimi cavab verir:

Yadındamı, gəmi getdi,
Gözü yaşla doldu qızın?
Bir oğlan da tamam itdi,
Gül bənizi soldu qızın?!

Burada yaxşıdan və pisdən heç bir söhbət gedə bilməz. Bu lövhədə olanlar bölgülərdən çox yuxarıdadır. Bu mənzərənin təbiətində olan saflığa yaxşılıqlar qibtə edər, pisliklər həsəd aparar. Uill Dürant nə qədər doğru deyirmiş:

"Yaxşı və pis insani və çox zaman fərdi zövqlər və məqsədlər ucbatından nisbidir və kainat üçün heç bir əhəmiyyətə malik deyildir. Kainat miqyasında götürüldükdə isə fərdlər, sadəcə olaraq, gəldi-gedərdir. Əgər bizə təbiətə nəsə gülməli, mənasız və şər kimi görünürsə, bu çox zaman bizim biliyimizin qərəzli olması ucbatından, biganəlik üzündən baş verir. Həmçinin, o səbəbdən ki, biz hər şeyin bizim zəkamızın tələbinə uyğun qurulmasını istəyirik. Bizim zəkamızın pis bir şey kimi bəyan etdiyini təbiətin nizamı və universal qanunları heç də pis hesab etmir, onları yalnız bizim bu təbiətimizin ayrılıqda ötürülmüş qanunları hesab edir... (Yaxşı və pis terminləri özlüyündə nəzərdən keçirildikdə heç bir pozitiv məna kəsb etmir)".[1]

Uill Dürant insan və təbiət münasibətlərini düşüncə sistemində memar kimi qurur. Biz memarın yaratdığı nəhəng bir sarayı görürük. Ancaq o sarayın naxışları, incəlikləri, zəriflikləri çatmır. Bu görmək istədiymiz naxışlar şairin hissləri və duyğuları ilə süslənmiş sözlərdir, misralardır, poetik lövhələrdir. Uşaq quruyan arxın axmazlığına baxır, o daha gəmi ilə səyahətə çıxa bilməz. İndi o kağızdan təyyarələr düzəldəcək:

Yadındamı, arxımızdan
Axan sular quruyardı?
Bir oğlan da ağ kağızdan
Təyyarələr uçurardı?!

Görünənin nisbiliyi, birinin tərəfindən yaxşı, digərinin tərəfindən pis qəbul olunması, yaxud insanın musiqiyə münasibətdə yaşantıları...bütün bunlar əslində həyata münasibətin görüntüləridir. Quruyan arxa münasibətdə də uşağın yaşantıları əslində 50 il sonrakı dövrün kamillik zamanında yaşanan həyatın eskizləridir. Bu mənada şairin psixoloji məqamları reallığa uyğunlaşdıraraq poetik dilə çevirməsi filosofun insanın həyat hadisələrinə münasibəti ilə eyniləşir:

"Eyni bir şey eyni zamanda pis də ola bilər, yaxşı da, biganə də. Məsələn, musiqi melanxolik üçün yaxşıdır, qabaqcadan əmələ gəlmiş elə yanlış fikirlərdir ki, əbədi reallıq onları tanıya və qəbul edə bilməz. Doğrudur ki, dünya təbiətin bütün sonsuz, hüdudsuz, hədsiz, intəhasız illüstrasiyası ola bilər, lakin insanın, sadəcə olaraq, xüsusi ideallarının

[1] Uill Dürant. "Fəlsəfi hekayələr". Zəkioğlu. Bakı, 2006, s. 163.

illüstrasiyası ola bilməz. Yaxşı və pislə bağlı məsələ necədirsə, eybəcər və gözəllə bağlı məsələ də elədir. Bunlar da, həmçinin, subyektiv və şəxsi terminlərdir, kainat tərəfindən onlar heç nə ilə şərəfləndiriliməyəcəklər. Mən səni xəbərdar edirəm ki, mən təbiətə nə gözəlliyi, nə də deformasiyanı, nə nizamı, nə də qarşılıqlığı aid etmirəm. Şeylər yalnız bizi təxəyyülümüzə münasibətdə gözəl və ya eybəcər, nizamlı və ya qarışıq adlandırıla bilərlər. Məsələn, hər hansı bir obyekt bizim sağlamlığımıza səbəb olmuşsa, biz onu gözəl adlandırırıq; əgər yox belə deyilsə, belə obyektləri eybəcər adlandırırıq"[1]

İndiki, məqamda yeridir ki, H. İsaxanlının şəffaf düşüncələrinin bizim ruhumuza sağlamlıq gətirəcəyinə inamımızı təsdiq edək. H.İsaxanlının poeziyasında ruhu, onun real mənəvi həyatını çox vaxt üstələyir. Belinskinin təbirincə desək şairin ruhu, şairin özünü kölgədə qoyur. Əslinə qalsa bu şairin özünün ruhu ilə doğmalığından irəli gəlir. Demək, o, balaca uşağın düzəltdiyi kağız təyyarələr küləyin gücü ilə səmaya qalxıb dövr eləyəndə elə şairin ruhu da indiki anda xəyalları ilə birgə göylərdə olur:

Yadındamı, təyyarələr
Göy üzündə dolanardı?
Bir oğlan da üzdən gülər,
İçdən alışıb yanardı?!

Burada şairin yaradıcılığı ilə onun sənəti yaradan mənəvi varlığının harmoniyası ilə xəyallarını yaşadan yerin, yurdun insanları arasında sarsılmaz bir bağlılıq, genetik qohumluq var. Hamletin şeirlərində hisslər, duyğular bəzən o qədər güclü, o qədər təzə-tər, ayrılıqda götürülmüş və eyni zamanda bütün insanlığın hisslərini, duyğularını ifadə edən lirikası o qədər fərdiləşir ki, bəzən düşünürsən bu misraları başqası oxusa, həmin təzəliyi, həmin kövrəkliyi itirə bilər. Bu mənada Hamletin şeirləri, kövrək poeziyası özünə çox bənzəyir, onu çox böyük həssaslıqla tamamlayır.

Poeziya şairin ruhundan qopmuş zərrələrdir. Əsil poeziya elə müəllifinə bənzəməlidir.

---

[1] Uill Dürant. "Fəlsəfi hekayələr". Zəkioğlu. Bakı, 2006, s. 164.

# Çiçəklər önündə təzim

H.İsaxanlının *"Ziyarət"* poemasını deyəsən, üçüncü dəfədir ki, oxuyuram. Birinci dəfə dostumun kitabı kimi. Nə yazıb, nədən yazıb? - sualının cavabını vermək üçün, ədəbi məclislərdə, ədəbiyyatla bağlı mübahisələrdə susub qalmayım deyə. İkinci dəfə dünyaya sözü olan, bu gün Azəbaycanın mənəvi mühitində kifayət qədər ictimai rəyə təsir göstərən fəaliyyət sahibinin, görkəmli ziyalının əsəri kimi. Hər iki halda əsər məni qane eləmişdi. Üçüncü dəfə hissə-hissə, lövhə-lövhə, misra-misra oxudum. Başa düşdüyümü, gəldiyim qənaətləri yazmaq üçün. ***"qişla yazin arasinda"*** adlanan kiçik bir parça var poemada. Bu hissəni oxuyanda - əlbəttə ki, üçüncü dəfədən söhbət gedir - öz-özümə təəccübləndim. Deyəsən, birinci dəfədir ki, oxuyurdum. Necə olub ki, bir uşaq qəlbinin sızıltısını, bu dərəcədə həssas və kövrək bir ürəyin təzədən uşaq dünyasına qayıdıb həmin göynəmələri yaşamasını tuta bilməmişəm? Aydın məsələdir, qışla yazın arasında təbiətin özünün özü ilə çarpışması gedir. Əslində bu çarpışma eynilə təbiətlə insan arasında da gedir.

Payızın sonunda biz payızla qış arasındakı mövsümü kifayət qədər müqavimət gücü ilə yaşayırıq. Amma qışla yazın arasındakı mövsümdə qışın təsir gücü yazın hərarətindən çox güclü olur. Çox müşahidə eləmişəm, qışla yazın arasındakı soyuqlamalar daha çox fəsad verir, nəinki payızla qışın arasındakı mərhələdə. Qocalar və uşaqlar qışla yazın arasındakı hava dəyişmələrindən daha çox əziyyət çəkir. Hətta deyərdim ki, tələfat da payızla qış arasındakı mövsümə nisbətən qışla yaz arasında daha çox olur.

*"Qışla yazın arasında"* adlanan fəsildə tənəklərin taleyinə ağlayan, daha doğrusu, tənəklərə gün ağalyan uşaq, əslində, öz gününə ağlayır. Amma bu barədə bir qədər geniş şəkidə daha sonra.

H.İsaxanlının *"Ziyarət"* əsəri nəyə görə qiymətlidir? Nəyə görə belə əsərlər diqqətlə oxunmalı, öyrənilməlidir? Çünki gələcəyin adamları tarixin yazdıqları əsasında keçmişə qiymət verəcəklər. Bu mənada, ədəbiyyat da tarixdir. Ancaq ədəbiyyat tarixdən fərqli olaraq həyatda nə varsa, hamısını olmuşların, olanların və həm də ola biləcəklərin hamısını yazmalıdır. Şübhəsiz, elə yazmalıdır ki, nəinki bugünkü insanın, eləcə də gələcəyin adamının zövqünü oxşamaqdan başqa, könlünü ovutmaqdan başqa, ötüb keçən zamanların əhvalını, ovqatını, mənəvi mühitini kifayət qədər dolğunluğu ilə təsəvvür edə bilsin. Zənnimcə, *"Ziyarət"* poemasında Yaddaş Sahibinin yaddaşa sahib olduğu məkandakı həyatın bütün rənglərini verə bilmək cəhdləri uğurla nəticələnib. Təbiətlə insan arasındakı münasibətlər, təbiətin bətnindəki təbii təzadlar və bunların insanın mənəvi mühitinə təsiri onun kövrək dünyasında qoyduğu izlər - bütün bunlar həssaslıqla, daha dəqiq desək, yaşantılarla qələmə alınıb. Sanki Yaddaş Sahibi sözün həqiqi mənasında, gözlərimizin qarşısında hələ sümükləri bərkiməmiş balaca bir uşaqdır - cansız, çəlimsiz. Az qala gözümüz görür, yüyürüb onun gücü çatmadığı tənək budağını qaldırmaq istəyirik. Hələ bir onu bu ağır işə vadar edənlərə də az qala qəzəbimiz tutur. Dünyanı lənətləmək istəyirik. Bir tikə çörək üçün ailəyə, evə, ataya, anaya kömək eləmək, dayaq olmaq üıçün uşağın çəkdiyi zillət gözümüzü göynətdiyi kimi, qəlbimizi də ağrıdır. Bu təəssüratları yaratdığı üçün *"Ziyarət"* qiymətlidir. Vaxtilə Əhməd Ağaoğlu *"ədəbiyyatımızda həyat yoxdur"* deyəndə Azərbaycan ədəbiyyatını yox, Osmanlı ədəbiyyatını nəzərdə tuturdu. Və onun qınaqları elə indi də kara gələ, işə yaraya bilər:

> "Əski ədəbiyyamızda həyat yoxdur. Gerçək sənətə və təbiətdəki gözəlliyə də tamamilə yabançı qalmışdır. Bunları da duymamış və anlaya bilməmişdir. Zatən onun təqlid etdiyi ərəb və əcəm ədəbiyyatı da, təbiət və həyata tamamilə yabançıdır. Əski ədəbiyyatımızda həyatı və təbiəti təsvir edən bir tək gerçək lövhəyə rast gələ bilməzsiniz. Yəni ədəbiyyatımız bu işdə Avropa ədəbiyyatını təqlid etməyə qoyuldusa da, yenə həqiqəti təsvirdən çox uzaqdır. İstər şeirdə və istər nəsrdə təbii həyatın göstərdiyi lövhədən ziyadə, o lövhənin oyandırdığı duyğuları təsvir edir. Halbuki həyat və təbiəti görə bilmək, onlardakı ahəngi və musiqini anlaya bilmək, bir alayın ruhumuz üzərində yapdığı təsirləri təsvir etmək deyildir"[1].

[1] Əhməd Ağaoğlu. "Üç mədəniyyət". Mütərcim. Bakı, 2006, s.110.

DeməK, lövhələrin oyatdığı təəssüratdan başqa, həyatın və təbiətin özünü görə bilmək, həyatın və təbiətin harmoniyasını, səsini başa düşmək başqa məsələdir, təsirləri vermək başqa. Yaxşı olardı ki, ədəbiyyatda, sənətdə bu tərəflər arasıda qırılmaz vəhdət olaydı.

Əhməd Ağaoğlu (1869, Qarabağ, Şuşa - 19.05.1939, İstanbul) böyük mütəfəkkir idi. İstər siyasətdə, istər sosiologiyada, istərsə də fəlsəfədə öz dəst-xətti olan, özünün dediyi kimi, *"Üç mədəniyyət"*də kamil olan şəxsiyyət idi. Və o, Osmanlı ədəbiyyatdında həyat yoxdur, - deyəndə heç bir qəzəbə və qərəzə yol vermirdi. O, bu cür kəskin qılınc kimi sözləri ilə ədəbiyyatın boynuna haqq qoyurdu. Sənətin, sözün missiyasını bir daha xatırladırdı. Təsadüfi deyil ki, fransız, rus və ingilis ədəbiyyatının gücündən danışanda bu xalqların ədəbiyyatındakı zəngin aləmi, ucsuz-bucaqsız mənəvi genişliyi idealizə edirdi:

> "Əgər bütün Paris və Parisin tarixi yer üzündən qalxıb, yalnız Viktor Hüqonun "Notre Dame de Paris"i ("Notre Dame de Paris" - məşhur fransız yazıçısı Viktor Hüqonun (1802-1881) "Paris Nortdam kilsəsi" romanı nəzərdə tutulur) ilə Zolyanın "Vente de Paris" ("Vente de Paris" – naturalist fransız yazıçısı Emil Zolyanın (1840-1902) "Paris küləyi" əsəri nəzərdə tutulur) adlı əsərləri qalmış olsaydı, biz yenə Parisin istər orta əsrlər və istər daha sonra gələn zamanlardakı həyatı haqqında tam bir fikir əldə edə bilərdik. Küçələrindən, memarisindən, geyiniş tərzindən, evlərin döşəməsindən başlayaraq, kilsələrdəki ayinlərinə, kənd satıcılarına qədər, xəyalımızda canlandıra bilirdik. Bu xüsusda rus və ingilis ədəbiyyatı o qədər irəli getmişdir ki, Rusiyada və İngiltərədə təsvir edilməmiş, canlandırılmamış tək bir çay, tək bir orman, tək bir step, tək bir heyvan, tək bir insan və yaşayış tərzi buraxılmamışdır". [1]

Böyük ustadın ruhu qarşısında bu sözlərdən sonra səcdə etməmək sadəcə, mümkünsüzdür. Könül nə qədər həyəcanlanır, insan nə qədər qanadlanır, ədəbiyyata, həyata bu qədər sevginin haradan qaynaqlandığını axtarmırsan, sadəcə, başa düşürsən, anlayırsan ki, ədəbiyyatı başa düşən adam, həyatı sevən Adam, millətinə və xalqına bağlı olan İnsan elə bu cür yaza bilərdi.

---

[1] Əhməd Ağaoğlu. "Üç mədəniyyət". Mütərcim. Bakı, 2006, s.111.

"Ziyarət"də mən belə bir həssaslıq görürəm. Heç bir ormanın, heç bir çayın, heç bir ağacın, heç bir cığırın, heç bir yolun unuludmadığını görürəm. Əhməd Ağaoğlunu da düşündürən elə budur. "Qışla yazın arasında", əlbəttə, əsərdə tənəklərin, uşağın qaldıra bilmədiyi budaqların, cərgələrin, arxların, arx üstündəki otların xüsusi emosional duyğularla qələmə alınması yaddaşdan işıq zərrələri kimi görünən nə varsa, hər şeyin qələmə gətirilməsi, özü də xalıda öz yerində olan ilmələr kimi naxışlanması, sözlərin ruh kəsb eləməsi - bütün bunlar sanki həqiqətən təbiətdə, iqlimdə yazla qışın arasındakı həyatın özüdür:

Yaşıllaşır yaza sarı
Yumşaq söyüd budaqları.
Onları bir-bir kəsərdim
Yarpaqlardan təmizləyib,
Tənəkləri ehmal əyib
Əlimdəki söyüdlərlə
Məftillərə bağlayardım,
Tənəyə gün ağlayardım.

Müəllif tənək budaqlarının məftillərə bağlanmasını yada salır. Söyüd şivləri ilə - ip əvəzi nazik çubuqlarla bağlanan budaqlar bara, bəhərə dolacaq, uşaq əllərinin gücü ilə tənəklərə gün ağlanacaq və o tənəklər bir gün qışla yazın arasından keçib açılan tumurcuqları ilə uzə güləcək və son nəticədə ailəyə gün ağlayacaq.

Mənə elə gəlir ki, uşaq aləminin yaddaşında iz buraxmış bu ömür parçası min ildən sonra oxunsa da, həmin uşağın yaşadığı dövr, zaman, həyat keşməkeşləri arasında çırpınan diləklərin hamısını göstərəcək öz rəngində, öz rayihəsində, öz ətrində, qoxusunda. Bəlkə də, elə bu cür təsvirləri nəzərdə tuturdu Əhməd Ağaoğlu. Yoxsa, başqa cür necə təsvirlərdən yaranan hissiyyatı belə ilhamla qələmə almaq olardı:

> "Bu kimi təsvirlərin istər estetik və istər ictimai baxımdan pedaqoji təsirləri böyükdür. Bu təsvirlər bəsit bir baxışla görülməyəcək gözəlliklər göstərir. Oxucu onları oxuyarkən, yanından qeydsiz keçərək heç diqqətini çəkməyən olaylarda nə qədər ahəng və musiqi olduğunu anlamağa başlar. Yavaş-yavaş özü də gözəllikləri görməyə, kəşf etməyə başlayır. Ruhu, qəlbi yüksəlir, incəlik qazanır. Digər tərəfdən, təsvir olunan lövhələrdəki gözəlliklər, istəmədən oxucuda bu lövhələrə qarşı

bir sevgi, bir bağlılıq oyandırır, bu işdə ədəbiyyat sehrli bir amildir. Mənə ilk əvvəl Qafqazı sevdirən, Qafqazın gözəlliklərini anladan Lermontovla Puşkinin təsvirləri olmuşdur. Bunun kimi Qafqaz kəndlisinə, onun saf və təmiz həyatına qarşı ilk hissi bağlılığımı, yenə bu yazarların əsərləri oyandırmışdır. Vətən sevgisi, vətən eşqi, iştə, belə doğar, belə qüvvətlənər. Bu eşq və sevgi, təlqinlərdən, zehni təsirlərdən ziyadə duyğu tərbiyəsi ilə doğar"[1].

Əlbəttə, Əhməd Ağaoğlunun düşüncələrindən belə qənaətə gəlmək olar ki, əslində, ədəbiyyat özünün ovsunu, sehri, ecazı ilə insanı həyata, təbiətə bağlamalıdır. Həyata və təbiətə sevgi ilk növbədə elə ədəbiyyatdan qaynaqlanmalıdır. Qoy eybi yoxdur, təbiətlə insan arasındakı, daha doğrusu, təbiətlə insanın gücü arasındakı təzadı ədəbiyyat olduğundan da artıq versin. Sunaminin gətirdiyi fəlakəti, zəlzələnin dünyanı vəlvələyə salıb insanlara vahimə gətirməsini ədəbiyyat qədərindən artıq yaddaşa yazsın. Əvəzində insan bu təbii fəlakətlərə də davam gətirməyin yolunu tapsın. Təki insan yaşamağa davam etsin. Lap elə qışla yazın arasında o göynəyən uşağın sızıltıları, əzabları bizi təzədən göynətsin. Amma unutmayaq ki, biz həyatı daha yaşarı eləməyə gəlmişik. Ən azı tənəklər arasında titrəyən o uşağın xatirinə. Qayıdaq, qışla yazın arasına. Ayazların, şaxtaların körpə uşaq barmaqlarını göyərtdiyi, cansız, cılız bədənindən küləklərin keçdiyi məqama:

Qışla yazın arasında
Ayaz ikiqat olurdu.
Aman verməzdi azacıq,
Üstdən də külək vururdu.
Bağ da ki hər yerdən açıq,
Gizlənəydim harasında?!
Canıma soyuq dolurdu.

Yaddaş Sahibinin uşaq aləmi görün, bizə nəyi deyir? Hər tərəfdən küləyin, ayazın kəsdiyi uşaq işləməkdən qala bilməz. Axı vaxt gedir, onun üzüm budaqlarını bağlamaq payı var, dayana bilməz, amma nə olaydı bu bağda bir dalda yer olaydı. Yaddaş Sahibinin xatırladığı kimi bağda da dalda yer yoxdur. Uşaq çalışır, çarpışır. Həm iş üstündə onun uşaq yaşına uyğun gəlməyən ağır zəhmətin özü ilə çarpışır, həm də elə fiziki olaraq öz canı ilə çalışır,

[1] Əhməd Ağaoğlu. "Üç mədəniyyət". Mütərcim. Bakı, 2006, s.111.

öz canını qorumaq üçün çarpışır. Onun soyuqdan göyərmiş əllərini ciblərinə qoyması, az da olsa soyuq küləkdən qorumaq istəyi... bütün bunlar da bir nəticə vermir:

Arabir də əllərimi
Ciblərimdə saxlayırdım.
Onun da bir xeyri yoxdu,
Ciblərim də çox soyuqdu.

Deyəsən, ədəbiyyatımızda uşaq hisslərinin bu qədər təbiiliklə verilməsi səhnələri çox azdır. Hətta nə qədər çox olsa belə, yenə azdır. Mir Cəlalın Baharı küçə-küçə gəzib ciyər satarkən də beləcə, ayaqlarının birini götürüb, birini qoyurdu.

Hər halda H.İsaxanlının tənəklər arasındakı soyuqdan göyərən *"uşağının"* hissləri, duyğuları çox orijinaldır, təsirlidir və eyni zamanda ahənrüba kimi cazibəyə malikdir. Az qala o yerlərə uçub dörd gözlə həmin uşağı o üzüm tənəklərinin arasında axtarmaq istəyirsən. Axı elə indi də qışla yazın arasıdır, tənəklərin ağlayan çağıdır:

Qışla yazın arasında
Əllərim çat-çat olurdu.
Göz yaşımı saxlamağa
Gücüm çatmaz - ağlayardım.
Sonra... gücümü toplayıb
Tənəkləri bağlayardım.

Uşaq necə də təbii danışır: *"Gücüm çatmaz, ağlayardım"*. Bəs sonra nə baş verir? Heç nə qurtarmayıb, heç nə bitməyib. Bu *"sonra"*dan sonra üç nöqtə gəlir. Həmin nöqtələr şairin qələmə almadığı iztirabların cərgəsidir. Üzüm tənəkləri kimi onun mənəviyyatında sıralanıb gedən iztirabların. Və yenə gücü toplamaq və yenə tənəkləri bağlamaqda davam eləmək. Amma daha bir sonranın sonu deyəsən günəş çıxır. Buludlar parçalanır, soyuqdan göyərmiş uşağın titrəyən barmaqlarına baxıb göynəyən nənənin səsi gəlir:

Nənəm dizinə döyərdi:
"Allah, sən mənə ölüm ver.
Uşağım gömgöy göyərdi".
Mənə tüstülü ocağın

Qabağında yer verərdi.
Nağıldakı loğman kimi
Yağlayardı əllərimi.

*"Ziyarət"* həm də ona görə həmişə oxunacaq ki, insan iztirablarının, insan əzablarının yaddaşdan keçən varlığı olduğu kimi görünür, siluet kimi yox, kölgə kimi yox, ruh kimi görünür, amma bütün canı ilə, bütün varlığı ilə, zamanın ağrı və əzablarını özünə yığaraq görünür.

Nağıldakı loğmana bənzədilən nənə, onun qayğılanmaları, çat-çat olmuş uşaq əllərini ovxalaması, onun barmaqlarına yağ çəkməsi və nəhayət nəslin böyüklüyü, böyük nəsli dolandırmaq istəyi atanın böyük ailənin ehtiyacları qarşısındakı təkliyi... heç nə yaddan çıxmır:

Nəsil böyük, atamsa tək,
Mən də böyük oğul kimi
Yaxşı bilirdim işimi -
Həyat ruhdur, bir də əmək!

Və bu düşüncələrin fövqündə onun gəldiyi qənaət də düzgündür. Həyatın ruhdan (yəqin ki, istəkdən, arzudan, həyat uğrunda mübarizədən...) və əməkdən ibarət olması qənaəti. Axı elə insanın özünü əmək və düşüncə yaradıb. İnsan şüurun və zəhmətin bəhrəsidir.

Qalır yaddaşın iztirabları. Bu iztirablar isə tükənməzdir və Yaddaş Sahibinin fiziki ömründən sonra onun mənəvi ömründə davam edəcək:

(Dönə bilsəydim o çağa,
Sirdaş olsaydım o bağa -
Qışla yazın arasında
Tənəkləri bağlamağa!)

Nədənsə, müəllif yaddaş ağrılarının bəhrəsi olan bu misraları mötərizəyə alıb. Amma elə bilirəm ki, heç bir mötərizəyə lüzum yoxdur. İnsana xas olan xüsusiyyətdir yaşadığı çağlara qayıtmaq istəyi. Əlbəttə, bu, mənəvi istəkdir.

...Dəfələrlə qeyd etdiyim kimi, H.İsaxanlının yaradıcılığındakı təbiilik və bu təbiiliyin təbiətlə qohumluğu onun özünün təbiətindən irəli gəlir.

Onun ruhunda təbiilik sanki meyardır, ölçüdür. Və düşüncələrimizə qol-qanad verən misralarından da gördüyümüz kimi, onun mənəvi aləmi təbiətdən gələn saflıq üzərində pərvəriş tapdığı üçün özünü də təbiətə borclu bilir. Gözəgörünməz tellərlə bir vaxt qucağında əlləri göyərən uşağın təbiətini yaza-yaza təbiətə borcunu qaytarmağa çalışıb.

Hamletin şeirlərini oxuduqca adam qışla yazın arasında daha gözüaçıq olur. Sanki qışla yazın arasında titrəyən gül ləçəklərinə də qayğı göstərmək, küləyin qabağında titrəyən çiçəklərə bir daldalıq qurmaq istəyirsən. Və həmin andaca, bəlkə də, heç yada düşmür müəllifin tərənnüm elədiyi, taleyini yazdığı uşağın küləyin qabağındakı titrəyişləri. Amma hər halda bu, ədəbiyyatdan gəlir. Bizim mənəvi aləmimizin harmoniyasını təmin edən, ahəngini qoruyan ədəbiyyatdan. Çox yerinə düşdüyü üçün Əhməd Ağaoğlunun fikrinin davamını düşüncələrimizə qol-qanad verən düşüncələrinin məntiqi yekununu da yada salıram:

> "Almaniyadan keçərkən şam ağacı ormanlarının çoxluğuna, təmizliyinə, ağaclara qarşı kiçik çocuqlar tərəfindən belə göstərilən bağlılığa şaşırdım. Yanımdakı alman "Əfəndim, bu duyğuları bizə şair Goethe (1749-1832 - alman şairi və dramaturqu) aşılamışdır, - dedi. Görürsünüz, ədəbiyyat ağacından insanına qədər hər şeyi bir-birinə sevdirir, bağlayır. Gözəlliklərini kəşf etdirir, aralarında böyük və dərin bağ meydana gətirir. Bizim ədəbiyyatımız bu qüdrətdən məhrumdur. Nedimin (Nedim, (1681-1730 - Türkiyənin məşhur divan şairi) Kağıtxana və ya Göksü haqqında yazmış olduğu bir neçə beyt, hələ də oralara gedənlərdə, o yerlərə qarşı özəl bir duyğu oyandırmırmı?"[1]

Necə də bizim Hamletin poetik duyğulanmalarının məntiqi nəticəsi ilə səsləşir. Ədəbiyyat həyatın özü ilə nə qədər bağlıdırsa, bir o qədər zaman qarşısında güclüdür.

...Hamletin lirik qəhrəmanının mehrabı təbiətdir. Əzilməmiş, tapdanmamış çöl-çəməndir. Onun lirik yaradıcılığı sanki çiçəklər qarşısında təzimdir.

---

[1] Əhməd Ağaoğlu. "Üç mədəniyyət". Mütərcim. Bakı, 2006, s.112.

# Aristarxlara cavab

Hər şeyə tənqidi yanaşanların H.İsaxanlı yaradıcılığına münasibətini o qədər də dəqiq bilmirəm. Amma onu bilirəm ki, H.İsaxanlı yaradıcılıq aləmində olan və sözünün kiminsə tərəfindən necə dəyərləndiriləcəyinin fərqinə varmayan sənətkardır. Çünki o, özü yaxşı bilir ki, sənətin əsl dəyəri mənəvi aləminin sərraflığı vicdana çevrilənlər tərəfindən qiymətləndirilir. Sənətin nüvəsində olan işıq zamanı gələndə daha aydın görünür. Ona görə də H.İsaxanlı yaradıcılığının taleyindən narahat olmayan bir şairdir. Onun indiyə qədər dərc olunan kitabları insan hisslərinin çırpıntılarını duyan adamlar tərəfindən sevilə-sevilə oxunur. Aristarxlara gəldikdə isə Belinski onların cavabını çox dəqiq verib. Necə yazmağın, necə yazılanın nə demək istəyində olduğunu, özü üçün kredo hesab edən sənətkar oxucuya bəsit fikir məhsulu sırıya bilməz. H.İsaxanlının şeirləri də beləcə, nadir insan mənzərələrinin, həm də gözlə görünməyən mənzərələrinin əks-sədasıdır.

"Ziyarət" kitabında toplanmış "Gələcəkdə", "Solist", "Üç sual", "Göylər bizdən uzaqdır", "İstədik", "Zamanın fəlsəfəsi", "Sadə olmayan iş" və "Yuxu" kimi çox maraqlı şeirlər hər birimizin dünyasındakı cavabsız sualların müəllifin mənəvi aləmindən keçən cavablarıdır. Müəllifin mənəvi kriteriyasına görə zamanın fəlsəfəsi budur:

> "Bu dünyada iz qoyanlar, Bu dünyadan rahat getsin. Zamanın yetər gücü var, Nüfuz etsin dərinlərdən lap dərinə. Zaman əlbət, qoyacaqdır öz yerinə hər bir kəsi. Kor deyilmi, zamana kor deyənlərin fəlsəfəsi"[1].

Biz bilərəkdən təqdim olunan poetik parçanı misralara düzmədik. Elə ardıcıl, fikir axarı ilə, bir nəsr parçası kimi təqdim etdik. Göründüyü kimi,

[1] Hamlet İsaxanlı. "Ziyarət". Xəzər Universitəsi nəşriyyatı. Bakı, 2009, s. 49.

şeirin ritmi, ahəngi yenə pozulmadı, poetik əhval öz gücünü saxladı. Çünki ifadə olunan fikir müəllifin ruhi-mənəvi aləminin poetik vüsətini göstərir. Misralarla ifadə olunmasa belə, yenə şeiriyyət, yenə poetik əhval oxucunu həyəcanlandırır. Bu, artıq bədiiliyin gücüdür. Yaxud bir neçə misradan ibarət olan "Üç sual" şeirinə də nəzər salsaq, yenə həmin gücü, həmin poetik dəyəri görə biləcəyik:

Birinci hansı bəxtəvər daddı,
Güllərin bihuş edən ətrini?
Gülə nəfəs verənmi yaratdı
Bəşəri içindən yeyən kini?
...İfadə caiz isə
Kim belə qüdrət verib iblisə?

Müəllifin qoyduğu üç sual bir-birini tamamlayır. Söhbət təbiətdə və cəmiyyətdəki harmoniyadan gedir. Hansı bəxtəvərin güllərin ətrini dadmağının dəxli yoxdur. Və burada əslində, birinci olmalı, bünövrə olası güllərin yaradılışıdır. Yəni ilkin olaraq o gülləri yaradan onun ətrini duyub o bihuşedici hissin təsiri altında əsl bəxtəvərlik əhvalı yaşayıb. Bəs onda bəşəri içindən yeyən kinin bünövrəsini kim qoyub? Axı məntiqə görə, gülləri yaradan özünün bəxtəvərliyini içini yeyən kinin və qəzəbin rəmzində necə bədbəxtliyə düçar edə bilərdi? Və son nəticədə müəllif razılaşmır ki, gülləri yaradan kini də, qəzəbi də yaratmış olsun. Növbəti üçüncü sual meydana çıxır. Demək, bünü iblis eləyib. İblis isə əfsanələrdə deyildiyi kimi göydən gəlməyib. O, elə insanın özünün içindən doğulub. Əvvəlcə güllərin tikanları şəklində. Sonra insanın ruhuna, mənəviyatına köçərək kinə və qəzəbə çevrilib. Hər halda onun əməli icazəsizdir. Bəşəri qanunlardan kənardır. Və demək, cinayətkardır. Müəllif təbiətin və cəmiyyətin ümumi ahənginə, harmoniyasına uzanan qara əlin mənəvi-psixoloji köklərini göstərir.

H.İsaxanlının yaradıcılığını ziyarət motivləri üstündə kökləyən hisslərin mahiyyətini göstərən bir maraqlı şeiri də var. Müəllif şeiri "Solist" adlandırıb. Solist musiqi mətnini ümumi ansambldan ayrıca səsləndirən ifaçıya deyilir. Amma solistin ifası da ümumi ansamblın ifasının tərkib hissəsidir. Ümumi ahəngə tabedir. Ancaq əsas güc, əsas fikir onun üzərində cəmlənir. Müəllifin məntiqi tələbinə əsasən hər bir şəxs özü cəmiyyətdə - ümumi ansamblda solist olmalıdır. Hər kəsin öz fikri və düşüncəsi olmalıdır. Hər kəs

cəmiyyətdə öz səsi ilə, qəlbinin istəyi ilə, bəşəri qanunauyğunluğun tələbi ilə yaşasa, çıxış eləsə, onda yersiz ümumiliyin, susqunluğun, ümumi baş yellətməyin və əl çalmaların, *"ura"*ların təsiri altında dəhşətli ümumdünya faciələri də baş verməzdi. Sanki müəllif *"Solist"* şeirində elə bil ki, demədiyi, axıra çatdırmadığı fikri *"Qoyunlar xoru"* adlandırdığı çox maraqlı şerində davam etdirir:

Qoyunsansa, sual vermə,
Daha demə
Kimlərə həmdəm olduq.
Alış itə, alış qurda,
Xan çobana, xan çomağa.
Alış təzə, köhnə yurda,
Başaşağı otlamağa.

Çox dəqiq cizgilərdir. İnsanın düşüncəsizliyinin, düşüncədən məhrum edilməsinin qoyun obrazı. Böyük Ç.Aytmatovun Manqurt obrazı ilə səsləşən məqamlar. Manqurt olandan sonra insan anasını tanımır, demək, düşünə bilmir. Bütöv bir sürü qoyunu da bir keçinin arxasınca beləcə edama aparmaq olar. Ya bir ovuc duzu əlində tut, uçurumdan bircə qoyunu aldadıb ötür aşağı - bütün sürü getsin. Qoyun olmağın faciəsi... əslində, düşüncəsizliyin faciəsi:

Biz öz qoyun gözümüzü
Döyə-döyə
"Yaradana şükür olsun",
Deyə-deyə.
Hələ çox iş görməliyik.
Yunumuzu, südümüzü...
Sözün düzü,
Biz ki, belə yeməliyik -
İstəsələr, canımızı verməliyik!

Qoyun-insan qarşılaşması. Müəllif düşüncəsiz insana aid olan, düşüncəsizlik faciəsinə düçar olan insanın taleyi ilə qəssabxanaya aparılan heyvanın taleyi arasındakı oxşarlığı çox dəqiq göstərir. Qoyun yeyilməli olduğuna görə - yeməli olduğuna görə *"canımızı verməliyik"* cavabından başqa heç nə bilmir. Onun sual vermək gücü yoxdur:

Qoyunsansa, sual vermə,
Daha demə,
Nədən belə havalandıq,
dəm olduq.
Ağzı qara canavara
yem olduq.

*"Qoyunlar xoru"*nun əvvəlindəki epiqrafsayağı iki misranın özü də - *"Qoyun olduq, Dağ döşündə cəm olduq, Otdan yedik, sudan içdik, dəm olduq"* - Aristarxın gətirəcəyi bəhanəni qabaqlayır. Əgər ot yemisənsə, su içmisənsə və sonra da dəm olmusansa, hələ elə bir dağ döşündə, bir çoban qabağında cəm olmusansa, bir gün canavara da yem ola bilərsən.

İndi bir daha *"Solist"*ə qayıtmağa dəyər. Demək, cəmiyyətin ümumi ahəngində solistə yer yoxdursa və onu da qeyd edək ki, cəmiyyət fərdlərə qarşı şeirin özündən çıxış eləsək, ansambl solistə qarşı həmişə qəzəbli olur. Amma solist özünün istedadı, bacarığı, müəyyən mənada ansamblı idarə etmək gücü ilə öz yerini tutur. Bunun üçün birinci şərt insanın düşüncə hazırlığıdır. Əgər düşünmək üçün müəyyən hazırlıq mərhələsi keçməmisənsə və ümumiyyətlə, solist olmaq hazırlığın yoxdursa, ansamblın ümumi ahəngini tuta bilməyəcəksən. Bunun üçün bünövrədən hazırlıq gərəkdir.

Hər halda müəllif lirik qəhrəmanın solist olana qədər keçdiyi yolun tarixçəsini şeirdə belə verir:

Uşaqlıqdan düşünmək
olubdur peşəm,
Kitablardan toz yemişəm.
Və... xəyallara dalmışam -
Yolum haraya düşəcək
Kim-kim ilə görüşəcək -
Onu mən özüm demişəm.

Burada bir məqamı da yada salmaq olar. Ümumiyyətlə, *"Ziyarət"* kitabında toplanan şeirləri müəllif ya *"Ziyarət"* poemasını işlədiyi mərhələdə, həm də çox uzaq olmayan ərəfədə yazıb, ya da elə eyni vaxtda - poemanı işlədiyi dövrlərdə yaddaşın və nəticədə düşüncənin tələbi ilə həyatda gördüklərinin, duyduqlarının cavabı kimi qələmə alıb. Hər halda, kitabda müstəqil

şeirlər kimi verilən bədii parçalar *"Ziyarət"*in çox dəqiq və düşünülmüş şəkildə hazırlanmış bünövrəsidir, özül daşıdır. Hətta bu şeirləri poemanın ayrı-ayrı yerlərində məntiqin tələb elədiyi məqamlarda vermək olardı və əsər heç nə itirməzdi, daha çox siqlət kəsb edərdi. Çünki müəllif nümunə üçün götürdüyümüz *"Solist"* şeirində düşüncənin gücünü göstərir, müstəqil fikir yürütmək bacarığının nə demək olduğunu təlqin edir. Xəyallarındakı obrazlarının hərəkəti, xəyalın daşıyıcısı olaraq lirik qəhrəmanın özünün həyat yolunun istiqaməti - bütün bunların hamısı müstəqilliyin bəhrəsidir, müstəqil yol seçə bilməyin bəhrəsidir, müstəqil yol seçə bilmək üçün, azad fikir sahibi olmaq üçün, cəmiyyətin, bütövlükdə insanlığın dəyərlərinin qorunması yolunda öz səsi və sözü olmaq üçün göydən zənbillə gəlmək lazım deyil. Bunun üçün özünəqədərki fikir sahiblərinin düşüncə mexanizmini, düşüncə aləmini duymalısan. Düşüncəmiz müstəqil fikir yürüdə bilmədən, nəinki bütövlükdə cəmiyyəti, heç bir nəfəri də səhv yoldan çəkindirə bilməz. Müəllif müstəqil düşüncəyə gedən yolu ümumi şəkildə, əlbəttə, müəyyən obrazlarla – Nyutonla, Nizami ilə, Şekspirlə, Tolstoyla, Mövlanə Cəlaləddin Rumi ilə və onun şöhrətli *"Məsnəvi"*si ilə bağlayır:

Nyutonla söhbət edib,
Nizamidən dərs almışam.
Dostum olub neçə ədib
Şekspirdən Tolstoya.
Mövlanəni bir kəs duyan
"Məsnəvi"dən çətin doya-
O nəşədən mən də məstəm.

Bu, kamala çatmağın yoludur. Azad düşüncə harmoniyasını özünün mənəvi aləmdə yaratmağın yoludur. *"Solist"*in qəhrəmanı, həm də təvazökardır. Cəmiyyətin yaratdığı mənəvi sərvətlərin dərinliklərinə endikcə onun özündən müştəbehliyə yuvarlana bilmək ehtimalları da azalır. Və özü haqqında çox maraqlı fikir deyir:

Amma, vallah, mən nə
başa ağıl qoyan,
Nə rəhbər, nə moralistəm.
Binadan nə Tolstoyçu,

nə Marksist,
Nə sosialist, nə başqa "ist".
Nə Mustafa Kemalistəm.

Amma əslində, o, marksizm nə olduğunu yaxşı bilir, Mustafa Kamalçılığın, lap elə başqa *"izm"*lərin, Tolstoyçuluğun, sosialistçiliyin nə demək olduğunu - bütün bunların ayrı-ayrı zamanlarda cəmiyyətə nə verib, nəyi aldığını da yaxşı bilir. Özünü başa ağıl qoyan hesab etməsə də, keçdiyi yolun, aldığı dərslərin sayəsində düzgün yolu göstərir. Bu düzgün yol düşünə bilmək yoludur. Ayrı-ayrı planetlərin qonağı olsa da, bu dühaların mənəvi aləmlərinə baş vursa da, yenə özünə qayıtmaq yolunu daha üstün bilir. Özünün təkliyində, öz əli və öz başı ilə zəngin, mənəvi aləm adlanan düşüncə sarayını yaradır. Və indi artıq o, xorda oxuya bilər. Ancaq xorun ümumi ahəngində onun özünün səsi, sözü və nəğməsi var:

Zaman-zaman onlara
mehman olsam da,
Təklikdən də zövq almışam.
Söhbət edib, dərs alsam da,
Mən öz havamı çalmışam.
Məni xorda oxutsalar,
Səsim, sözüm, öz nəğməm var -
Dadı-duzu olsa da kəm,
Yenə nə qəm?!
Mən solistəm ki, solistəm!

Hətta onun ümumi xorda yeri və vaxtı müəyyən ölçüyə tabe olsa da, bundan qəm eləmir. Çünki artıq özüdür. Kimsə ona etiraz edə bilməz. Və etiraz edənlərə Belinskinin məşhur aristarxlarına verəcəyi cavabın kifayət qədər güclü məntiqi var.

Ümumiyyətlə, *"Ziyarət"* poemasının yaddaş salnaməsi kimi çözülməsində və bu əsərin sözün həqiqi mənasında, həm formaca, həm də məzmunca yeniliyinin təmin edilməsində H.İsaxanlının kitaba daxil edilmiş müstəqil şeirlərinin rolu böyükdür. Məhz indi ***"nəşə var kənd ocağinda"*** adlanan yeni bir hissəyə - *"Ziyarət"*in növbəti parçasına keçid ala bilərik. Ancaq

qabaqca bir neçə kəlmə ümumi ədəbi-mənəvi mənzərəmiz haqqında danışmaq yerinə düşərdi. Nədənsə, mənə elə gəlir ki, Azərbaycan ədəbiyyatının son iyirmi illik dövrü ilə XIX əsr rus ədəbiyyatının Puşkin və Belinski mərhələsi çox cəhətlərdən bir-birilə səsləşir. Belinskini narahat edən sualları biz müasir dövrümüzdə görürük. Həmin suallar həyatımızın ən müxtəlif tərəflərində bizim qarşımıza çıxır - ədəbiyyatın mənbəyi həyat olduğu üçün birinci həyatımızda və onun davamı kimi ədəbiyyatda.

...Ən əlvan rəngdə də qaralıq görən, ən təmiz səmada da gözləri bulud gəzən, bir sözlə, günəşin üzündə də ləkə axtaranlar həmişə var. Görünür, XIX əsrdə də, xüsusilə ədəbiyyatda ən yaxşı əsərə belə ağız büzənlər az olmayıb. Şübhəsiz, belələrinin münasibət zəmanəsinə görə, sözün ən qızğın təəssübkeşi və müdafiəçisi olan Belinskini də qəzəbləndirməyə bilməzdi. Aristarxların

> "Puşkin haqqındakı istər tərifləyici, istərsə də pisləyici sözlərinin hamısı belədir; bunlardan heç bir şey əxz etmək və heç bir fayda götürmək olmaz."[1]

Aristarx Belinskinin qeydində göstərildiyi kimi, yersiz irad tutan tənqidçi üçün məcazi addır. Eramızdan əvvəl II əsrdə yaşamış qədim yunan alimi və tənqidçisi Aristarxın adından götürülmüşdür. Nə üçün Aristarxı yada saldıq? Çünki belələri müasirlərimiz arasında da az deyil. Əgər Puşkinin müasirləri onun hər hansı bir əsərindən qat-qat, dəfələrlə çox olacaq qədər yazıblarsa, demək, hər bir ədəbi-tənqidi məqalə müəllifi Puşkinin yaratdıqlarının nüvəsində nəyi isə görüb, cəmiyyət üçün əxz olunmalı, qəbul edilməli keyfiyyətlər olmasaydı, nə *"Ruslan və Lyudmila"* haqqındakı mübahisələr, nə Yevgeni Oneginin yerli-yersiz ittihamları, mühakimələri... heç biri olmazdı. Kimlərəsə elə gəlir ki, ədəbiyyat xüsusi monopoliyadır. Və icazəsiz onun sərhədlərini keçmək olmaz. Amma kimlərsə, kimsənin iznini gözləmədən özünün dünyasını yaradır, sözlə ülfət bağlayır. Göydən ay gətirməsə də, özünün fikir dünyasından, yaddaş aləmindən ən orijinal, ən duyğulu hissləri sözə gətirə bilir. Təbiidir ki, bir daha təkrar etməyə dəyər, ədəbiyyatın, Belinskisayağı desək, ən ümdə vəzifələrindən biri də həyatın ayrı-ayrı lövhələrini, bütövlükdə cəmiyyətin və təbiətin nəyi varsa, hamısını - ən ensiz cığırınacan, ən gur axan çayınacan, sürüşən torpağınacan, daşınan, satılan əmlakınacan, ən fərdi duyğularla yaşayan insanınacan... nə varsa, ədə-

[1] V.Q.Belinski. "Rus ədəbiyyatı klassikləri haqqında". Bakı , 1954, s.98.

biyyata gətirilməlidir. Amma təxəyyüldən keçirilib gətirilməlidir. Gələcəyin adamlarının təsəvvürünə işıq, zəkasına yeni düşüncə əlavə edəcək gücdə gətirilməlidir. Bu baxımdan *"Ziyarət"* poemasında kənd həyatı, onun bütün əzabları, çətinlikləri, ağrıları, acıları yaz başlayandan çabalayan kəndlinin ruzi, dolanışıq imkanı qazanmaq üçün cidd-cəhdləri - bütün bunlar Turgenyevdə də, Puşkində də, L.Tosltoyda da kifayət qədər öz əksini tapıb. Eləcə də, H.İsaxanlının *"Ziyarət"* əsərində də sanki XIX əsr rus ədəbiyyatından varisliklə qidalanma hiss olunur. Kənd ocağında nəşə görən bir uşaq indi uşaq olmasa da, yaddaşının gücünə həmin zamana qayıdır. Sanki ecazkar bir kənd axşamını ən azı əlli il bundan əvvəlki zamandan qoparıb bizim gözlərimizin önünə gətirir.

Soyuq qış axşamı üçün kasıb komanın yeməyi, ruzisi ilə ocağı yarıdır, - deyərlər. Sanki xalqda olan və uzun illərin sınağından çıxmış bu və ya digər dərəcədə elə bu gün də öz qüvvəsində qalan həmin fikrin, həmin hökmün mənzərəsini müəllif belə çəkir:

Üstümüzü alanda qış,
Bir nəşəydi odun yarmaq.
Əllərimdə havalanmış
Uzunsaplı baltaya bax.
Hər zərbədə yüz qamqalaq...
Odun yığın qucaq-qucaq!

İlk baxışdan diqqəti çəkən heç nə yoxdur. Bir uşağın - baltanı qaldırıb odunu yarmaq gücündə olan, hələ ilk gəncliyinə, bəlkə, qədəm basmamış yeniyetmənin odun yardığı mənzərədir. Sanki qolunda güc duyan, artıq çoxdan bəri evin dolanışığına kömək eləməyi özünə borc bilən bu yeniyetmə elə bil ki, odun yarmır, ailənin ocağını soyudacaq, evə soyuq gətirəcək və bu soyuqla bərabər çoxlu bəlalar da gətirəcək *"qara divin"* başını əzir, şərin qabağını kəsir. Balta onun əlində deyəsən, şərlə döyüş alətidir. Uzun saplı baltanın gənclik eşqilə coşub-çağlayan yeniyetmənin əlində "havalanması" onun təkcə fiziki gücünü yox, həm də mənəvi gücünü göstərir, qətiyyətini göstərir, inamını göstərir. Gücü çatdığı üçün qarşısını kəsdiyi soyuq adlı şərlə vuruşduğu üçün, daha doğrusu, vuruşa bildiyi üçün nəşələnir.

Döyüşçü gücündə pörtüb-qızarır. Və beləcə, onun qanı qaynayır:

Bir nəşəydi odun yarmaq,
Yardıqca pörtüb-qızarmaq...
Oynayırdı qəlb də, can da
"Yoruldun, bəsdir, gəl", - deyə
Evdən kimsə çağıranda -
Ayrıla bilməzdim işdən
Həzz alardım bu gərdişdən...

İnsan inamının gücü, gücün çatan işdən yapışmağın zövqü, fərəhi duyulur bu misralarda. Bu, sanki bir tale gərdişidir. Yeniyetmənin qışla yazın arasından keçib gələn sınağının davamıdır. Özünün yardığı odunların ocaqda yanmasına baxır; alov dilləri, ətrafa yayılan isti hərarət deyəsən, elə onun qəlbinin hərarətidir, ürəyinin alovlarıdır. O, özünün gücünü həmin alov dillərində görür və onun nəzərində nə qədər çətin də olsa, ruzi daşdan da çıxsa, həyat gözəlləşir:

Ocağa hərdən odun at,
Ocaq yandıqca çathaçat.
Gözəlləşir, gülür həyat.
Nəşə var kənd ocağında -
Bərəkətli qucağında.

Həyatdan duyduğu bu fərəh onun üçün elə həyatın gözəlliyidir. Bu səhnə dramatik bir əsər kimi, vuruş səhnəsi kimi, son nəticədə, isti ocağın yanı, ailə üzvlərinin qış gecəsindəki əminliyi ona fərəh gətirməzdi. Belinski Jukovskidən danışanda onun qəhrəmanlarının rus poeziyasına ruh və ürək verdiyini qeyd edir. *"Ziyarət"* əsərinin Yaddaş Sahibi kimi təqdim olunan əsas obrazı əsərin dərinliklərinə vardıqca ən müxtəlif çalarlarda - torpaq, yurd, uşaq, nənə, baba... təzahür etsə də, əslində, ruhun və ürəyin təmsilçisidir. Bu uşaq ailənin istiocağın başında yığışıb axşam yeməyinin süfrəsində özünün halal payını görür. Çünki elə bu süfrənin araya-ərsəyə gəlməsində onun döyüş payı var:

Küllü kartof, çörək, pendir...
Qəlb duyğulu sözə bənddir,
Ruhun doğum yeri kənddir.
Şəhərdə tez gözünü yum,
Kəndə qonaq gəl, oxucum!

Həmin uşağın - Yaddaş Sahibinin sonuncu sözləri ümumi mətndən ayrılmır. Və müəllifin obrazı ilə birləşir. Ona görə də onun oxucuya müraciəti də təbiidir, başa düşüləndir. Ən başlıcası, həmin döyünən ürəyi, sağlam, mənəvi ruhu biz həmin uşağın timsalında görürük. Və sanki Belinski təkcə öz zamanı üçün yox, bütün zamanlarda ədəbiyyat üçün, əbədi olanları yada salır:

> "Jukovskinin qəhrəmanlığı ölçüsüz, onun rus ədəbiyyatındakı əhəmiyyəti isə böyükdür! Onun romantik şeir ilahəsi rus poeziyasının vəhşi düzənliyi üçün Elevsin ilahəsi Serera idi: o, rus poeziyasını kədər, hicran və mistik düşüncələrin gizli sirlərilə, adsız və yersiz, lakin gənc bir ruhun öz doğma vətəni kimi qəbul etdiyi "o əsrarəngiz dünyaya" olan həyəcanlı meylin gizli sirlərilə tanış edərək rus poeziyasına ruh və ürək vermişdir" [1].

Qədim Elladanın Elevsin şəhərində bərəkət və əkinçilik Allahı Demetraya latınlar tərəfindən verilən ad Sereradır. Qəribə bənzəyiş var, Yaddaş Sahibinin uşaq obrazı sanki evin Sererasıdır, əkinçilik və bərəkət ilahəsidir. İndi necə, bu qanadlı duyğulanmaları H.İsaxanlının poeziyasından, onun orijinal obrazlarından ruh və ürək sahibi olan *"yaddaşından"* ayırmaq olar?

...Deyəsən, bu məqamda H.İsaxanlı daha çox Jukovskiyə, onun Yaddaş Sahibi isə *"əsrarəngiz dünya"*nın sahibinə bənzəyir.

---

[1] V.Q.Belinski. "Rus ədəbiyyatı klassikləri haqqında". Bakı , 1954, s.81.

# Zaman körpüsü

H.İsaxanlı istər poemalarında - əlbəttə, söhbət daha çox *"Ziyarət"*dən gedir - istərsə də, şeirlərində, ədəbi-publisistik düşüncələrində (onun radio və televiziya ilə maraqlı müsahibələrini, çıxışlarını dinləmişik) cəmiyyətin mənəvi sistemi uğrunda, bəşəri dəyərlər uğrunda bu günə qədər qorunub-saxlanılmış və müasir mədəni mühitin daha da zənginləşdirdiyi dəyərlərin qorunub saxlanması, gələcəyə ötürülməsi naminə fədakarlıqla mübarizə aparan diplomata bənzəyir. Əlbəttə, onun diplomatiyası inam üzərində bərqərardır. Öz gücünə inamdan, sözünün saflığına inamdan, doğruluğuna və düzgünlüyünə inamından qidalanır. Elə ona görə də onun poetik lövhələri daxili-mənəvi aləmin təbii səsləri təsirini bağışlayır. Onda belə bir inam var ki, bu günün adamları onun səmimiyyətini qəbul edirsə və ona inanırsa, gələcəyin adamları da onun fikir siyasətinin, düşüncə xəttinin özündə heç bir riya, üstündə heç bir kölgə görməyəcəkdir. H.İsaxanlı cəmiyyətin mənəvi sisteminin qorunması yolunda şairlərin məsuliyyətini yaxşı bilir. Elə ona görə də o, bütün ruhu və varlığı ilə sözlə arasındakı ünsiyyəti daha da qoruyur və bu ünsiyyətin mahiyyətini özü ilə gələcək arasında bir körpü kimi başa düşür.

Mənəvi sistem - sanki bu, hər bir şairin sakini olduğu və burada silahın ancaq sözdən ibarət olduğu bir dövlətdir...

Şair indi ilə gələcəyin arasındakı sərhədləri görür. Gələcəyin indidən nə qədər fərqli olduğunu da başa düşür. Bu mahiyyəti ifadə edən, bu mənanı özündə ehtiva edən çoxlu, dəyərli əsərlərin, poetik lövhələrin müəllifidir. Ümumiyyətlə, *"Ziyarət"* poeması keçmişlə gələcək arasında Yaddaş Sahibinin obrazının timsalında bir körpüdür. Yaddaş Sahibi olmasaydı, onda gələcək keçmişi anlaya bilməzdi, dillər fərqli olardı. Birinin yaxşı cəhəti digərinə ötürülməzdi. *"Ziyarət"* poeması ilə, onun daşıdığı mənəvi məzmunla sıx

bağlı olan Yaddaş Sahibinin fikrinin nüvəsində dayanan bir həqiqət də elə budur və bu mahiyyət kitabda verlmiş ***"gələcəkdə"*** adlanan şeirdə də çox dəqiq ifadə olunub. Bəri başdan qeyd eləmək olar ki, "Gələcəkdə" adı ilə təqdim olunan şeir ayrılıqda da uğurlu, poetik nümunədir. Gələcəkdə nə olacaq? Həmin gələcəyin Adamı, xüsusilə cəmiyyətin mənəvi əsgəri H.İsaxanlının təbirincə desək, *"qələm çalan"*ı indinin qələmçalanından hansı cəhətlərilə fərqlənəcək?

Sən, ey bizi bizdən sonra yada salan,
Haqqımızda fikrə dalan,
Və bu yolda qələm çalan
Qız, ya oğlan!
Keçmişinə baxanda sən
Biz nələri qurub-çatdıq?
Nə dağıtdıq, nə yaratdıq?
Onu bizdən daha yaxşı biləcəksən.
Dayaz, səthi, ibtidai fikirlərə
Baş bulayıb güləcəksən.

Şair konkret olaraq bu suallara cavab verməsə də, bir həqiqəti qabarıq verə bilib. Ən azı gələcəyin adamı bizim nəyi düz, nəyi səhv etdiyimizi daha yaxşı biləcək. Hələ onun bizim dayaz, bəsit düşüncələrimizə başını bulayıb gülməyi də olacaq. Ancaq bunlar gələcəkdə olacaq. Əgər bu gün yaradılmışlar gələcəyə ötürülməsəydi, yaxud ötürülə bilməsəydi, onda nələr baş verərdi? Qəribədir, müəllifin vahiməsi hiss olunmur. Sanki o, bu günün özündə dayanıb uzaq gələcəyə zillənən baxışları ilə bizə tərəf gələn gələcəyin adamlarını müşahidə edir. Onlar qətiyyən dayanmırlar və onlar hansı sürətlə bizə tərəf gəlirsə, biz də əslində, onlara tərəf gedirik, hərçənd ki, bizim yönümüz daha çox keçmişədir. Çünki gələcək bizə çatanda artıq biz keçmişdə olacağıq. Amma bizim özümüzdən fərqli olaraq yaratdıqlarımız gələcəyə çatmaq əzmindədir. Əlbəttə, onun da çox hissəsini zaman küləkləri sovurub aparacaq. Və bu küləklər zaman-zaman səhrada nəhəng qum dağlarını sovurub apardığı kimi küləyin ağzında qopub gedənlərdən sonra qalan kristallaşmış süxurlarsayağı, küləyin aparmağa gücü çatmayan hissələr gələcəyin qismətinə düşən paydır. Şair bunu da mənalandıra bilir və mindən biri qalacaqsa, bunun özünün də əslində, körpü üçün bəs edəcək bir güc olacağına inanır.

Baxışlar uzaqlara zillənib. Amma sanki lirik *"mən"* əlini uzatsa, həmin gələcəyin əli ilə tutuşa biləcək. Bax, bu nəsillərdən-nəsillərə ötürülən mənəvi gen daşıyıcılığıdır:

Yazdığımız qalaq-qalaq əsərlərdən
Məndən biri qalacaqsa,
Şükürlər olsun, min kərə!
Siz nəsildən kimlər isə,
Biz nəsildən kimlərisə
Sevib yada salacaqsa,
Salam olsun nəsillərdən nəsillərə!

Zaman küləkləri nə qədər sərt olur-olsun, gələcəyin adamlarının sevdiklərini, adlarını ruhlarına çəkib yaşatdıqlarını qoparıb ala bilməyəcək. Əlbəttə, bu adlar yaddaşa sevgi ilə yazılıbsa... deməək, gələcəyin küləklərinin gücü yaddaşdan üstün ola bilməz. Axı biz mahiyyətcə şairləri diplomatlara bənzətdik.

Və onların sözü ilə, mənəvi mühiti ilə güc kəsb edən cəmiyyətin özünü qoruma instinkti arasında üzvi bir bağlılığın olduğunu da qeyd etməliyik. Müəllif bu missiyanı demək olar ki, bütün yaradıcılığında qoruyur. Fikir və düşüncə baxımından, xüsusilə, mənəvi məsuliyyət baxımıından böyük əhəmiyyət kəsb edən şeirlərindən biri də ***"göylər bizdən uzaqdir"*** adlanır. Bu şeirin özü də bir çox cəhətləri ilə, xüsusilə, mənəvi məsuliyyət məsələsində *"Ziyarət"* poemasının əsas obrazını - Yaddaş Sahibini tamamlayır. Dəfələrlə bu sualı vermişik: kimdir Yaddaş Sahibi? O, bugünümüzün ümumiləşmiş obrazıdır.

Əlbəttə, təkcə zaman baxımından yox, həm də mənəvi dəyərlərin daşıyıcısı olmaq baxımından. Ona görə də o, daim narahatdır, o, həmişə düşünür. Konkret olaraq özünün timsalında, cəmiyyətdən nə qədər ayrı və yaxud da cəmiyyətə nə qədər bağlı olduğunu bilmək istəyir. Ən mənfi görüntüdə, ən qaranlıq tərəfdə belə dayanaraq əks qütblərin mənəvi aləminin dərinliklərinə enmək istəyir, onun nə düşündüyünü, onun mənəvi ölçülərinin nədən ibarət olduğunu aşkarlamaqla cəmiyyətdən özünü təcridetmənin səbəblərini də və nəticədə xəstəliyin müalicə yolunu da bu yöndə axtarır.

Müəllif çox qəribə bir məntiqlə göylərin bizdən uzaq olduğu anlamının mahiyyətini açmağa çalışır. Amma hələ ki, göylərlə işi yoxdur. O, yerdəki,

konkret olaraq bir insanın düşüncəsini həmin uzaq yolun, sehrli aləmin açarı hesab edir:

Tutanda bizi ağrı,
Görmürük solu-sağı,
Günün günorta çağı
Zülmətə dönür hər yan -
Bilmirik nə sayağı,
Kimdən istəyək aman?!

Bir adamın ağrı-acıları onun kirdarını kəsirsə, gücünü əlindən alırsa və bu ağrı-acının gətirdiyi sislik, dumanlıq, qaranlıq arasında cəhət itirsə, onda həmin şəxsin aman istəməsi və kiməsə üz tutması təbii görünər. Bəs onda başqası ağrıyanda necə? Yenə də mi öz canının ağrısına müvafiq olaraq həmin adamın çarəsi üçün çıxış yolu axtaracaq? İndi başqası ağrıyır. Başqasının ağrıdığını bilən, görən şəxs bəs indi haradadır? Müəllif onun yerini çox dəqiq göstərir:

Başqası ağrıyanda
Ağrıyırmı qəlbimiz?
Kimsə yanır o yanda,
Güman var həmin anda
Öz kefimizdəyik biz.

Məşhur pyesdə deyildiyi kimi - *"Biganələr otelində"*, əgər bir anlığa düşünsək ki, dünyanın bir tərəfini zəlzələlər parçalayır, sunamilər dağıdırsa və digər tərəfində başqaları acizlərə hökm edib ölüm və qan yağışı gətirən silah alverindədirsə, əgər yüz minlərlə insan öz yerindən, yurdundan didərgin olub, on illərlə acınacaqlı bir həyat yaşamağa məcbur olursa, özünü dünyanın başbilənləri kimi göstərənlər bu fəlakətləri görməzliyə vurursa, onda biz nə üçün müəllifin biganələr otelindəki öz kefində olan obrazının həqiqətinə inanmayaq? Başqası ağrıyır, gözümüzü yumuruq, özümüz ağrıyırıq, fəryadımız göylərə bülənd olur. Elə buradaca müəllif sanki yerdən, müasirlərindən ayrılır, göylərə, Aya, ulduzlara üz tutur, həmin andaca göylərlə bizim aramızda ədəbi sözün gücünə körpü yaranır:

Tutulsa ayın üzü,
Yormuruq özümüzü -
Deyirik ki, nə olsun?!

Tutulub, qoy tutulsun...
Sadə maraqdan qeyri,
Nə ziyanı, nə xeyri?!

Doğrudan da, Ay tutulanda, Günəş tutulanda maraqla bu təbiət hadisəsini müşahidə etməyə can atırıq. Necə günəşin tutulması ilə dünyanın üzünü qaranlığın bürüdüyü bizdə maraq doğurmaya bilməz? Qəlbən, ruhən hadisənin müşahidəçisi rolundan kənara çıxa bilmirik. Bəli, beləcə, müəllifin özünün qeyd etdiyi kimi, sadəcə, maraq öz görüntüsündə qalır. Elə oradaca yaddan çıxarırıq. Bu Günəşinn tutulmasının, Ayın üzünün dönməsinin bizə bir xeyiri, ya ziyanı olacağının fərqinə varmadan yaddan çıxarırıq. Beləcə, bizdən uzaq göylərdə baş verənlərin nigarançılığını çəkmədiyimiz üçün bizi hansı bəlaların gözləyəcəyinin də fərqinə varmırıq. Unuduruq ki, dünyanın taleyi bizdən uzaq göylərdə baş verənlərlə çox bağlıdır. Müəllif şeri çox qəribə bir sonluqla bitirir. Sanki danışan, təhkiyə edən elə biganəlik səltənətinin sakinidir. Və onun heç vecinə də deyil, təki onun öz səltənətinə toxunulmasın. Amma onun cəmiyyətin ziddinə olan düşüncələrinin əks mahiyyəti insanları mənəvi məsuliyyətlə silahlandırır, oxucu düşünməli olur. Doğrudanmı, bu yolu axıracan getmək olar? Əlbəttə, söhbət biganəlik yolundan gedir:

Göyləri sarsa tufan,
Rahatsız olmur insan -
Göy nədir, tufan nədir?
Bu, kimin vecinədir?!
Bizə dəyib toxunan,
Yerdə qopan sazaqdır,
Göylər bizdən uzaqdır.

Bəli, göylər bizdən uzaqdır. Amma uzaq olduğu qədər də yaxındır. Və hətta o qədər yaxındır ki, biz orada baş verənlərin, həmin uzaqlıqda cərəyan edən hadisələrin istisini və soyuğunu öz canımızda hiss edə bilərik. Dünyanın tarazlığını pozacaq milyard kubmetr çəkilərlə buz dağlarının əriməsinə rəvac verəcək təbiət hadisəsinin - qlobal istiləşmənin və yaxud da əksinə, baş verənlərin bizə dəxli yoxdurmu?

Biganəliyin mənəvi mahiyyətini dəfələrlə açmağa çalışan esselər yazmışam. Bəzən heç bir dəxli olmayan, hətta bir-birilə əlaqəsi olmayan adları yan-yana düzüb, onları bir-birilə bağlayan əlaqələri görməyə çalışmışam.

H.İsaxanlının *"Gələcəkdə", "Göylər bizdən uzaqdır"* şeirlərinin yaratdığı estetik təsir altında biganəliyin mənəvi mahiyyətilə yazdığım düşüncələri məqamı gəldiyi üçün təqdim edirəm:

> "Düşməndən qorxma, - ən pis halda onlar səni öldürə bilər; dostlardan qorxma - ən pis halda onlar səni sata bilərlər; biganələrdən qorx - onlar öldürmürlər və satmırlar, lakin yer üzündəki satqınlıq və qətl yalnız onların sükutlu razılığı ilə mövcuddur" (Bruno Yasenskinin "Biganələrin sui-qəsdi" romanına epiqraf). "Apollon, Ariadna, "qızıl döyüşçü", Mövlana Füzuli, Salatın Əsgərova, Alı Mustafayev, Çingiz Fuadoğlu, Aydın Məmmədov... Füzuli Nəcəfov, Telli Pənahqızı, Qulu Məhərrəmli, Mirzə... İlk baxışdan bir-biri ilə əlaqəsi olmayan bu adları bir sapa düzmək və onlara bir cərgədə baxmaq istəyilə qələmi götürdüm. Humanizm işığında aydın görünən ilk kölgəyə baxıram: qədim Yunan mifologiyasında Apollon sənətə-poeziyaya, musiqiyə... hamilik missiyası daşıyır.
>
> Və bircə anlığa düşünmək üçün sual: ellinlər Apollon mifini hansı zərurətdən yaratmışdılar? Bəlkə də, həmin mifi yaradan təfəkkür tərzi olmasaydı, bəşəriyyətin uşaqlıq dövründə yaradılmış antik mədəniyyət bu gün yüz illərdən bəri yeni-yeni sənət korifeyləri üçün maya olmazdı. Hər halda bu qeydlərin qələmə alınmasına səbəb olmuş amillər bizi yenə də düşünməyə çağırır. Tutaq ki, Alı Mustafayevin mübariz əhval aşılayan təhlili, jurnalist mövqeyi əsaslandırılmış şəkildə açıq-aydın duyulan verilişləri olmayıb. Yaxud Aydın Məmmədov bu dünyada yaşamayıb. Nə qədər solğun görünərdi keçdiyimiz yol. Hər halda bilirik Çingiz Fuadoğlu yaşayıb. Salatın keçib bu dünyanın yollarından...
>
> Əldə qələm, dildə söz; Kim ölmək istəyir? Min illərdən bəridir bu sual insanlığın mənəviyyatını parçalayır, didib-dağıdır. Kimdir bu yolu özünə örnək seçən? Hardan alaq o möcüzəni ki, bu gün Evaris Qaulanı həyata qaytarsın? Hardan alaq o əli ki, qeybdən gələn bir hünərlə əlini uzadıb Lermontovun alnına sıxılan gülləni yayındırsın. Qaytarın, biganələr, qaytarın Aydın Məmmədovu dünyaya, qoymayın Demosfeni ölməyə. Bəs bilmirsinizmi, min ildən bəri bəşəriyyət yol gəlir. Gələ-gələ çalışır, vuruşur, öyrənir, hələ Demosfen qədər ritorikanı mənim-

səyə bilməyib. Bəs ona nə üçün kameralar quraşdırıb, videosalonlar yaradıb Şahmalı Kürdoğlunun səslər dünyasını girmədik?

İndi hardadır Qədir Rüstəmov? Bəs niyə axtarmırıq? Bilirikmi ki, əbədi dünya özü də bilmədən nə vaxtsa qatarı saxlayacaq və ona deyəcək ki, sənin də alın yazındakı məqam çatıb, buyur düş, indi növbə sənindir. Bütün bunlar təsadüfi düşüncələrin və təsadüfi sualların bəhrəsi deyil. Əslində, insanın və insanlığın özü ilə vuruşur, döyüşürük. Vaxtilə vertolyot qəzasından sonra şəhid olmadığına təəssüf eləyirdi Aydın Məmmədov... Bəs biz necə? Ürəyimizdə onların hər biri üçün yer ayırmışıqmı? Bəlkə də, Aşıq Ələsgər ömrünün sivil dünyayacan uzanmadığına təəssüf eləyirik, yanıb-yaxılırıq ki, bugünkü texniki imkanlardan uzaq düşdü Ələsgər sazının səsi, yoxsa, yazıb saxlayardıq. Bəs onda bugünkü fenomenləri necə, yaşatmaq, gələcək nəsillərə yadigar qoymaq üçün bir iş görürükmü? Hardadır sevgilərimizin açarı? Hansı okeanın dərinliyinə düşüb? Nədir bizi məcbur eləyən ki, könül dünyamızın qapılarına min bir qıfılla zəncir vurmuşuq? Sim-simin sehrli açarını kim tapacaq bizdən ötrü?

Əlbəttə, insanın qəlbində sevgilər təkcə sözlərlə göyərmir. Kimlər üçün və nədən ötrü qəlbimizdə əbədiyyət guşəsi açmışıq? Varmı belə bir kimsə ki, ətəyində namaz qılaq?" [1].

Göründüyü kimi, həmin düşüncələr *"Biganələrin sui-qəsdi"* romanının epiqrafı ilə başlanıb. Və qətiyyən həmin adlar sırasından H.İsaxanlının da adını ayırmazdım. Axı həmin essenin sərlövhəsində deyildiyi kimi, *"qızıl döyüşçüyə də Ariadna sapı gərəkdir"*. *"Ariadna sapı"* ilə mif qəhrəmanı dolaşıq labirintlərdən çıxır. Şairin mənəvi məsuliyyət hissi aşılayan və dünyanın taleyini qorumağa səsləyən sözə çevrilmiş duyğuları müasir dünyanın taleyini dolaşıq labirintlərdən keçirən işıqdır. Bu işıq qədim mifdəngəlmə obrazla çox səsləşir. İşığın mənbəyi isə ədəbiyyatdır, sözdür, sənətdir. H.İsaxanlı kimi duyğularında özü olan, duyğulanmalarında səmimi olan şairlərdir. Vaxtilə, on beş il bundan əvvəl yazılmışdı həmin düşüncələr. Və mətbuatda dərc olunmamışdı. Nədənsə mənə elə gəldi ki, gələcəkdə *"Göylər bizdən uzaqdır"* şeirlərinin aşıladığı məsuliyyət hissilə həmin duyğular çox səsləşir.

---

[1] Əli Rza Xələfli, "Karvan körpüdən keçir", Bakı,1997. s.158

# Bir uşağin dünyasi

İndi *"Ziyarət"*ə qayıtmağın vaxtıdır. Onsuz da ziyarət edəcəyimiz ocaq nə qədər bizim bağrımızın başındadırsa, bir o qədər də gözlərimizin yetmədiyi uzaqlıqdadır. Bu, sadəcə cismani ömür müddəti deyil, keçmişlə gələcək arasındakı məsafədir. Və bu məsafə üzərindəki qırılmaz bağlılığı yaradan elə ziyarət körpüsüdür. Hər iki anlamda, həm Yaddaş Sahibinin keçmişə qayıdışı, həm də onun keçmişdə olanları gələcəyə ötürmək istəyi. Və demək, H.İsaxanlının *"Ziyarət"* poemasının fəlsəfi mahiyyəti körpü anlamı ilə çox bağlanır. Körpüdən keçən kimdir? O, cəmiyyətin ağrılarını hələ uşaq ikən duymuş, həyatın gətirdiyi ağırlıqlar altında qəddini düz saxlamağa çalışan, hələ uşaq ikən yaddaşı kitaba çevrilmiş Yaddaş Sahibidir. Onun yaddaş kitabında yazılanlar arasında ***"uşaq ikən yaşa doldum"*** etiraf-xatirəsi nə qədər ağrılı-acılı olsa da, Yaddaş Sahibinin bu gününün cəmiyyətin mənəvi məsuliyyətinin ağırlığını çiynində daşıması ilə bağlı hələ onun uşaq çağlarında həyatın özü tərəfindən onun ruhuna yazılmış özüllər haqqında hekayətdir. Hər misranın, hər bir sözün mənəvi məsuliyyət yükü aydın görünür. Nə üçün onun bugünkü həyatı da ağrılardan və acılardan kənarda deyil? Onun ən böyük dərdlərindən, onun çiynində daşıdığı ən ağır yükün adlarından biri anlamaq dərdidir. Bu, o dərddir ki, Mirzə Cəlili "*Molla Nəsirəddin"*ə çevirdi. Sabiri hər tərəfdən suların döydüyü və zərrə belə qopara bilməyən dağ elədi. Anlamaq dərdi... Bu dərdin mahiyyətini H.İsaxanlı belə görür:

Uşaq ikən neçə incə
mətləbləri anlamışam.
Ümidlərim ulduz təki
gah parıldar, gah sönərdi.

Beləcə, kiçik bir uşağın dünyanı anlamaq yolu başlanır. O, iki məktəbin müdavimidir - bir həyat məktəbinin, bir də ailə məktəbinin. Hər iki məktəbin onun ruhuna bəxş elədiyi mənəvi zənginlik elmdən, ədəbiyyatdan və sözdən keçərək böyük ümid və inam işığına çevrildi. Hələ ki, o, balaca bir uşaqdır. Özünün dediyi kimi, ümidləri də ulduzlar kimi, gah parıldayır, gah da sönür. Amma onun əqidəsində, ruhunda bir böyüklük var. O, özünün böyüklük dünyasından baxdığı həyata qiymət verməyə çalışır. Gördüklərinin ahəngini arayır. Ziddiyyətləri qarşılaşdırır, nəyin doğru, nəyin yalan ola biləcəyinin fərqinə çalışır. Elə buna görə də ürəyində olsa belə, doğruluğun yolunda addımları qətiyyətli və sərrast ola bilməyənləri danlamaq haqqı qazanır:

Uşaq ikən ürəyimdə
böyükləri danlamışam.
Dünya mənə böyüklərdən
bir az fərqli görünərdi...

Bəzən dünya bir uşağın gücü qarşısında orduların təzyiqi ilə etiraf edə bilməyəcəyi həqiqəti təsdiqləyir. Ağdamda hələ döyüşçü yaşına çatmamış doqquz yaşlı balaca uşağın düşmən snayperi ilə öldürülməsi dünyanı sarsıtdı. Və heç nə ilə düşmən özünə bəraət qazandıra bilmədiyi üçün cinayətini danmağa cəhd göstərdi. Beləcə, uşaq özünün həqiqəti ilə dünyadan güclüdür. H.İsaxanlının mənəvi dünyasında böyüdüb boya-başa çatdırdığı Yaddaş Sahibi də özünün uşaq dünyasındakı həqiqətləri ilə güclüdür. O, gecəni gündüzdən ayıra bilir. Dünyanı özündən böyüklər kimi yox, özünün görmək istədiyi kimi görür. Və yaxud böyüklərin görmədiyini görür. Onun uşaq aləmi o qədər zəngin və genişdir ki, hətta böyüklərin özlərini belə dərdləri ilə birlikdə ruhunda daşımağa qadirdir. Amma onun gücü də intəhasız deyil. Bəzən bu gücün kövrələn zamanın sazaqlarından solan anları da var. O, özünün qəmli havalarını için-için, dilsiz-dilsiz gözüylə oxumalı olur:

Uşaq qəlbim böyüklərin
dərdi ilə yüklənərdi,
Uşaq qəlbim tez-tez qəmli
havalarla köklənərdi.

Biz burada insanın iç dünyasını görürük. Professor Camal Mustafayev H.İsaxanlının poeziyasında, şeirlərində daşınan mənəvi yükün çəkisini və

həm də xüsusi dəyərə malik çəkisini yüksək qiymətləndirir: *"H.İsaxanlı az sözdə vəznli fikir ifadə etmək ustalığına malik şairdir"*. Və əlbəttə, professorun - Dədə Camalın dəqiq düstur şəklində ifadə olunmuş sözlərinə heç nə əlavə etməyə lüzum yoxdur. Amma onu deməyə ehtiyac var ki, az sözlə vəznli fikir ifadə etmək üçün gərək dili, mənsub olduğun xalqın təbiətini və əlbəttə ki, insanın mənəvi mühitinin dərinliklərində qərar tutan ruhunu biləsən.

H.İsaxanlının çox güman ki, moskvalı həmkarlarından, tədqiqatçılarından biri də onun dərin psixologizm ustası olduğunu yaxşı duya bilib:

> "H.İsaxanlı öz poeziyasında - lirikanın, incə psixologizmin, bədii güc və həyatın fəlsəfi dərkinin eyni dərəcədə, həmahəng səsləndiyi şeirlərində böyük ustalıqla insanın iç dünyasına nüfuz edir"[1].

Beləcə, uşaq həqiqətinin dünya həqiqətinə çevrilməsi prosesi başa çatır. Cənubi Azərbaycan şairlərindən biri çox böyük səmimiyyətlə deyirdi: *"Məni sən şair elədin, Vətən"* (professor Sabir Nəbioğlunun tədqiqatlarından - Ə.X.) yəni sənin dərdin şair elədi, sənin ağrın-acın mənim özümün ağrım-acıma çevrildi, ona görə şair oldum. Bir sözlə, səninlə yaşadım, səninlə yaşa doldum, sənə dəyən zərbələrin ağrısını özümdə duydum. Göründüyü kimi, bu duyğulanmaların hamısında Vətən dərdlə sinonimdir.

H.İsaxanlı hələ körpə uşaq ikən ağrılara düçar olub, bu ağrıların mahiyyətini anlayan şairdir:

Hələ körpə uşaq ikən
ağrılara düçar oldum.
Vaxtından tez böyüdüm mən,
uşaq ikən yaşa doldum.

Şairlər mənəvi səltənətin - poeziyanın dili ilə danışan diplomatlarıdır. Ancaq gərək diplomat olana qədər mənəvi səltənətin hər bir insanın daxili aləmindən keçən sərhədlərini görə biləsən, duya biləsən, tanıya biləsən.

* * *

Cəmiyyətin mənəvi sistemi özünəməxsus və bütövlüyə malik dövlətdir. Bu dövlətin elə əsasları var ki, onun uğrunda mübarizə aparmaq onu qorumaq, gələcək nəsillərə ötürmək və gələcək nəsillərin inkişafını həmin özüllər üzərində təmin etmək lazımdır. Əks təqdirdə, yəni cəmiyyətin mənəvi

---

[1] Гамлет Исаханлы. “Контрасты". "İzoqraf" nəşriyyatı. Moskva - 2007

sistemini qorumadan bəşəri ahəngin özünü də qorumaq mümkün olmazdı. Demək, bu mənəvi dövlətin hakimiyyəti bütövlükdə bir sistem olaraq öz ölkəsini elə idarə etməlidir ki, onun ayrı-ayrı tərəflərinə, əsaslarına mənəvi sistemin ziddinə olan qüvvələrin mənfi təsiri olmasın, yaxud ən az itki ilə gələcəyə inteqrasiya olunsun.

AMEA-nın müxbir üzvü, professor, görkəmli alim Nizami Cəfərov Xalq şairi N.Həsənzadə yaradıcılığınının, təfəkkür sisteminin müxtəlif tərəfləri haqqında düşüncələrində bu məsələyə toxunur. Zənnimizcə, onun dəqiq və aydın müşahidəsində fikirləri oxucularımız üçün də maraqlı olar:

> "Hər bir "diplomatiyalar"ın tüğyan elədiyi bir dövrdə "şair diplomatiyası"nın rolu, mövqeyi nədən ibarətdir? "Şair diplomatiyası" hər cür "diplomatiya"dan daha hümanistdir, daha demokratikdir, daha bəşəridir - şair özü aldanmasa "aldada" bilməz, "aldanaraq aldatmaq" isə hər cür diplomatiyadan fərqli olaraq "şair diplomatiyası" əlamətidir. Və dünyanın böyükləri cərgəyə düzüləndə əvvəl peyğəmbərlər, onların arxasınca isə şairlər gəlirlər...".[1]

Gələcək heç də bizdən uzaqda deyil. O, hər an bizə yaxındır və bir addımlıq məsafədə biz ona çatmaqdayıq. Təbiidir ki, demək, bu əlaqələr kəskin şəkildə ayrılmır. Mənəvi sistemin özünün hakimiyyəti, özünün qanunları, bu sistemin təbiətlə əlaqələri, ayrı-ayrı xalqların mənəvi mühitində yaşayan üstün və fərqli cəhətləri, bir sözlə, sanki dövlət olaraq onun *"daxili və xarici"* siyasəti var.

Mən mənəvi sistemin idarə olunmasında, onun ümumbəşəri dəyərlərinin gələcəyə ötürülməsində bu daxili və xarici siyasət diplomatlarının rolu əvəzsizdir. Bu mənada, şair, filosof elə həmin sistemin diplomatıdır. Əlbəttə, mənəvi sistemin ordusu olaraq müəllimləri, onun ruhunun, canının mühafizə edilməsində qayda-qanun keşikçilərinə hakimləri də fikrimizdən təcrid etmirik. Amma hər halda cəmiyyətin mənəvi sisteminin ümumi ahənginin qorunub gələcək nəsillərə ötürülməsində, onun xarici siyasətinin uğurunu təmin edən diplomatların - şairlərin xidmətini qətiyyən inkar etmək olmaz. *"Şairlik - özünəməxsus bir diplomatiyadır".* Professor Nizami Cəfərovun fikrini enerji qaynağı kimi qəbul etsək deməliyik: onun fikrincə, N.Həsənzadə Azərbaycanın ən səmimi diplomatıdırsa, demək, onun ardıcılları da var. Və bu ardıcıllar sırasında H.İsaxanlı birincilərdəndir.

---

[1] Nəriman Həsənzadə," Seçilmiş əsərləri", "Şərq –Qərb" nəşriyyatı Bakı - 2004, s. 5

# Bənzərsiz anlarin poeziyasi,

yaxud

*"Səadətdir böyük, kiçik bir güləndə"*

Hər hansı bir bitkin əsərin ayrı-ayrı lövhələri nə qədər canlı, sirayətedici, cazibəli olsa da, əsərin özü külli-halında bütövlük yaratmırsa, əsas xəttin aparıcısı bir obraz olaraq son anadək, axırıncı cizgilərinə qədər dəqiq çəkilməyibsə, demək, həmin əsər cəmiyyətin mənəvi mühitində öz təsirini axıracan saxlaya bilməyəcək. Gözlənildiyindən tez unudulacaq, tez yanıb-tez sönən ulduzun parlaqlığı nə qədər gözqamaşdırıcı olsa da, onun düşüncədə iz buraxması üçün yanma müddətinin də əhəmiyyəti böyükdür. Kamil obraz, yaşarı obraz da belədir. Onun yaşarılıq müddəti şüası, işığı görünən enerji mənbəyidir.

*"Ziyarət"* poeması xarakter etibarilə bizim müasirimiz olan bir insanın taleyindən danışır. Yəni əsasən biz əsər boyu Yaddaş Sahibini görürük, onun düşüncələrini dinləyir, həyatının ayrı-ayrı məqamlarını gözlərimizin önündən keçiririk. Onun uşaqlığı da, körpəlik, fidanlıq çağları da, əlləri əsə-əsə, soyuqdan iliyi dona-dona bağda-bağatda işlədiyi günləri də, barmağını oxuduğu kitabın dayandığı səhifəsinin üstündə saxlayıb bir arx kənarında axıb gedən sulara atdığı balaca daşlara baxan, o suların haracan axması haqqında düşünən anlarını da görürük. Özünün körpə uşaq qəlbilə sevgisini götürüb dünyanın hansısa bir yaşıl adasına uçmaq xəyalları da bizi təsirləndirən, özümüzün uşaqlıq dünyamızı təzədən yaddaşımıza gətirən məqamlardır. Bunlar əsərin ən parlaq, ən işıqlı, görünən tərəfləridir. Dünyanın elm mərkəzlərində yeni tədqiqatları ilə, elmi nəticələrilə, məntiqi hökmlərilə həmkarlarını bəzən təəccübləndirən, bəzən sevindirən, dünyaya meydan oxuyan ölkələrin fikir-düşüncə sahiblərilə mübahisələrə girişən, inandığı məntiqindən bir addım da geri çəkilməyən Yaddaş Sahibi tarixi yurd yerlərinə qayıdanda yenidən həmin o arx kənarındakı uşağa çevrilir. Qətiyyət də,

mənəvi güc də, yeri gələndə, bütün gücü ilə inandığı əqidənin inadından dönməyən, qırılmayan Yaddaş Sahibi qurumuş arxın kənarındakı bozarmış otları görəndə necə sarsılır, necə kövrəlir? Və bəlkə də, özünün, eyni zamanda, insani aləmin ən xoşbəxt çağlarına qayıdışı özü üçün təskinlik hesab edir.

İnsanın ən qayğısız, ən təhlükəsiz əmin-amanlıq çağları onun birinci dünyası ilə bağlıdır. Ana bətnindəki, bizim üçün örtülü aləmdəki çağları o, nə ikinci aləmdə, nə də üçüncü aləmdə gördükləri ilə müqayisə edə bilməz. İkinci aləmdə, yəni bu dünyada insanlar cəhətləri bilinməyən küləklərin önündə dayanır. O, küləklərə qarşı necə vuruşub, necə həyat uğrunda çarpışıb, bir sözlə, bu dünyadakı ömrünü necə yaşayıb? Bütün bunların hamısına əməl deyirik. Üçüncü dünyadakı ömür isə, bu dünyadakı əməllərin hesabıdır, çəkilən hesabatıdır, görünənlərə, yaşananlara cavabdır. Demək, hər iki dünyada cavabdehlik var, hər iki dünyada insan özü öz məsuliyyətinin daşıyıcısıdır, doğru və yalan, ağ və qara, yaxşı və yaman arasındadır. Birinci dünyada isə... həmin birinci dünyanın həsrətini çəkən Füzuli necə böyük ağrı və əzabla yaşadığı dünya haqqında, doğrunun və yalanın bir-birinə qarışdığı dünya haqqında fatehlərin maddiyyət naminə döyüş meydanlarında su əvəzi axan qanlara baxıb həzz almalarına nifrətini, qəzəbini birinci dünya haqqındakı sözünün içinə cəmləyib.

Mənim asudəliyimə qibtə ilə baxdı fələk,
Bu cahana gətirib dərd oduna yaxdı fələk,
- demişdi.

Təkcə bu iki misranın içərisində insanın hər üç dünyadakı ömrünün mahiyyəti, mənası yığılıb. Biz müəyyən mənada zaman ötürücüsüyük. Şairlər də beləcə, nur, işıq ötürücüsü, gələcəyi daha nurlu görmək istəyi ilə sanki keçmiş və gələcək arasındakı birləşdirici naqildir. Onun içindən, onun dünyasından zaman cərəyanı keçir. Bəlkə, elə Füzulinin o iki misrasının içərisinə cəmlənmiş həqiqəti H.İsaxanlı *"Ziyarət"*lə, *"Ziyarət"* əsərində yaratdığı Yaddaş Sahibi obrazı ilə cərəyana çevirib öz içərisindən keçirir, özündən keçirir, gələcəkdə Yaddaş Sahibinin ***"yadimdadir bugünkü tək"*** sözlərinin mayasında, nüvəsində yığışıb işığa, gücə, enerjiyə, mənəvi dəyərə çevriləcək həqiqəti gələcək nəsillərə çatdırmaq istəmişdir:

O illər ki, xatirimdə yer almayıb
Onlar yersiz də qalmayıb -
Böyüklərin yaddaşına yazılıbdır
Onlardan da mənə yadigar qalıbdır.

Bu misralarda sanki Füzulinin xatırlatdığı birinci dünyanın davamını görürük. O mənzilə, o zamana qədərki davamını, onda hələ yenicə doğulmuş uşaq hələ bilməzdi ki, nədən ötrü ağlayır. Onun ağlamağının səsi necə olub? Soyuqlayanda, xəstələnəndə ağlayışları, sevinəndə, əhvalı yaxşı olanda gülüşləri, danışmaq əvəzi qığıltıları, çağırmaq əvəzi çığırtıları necə olub? Bunları özü bilmir. Amma Yaddaş Sahibi, həm də bütün bunları bilir. Ona görə ki, (axı Yaddaş Sahibidir) o, böyüklərin danışıqlarından, dediklərindən, həyatının özü görmədiyi yaşam günlərinin tarixçəsini öyrənib. Bəli, böyüklərin yaddaşına yazılanları sonrakı nəsillər oxuya bilirsə, demək, *"təbiətdə heç nə itmir"* düsturunun bir mahiyyəti də elə budur. Yaddaş Sahibinə yadigar qalan böyüklərin yaddaşlarından oxuduqlarıdır.

Deyirlər ki, mən anadan
İlk baharda aylı bir gecə olmuşam.
Mən özüm hardan bilim ki,
O vaxt mən necə olmuşam?!
Görənlər belə söyləyib:
Bapbalaca, həm də zəif doğulmuşam,
Sağlığıma əmim yeddi qurban deyib.

H.İsaxanlı poeziyasında nə qədər şairdirsə, şairliyində də bir o qədər filosofdur. Dünya, cəmiyyət, təbiət haqqında poetik fikirlərin axarına düşən, qəlibinə sığışan ümumiləşdirmələr aparır. Hərdən müəllifin şeirlərindəki poetik biçimin müəyyən həddi gözləmədiyini deyənlər olur. Zənnimcə, onlar düşünsələr ki, həyat və cəmiyyət haqqında bilgilərimizdən çıxan nəticələri, yaşadığımız ömrün süzgəcindən keçirib olduğu kimi vermək istəyi, eyni zamanda, yaxşı olan nə varsa, onun gələcəyə ötürülmək istəyi bütün forma şərtlərindən daha alidir. Hərçənd ki, forma məzmunu tamamlayan vasitədir. Formanın gözəlliyi məzmunun daha yaxşı qavranılmasına kömək edir. Və o deyim də var ki, gözəllik ondursa, onun yalnız bircəciyi mahiyyətdir.

Qalanını hər kəs özü düşünə bilər. Amma bir həqiqət də var ki, H.İsaxanlı heç kimə bənzəməyən, heç kimin nə formaca, nə də məzmunca getdiyi yolu getməyən bir şairdir. Şəhriyar *"Heybərbabaya salam"*ı ilə məktəb yaratdı. Və onun məktəbinin ən böyük müdavimləri İraqda - Kərkükdə, Anadoluda, Azərbaycanda, xüsusilə Cənubi Azərbaycanda dilə, yurda, yaddaşa qayıdış sayəsində əvəzsiz xidmətlər göstərdi və bu *"salam"*a yüzlərlə cavablar yazıldı. Əslində, H.İsaxanlının *"Ziyarət"* poeması o salamlardan biridir. Ancaq şairin yaratdığı Yaddaş Sahibi obrazının özünün düşündüyü məzmunda, özünün göründüyü formada...Yəni H.İsaxanlının bütövlükdə poeziyasının vəzn baxımından, çəki baxımından, mənəvi yük baxımından müdrikliklə, fəlsəfi ümumiləşdirmələrlə yaradıcılıq baxımından bu əsəri özünün orijinallıq gücünü qoruyub saxlayır və şairin bütövlükdə yaradıcılığının mahiyyətini ifadə edən, şairin özünü təqdim edən bütöv formanın bir hissəsidir.

...Bəs Yaddaş Sahibinin əsl həyatı nə vaxtdan başlanıb? Onun bu başlanğıcdan əxz elədiyi, götürdüyü nədir? Hansı hissi, hansı duyğunu yaddaşının başlanğıcına bünövrə olaraq həkk eləyib. Və əslində, Yaddaş Sahibinin həyatının mənası o özül daşındadır, onu dərk eləməkdə, onu qavramaqdadır:

Öz həyatım öz-özümü bilən gündən
Yaddaşıma düşən günlərdən başlayıb.
Xatirələr! Onlardan hörülmüşəm mən
Nələr olub - onlar bilir, bir də fələk.

Hələlik, dəqiq və aydın bilmir nədir onun yaddaşının özül daşı? Sanki doğulan gündən ilk çığırtılarının başladığı andan başlayaraq, yaranışının şüura, düşüncəyə, yaddaşa gəlib çatdığı bütün mərhələləri özünün fantaziyası ilə təzədən keçir. Və yalnız bundan sonra yəni xatirələrin izi ilə ilkinliyə tərəf, ilkinliyin əzəlinəcən yol gedir. Adidən aliyə, sadədən mürəkkəbə doğru qayıdış onu arzuladığı ana çatdırır, axtardığını ona göstərə bilir bu yol:

Yadımdadır bugünkü tək
Əllərimlə qazıdığım qara torpaq,
Bir ağ kağız, həyətdəki meyvəli bağ.
Yadımdadır, ucu sınan göy qələmim,
Budağından ayrı düşən yaşıl yarpaq.

Əllərində qazdığı bir ovuc torpağın, bir vərəq ağ kağızın, həyətdəki meyvəli bağın yaddaşında ilişib qalmış ucu sınan göy qələmin, budağından ayrı düşmüş yaşıl yarpağın nə demək olduğunu anlamaq o qədər də çətin deyil. Amma bu ilkin anlamdan uşağın torpaqla evcik qurduğu günlərindən keçən anlamdan fərqli bir məna da var bu yaddaş əşyalarında. Uşaq oyuncağının əvəzi olan bir ovuc torpaqda, bir vərəq kağızda. Amma yox, əsas məna tamam başqadır. Elə Yaddaş Sahibinin özüdür o bir ovuc torpaq, o budağından ayrı düşmüş yarpaq, ucu sınan göy qələm o balaca uşağın böyük dünyaya gedən yolunda, onun ruhunda, təbiətində yaranacaq böyük sarayın özül daşları bax elə budur. Zənnimizcə, nə o bir ovuc qara torpaq, nə o bir vərəq ağ kağız, nə də ucu sınan qələm olmasaydı, budağından ayrı düşən o yarpaq, - o uşaq olmasaydı, o, gəlib bu geniş aləmə çatmasaydı, Yaddaş Sahibinin bugünkü əzəmətini də görə bilməzdik. Həmin ağ kağız mahiyyətində uşağın ağ lövhə kimi dünyaya gəlişinin də mənasını duymaq çətin deyil.

*"Ziyarət"* əsərində təkrarsız lövhələr var, bənzərsiz lövhələr var. Əslində, elə poeziya bənzərsiz anların poetik lövhələrə çevrilməsidir. Poeziya yaranmamışdan, doğulmamışdan da əvvəl vardı. İnsanın yaşadığı ilkin mağaradan ta bu günəcən təbiətdə və cəmiyyətdə, həm görünüşdə, həm də düşüncədə poeziya yaşayır. Amma şairlik missiyası, şairin təbiəti bu bənzərsiz anların bənzərsizliyini görməyi bacarmalıdır. Və o zaman təbii ki, bənzərsiz anların poeziyası yaranacaq. Belə bənzərsizlik anlarından biri də *"Ziyarət"* poemasında elə buradaca misra-misra gözlərimizin önünə gələn lövhədir. Elə bil ki, Yaddaş Sahibinin özü yox, hər hansı birimiz ömrümüzün ən xoşbəxt, ən gözəl, ən təkrarsız və heç vaxt unudulmayacaq bir anını H.İsaxanlının bu misraları bizə qaytardığına görə, ona minnətdarlığımızı bildirməyə tələsər və bu tələsmənin içərisində bizə fərəh, saf duyğular bəxş etdiyinə görə, həyəcanlı anlar yaşayırıq:

Gözlərimin önündədir nakam əmim,
Uzun boylu, enli kürək, ömrü gödək.
Yadımdadır, onu yoldan saxlamağım -
Geri dönüb qucağına aldı məni.
At belində seyrə çıxdıq göy çəməni.
Yolda papağım düşəndə
Dedi: "hanı bizim papaq?
Tez ol, qoçaq, atı çapaq, onu tapaq".

Güldü o da, güldüm mən də
Səadətdir böyük, kiçik bir güləndə.

Bircə sözü də saxlamaq, bircə misranı da kəsmək istəmirsən. Elə bil ki, hansı misrada dayansan həmin o köhlən at da dayanacaq. O köhlən atın üstündəki qoçaq əmi də, həyatın dadını-tamını axıracan görməmiş, Yaddaş Sahibinin xatırlamalarında nakam kimi qalan uzun boylu, enli kürək, ömrü gödək əmi, o xoşbəxt uşaq gözlərimizin önündən bir anda uçub gedəcək. Papağı külək aparır. Amma əmi demir ki, hanı sənin papağın? Deyir ki, hanı bizim papağımız? Nə qədər dəqiq, nə qədər doğma bir sual. Məsuliyyət təkcə uşağın deyil, həm də uşağı küləkdən qorumalı olanındır. Onlar o yel qanadlı köhlənin üstündə çapıb küləyi qabaqlayır, papağı küləyin ağzından alırlar. Və bundan sonra əminin də, uşağın da sevinməyi təbiidir. Amma bu bənzərsizliyin, amma bu ecazkarlığın, amma küləklə döyüşdə qalib gəlməyin məntiqi nəticəsi daha gözəldir: *"Səadətdir böyük, kiçik bir güləndə"*. Üst-üstə qalaqlanmış cildlərə bərabər, fatehlərin işğalçılıq niyyətlərinə bəraət gətirməyə çalışan *"tomların"* hamısının əvəzində iri bir qranit lövhə, təbii daş üzərində elə bircə bu cümləni yazmaq bəs eləyərdi. Dünyanın xilas yolu elə bircə bu cümlənin içərisinə yığılmış mənadan, mahiyyətdən ibarətdir. Dünyanın xilas yolu zorda, gücdə, mənəmlik iddialarında, dünyanın ən təhlükəsiz banklarına yığılmış sərvətdə, pulda deyildir. Sözün həqiqətindədir, poeziyanın saf, duru, bulaq kimi tər-təmiz təbiətindədir.

İndi dünyadan köçüb getmiş nənənin həmin o uşaqlıq anlamında ilkin yaddaş özülündəki obrazı da nə qədər səmimidir, nə qədər sağlamdır:

Nənəm də ki... hamıdan tez oyanardı
Biz duranda həyətdə ocaq yanardı.
Yadımdadır bu günkü tək
Salxım söyüdün altında ağlamağım.
"Ömrüm-günüm, sən ağlama" deyən mələk
Baxdı mənə, yenə gözləri yol çəkdi.
Doluxsunub öpdu yorğun gözlərimdən,
Bir gün o da məni qoyub gedəcəkdi.

Nədənsə, buradaca türk dünyasının böyük ustadı Oljas Suleymenovun ölməz *"Az-Ya"*sından çox məşhur olan bir epizod xatirimdə canlandı:

"Türklər mərhuma al-əlvan paltar geydirib, əlinə dolça veriblər, üstünü adi, girdə daşlarla (ulduzlar) örtüb kurqan ucaldıblar, kurqanın zirvəsinə dirilmə ilahəsinin heykəlini qoyublar. Torpağa qımız çiləyib, dua ediblər: "Azman igid! Əgər təzədən dirilmək qismətindədirsə, öz doğma torpağımızda doğul!" Qəribə olur insan yaddaşı!.. Bir qarı yüz il yaşadı. Ömrünün son illərində dəmir pul yığırdı. Vaxt yetişdi, qarı kirimişcə əzabsız-əziyyətsiz ömrünü tapşırdı. Cənazəni qəbiristana apararkən yolboyu üstünə ovuc-ovuc pul səpirdilər. Və son sikkələr donmuş torpaqla bir yerdə qəbrə tökülürdü "[1].

*"Doğulsan, öz torpağından doğul!"* Yaddaşın ilkin mərhələsindəki ənənə sonradan formasını dəyişə bilər. Ancaq söhbət doğuluş arzusundan getmir, söhbət əgər diriləcəksənsə, əgər doğulacaqsansa, öz torpağında doğulmaqdan gedir. Bax "Ziyarət"in mahiyyəti budur. Yaddaş Sahibini təzədən dirildən, onu yaddaşına qaytaran, onu ilkinliyə səsləyən güc ancaq doğulduğu torpaqdadır. Yaddaş Sahibi özü daha dəqiq deyir. Xatirələr onun iz yaddaşıdır. İz yaddaşı olduğu kimi, həm də yaddaşının izidir. Elə Yaddaş Sahibinin özü, əslində, elə xatirələrdən hörülmüş bir saraydır. Əslində, onun daha dəqiq nə olduğunu bir Yaddaş Sahibi özü bilir, bir də həzin misralarda xatırlanan ünvan:

Xatirələr! Onlardan hörülmüşəm mən,
Nələr olub onlar bilir, bir də fələk.

Müəllifin fikrincə, *"Ziyarət"* poemasının əsas qəhrəmanının - Yaddaş Sahibinin yaşadığı həmin günlər, o ilkinlik çağları bitkin bir əsərdir. İndii müəllif sanki kənardan - Yaddaş Sahibinin xatırlamalarına kənardan müdaxilə edir, uzaqdan baxır, lap elə başqa bir əyalətdən baxır, başqa bir zamandan baxır. Və bu zaman həmin günlər, həmin yaşantılar onun nəzərlərində rəngləri oddan-alovdan götürülmüş və bir daha heç kəsin yarada bilməyəcəyi əsərdir. İnsanlarla təbiətin qovuşduğu əmin-aman bir dünyanın möcüzəli bir mənzərəsini yaddaşlara köçürə biləcək bir tablo:

O gün keçdi! Yaşandı o bircə kərə
Mən vurğunam o əsərə -
O ayrı bir biçimdədir

[1] Oljas Süleymanov, "Az-Ya", 1993, səh.238

O bir duman içindədir.
Məndən başqa onu heç kəs görə bilməz,
Rəssam onu fırçasıyla verə bilməz -
Şairindir, şairlikdir o mənzərə.

Sonuncu misralardan da göründüyü kimi, müəllif Yaddaş Sahibinin yaşadığı mənzərə önündə heyrətini gizlətmir və sanki onun bu iddiası da - məndən başqa onu heç kəs görə bilməz - hökmü də yetərincə haqlıdır. Onu yalnız Tanrı əli yarada bilərdi, o, yalnız hər kəsin həyatında bircə dəfə yaranır, yaşanır. Rəssamın o mənzərənin göydəngəlmə rənglərini vermək üçün çalarları çatmaz. Amma yox, onu yarada bilən olar. Şair yaradar onu. Axı o mənzərənin özü şairanədir.

Ədəbiyyatşünas tənqidçi, filologiya elmləri doktoru, professor Təyyar Salamoğlu Mehdi Hüseyn ədəbi tənqidindən danışanda çox maraqlı bir fikri diqqətə çəkir:

> "M.Hüseyn ədəbiyyatda özünə möhkəm yer etmiş "Sxematizm"in metodoloji əsasını görməsə də, bədii yaradıcılığın estetik prinsiplərinə yaxşı bələd olduğu üçün bədiiliklə qeyri-bədiiliyi asanlıqla fərqləndirə bilirdi"[1].

M.Hüseyn *"Sxematizm"in metodoloji əsasını"* nə dərəcədə bilirdi, bilmirdi, söhbət ondan getmir, söhbət ondan gedir ki, o, bədii yaradıcılığın estetik tələblərini, prinsiplərini mükəmməl bildiyi üçün bədiiliklə qeyri-bədiiliyin fərqlərini də, sərhədlərini də yaxşı bilirdi.

Bu gün M.Hüseynin ədəbi tənqidi yaddaşlarda, bəlkə də, elə bu cəhətlərinə görə yaşayır.

H.İsaxanlının ədəbi yaradıcılığın nəzəri əsasları ilə nə dərəcədə məşğul olub-olmadığını deyə bilmərəm. Amma poeziyanın estetik mahiyyətini kifayət qədər duyduğuna, ruhuna hopdurduğuna heç bir şübhəm yoxdur. Çünki elə onun özünün dediyi kimi, əsas odur ki, həyatın bənzərsiz anlarını görə biləsən, duya biləsən.

---

[1] Təyyar Salamoğlu."Ədəbi tənqid tarixinə dair portret-oçerklər". Bakı, 2011, s.173.

# Həyatdaki həqiqət - yuxudaki səadət

Belinski cizgiləri dəqiq verilmiş mənzərələri, kamil, bədii lövhələri poeziyada incəsənət adlandırırdı, özü də təsviri incəsənət. Həqiqətən də poetik lövhə nə qədər canlıdırsa, bir o qədər rəssam işinə bənzəyir. Şüurumuza, yaddaşımıza hopur. Uzun müddət bizi səfərbər edir, ruhumuza qida verir.

H.İsaxanlının *"Ziyarət"* poemasında beləcə, rəssam işinə bənzər bədii lövhələr az deyil. Biz bunu dəfələrlə qeyd etsək də, bir daha həmin fikrə qayıtmağa məcburuq. ***"çaylar axmazmiş tərsinə"*** başlıqlı parçada canlı lövhənin - müəllifin özünün yaratdığı lövhənin elə onun özünün yaddaşında uzun müddət yaşamasının səbəbi bu canlılıqdır. *"Qışla yazın arasında"* adlanan poetik parçanı yada salaq: iki fəslin arasında baş verənləri müəllif o qədər canlı vermişdir ki, hətta uzun müddət oxucunun yaddaşında fəsillər arasında baş verən hadisələr istər əsərin qəhrəmanının taleyi ilə bağlı hadisələr, istərsə də qış-yaz arası təbiətdə baş verənlər gözümüzün önündən çəkilmir, bizi düşündürür, bir anlığa özümüzü həmin uşağın yerində təsəvvür edib yazqabağı əsən soyuq küləyin, sazağın önündə dayanırıq, üşüyən əllərimizi həmin o tənək bağlayan balaca uşağın əlləri kimi görürük.

Görünür, Belinski bu anlamda poeziyanı təsviri sənətlə eyniləşdirirmiş. Müəllifin özü də həmin hisslərdən ayrıla bilmədiyi üçün uzun müddət həmin lövhənin təsiri altında qalır və əsər boyu qışla yazın arasından, demək olar ki, çıxmayıb. Əlbəttə, biz müəllif dedikdə əsərin baş qəhrəmanını - şərti olaraq onun adını Yaddaş Sahibi qoymuşuq - düşünürük. Yaddaş Sahibi eyni zamanda yaddaş ağrısı çəkir. O, yaddaşında canlanmış olanlardan can qurtarmağa, xilas olmağa yox, bu canlanmış - əlbəttə ki, əvvəlcə daşlaşmış və sonra canlanmış ruh, mənəvi güc kəsb eləmiş hadisələri danışmaq, çaya,

dağa, təbiətə danışmaq, yaddaşın qoruyub saxladığı adamlara danışmaq istəyir. Bu, onu ağrılardan xilas edəcəkmi? - O, başqa məsələdir. Amma hər halda, canlı xalq təfəkküründəngəlmə belə bir hökm var ki, dərdini danışanda insan yüngülləşir. İndi Yaddaş Sahibi yuxusunu danışır. Amma yuxusunu danışmamışdan əvvəl həyat, tale, insan səadəti, insanı xoşbəxt eləyən anlar haqqında düşüncələrini bizimlə bölüşür:

Səadəti qucaqlamaq
Olsa da, o, bir an olur.
Dalınca - içdən ağlamaq...
Dünya tamam viran olur.
Növbədə gözləmək gəlir...
Növbədə şübhə, intizar
Dərd içib, qəm yemək gəlir...

Dərdin, ağrının insanın könlünü havalandıran hisslərlə qol-boyun olduğunu bu misralarda qovuşduğunu ən zəif ədəbi zövqə malik oxucu da duya bilər. Amma burda daha dərindən duyulası bir həqiqət odur ki, səadəti qucaqlamaq, xoşbəxtlik anlarını yaşamaq insanın taleyinə yazılsa da, bunun ömrü uzun olmur. Müəllifin dili ilə desək, olsa da, bir an olur.

Elə həmin o xoş, insanın ruhunu qanadlandıran duyğuların arxasınca ağlamaq gəlir, özü də ürəkdən ağlamaq. O ağlamaq ki, dünya insanın gözündə kiçilir, daralır, lap elə dağılır, viran olur - daha niyə ağlamayasan? Amma əgər insan həyatı, dünyanı bir heçlik kimi görürsə və bu heçlik insanın həyatının mənasına çevrilirsə, onda yaşamağın mənası olmazdı, onda yaşamaq bir daşın, bir torpağın yaşamasına bərabər olardı. Axı söhbət düşüncəli varlıqdan gedir, çətinliklərdən yol tapa bilən, mürəkkəblikdən baş çıxaran, müşkülləri asan eləməyə qadir olan insanlardan gedir. Ona görə də növbədə həyatın bir heçlik olmadığı haqqında düşüncələr gəlir, özünün şübhələri, intizarı ilə qarışıq qəmi-kədərilə. Amma yox, müəllif bununla da barışmır. Daha doğrusu, Yaddaş Sahibi özünün barışmazlığı ilə həyatın nə iləsə daha da yaşarı olduğunu qənaətində birinci hesab edir və deyir:

Nə yaxşı ki, yuxular var,
Filmə çəkilir xəyallar.
Fikir uçur, arzu qaçır

Bəzən olur yuxularda
Qaranlıq da işıq saçır...

Burda məsələyə bir qədər daha dərindən yanaşmalıyıq. Əslində, dərindən yanaşmanı mətnin özünün məntiqi tələb edir. Burada iki amil var - yuxu və xəyal amili. Zənnimcə, müəllif xəyal dedikdə arzuları nəzərdə tutur. Demək, həyatda xəyaldan gerçəkliyə gələ bilməyənlər arzunun imkanla uzlaşması mümkün olmadıqda yuxu həmin xəyalları, arzuları, istəkləri filmə çevirir. Elə bir filmə ki, orada xəyalda olanlar, düşüncədə olanlar, arzudan reallığa çevrilə bilməyənlər həqiqətlərə çevrilir, əlbəttə ki, yuxu həqiqətlərinə. O yuxu həqiqətlərinə ki, bəzən qaranlıqda da işığa çevilir və qaranlığın özü də işıq olur.

Yuxu bizi bir çox hallarda baş verəcək hadisələr üçün səfərbər edir. Və bəzən də arzularımızı, istəklərimizi çəkib yanımıza, yaxınımıza gətirir. Lap elə yuxuda da olsa, bizi arzularımıza, istəklərimizə qovuşdurur. Yuxunun mahiyyəti həmişə psixoloqların, psixiatrların, həkimlərin tədqiqat obyekti olduğu kimi, filosofları, yazıçıları da çox düşündürür. Demək, sənət adamları da bir çox hallarda yaradıcılıqlarında yuxudan təkcə vasitə kimi yox, həmdə mahiyyət kimi qidalanıblar. Klassiklərin fikri belədir:

> "Freyd öz fəaliyyətilə bunu sübut etdi ki, röya - yuxugörmə tarixən fövqəltəbii, demonik qüvvələrin işi hesab edilmişdir. Buna görə də onun yozulması qeyri-adi insanların – peyğəmbərlərin, cadugərlərin və s. kompetensiyasına aid məsələ kimi anlaşılmışdır. Freyd bişüuru (bilincaltını) kəşf etməklə bu xürafatlara son qoydu və sübut etdi ki, yuxugörmə və bişüur bir-birilə əlaqəli psixi proseslərdir: bişüurun kəşfi yuxuyozma, yuxuyozma isə öz növbəsində bişüurun fəaliyyət mexanizminin daha yaxşı anlaşılması üçün imkan yaradır"[1].

Yaddaş Sahibi hansı yuxunu görüb? Bu yuxunun onun həyatında nə kimi təsiri olacaq? O, öz yuxusunu yoza bilərmi? Özünün fəaliyyət mexanizminin daha çevik hərəkəti üçün bu yuxunun yozulmasının hansı köməyi olacaq? Hər halda Yaddaş Sahibi yuxusunu danışmalıdır. Yoxsa, bu yuxu da onun üçün əlavə ağrı mənbəyi olaraq qalacaq:

---

[1] Fərman İsmayılov."Klassik psixoanalizin əsasları". Azərbaycan Milli Ensiklopediyası NPB. Bakı, 2003, s.126.

Gördüm ki, doğma evdəyəm...
Ev o evdir, bağ da o bağ.
Həm böyüyəm, həm də uşaq,..
Yaşıllaşıb yaza sarı,
Yumşaq söyüd budaqları.
Canıma soyuq dolubdu
Qışla yazın arasında
Əllərim çat-çat olubdu.
Nənəm hər zamankı kimi,
Yağa tutub əllərimi...

Çox canlı, həyatda olduğu kimi görünən mənzərədir. Elə həmin andaca qışla yazın arası yada düşür. Sanki ən əlçatmaz bir arzu lap yaxındadır, gerçəkləşib, itirilmiş dünya tapılıb. Və ölməz lirika ustası, Azərbaycanın mənəvi mühitinin vaxtsız itirilmiş bir incisi - Mikayıl Müşfiq yada düşür: "Yenə o bağ olaydı, yenə o qumlu sahil, Sular ötəydi dil-dil". İtirilmiş dünyanın arzulanması, yenidən ona qayıdış istəyi qarşısıalınmaz bir enerjiyə çevrilir. Əslində, Yaddaş Sahibini hərəkətə gətirən budur. Arzunun, istəyin güc mənbəyi nədir? Yenidən elmi-nəzəri mülahizələrə qayıdaq:

> "Arzu - gerçəkləşməsi gözlənilən tələbdir. Bişüur da əslində, tələblər toplusudur ki, onlar da reallaşmaq üçün fürsət gözləyirlər. Bişüurda toplanan arzuların həyata keçməsi xoşbəxtlik idealının əldə edilməsidir. Seksual arzular isə bütün arzuların hərəkətverici qüvvəsidir; seksual arzular əsas enerji daşıyıcısıdır, başqa arzular da məhz bu səbəbdən ondan asılı şəkildə olur. "Hər şey məhəbbətdən yaranır" hikməti də bu fikrin təsdiqidir. Böyük şəxsiyyətlər – böyük eşqin daşıyıcısıdırlar, onları xariqələr yaratmağa sövq edən qüvvə və eşqdir. L.daVinçi, Marks, elə Freydin özü və minlərlə dahilər qeyri-adi eşq qüvvəsindən ilham alaraq xariqələr yaratmağa nail olmuşlar. Psixoanalizin insana energetik sistem kimi baxması onu göstərir ki, insanda nəyəsə sahib olmaqla, hansısa hərəkəti törətməyə meyl instinktiv xarakter daşıyır: enerji mövcuddursa, o, sərf edilməlidir. İnsan enerjisinin nəyəsə sahib olmağa və ya nəyisə yaratmağa yönələn məqsədi arzudur" [1].

---

[1] Fərman İsmayılov."Klassik psixoanalizin əsasları". Azərbaycan Milli Ensiklopediyası NPB. Bakı, 2003, s. 95.

Bizim düşüncələrimizlə nə qədər yaxındır? Arzu enerji mənbəyidir. Və o, yeraltı maqma kimi istiyə çevrilir, işığa, oda çevrilir. Və məqam gözləyir ki, özünün gücünü, işığını göstərsin. Yaddaş Sahibi də həmin o qarışısıalınmaz istəyin içərisində olduğu üçün uzun illərdən sonra yenidən o əlləri üşüyən balaca uşağın yanına qayıdır. Yuxunun möcüzəsi orasındadır ki, eyni vaxtda Yaddaş Sahibini həm böyük, hətta atasından böyük, həm də uşaq kimi göstərir. Bu filmin rejissoru Yaddaş Sahibinin arzusudur. Filmin mizanlarını isə o, artıq gündüzdən, hələ yatmamışdan əvvəl xəyallarında qurub. Bir anlığa balaca uşaq görünür. Onun əllərini - soyuqdan cadar-cadar olmuş əllərini nənəsi yenə yağlayır. Və elə nənə də hər zamankı kimi nənədir. Bu sanki filmin əvvəlidir. Filmin əsas, ən təzadlı, hətta ağıla sığmayan hissəsi bundan sonra gəlir. Eyni zamanda həm böyük, həm də uşaq olan Yaddaş Sahibi qapıya baxır. Kimi görəcək, indi kim gələcək:

Qapıya doğru baxanda
Həyəcandan əsdim tit-tir,
Gördüm odur... Atam gəlir!
O, yenə də tələsirdi
Zəhminə bax, bircə anda
Hər uşaq bir küncə girdi...

Yaddaş Sahibinin sevincinin həddini təsəvvür etmək olmur. Bu, şeirdə iki sözlə ifadə olunub - *"Atam gəlir"*. Həqiqətən də nüfuzu, hökmü, şahanə bir mərtəbədə olan atanın gəlişi uşaqlar arasında - evdə, ailədə pıçıltılarla deyilən "atam gəlir" xəbərdarlığı ilə hamıya çatdırılır. Yaddaş Sahibinin hələ ki, uşaqlığını görürük. Onun həyəcandan tir-tir əsdiyini təsəvvür edirik. Və atasının zəhmini, hökmünü görürük. Bu hökmün, bu gücün nədən ibarət olduğunu Yaddaş Sahibi xatırlamalarında *"zəhmliydi, hökmlüydü, güclüydü"* sözündə qəti idi - ifadələrindən istifadə eləmədən çatdırır. Atanın gəlişi ilə hər uşağın bir küncə girməsi bəs edir ki, onun ailədəki yerini, nüfuzunu aydın təsəvvür edək. Bax burdaca, mənzərə dəyişir, Yaddaş Sahibi özünün uşaqlığından çıxır, körpəliyindən ayrılır və uzun illərin həsrətliləri kimi qollarını açıb atasını qarşılamağa çıxan dünyanın tanıdığı adamı görürük. Onun boyu-buxunu, görkəmi, hətta atasından bir qədər yaşlı olmağı gözlərimizin önündə canlanır və bu, bizə qəribə gəlmir. H.İsaxanlı adı-sanı ilə Borçalıda - Azərbaycanın qərb bölgəsində, bir sözlə, Gürcüstan və Ermənistanda da

yaxşı tanınan, qoçaqlığı və igidliyi dillərdə dastan olan Qaçaq İsaxanın nəvəsidir. Atası Abdulla İsaxanlı qırx altı yaşında avtomobil qəzasında dünyasını dəyişib - 70-ci illərin əvvəllərində. Enerji daşıyıcısı olan genlər nəsildən-nəslə ötürülməklə babaların, ataların yenidən təzahürü kimi görünür. Bu mənada, o, nəslin, şəcərənin ən layiqli davamçısıdır. Bəli, ata oğulun indiki yaşından çox cavan getmişdi. Qədim misirlilərin dediyi kimi, qərbə, sükut vadisinə, əbədiyyətə getmişdi. Nədənsə yuxuları da, əbədiyyəti də bəzən qaranlıq aləm kimi təsvir edirlər. Amma Yaddaş Sahibi doğru olaraq qaranlıqda işıq görür. İşıq daşıyıcıları qaranlıqda olsa belə, ətraflarını işıqlandıra bilirlər. İndi qollarını açıb atasını qarşılayan, yaşında atasından böyük olan Yaddaş Sahibinin düşüncələrini həyatiliyinə görə, qarşısıalınmaz bir arzu olduğuna görə necə yuxu hesab etmək olar:

Onun ərsə gətirdiyi,
Boya-başa yetirdiyi,
Yaşa dolmuş böyük oğlu
Qollarını aça-aça
Yaşca ondan cavan olan
Atasını qarşılayıb,
Ona doğru qaça-qaça...
Yuxum gerçək olaydı kaş...
Səhralar çiçək açaydı,
Qaranlıq işıq saçaydı...

Bəlkə də yenidən atanı görmək istəyi olmasaydı və bu hiss bir qarşısıalınmaz arzu kimi Yaddaş Sahibinin mənəviyyatına hakim olmasaydı, heç bizi cazibəsinə çəkən yuxudan çox həyat həqiqəti təsəvvürü yaradan bu lövhələr də olmazdı. Və istər-istəməz biz yenə arzunun, istəyin mahiyyəti haqqında düşünməli oluruq:

> "Arzu çox böyük yaradıcılıq qüvvəsinin daşıyıcısıdır: o insana, onun hərəkət və rəftarına müəyyən məqsədyönlülük, oriyentir verir, orqanizmin enerjisini nəyisə əldə etməyə, nəyəsə sahib olmağa sövq edir. Arzunu reallaşdırmaq işində iradə mühüm rol oynayır; məhz onun hesabına subyekt öz arzularını həyata keçirmək üçün müəyyən qərarlar qəbul edir və onların keçirilməsi üçün müəyyən cəhdlər göstərir. Arzuları iki tipə bölmək olar: bişüurdan və şüurdan gələn arzular, yaxud

xalis irrasional və rasional arzular. İrrasional arzular sırf instinktlərlə əlaqədar olur, onlar bioloji varlığımızdan gəlir; rasional arzular şüurdan, zəkadan gəlir, reallıqla uzlaşır. İrrasional arzular heç şeylə məhdudlaşmır, onların məntiqi nizam və harmoniyası, qayda, qanunu, bir sözlə, rasional əsası olmur"[1].

Artıq oxucunun diqqətinə çatdırdığımızaxırıncı misralara yenidən qayıtmağa ehtiyac var: *"Yuxum gerçək olaydı kaş..."* bu nöqtələrdən sonra, hətta bu nöqtələrə qədərki o dörd kəlmənin yaratdığı istək-arzu mahiyyəti o qədər dərinliklərdən gəlir ki, sanki söz müəllifin bağrından qopan zərrələr kimi duyulur. Yuxunun gerçək olmasını arzulayan və bunu sonsuzluqla arzulayan Yaddaş Sahibi özünün atasızlıq dünyasında gördüyü səhraların çiçək açmasını arzulamış olur. Atasızlığın onun ruhunda yaratdığı qaranlıqların işığa çevrilməsini arzulayır.

Nə yaxşı ki, yuxular var. O yuxular ki, xəyalları bir anlığa da olsa səadətə çevirir, işığa çevirir və ayılandan sonra insan üçün əlavə enerji mənbəyinə çevrilir, güc mənbəyinə çevrilir: "Freyd yazırdı ki, demək olar ki, bütün insanlar, hətta ən normal adamlar belə yuxu görməyə qabildirlər. Buradan aydın olur ki, röya insanın təbii, antropoloji atributudur. Lakin röya həmişə adi həyatın möcüzəsi hesab edilmişdir. Yuxugörməyə əsla heç kim biganə olmur, deməli, o əbədi aktuallığa və misilsiz praktik məzmuna malik bir problemdir. Yuxunun gələcək və cari həyatla əlaqəsi, onun proqnostik funksiyası, mexanizmində zərurətlə təsadüfün, adiliklə ecazkarlığın vəhdəti, ondakı hadisələrin zaman-məkanla əlaqəsi (əcaib yuxular, ölülər, başqa planetlər, əlaqəsiz sintezlər, zahirən arzu olunmayan faktlarla üzləşmə və s.), adi məntiqə zidd olan şeylərin müəyyən bir məzmun şəklinə düşməsi və s. insanın ona marağını artırmışdır. Yuxunun adi həyat və psixi fəaliyyət üçün bu qədər əhəmiyyəti sübut edir ki, insanın və ruhun dərki hökmən həmin problemin həllini tələb edir"[2]Yuxugörmə probleminin hələ də mübahisəli olduğunun fərqinə varmayaq. Amma fakt odur ki, Yaddaş Sahibini danışdıran onun gördüyü yuxudur. Bir anlığa yenidən müəlliflə Yaddaş Sahibini eyniləşdirək. Demək, müəllifə həmin əsəri yazdıran, bu hissləri, həyəcanları ya-

---

[1] Fərman İsmayılov."Klassik psixoanalizin əsasları". Azərbaycan Milli Ensiklopediyası NPB. Bakı, 2003, s. 98.
[2] Yenə orada. s.128.

şadan elə yuxudur. Və onun ayılandan sonrakı düşüncələri də, əslində, bir anlıq olan səadətin yaşantılarıdır.

Çox qəribədir, insan yuxu görür, sevincli anlar yaşayır və eyni zamanda elə yuxunun özündə də, hələ ayılmamış elə bunun yuxu olduğunu da bilir. Demək, yuxu həm də insanın iztirablı yaşantılarıdır. Ayılandan sonra Yaddaş Sahibinin gözündəki yaşın sevincdən, yoxsa kədərdən yarandığını demək də çətindir:

Ayıldım ki, gözümdə yaş
Yuxular da bir an olur....
Saçımda dən, qəlbimdə daş...
Könül evi viran olur
Uçub gedir yavaş-yavaş...

Yaddaş Sahibi yenidən özünə qayıdır. İndi onun uşaqlığı da yoxdur, arzuladığı qeyri-adi görüş də yoxdur. Onun kədərləri, iztirabları, ağrıları sinəsinin üstündən asılmış daşa bənzəyir. Və o, uşaq olmaqdan başqa, heç gənc də deyil. İndi onun saçlarında dənlər ağarır. Özünü dərketmə, özünəqayıdış onun müqəddəs aləmdən ayrılmasının əsasıdır. Yaddaş Sahibi isə o müqəddəs aləmdən ayrılmaq istəmir. Yavaş-yavaş uçub getməkdə olan xəyallarının arxasınca baxır. İndicə qucaqladığı dünyanı təzədən itirmişdir. Elə ona görə də onun könül evi viranədir. Xəyal aləmi yenidən onu qanadlarına alıb: bəlkə, gözünü yumsun? Bəlkə, gözünü yummaqla itirilmiş dünyanı təzədən qaytarmaq olar:

Gözümü təzədən yumdum...
Yuxuma şəfəq dolaydı...
Nakam gedən atam, əmim,
Neçə qohumum, həmdəmim
Dörd yanımda cəm olaydı,
Yanımda nənəm olaydı...

Amma bunların heç birisi mümkün olmasa da, yenidən arzuların arasındadır. Həyatla çarpışmada olan, lap elə gerçəkləşməsi mümkün olmayan arzuların onun yuxusuna nə qədər işıq gətirən adamların şəfəqləri dolsa da, istilər, hərarətlər gəlsə də, itirdiyi doğmalarını təzədən qaytara bilmir. Və Yaddaş Sahibi atası ilə, əmisi ilə itirdiyi qohum-əqrəbaları ilə həsrətini çəkdiyi həmdəmlərilə birgə yenə onun uşaqlıq aləminin qayğılarını çəkən, üşümüş əllərini qoynuna-qoltğuğuna qoyub isitməyə çalışan nənəni yaddan çı-

xarmır: *"Nənəm yanımda olaydı"*. Təkcə nənənin yanında olması o deməkdir ki, bəlkə də, o itirilmiş dünyanı bütövlükdə qaytarmaq olarmış.

Müəllif buradaca Yaddaş Sahibindən ayrılır. İndi o, tək-tənhadır. Bu çal-çağırlı, get-gəlli, hay-haraylı dünyanın içərisində, onun arxasınca kölgəsini qılınclayanların nəzərləri altında, onun çıxışlarını alqışlayan, onu xoş nəzərlərlə qarşılayan, onu sevən adamların arasında tənhadır. Və bu tənhalıqda özünün çox dəqiq məntiqi yekununa gəlir:

Çaylar axmazmış tərsinə,
Mənsə uymaq istəmədim -
Zamanın quru dərsinə...

H.İsaxanlının poeziyasında lövhələr tez-tez dəyişir. Bu, onu göstərir ki, o, bir alim, publisist, sərrast, məntiqi gücə malik natiq olmaqdan başqa, bütün ruhu poeziyanın hakimiyyəti altında olan və bu hakimə özünü bütün varlığı ilə təslim edən istedadlı bir şairdir. Və heç şübhəsiz, heç vaxt H.İsaxanlının səmimiyyətini onun şairliyindən ayırmaq olmaz. Bəlkə də, onun şairliyinin və demək poeziyasının ən üstün məziyyətlərindən biri səmimiyyətdir - həyata, insanlara, eləcə də keçmişə və gələcəyə səmimiyyət.

# Dedal və İkar əfsanəsi

Hər kəsin öz zəmanəsində yaradıcılığı ilə, qəhrəmanları ilə, yaratdığı obrazlarla sevilməsi müxtəlif cür ola bilər. Elə sənətkar var ki, zəmanəsində hədsiz dərəcədə sevilə bilər, hamının dilinin əzbəri olar. Amma zaman keçər bəlkə, elə öz sağlığında da unudulmaq təhlükəsi qarşısında qalar. Amma zəmanəsinin döydüyü sənətkarlar da var ki, onlar vaxt keçəndən, zaman dəyişəndən sonra düşüncələrə hopa bilər. Zəmanəsinin tanımadığı sənətkarı özündən sonrakı nəsillərin bu cür tanıması, əzizləməsi mümkün olan haldır. Həm bizim ədəbiyyatımızın tarixində, həm də dünya ədəbi həyatında belə hallar az olmayıb. F.Kafkanın taleyini yada salaq, S.Fitsceraldın faciəli taleyi zəmanəsinin tanımadığı sənətkarın taleyi deyilmi? Eləcə də, konkret olaraq bu gün yaradıcılığını araşdırmağa çalışdığımız, obrazlarının mahiyyətinə vardığımız, əsərlərinin psixoloji, mənəvi köklərini axtardığımız şair H.İsaxanlının yaradıcılığını hamının sevdiyi və bildiyi iddiasında da deyilik. Amma buna şübhəmiz yoxdur ki, onun yaradıcılığını xüsusi diqqət və zövqlə oxumaq istəyən hər kəs onu bir şair kimi duya bilər, ağrılarına şərik olar. Ən azı hədsiz səmimiyyəti qarşısında qibtə hissi ilə düşünməli olar. Axı onun şeirləri yerdən çıxmır və göydən gəlmir. İnsan qəlbinin dərinliklərindən süzülüb gəlir, duyğu ilə, hissiyyatla süzülüb gəlir. Görünür, elə bu səbəbdən də onun hər bir şeiri, demək olar ki, bütün obrazlarının arxasında bir insan aləmini, başqasının görə bilmədiyi, bəlkə, dərinliyinə vara bilmədiyi bir aləmin təqdimatıdır. Artıq biz Hamletin yuxuları haqqında xeyli danışdıq. O yuxuları haqqında danışdıq ki, çayların tərsinə axmazlığı haqqında həqiqəti göstərirdi. Yuxu bir arzu olaraq, istək olaraq, könül aləminin yanğısına cavab olaraq bir udumluq su kimi insanı sevindirə bilər; səhrada susuzluqdan əzab çəkən adam üçün bir udumluq su nədirsə, elə o qədər sevindirə bilər.

Bəli, yuxu həyatı qaytara bilməz. Amma əvəzində şairin insan ağrılarının dərinliyinə vara bilməsi üçün mənəvi körpü olar, yolgöstərən bələdçi olar. Onu çağıran, yaşamağa, yaratmağa səsləyən ecazkar bir səs olar. Elə buradaca yenidən Freydin mülahizələrinə qayıtmaq yerinə düşərdi:

> "Yuxugörmə - müstəsna dərəcədə mürəkkəb, sirli, möcüzəli bir psixi fenomendir. Əsrlərlə bu fenomenin üzərindən "mayya pərdəsini" götürmək mümkün olmamışdır. Əslində, bu problem ruh haqqında elmlərin "Qordi düyünü" hesab edilir. Belə bir problemi bir cümlə ilə ifadə etmək oxucu üçün yeni bir müəmma yaratmağa bənzər bir şey olardı. Bu gün ona verilən ən qısa və elmi məzmunlu tərif Freydin bu mülahizəsi ola bilər ki, "yuxugörmə - həyata keçməyən arzuların ifadəsidir"[1].

Müəllif göstərilən nümunədə yuxunun sirlərinin açımını *"Qordi düyünü"* ilə müqayisə edir. Konkret olaraq nəticəni həyata keçməyən arzuların ifadəsi hesab eləsək və bu nəticədən gələn yanaşma ilə şairin yuxularına münasibət bildirməli olsaq, onda bu yuxuları iki qismə ayırmalıyıq. Birincisi, həqiqətən həyata keçməyən arzuların ifadəsi; ikincisi, həyatın iç üzünü göstərən və müəllifin arzularının əksinə olan yuxular. *"Ziyarət"* kitabında bu iki qisim yuxuların hər birinə ən tutarlı nümunələr var. Çayların tərsinə axmazlığını, həyata keçməyən arzuların şirinliyini göstərən yuxular haqqında danışmışıq. İndi bir növ həyatın iç üzünü göstərən yuxuların mahiyyətinə varaq: bu mahiyyətin ən bariz ifadəsi kitabda müstəqil şeir şəklində verilmiş ***"yuxu"*** poetik nümunəsidir. Ümumiyyətlə, Hamletin Yuxu obrazı mülayimdir, həyat həqiqətlərinə sadiqdir, insanlara düz yol göstərəndir və yaxud kəskinlik gətirəndir, səbir, dözüm aşılayandır:

Nə qədər ki ömür sürdüm,
Yuxumda hey yuxu gördüm...
Fələk gördüm, mələk gördüm,
Çayda bir div, əlində bir ələk gördüm.
Çaydan o yana bir cırtdan,
Gözlərində kələk gördüm.
Yuxuda kimlər yoxdu ki?

---

[1] Fərman İsmayılov."Klassik psixoanalizin əsasları". Azərbaycan Milli Ensiklopediyası NPB. Bakı, 2003, s.129.

Bəzən oldu, gözlərim elə qorxdu ki,
Hər yan düşmən,
özümü tamam tək gördüm...

Bu yuxudakı mənzərə bizi düşündürməlidir. Çünki burada xeyir və şərin qarşılaşması, bu qarşılaşmada qüvvələrin qeyri-bərabərliyi açıq-aşkar duyulur. *"Cırtdan"* xalq nağılı həmişə xalq müdrikliyinin, ağlın zordan daha üstün olduğu haqqında xalq qənaətinin ifadəsi kimi təqdim olunub. Yəni, divlə Cırtdan qarşılaşmasında zor yox, ağıl qalib gəlir. Ağılın və zorun qarşılaşması ilə bağlı xalq düşüncəsində çox maraqlı rəvayətlər, əfsanələr, deyimlər yaranıb. Gücünə güvənənin biri bir yığnağa gəlir. Bir cansızı, çəlimsizi, boysuzu, yəni fiziki gücsüzü pərt eləmək üçün atını bir tərəfə bağlayıb arpa dolu kisəni atın qabağına gətirməyi əmr edir. Əmrə tabe olmalı cansız-çəlimsiz adam (başqa sözlə, Cırtdan) arpa dolu kisəni gətirə bilməyəcəyini görüb atı kisənin yanına aparır. Beləcə, burada ağılla fiziki gücün qarşılaşmasında ağlın üstünlüyü görünür. Hamletin *"Yuxu"*sunda da div və Cırtdan qarşılaşmasında oxşar mənzərə yada düşür, ancaq bir qədər fərqli şəkildə. Yalnız gücünə arxalanan div əlində ələk tutub ağlını işlətmək iqtidarında deyil. Və su içmək arzusunda olsa da, xəlbirlə, ələklə su içə bilməz. Çaydan o yana isə onu xəlbirlə suya göndərən Cırtdanın özünün qələbəsindən məmnunluğu görünür. Sanki gözlərinin işıltısı da bərq vurur. Ancaq müəllif burada sanki poetik emosiyanın gücü ilə Cırtdanın da divə qalib gəlmək *"elmini"* təqdir etmir. Çünki Cırtdan da divə kələklə qalib gəlib.

Müasir siyasət aləmi yada düşür. Vaxtilə qüdrətli Misir ordusunu kələklə darmadağın edən İsrailin gücü yada düşür. Camal Əbdül Nasir kimi qüdrətli bir dövlət başçısı və nəhəng bir dövlətin özü bütün hərbi potensialı ilə bahəm İsrailin siyasi fırıldaqlarının və nəticədə qəfləti zərbələrinin qurbanı oldu. Bu, dünyanın iç üzüdür. Bəzən görünən, bəzən görünməyən tərəfləridir. Və bu yuxuda elə bugünkü dünyanın mənzərəsi də pis görünmür. Və elə bu səbəbdən də müəllif "*Yuxuda kimlər yoxdu ki?!*", - deyir. Bəsirət gözü açıq olanlar (yuxuda olsa belə) dünyanın bu fəlakətli mənzərəsini ağılla gücün qarşılaşmasını yox, ağlın siyasətə, əslinə qalsa, sağlam siyasətə yox, hiylə və kələk siyasətinə xidmət etməsini müəllif qətiyyən təqdir etmir. Bu mənzərəni görə bildiyi üçün, bu mənzərənin təhlükəli tərəflərini, ölüm və qırğınlar gətirən tərəflərini (əlbəttə, eyni zamanda, fəlakət gətirə biləcək tə-

rəflərini) gördüyü üçün etiraf eləməli olur, *"Gözlərim elə qorxdu ki"* hətta yuxuda olduğumu unudub bu aləmdən başımı götürüb qaçmaq istədim – demək istəyir. Çünki həmin aləmdə hər tərəf düşməndir. Sağlam, səmimi danışan xeyir tərəf tək-tənhadır. Bu təkliyi, tənhalığı xarakterizə edən, onun mahiyyətini özündə cəmləşdirən əsərin qəhrəmanı - əsas obraz deyəsən, elə şairin özüdür. Biz bu yuxunu xəbərdarlıq kimi də qəbul edə bilərik - bəşərə xəbərdarlıq, Tanrının şair vasitəsilə ruhlara, düşüncələrə, hissiyyatlara təsir edə bilmək gücündə olan poetik vəhylərlə xəbərdarlığı kimi də qəbul edə bilərik:

Bilmək olurmu yuxunu?!..
Gördüyümün
Dumanda gördüm çoxunu...

Müəllif yuxunun sərhədsizliyini, onun istiqamətinin dəqiqləşdirilə bilməməsini, proqnozsuzluğunu diqqətə çəkməklə sanki yuxuya müdaxilə etməyin mümkünsüzlüyünü, nəticədə nəzəri fikirlərin doğruluğunu təsdiqləyir. Heç yuxu görənin özünə də aydın deyil ki, nəyi haracan yuxuda görüb. Axı gördüklərinin çoxu alaqaranlıqdadır, dumana bürünüb. Bəzən yuxuda tanıdığı, tanımadığı adamlar, obrazlar, tərəflər, qüvvələr kölgələr kimi nəzərə çarpır:

Həm yuxu, həm gecəyarı...
Gah oyan, gah yuxuya get...
Tanrım, əfv et
Yuxusunu qarışdıran günahkarı.

İnsan, əlbəttə ki, dəfələrlə deyilmişləri bir də təkrar edək, yuxusuz yaşaya bilməz. Yuxu sanki həyatın özünü təmin edən əsas vasitələr kimi insanın taleyində özünü qoruyub saxlayır. Amma yuxu görmədən də insan yaşaya bilər. Əlbəttə, bu müstəsna haldır və bəlkə də heç mümkün deyil. Yəni insan - düşünən, hətta ruhu ən sağlam insan belə yuxu görə bilər, yuxugörmədən qaça bilməz.

Amma yuxuda ağın qaraya, yaxşının pisə qarışması, demək olar ki, yaxşı əlamət hesab olunmur. Hətta belə yuxu görənlər qarışıq yuxugörmədən keçən adamlar *"yuxumu qarışdırmışam"* - deyərlər. Və bunu da müəyyən günahın, səhvin nəticəsi hesab edə bilərlər. Şair də, ədəbi obrazın əvəzində özünü yuxusunu qarışdıran günahkar hesab edir. Bunun bir mahiyyəti də

şairin dünyanın taleyində özünü vacib missiya daşıyıcısı hesab etməsidir. Dünyanın başına gələn fəlakətlərdə şərin tüğyan eləməsində özünü günahkar bilməsidir. Əlbəttə, şərin gücü o zaman fəlakətə çevrilir ki, xeyir öz missiyasını yerinə yetirmir. Və yaxud da özünə aid olan missiyanın yerinə yetirilməsində gecikir. Dünya isə öz qarışıqlığında xeyirin passivliyindən, fəaliyyətsizliyindən istifadə edərək, başqa sözlə *"biganələrin sui-qəsdindən"* istifadə edərək tüğyan edir. Bu aləmdə nələr var? Ən dəqiq, ən aydın mənzərə *"Yuxu"*dadır:

Yuxuda hər cür məxluq var
Yuxular çox zəngin olar -
Qoşadırnaq geyinənlər,
Buynuzuyla öyünənlər.
Atan, tutan, vuran, qıran...
Barmağıyla ortalığı qarışdıran...

*"Hər cür məxluq"* deyəndə fikir kifayət qədər aydın olur. Amma müəllif bu aydınlıqla barışmır. İronik bir münasibət bildirir: "Yuxular çox zəngin olar" bu zənginliyin tərsinə anlamı, istehza anlamı göz qabağındadır, tez başa düşüləndir. Burada buynuzuyla öyünənlər, qoşadırnaq geyinənlər (?) azmış kimi, atanlar var, tutanlar var, vuranlar var, qıranlar var... ən başlıcası, mələk donunda ortalığı barmağı ilə qarışdıranlar var.

...Bir qoca yer şumlayırmış. Birdən öküz xışı çəkmir, boyunduruğun altında mözələk vurur. Quyruğunu belinə döyür, buynuzuyla yanındakı öküzü helləmək istəyir. Qoca əkinçi, *"lənət sənə kor şeytan"* - deyir... Gözə görünməyən bir tərəfdə guya ki, şeytan öz balasını yemləyirmiş. Balası anasından soruşur ki, ay şeytan ana, axı sən burada məni yemləyirsən. Sənin nə günahın var ki, o kişi səni lənətlədi. Ana şeytan da balasına cavab verir ki, mən burada səni yemlədiyimə baxma, barmağım öküzün quyruğunun altındadır. Bu, xalq təfəkküründən gəlmə düşüncənin məntiqi H.İsaxanlının *"Barmağı ilə ortalığı qarışdıran"* misrasındakı məntiqi tamamlayır. Bəs nə vaxt ortalığı barmağı ilə qarışdıranların işi yaxşı gedir? O vaxt ki, maarif olmur, o vaxt ki, insan sağlam düşüncədən məhrum olur, o vaxt ki, doğru ilə yalanın, həqiqətlə saxtanın meyarı itir. Bax o zaman xurafatın, xurafatdan faydalananların hökmlərində tanrısızlığa (ədalətsizliyə) güvənənlərin cəlladları iş başında olur. Ətrafda cinlər oynayır:

Arasında xurafat, cəllad, cin olar.
Qorxuram, yuxudan duram...
Qorxuram ki
Qorxulu yuxum çin olar...

H.İsaxanlı *"Ziyarət"* poemasında ayrı-ayrı məqamlarda və elə *"Çaylar tərsinə axmazmış"* hissəsində də yuxudan ayrılmağa (oyanmağa yox) qorxur. Burada da yuxudan ayrılmanın xofu duyulur. Amma mahiyyət fərqi var: bu qorxulu yuxuların dırnaqarası avandına düşməyindən qorxur, yəni çin olmağından. Əslinə qalsa, müəllif kifayət qədər dünyanın mənzərəsini *"Yuxu"* şerində və özü də çin olan mənzərəsini verə bilib.

* * *

H.İsaxanlı təbiət etibarilə narahat söz adamıdır. Söz onun ruhunu əsir edib, dilini bağlamayıb. Əslində, onun bütün varlığını əsir edərək, özünə tabe edərək sözlə, yəni özü ilə ülfətə yönəldib. Əslində, söz onun keşiyində ona görə dayanıb ki, onun ruhunu yad təsirlərdən qorusun və o, bir an da olsun sözdən ayrılmasın. Sözün aşiqi olaraq o, bütün varlığı ilə, cismində, canında söz ağrısı daşıyaraq sözün istədiyini, sözdən aldığını sözə qaytarmağa çalışır. Bütün bunlar enerjiyə çevrilərək onun mənəvi aləmində təlatümlər yaradır. Bütün narahatlıqlar, nigarançılıqlar öz mənbəyini bu enerji qaynağından götürür. Demək, şairin dünyanın taleyindən narahatlığı, nigarançılığı, eyni zamanda insanın taleyindən narahatlıq, nigaranlıqdır. Və demək, həm də sözdən nigaranlıqdır. İnsan olmasa, söz də olmaz. Dünya olmasa, insan da olmaz. Bu zəncirvari müstəvidə şair özünü işıq verən, işıq gətirən kimi görür. Yuxularda da, əslində, bu mahiyyət hakimdir. Çayların tərsinə axmazlığı haqqında danışan yuxuda daha çox insanın ruhunun, mənəvi aləminin məsuliyyəti duyulur. İnsanın ruhunu qoruya biləcək duyğuların müqəddəsliyi tərənnüm olunur. Və şübhəsiz, bu, az əhəmiyyət kəsb eləmir. İkinci yuxuda isə (mən bunu əsas yuxu hesab edərdim) dünyanın taleyindən nigaranlıq, dünyanın taleyini qorumaq hissi daha güclüdür. Ümumiyyətlə, H.İsaxanlı dünyanın taleyini özünün taleyindən ayırmır. Elə ona görə də ayrı-ayrı kitablarında dəfələrlə dünya ilə ünsiyyətə girməyə çalışır. Bəzən onu zərif, nəvazişə ehtiyacı olan bir gözəl kimi vəsf edir, onun könlünü almağa çalışır:

Məhəbbətə sığınaraq dünyamıza göz açmışıq,
Torpaq üstə ayaq açıb asimana can atmışıq.
Duyub, görub-götürmüşük, kövrək hisslərə çatmışıq,
Cilvələnib arzu, əməl, rəngarəng sərgidi dünya.

Arzuların cilvələnməsi, əməlin gözəllik donunda görünməsi, dünyanın rəngbərəng sərgiyə bənzəməsi - bütün bunlar insan gözəlliyinin cizgiləridir. Ali insana, ürəklərə, könüllərə xoş ovqat gətirən, insanı daxildən isidən, ona hərarət bəxş edən gözəlin obrazını görürük bu misralarda. Bəli, o, dünyanı belə görür. Və eyni zamanda, həm də dünyanı bir Tanrı ahəngi kimi, həyatı, yaşarılığı təmin edən bir harmoniya kimi də görə bilir. Beş bənddən ibarət olan *"Dünya"* şeiri dünyaya, həyata bu günə qədər yazılmış dünya şeirlərindən fərqli ancaq müəllifin öz hisslərini göstərən bir baxışdır, münasibətdir:

Zərif şamdır, hər yaranan yanır, yanır, yoxa çıxır,
Kim yandırır, kim söndürür, bu gərdişə kimlər baxır?
Göylər sonsuz, vaxt hüdudsuz, bilinməyir əvvəl-axır,
Ənginlikdən ağıl çaşır, Tanrı ahəngidi dünya.

"Dünya" şeirinin digər bəndlərində də ümumi məntiqə tabeçilik qalsa da, dünyanın indiki mənzərəsinin təsviri də görünür. "*Tarix mürgü içindədi, Yaddaşında yatır nələr?"* deməklə, dünyanın savaş mənzərəsinin yalnız bu günlə bağlı olmadığını, dünyanın elə savaşlardan keçib gəldiyini təsdiqləyir. Bu savaşların bir tərəfində yırtıcılar, bir tərəfində müəllifin dediyi kimi - *"quzu mələr".*

Bütün bunlara baxmayaraq, müəllifin bu duyğulanmalarından yan keçmək olmur:

Ümid xəfif olsa belə, könüllərə şəfəq saçar,
Xoş əməllər bar gətirər, xoş niyyətlər çiçək açar.
İnsanlara qanad verən sevgi adlı möcüzə var,
Nəhayətsiz eşq, ehtiras, duyğu çələngidi dünya.

Göründüyü kimi, yenidən insana qayıdış, dünyanın özünü insanın özü kimi görmək, insan eşqinin, sevgisinin, ehtiraslarının, istək və arzularının bütöv bir harmoniya şəklində cəmləşdiyi bir obraz - dünya obrazı. İnsansız dün-

ya varmı? İnsan olmayan digər planetləri dünya adlandırmırıq. Bu mənada, Hamletin dünyanın taleyindən nigarançılığı onun başqa şeirlərində də, o cümlədən ***"durmadan"*** adlandırdığı yeddi misralıq bir lövhəsində də özünü diktə edir:

İşıqlar qaranlığa,
Qaranlıqlar işığa
Dönür, dönür durmadan.
Dünya dinclik bilməyir,
Yanır, sönür durmadan.
İşıqlarda, kölgədə
Keçir ömür durmadan.

Əslində, insanın həyatı işıqlar və kölgələr arasında keçir. Bu işıqların və kölgələrin (qaranlıqların) arasında dünya dinclik tapmır. Bax şairi narahat edən, onu nigaran bir həyat yaşamağa vadar edən də budur. O, dünyaya dinclik istəyir.

* * *

Dünyanın mənzərəsi isə savaşlar meydanıdır. Kimin haqlı, kimin haqsız olduğu bilinməyən bir meydan. Hələ də dünyanın elə yerləri var ki, insanlar bir tikə çörək üçün dəridən-qabıqdan çıxırlar (və bu yerlər bizdən heç də uzaqda deyil) Aclıqdan əziyyət çəkənlər, epidemiyaların əjdaha ağzında tələf olanlar əslində, dünyanı iddia ərazilərinə bölmək istəyənlərin qurbanıdır. Silahlara çəkilən xərclər təbabətə, insanın rifahının yaxşılaşmasına sərf olunsaydı... Bəs şair nə istəyir? Şairi qarışıq yuxular görməyə vadar edən hansı düşüncələrdir? Şair dünyanı fəlakətlərin cəngindən xilas etmək istəyir. Sanki dünya fəlakət girdabındadır. Burada dünyanın insan anlamını, insanlığı, insanın yaratdığı dəyərlər anlamını başa düşmək o qədər də çətin deyil. Söhbət insanlığı bir məkandan başqa bir məkana, bir planetdən başqa bir planetə köçürməkdən getmir, söhbət insanlığın xilasından gedir. Şair özü də insanlarla bahəm, bir çıxılmazlıqdadır. O, gördüyü yuxular vasitəsilə bu çıxılmazlığın yoluna gəlib çatır. Labirintlərdən, çıxılmazlıq dairəsindən xilas olmağın yeganə yolu insanların şairin təlqin elədiyi hisslərə tabe olmasında, şairin mənəvi aləminə güvənməsindədir. Qədim yunan mifologiyasında Dedal və İkar əfsanəsi var. Dedal zülmkar hökmdarın əsirliyindən yaxa

qurtarmaq üçün özünə və oğlu İkara mumun və lələklərin köməyi ilə qanad toxuyur. Su və quru yol hökmdarın əlindədir, səma yolu açıqdır. Dedalın hazırladığı qanadlarla özü və oğlu səmaya qalxır. Dedal oğluna tapşırır ki, yuxarı qalxmasın, günəş mumu əridər. Çox da aşağı enməsin, dənizə düşər. Dedal əslində, öz taleyi üçün yox, İkarın taleyi üçün narahatdır. Yuxarıda mumu əritməyə qadir olan günəş, aşağıda dibsiz dəniz vardır. İkarın xilası xilasedicinin - atanın - Dedalın sözünü eşitməsindədir, onun göstərdiyi yolu qəbul etməsindədir. Ata-oğul səmada uçmaqdadırlar. Onlar tezliklə öz azadlıqlarına qovuşacaqlar. Birdən hökmən İkar səmanın daha dərinliklərinə, hündürlüyə uçmaq istəyir. Qanad çalır və üzü günəşə tərəf səmt götürür. İkarın qanadlarını günəşin istisi əridir və o, dənizə düşür. Dedalın İkar çağırışları cavabsız qalır... Beləcə, əsl həqiqət tərəflərin anlaşma sərhədlərini keçməsi ilə sonuclanır. Böyük fəlakət - Dedalın İkarı xilas etmək arzusu da cavabsız qalır. Sanki şair əsatirin əsas xilasedicisi - Dedal, insanlar isə İkar obrazında görünür. Şair insanlığı yandırıb məhv edəcək hərarətdən, onu boğa biləcək dibsizlikdən, dərinlikdən qoruyur. Şair bütün varlığı ilə, mənəvi aləmi ilə insanları xilas edəcək fədakarlıq yolundadır. Əslində, bu nəticə H.İsaxanlının poeziyasının estetik qayəsidir, fəlsəfi mahiyyətidir. İnsanlığı xilas etmək, insanlıq uğrunda çarpışmaq, sözü insanın ruhuna bəşəri məhv edəcək epidemiyalardan qoruyan həblər kimi yeritmək. Sağlam mənəvi aləmdən gələn poeziyanın istəyi budur.

...H.İsaxanlının *"Yuxu"*larında Dedal və İkar əfsanəsinin ruhu danışır.

# Sevdalarin ən gözəli

H.İsaxanlının poeziyasını tədqiq edənlər, yalnız onun kitablarının dili ilə danışanlar onun poetik lövhələrinin şeriyyət dolu hekayətlərinin alt qatında yatan sirləri asanlıqla aça bilməzlər. Birinci növbədə hər hansı bir tədqiqatçı gərək müəllifin həyatını heç olmasa, müəyyən səviyyədə öyrənə bilsin. Çünki poetik kəşflərin orijinal yozumu bir çox hallarda müəllifin həyatı ilə bağlı olur. Ən azı ona görə ki, həyatın müəyyən mərhələlərində müəllifin yaşadığı hisslər obrazın dünyasına köçür. Və yaxud müəllif ən həyati detalları obrazın təbiətinə o vaxt köçürə bilir ki, onu dəqiq müşahidə edə bilib. Və təkcə müşahidə etməyib, həm də özünün mənəvi aləmindən keçirib. Əgər həmin həyati detalda ağrı varsa, müəllif onu özünün mənəvi aləmində yaşamış olursa, deməli, o zaman əsərdə həmin ağrı istər-istəməz duyulacaq. Yox, əgər müəllif hər hansı bir hadisəni yalnız həyatına ən azı şəcərəsinə daxil olmadan çöldən-çölə eşidibsə, onu əsərinə gətirə bilər. Və zənnimizcə, bu zaman səmimiyyət çatmayacaq. Bəs onda müəllifin uğurunun başlıca səbəbini, eyni zamanda, uğursuzluğunun əsas kökünü harada axtarmaq lazımdır?

Yenə çıxış nöqtəsi müəllifin özüdür. Əgər təxəyyül sahibi, qələm sahibi yazacağı mövzuya ürəkdən bağlanıbsa, həmin mövzudan gözəgörünməz min tellərlə asılıdırsa, onda həmin mövzu müəllifin taleyinin yozumuna çevriləcək. Əslində, müəllifin həyatını da həmin mövzunun özündə, həmin mövzu daxilində təzahür edən hadisənin özündə görə biləcəyik. Bəri başdan sual vermək olar: oxucuya H.İsaxanlının şeirləri necə təsir edir? Əgər bir şair olaraq, müəllif olaraq o, özü yaratdığı lövhələrdə istər təbiətlə bağlı, istərsə cəmiyyətlə bağlı ümumi düşüncələrində, istərsə də müəyyən fərdlərin, konkret adamların və hadisələrin fonunda özü həyəcanlanıbsa, həmin hadisələrin, obrazların xarakterik cizgilərini yazarkən, yaradarkən müəyyən tərəddüdlər

qarşısında, müəyyən sıxıntılar içərisində olubsa, demək, oxucunu da kifayət qədər həmin sıxıntılara, həmin tərəddüdlərə, həmin düşüncələrə məruz qoya biləcək. Oxucunu da narahat edə biləcək. Əlbəttə, söhbət insana daxili-mənəvi təkamül bəxş edən, ona əlavə enerji verən, onu düşüncə hərəkətinə məcbur edən narahatlıqdan söhbət gedir.

H.İsaxanlı demək olar ki, bütün poeziyasında düşüncə şairidir. Onun hissləri nə qədər orijinal, təzə-tər və səmimi olsa da, bir o qədər də fikirlə yüklənmiş olur. Biz ənənəvi poeziyada demək olar ki, tərənnümü hiss və həyəcanın ifadəsi kimi qəbul eləmişik. Xüsusilə, bu yönümdə S.Vurğunun səmimi tərənnümləri əvəzolunmazdır. Şübhəsiz ki, S.Vurğunun ürəkdən gələn səmimi tərənnümləri əbədi örnək olacaq. S.Vurğunun bütün yaradıcılığı Allahla təmas kimi, Allahla danışıq kimi təzahür eləyir. Amma, əlbəttə, bu tale hamıya qismət ola bilməz.

Ancaq ümumdünya ədəbi prosesi göstərdi ki, cəmiyyətin ağrılarını müəyyən olunmuş poetik gücdə göstərmək üçün tərənnüm həmişə və axıradək etibarlı yol deyil. Ona görə də ya gərək ilham, pafos, emosiya və poetik ehtiras S.Vurğunun özünəməxsus enerjisinə bərabər olsun, ya da elə ayaqları yerin üstündə olub, sadə səmimi ünsiyyətlə oxucu ilə üzbəüz danışa biləsən. Bu zaman yeganə vasitə olaraq səmimiyyət kara gələ bilər. H.İsaxanlı istər *"Ziyarət"* poemasında, istərsə də həmin ad altında oxuculara təqdim olunan kitabda verilmiş sevgi şeirlərində real həyatın, bu günün insanının sevgisinin dəqiq ünvanını və motivlərini göstərə bilir. Onun aşiqi, sevdalısı göydən Ay gətirən adam deyil, amma sevdiyinə *"nə istəyirsən, sənin üçün eləyim"* hökmünü verməyə gücü çatır. Onun mənəvi gücü inamındadır. Çünki sevgisində inamlıdır. Bu sevginin mənəvi mühitini vermək üçün H.İsaxanlı sələfləri kimi, Azərbaycanın bir çox klassik sənətkarları kimi sevginin obyekti və subyekti olaraq ilahi obraz yaratmaq istəmir. Təşbehlərini, bənzətmələrini yerdən-göydən gətirmir. Onun təqdim elədiyi, bizə tanıtdığı adamlar özünə nə qədər doğmadırsa, bizim özümüzə də elə bir o qədər doğmadır. Həmin adamları biz də tanıyırıq. Ümumiyyətlə, H.İsaxanlının yaradıcılığında onun əsas cəhəti olaraq

> "hər bir insanda iki cəhəti seçmək lazımdır - ümumi, bəşəri və xüsusi fərdi cəhəti. Hər bir insan hər şeydən əvvəl"[1]

---

[1] V.Q.Belinski. "Rus ədəbiyyatı klassikləri haqqında". Bakı , 1954.

bəşərdir, insandır. Bundan sonra Hamletdir, İsaxandır, Yaddaş Sahibidir, qoca kəndlidir, soyuqdan əli üşüyən uşaqdır (Belinski bu adların əvəzinə İvan, Sidod adlarını işlədir). Yəni bizim tanıdığımız Yaddaş Sahibi birinci növbədə bizə yaxın olan, doğma olan adamdır və bundan sonra dünyanın sakinidir. Onun ağrısını, acısını, yaxşısını, pisini, yurda, torpağa nə dərəcədə bağlı olub-olmadığını biz birinci dəfədə görürük. Bizim özümüz də daxil olmaqla, elə müəllifin özü də bizimlə bahəm Yaddaş Sahibi ilə bir yerdə bundan sonra dünyanın övladıdır.

H.İsaxanlı fəlsəfəçilik eləmədən, qətiyyən müdriklik iddiasında olmadan özünün daxili-mənəvi ahəngi ilə poeziyada hərəkətdədir. Onun bu daxili-mənəvi ahəngi ruhunun harmoniyasını olduğu kimi təqdim edə bilir. Biz bir sənətkar kimi onu poeziyasının müdrikliyində, müdrikliyini isə poeziyasında görə bilirik. Bəlkə də, Azərbaycan ədəbiyyatı tarixində sevgi hisslərini özünəməxsus orijinallıqla *"Leyli və Məcnun"*un, *"Vərqa və Gulşa"*nın... XX əsr üçün ən nadir bir variantını yaradıb.

Dastan elə dastandır. O, lap bir səhifə də ola bilər, min səhifə də. ***"bir diri ceyran balasi"*** sevgi haqqında, sevgidə səmimiyyət haqqında, ruhi-mənəvi bağlanış haqqında ən dəyərli bir hekayət... H.İsaxanlının təfsirində sevgi haqqında hekayətin tam yeni bir məcrası...

Belinski Puşkinin istedadından danışanda onun həyatın müxtəlif sahələrindən, hətta bir-birinə zidd olan sahələrindən asanlıqla bəhs etməsini qeyd edir. Hətta eyni mövzu daxilində bir-birinə zidd sahələrə asanlıqla keçidini Puşkinin istedad nişanəsi kimi xatırlayır. Həqiqətən eyni mövzu daxilində hadisələrin dəyişməsi zamanı şairin iztirab çəkməsi, çətinliklər qarşısında qalması təbii bir hal kimi qəbul edilməlidir. Amma bütün bu iztirablara, çətinliklərə baxmayaraq, şair yaradıcılığında həyatın müxtəlif tərəflərinə, hətta bir-birinə zidd tərəflərinə asanlıqla körpü ata bilirsə, uçurumları, istedadının gücünə adlaya bilirsə, demək, o, həyatı bütün əlvanlığı ilə görə bilir və bu əlvanlığı həm də o, özünün mənəvi mühitində ehtiva edə bilir. İnsafən, H.İsaxanlının *"Ziyarət"* poemasında həyatın ən müxtəlif tərəfləri, hətta bir-birinə zidd tərəfləri demək olar ki, süniliyə yol vermədən, təbii şəkildə öz rənglərində göstərilə bilib. Məsələn, biz qışla yazın arasında üşüyən uşağın hisslərini nə qədər duyuruqsa, *"Könül səsi"*ni dinləyərkən qoca bir qarının, yaşlı bir kişinin həyatın bu günü ilə bağlı danışaraq *"Yaşadığım mənə yetər"* deməsi zamanı yaşadığı hissləri qarışdırmırıq. Göründüyü kimi, mövzu, ob-

razlar, məkan, hətta zaman çox vaxt dəyişilir, sürətlə dəyişilir. Yaddaş Sahibini Malayziyada da görə bilirik, ot-alaf basmış cığırlarda da, yurdun xarabalıqları önündə dayanıb düşüncələrə daldığı zamanda da, dostlar arasında, yaxud düşmənlərin Qarabağ talanlarındakı qəddarlıqlarını nifrətlə yada salanda da. Bütün bunlar dəyişən mənzərələrdir. Və heç də asan deyil ki, hər mənzərənin öz rəngini tapıb onu olduğu kimi göz önündə canlandıra biləsən. Professor Şamil Vəliyevin dediyi kimi:

> "Poeziya tarixi min illərdir ki, şeirin mayasında hiss və duyğunun olduğunu təsdiqləyir və bu duyğular dənizində dərdi çiçəkləyənlərin şair olduğunu nişan verir. Odur ki, "duymaq üçün yaranan" şairin poetik kredosu dünyaya sevgi, məhəbbət, qayğı bəxş edir, insanın özü və mühiti haqqında düşüncəsinə əsas olur" [1].

Burda həm şerin, poeziyanın, həm də onun yaradıcısı olan şairin missiyası görünür. Şairin ən ümdə vəzifəsi hissləri və duyğuları ilə yoğrulmuş olan misralarını pıçıldayarkən, yaxud da, pafosa, emosiyaya uyğun olaraq qəlbinin alovuna bükərək vulkan kimi püskürəndə insanları düşündürə bilsin, yaxud səfərbər edə bilsin. Hər hansı bir şəkildə olursa-olsun, poetik lövhə insanın yaddaşında iz buraxmırsa, demək onun özünün yaradılışının özündə bir sünilik var. H.İsaxanlının həm zaman baxımından, həm də məkan baxımından geniş imkanlara malik, əhatə dairəsinə malik *"Ziyarət"* əsərində sevginin, məhəbbətin çox məhrəm, örtülü və həm də gizlədilməsi mümkün olmayan tərəflərini də görürük. Artıq qeyd etdiyimiz kimi, könül aləmləri bir-birinə qovuşmaqda olan, yaxud istəkləri, hissləri bir-birinə tərəf gəlməkdə olan tərəflər arasında istəyin özünəməxsus dəyəri var. Xalq bunu canlı dildə *"İstəyin nədir? Bir diri ceyran balası"* söz abidəsi ilə əbədiləşdirib. İstər-istəməz bu düşüncənin alt qatındakı sevgi mahiyyəti, ərkyanalıq, ərköyünlük, hiss və duyğu, nazlanma könül xoşluğu üçün mühitə təmiz və saf havanın gətirilməsi istəyi... bütün bunlar həmin fikrin alt qatında dayanır. İlk baxışdan həmin fikirləri, həmin sözün ifadə elədiyi mahiyyətin altındakı görünməz duyğuları poeziyaya gətirmək çətindir. Bəlkə də, ilk baxışdan yox, elə ümumiyyətlə, çətindir. İnsan hisslərinin qapalı aləmin açıqlanması üçün insanın dünyaya, aləmə doğmalığını təmin etmək üçün mühitin səmimiyyəti, tərəflərin bir-birinə açıq və səmimi etirafları əslində, bütün

[1] Kələntər Kələntərli. "Seçilmiş əsərlər" Şamil Vəliyevin "Ön söz"ündən. Bakı,2010, s.6.

problemləri həll edir. Bu məsələlərin poetik təfəkkürdə də səmimi qavranılması və misralar şəklində səmimi etirafları əslində, poetik əks-sədanın da çətinliyini aradan qaldırır. ***"bir diri ceyran balasi"*** hekayəti sevgi haqqında bəlkə də, çox şirin bir nağıldır. Çünki müəllif bu sevgi hekayətini dastanlaşdırmaq, ona hansısa daha təhlükəli, ciddi narahatlıq və ziddiyyət dolu səhnələr əlavə eləmir. Baş verən hadisəni nənənin dilindən - o nənənin ki, həmin o *"Bir diri ceyran balası"* hekayətindəki əhvalat onun özünün başına gəlib, - danışır. Hekayətdə onun adı da verilir - Zeynəb ana. Amma bütün nəsil, tayfa onu *"böyük ciji"* deyə çağırarmış. Müəllif də hekayətin əvvəlini elə bu təqdimatla başlayır:

Dörd yanında kimlər vardı,
Nələr olub, kimlər keçib? -
Çaydan asta-asta içib
Nənəm mənə danışardı...
("Böyük ciji Zeynəb ana" -
Qohum, nəsil, kim ki, vardı
Onu belə çağırardı).

Bundan sonra nələr olub, nələr keçib, axı *"Bir diri ceyran balası"* nə olan məsələdir? Sən demə, dünyanın ən nadir bir hadisəsi də kiçicik bir nazlanmadan, ərköyünlükdən, ən başlıcası, ürəkdəki hissi, odu-alovu, istəyi dilə gətirməklə də yarana bilərmiş. Böyük ciji - Zeynəb ana gəlin gəldiyi vaxt təzə bəyin - İsaxanın evinə köçdüyü vaxt elə ilk günlərdə aralarında baş verən bir hadisəni danışır. Bir neçə günün gəlini olan gənc Zeynəb evdədir. Təzə bəy çöldən gəlir. Yəqin ki, atını bir tərəfə bağlayıb, tüfəngini də çiynindən aşırıb divara söykəyib özünün bəylik otağına keçir. Amma sevgilisini kefsiz görür.

Onun sorğusu-sualı necə ola bilərdi? O, öz sevgilisinin əhvalını nə cür soruşardı? Müəllif o mənzərəni yaratmaq üçün sanki misraların arasına bircə kəlmə də artıq söz tapıb qoymur. Elə nənə özünün keçmiş həyatını, uzaqda qalmış, az qala iki nəsli yola vermiş zamandan sonra xatırlayıb danışır və onun danışdıqlarını da müəllif yaddaşında saxlayıb bizə danışır. Söhbət Yaddaş Sahibi ilə nənənin arasındakı münasibətdən gedir. Bu münasibət o qədər doğmadır, o qədər istidir ki, nənə də o əhvalatı sinəsinin altında bu dünyadan aparmaq istəmir. Onu nəvəsinə danışmalı olur. Bu qəribə hekayə-

tin, bu maraqlı hekayətin elə ilk anlardaca bir sevgi nağılı olduğunu hər birimiz ilk misralardanca duya bilirik:

O, təzə gəlin gələndə
Bəxtin güldüyü bir gündə
- "Ay qız, nədir bu qaş-qabaq?
Gözünü qaldır, mənə bax" -
Demiş İsaxan - təzə bəy.
"Bəlkə, kefsiz, ya xəstəsən?
Sevgilindən heç nə danma.
Gücüm çatan nə istəsən,
Səninkidir, de, utanma".

Bəyin sorğusu, sualı, sevgilisinin yolunda nəyi edə bilib, edə bilməyəcəyi, hətta çox incə şəkildə gücünün dərəcəsini də yada salması nə qədər cəzbedicidir. *"Gücüm çatan nə istəsən"*. Demək, söhbət ondan gedir ki, bu gənclər nə qədər xəyalpərvər, sevginin nə olduğunu duymaq, başa düşmək üçün macəra axtarsalar da, yenə də real həyatın adamlarıdır. Onların hissləri, duyğuları ümumi insana aid olan hisslər, duyğulardır. Sevgi heç onları dəli də etməyib. Bir-birini istəyib, ümumi el adəti ilə evləniblər. İndi qəribədir, bəs onlar daha hansı şirinliyin arzusundadırlar? Görünür, bəy sevgilisindən daha artıq soyuqqanlı və təmkinlidir. Amma hər halda o da gücünü göstərmək əzmindədir. Sevgilisindən utanmamağı tələb edir, gücünün çatdığı nə varsa, hamısının onun olacağını da elə bəri başdan vədləyir. Amma əlbəttə, söhbət müəyyən güc daxilində, halallıqla, Tanrının izni ilə mümkün olanlardan gedir. Sonra gəlinin cavabı gəlir. Nə qədər öz rəngində, öz dadındatamında olan sözlərdir. Gənc bir qızın, gəlinin hansı istək və arzuları ola bilər ürəyində? O, öz ərindən, təzə bəydən nə istəyə bilər? Nağılın şirinliyi də elə misraları qabaqlayan suallardadır. Hələ oxucunun düşüncəsində olan suallarda:

Gəlin nazlana-nazlana:
"Ürəyim sıxılır bir az,
Darıxıram mən ağlı kəm.
Keçib gedər, heç nə olmaz,
Vallah, heç nə istəmirəm..."

Təzə bəylə gəlin arasındakı dialoq bitmir. Bu söhbət necə qurtaracaq? Nağılın davamını nənə necə sapa düzəcək? Bu cavabların hər birisindəki səmimiyyət o qədər güclüdür ki, hətta onu müəllifin yazdığına belə şübhələnirsən. Deyəsən, elə nənə elə bu cür misralarla, elə bu şirinlikdə danışıb. Ədəbiyyatda, sənətdə təbiilik və səmimiyyət bu cür psixoloji mühitin yaradılması ilə təmin oluna bilər. Təzə bəysə təkid edir, onun geriyə çəkilmək məramı yoxdur. Bəlkə də, elə bu gün gəlinin nazlana-nazlana ürəyində gəzdirdiyi hissləri, duyğuları aça bilməsi ilə onun gələcək ailə həyatındakı hakimiyyəti təmin olunacaq. Söhbət ondan getmir ki, bəy bunları düşüncəli surətdə, özünün gələcək hakimiyyətini təmin etmək üçün yenicə ailə qurduğu gəlinin ürəyində gizlətdiklərini bilmək istəsin. Əlbəttə, bəy heç bu barədə düşünmür də. Amma səmimiyyət olan yerdə örtülü də heç nə qala bilməz axı. Və demək, əsl hakimiyyətin mayasında, nüvəsində elə səmimiyyət dayana bilər. Ailədə də, cəmiyyətdə də, siyasətdə də, iqtisadiyyatda da. Ədəbiyyatda və incəsənətdə əbədiliyin təminatı üçün təbiiliyin və səmimiyyətin rolunu artıq demişik.

Bəy hələ cavab almayıb, ona görə də o, çəkinmədən bacardığını *"başüstə"* yerinə yetirməyə, imkanından xaric olanı sevgilisinin görəcəyinə və bunu da düzgün başa düşəcəyinə inanır:

- "Dedim ki, utanma, istə
Bacarmasam görəcəksən,
Bacarsam da başım üstə!"

Bəzən təbiiliyin və səmimiyyətin gücü o qədər qətiyyətli, inadlı olur ki, qarşı tərəf özündə məsuliyyət hissini qədərincə görməyəndə özünü qınamalı olur.

Bəlkə, başqa heç nə demədən bu gənc qızın - təzə gəlinin nazlana-nazlana dilinə gətirdiyi istəyinə, arzularına diqqət edək. Əslində qalsa, o, oxşanmaq, sevilmək, əzizlənmək arzusundadır. Nə öz qüruruna sığışdırıb bəyə yaxın gəlmir, nə də onu Avropa qızlarına xas olan xüsusiyyətlə qarşılamaq gücündə deyil. Buna onun gəldiyi ocağın adəti də yol verməz. Bəyin özü də əslində, bu hissləri keçirir. Ancaq o da dədə-baba kişilərin ənənəsinə uyğun olaraq dörd divar arasında olsa belə, xanımına ümumi ənənədən kənar yaxınlaşmaq, başqa sözlə, kişiliyə yüngüllük gətirə biləcək bir hərəkətə yol vermək istəmir. Məsələni isə daha da qəlizləşdirsə belə, yenə gəlin həll edir:

- "Çox qoçaqsan, deyirlər sən,
Sən - bir igid, mən ağlı kəm.
Bilirəm, boş söz deyirəm:
Mənə yüz daş-qaş alası...
Bircə ceyran istəyirəm,
Bir diri ceyran balası!"
Deyib zarafat etmişdi,
Təzə bəy susub getmişdi.

Gəlinin zarafatı bəyin qüruruna toxunmur. Amma hər halda o, sevgilisinin istəyi üçün atını, silahını da götürüb üz tutur meşələrə. Axı burada təbiətin də özündəngəlmə imkan mahiyyəti var. Bəlkə, həmin ərəfədə ceyranların balalamaq dövrü deyil? Təbii olaraq körpə bala ceyran tapılmaya da bilər. Ancaq bəyin heç nə deməməsi, susub getməsi, yenə də onun könül dünyasının saflığı ilə bağlıdır. Yəni *"əgər varsa, onu mütləq sənin üçün gətirəcəyəm"* - bəyin heç nə demədən getməsinin mahiyyəti budur. Əlbəttə, heç gəlinin bəlkə, ağlına da gəlmirdi ki, onun əri bir diri ceyran balasını gətirmək üçün çıxıb gedəcək. Bundan sonra özünün dili ilə necə bir iş açdığını təsəvvür edəndə vahimələnir. Lap əvvəlcə həyasından qızarır, peşman olur, amma nə olsun ki, *"bir diri ceyran balası"* arzusu dilə gəlmişdi:

O çıxan tək gəlin peşiman olmuşdu,
Qıpqırmızı, qızarmışdı həyəcandan.
"Doğrudan da ağılsızam, başım boşdur,
Arvadının dəliliyi kimə xoşdur?"
Ala gözləri dolmuşdu həyəcandan.

Hekayətdə tərəflərin bir-birinə münasibəti, keçirdikləri hisslər, həyəcanlar, narahatlıqlar çox aydın verilib. Xüsusilə, nazlanmağı ilə ərini dağa-daşa saldığına görə narahatlıq keçirən gəlinin həyəcanları nağılçılıqdan çıxaraq oxucunun, dinləyicinin özünə də sirayət edir. Maraqlıdır, görəsən, o bir diri ceyran balası tapılacaqmı? Tapılacaqsa, nə baş verəcək? Nə olacaq? Tapılmayacaqsa, təzə bəyin və gəlinin arasındakı münasibət necə görünəcək? Hansı *"rəng"*də olacaq?

İnsan həm də təbiətin övladıdır. Övlad anasından həmişə arxayındır. Anasının nəyə imkanı çatırsa, övladından əsirgəməz. Əslinə qalsa, övlad da

anasına inandığı üçün həmişə çox böyük səmimiyyətlə onun dünyasına sığınmağa can atır - qadın olsun, kişi olsun, az ömür yaşasın, ya çox ömür yaşasın - fərqi yoxdur, ruh, can son həddə çatanda anasını çağırır, anasını istəyir. Əzabların, ağrıların dözülməzlik anlarında yalnız ananın adı dilə gəlir. Məşhur filmdən maraqlı epizod da yada düşür: Gənc, kəşfiyyatçı qadının hamiləlikdən azad olması anında hansı dildə, hansı sözü deyəcəyi ciddi narahatlıq doğurur. Təbiidir ki, qadın hamiləlikdən azadolma anındakı əzabların qabağında bütün missiyaları unudur. Yalnız insani hisslər, köməyinə anasını çağırmaq hissi hakim kəsilir yaddaşına.

...Beləcə, təzə bəy güvəncinə doğru gedir. Anasına tərəf gedir – Qarayazı meşəsinə. Florasına, faunasına görə zəngin olan, nadir bitki və heyvanlar aləmilə məşhur olan Qarayazı meşəsinə. Qarayazı meşəsi onu boy qaytarmaz, - ümidindədir. Və heç çox da vaxt keçmir. Bəy axşamacan qayıdır:

Axşam üstü Qarayazı meşəsindən
Bəy tutub ceyran balası gətirmişdi.
Bu sevincdən, bu kübarlıq nəşəsindən
Yazıq gəlin huşunu tam itirmişdi...

Bəy ceyranı gətirib. Bir diri ceyran balasını görən gəlinin bəxtiyarlığını təsəvvür etmək o qədər də çətin deyil. Amma çətin olan başqa məsələdir. Doğrudanmı, bizim yazdığımız kimi, gəlin elə nazlanmasının, ərköyünlüyünün nəticəsi olaraq bir diri ceyran balası arzulamışdır. Hətta bu arzu düşünülməmiş olsa belə, bütün qeyd elədiyimiz səbəblərlə bahəm, başqa bir səbəb də var. O səbəb gəlinin düşüncəsinin alt qatındadır. Axı bir diri ceyran balası arzulamaq arzunu yerinə yetirməli olan üçün bir imtahandır. Və bu imtahan Azərbaycan mənəvi mühitində, Azərbaycan həyatında həmişə təbii hesab olunub və həmin ifadənin folklorlaşması, ağız ədəbiyyatına çevrilməsi də elə bu səbəblə bağlıdır. İmtahan, imtahan... Füzulişünas Sabir Əliyevin imtahan motivini yada salması Füzuli Leylisinə münasibətdən çox xalq arasında yaşayan bu hikmətin kökünü axtarmaqdır:

> "Belə düşünmək daha real olardı ki, mənəvi üsyanın iztirab mərhələsi ilə kifayətlənməklə Füzuli daha doğru hərəkət etmişdir, çünki elə "iztirab çəkən aşiq" "etiraz edən aşiq" deməkdir. Burada Leyli həm də fəhmin və elmin kütlük və nadanlıq üzərində təntənəsinə şərait yaradır. Bu mənada, Füzuli qərarı Azərbaycan folkloru ilə yaxından səslə-

> şir: xalq dastanındakı ağıllı gözəl ərə gedəcəyi oğlanı sorğu-suala tutub, bərkə-boşa salıb onun zehni və mənəvi keyfiyyətlərini imtahana çəkmirmi?"[1].

Burada Füzuli Leylisinə münasibət məsələsi bilavasitə yox, bilvasitə bizim fikrimizlə səsləşir. Amma əsas məqam ağıllı gözəlin ərə gedəcəyi (bizim hekayətdə artıq ərə getmiş olduğu) gənci sınaq mərhələsinə çəkməsidir. Şair isə bu mənzərənin gözəlliyini bir misranın içində dördcə sözün, kəlmənin gücünə elə yaradıb ki, o, lövhəni daha söz şəklində yox, elə təbii mənzərə şəklində görürük:

Bu həyətdə iki ceyran
Hər ikisi ala gözlü, pəricamal.
Millət baxır heyran-heyran,
Bu, nə ehtişam, bu nə hal?!

Təzə gəlinin bəxtiyarlığının həddi-hüdudu yoxdur. O, öz sevgilisindən dünyanın bütün daş-qaşlarından, varından-dövlətindən üstün olan bir hədiyyə alıb. Bu hədiyyənin *"bir diri ceyran balası"* şəkli var, forması var. Amma onun adı sevgidir, sevgiyə inamdır, sevgilisinə inamdır. Tərəflər arasında münasibətin elə sıx qovuşmasıdır ki, bu qovuşmanı gələcək zamanlar boyu heç kim və heç nə ayıra bilməz. Başqaları da onlara qibtə edər, onlar kimi doğma, yaxın, bir-birinə sevimli olmağa çalışar. Bədxahlar həsəd aparar.

Dünyanın yaranışından bəri ceyranın gözləri şairlər üçün tərənnüm obyekti olub. Aşiqin sevgilisi timsalında ceyranın gözləri ala kimi təqdim oluna bilər. Amma söhbət təbiətin övladı olan ceyrandan gedəndə onun gözləri qaradır:

Dünya yaranandan bəri
Ceyranın ala gözləri
Kimi heyran etmədi ki?!

İndi həqiqətən təzə bəyin həyətində, evində bir həyətdə iki ceyran – birinin gözü ala, birinin gözü qara. Və bu mənzərənin gözəlliyi ancaq iki aşiqin, iki sevgilinin, iki istəkli könülün bir-birini duyması ilə yarana bilər. Bu

---

[1] Sabir Əliyev. "Füzuli". Bakı, 1996, s.184.

mənzərənin müəllifi, ən böyük rəssamı sanki müəllifin özündən də qabaq sevgidir, məhəbbətdir.

İndi göydən üç almanın düşdüyü vaxt gəlib çatdı. Nağılçı da qayıdıb öz zamanına getdi. Yaddaş Sahibi də indi öz yaddaşı ilə savaş meydanındadır. Zamanın yığdığı tozu, torpağı, daşı, qayanı yaddaşın üzərindən dağıtmaqdadır. Başqa nələr olacaq, daha doğrusu, yaddaşın alt qatında daha nələr qalıb? Bu, sonranın işidir. Amma indi müəllifin özü görünür, sözü ilə görünür, *"Ziyarət"*inin hansı məqamındadır, neçənci dönəmindədir? Bəlkə, sonudur *"Ziyarət"*in? Bu məsələni müəllif özü bizdən əvvəl duymaqdadır.

"Ziyarət"im burda bitsə,
Sözüm burda sona yetsə
Oxuyana xoş olardı...
Amma nağıl bitmədi ki...
Dünyada qurd, çaqqal da var,
Onlar ölub itmədi ki...

Biz bu hekayəti nağıl adlandırmışdıq - şirin bir sevgi nağılı. Və müəllif özü də elə bu şirin sevgi əhvalatının nağıl motivini duyur. O, nağılın sonu gəlib çatsa da, nağılı yaradan aləmin qurtarmadığını, nağıl qəhrəmanlarının başına min cür fəlakət gətirəcək şər qüvvələrin də hələ ölüb-itmədiyini necə yaddan çıxara bilər?

Müəllifin bu hekayətin sonundakı fəlsəfi ümumiləşdirməsi də maraq doğurur. Xüsusilə, xoşbəxliyin anlardan keçən mahiyyəti:

Xoşbəxtliyin zirvəsi də,
Hər zirvə tək duman, çəndir,
Daş-qayadır, sürüşkəndir.
Ora qalxsan toxta bir az,
Orda heç kim uzun qalmaz.

Aforizm səviyyəsində olan bu misralar müəllifin dünyagörüşünün, həyata, cəmiyyətə baxışının təzahürüdür. Sanki bir parça təbiət təsvir olunur. Guya ki, bir dağ zirvəsinə çətinliklə də olsa, bir təbiətsevərin, bir səyyahın qalxmasından söhbət gedir. Amma söhbətin məğzi həyatdan, insan münasibətlərindən ibarətdir. Bəli, o xoşbəxtlik zirvəsinə qalxmaq sürüşkən qayala-

rın üstüylə zirvəyə qalxmaq kimidir. Yuxarılarda, əgər belə demək mümkünsə, Tanrıya yaxın olan yerlərdə də duman var, çən var. Və orda da çox qalmaq olmaz. Hər kəs bu barədə, gərək, özü düşünsün.

...Sevdaların ən gözəli, - demişdik. Nədir sevdaların ən gözəli? Xalq təfəkküründəngəlmə, xalq fəlsəfəsinin qənaəti, el hikmətinin cavabı budur - dəli sevda!

İgidliyin, ərliyin Koroğludangəlmə bir dəlilik anlamı var. O dəlilik ruhi xəstəlik, ağıl kəmliyi mahiyyəti daşımır. O dəliliyin nüvəsində bir mərdlik var, dönməzlik var. Dəli sevda da belədir. Məhəbbətin ölüncə varlığına inamdan yoğrulub dəli sevda. Dəli sevdalarda əhdinə, ilqarına əbədi bir sədaqət var.

H.İsaxanlının lirik-epik əsərlərində dəli sevdalara sonsuz ehtiram və sevgi var. Şair insan hisslərini, duyğularını tərənnüm edir. Nə qədər insan var, onun hissləri və duyğuları da olacaq. Heç bir texnologiya, heç bir qeyri-adi texniki zaman insanın hisslərini, duyğularını, sevgi aləmini onun dünyasından ala bilməz. Deməl, nə qədər insan var, dəli sevdalar da olacaq; sevdaların ən gözəli - dəli sevdalar!..

# Hamlet - olum-ölüm arasında

H.İsaxanlının *"Ziyarət"* poeması bir növ ənənəvi poemalardan fərqlənir. Xüsusilə, ona görə ki, əsərin hər bir parsası ayrılıqda lirik-emosional hisslərlə zəngin olan müstəqil şeirdir. Seçilən obyekt, subyektin ona münasibəti, bədii məntiq və xüsusilə, müəllifin həmin parçanı ümumiləşdirərək ona yekun vurması, yüksək sənətkarlıqla yerinə yetirilən bədii şərtlər - bütün bunlar fikrimizin həqiqət olduğunu göstərir. Və artıq bunu sübut edən ayrı -ayrı parçaları təhlilə çəkmiş, gözlərimizin qarşısında canlanan, bizə hədsiz, mənəvi zövq verən, yüksək estetik hisslər aşılayan parçaları oxumuşuq. Müəyyən mənada indi bütöv əsər haqqında daha dolğun fikir demək imkanımız var. Bu əsər ayrı-ayrı lövhələri, parçaları ilə bizdə müəyyən hisslər oyadır, qəlbimizi həyəcana gətirir, bəzən sevgi, onun romantik qanadları haqqında düşündürür, bəzən ziddiyyətlər arasında düşüncələrimizi sınağa çəkir, nəyin düz, nəyin qeyri-düz olduğu haqqında suallar qarşısında qoyur. Həyatın gəldi-gedərliyi haqqında düşündürür. Dünyanın əbədiliyini və bizim bu gəldi-gedərlik və əbədilik arasında yalnız seyrçi mövqe tutmamaq üçün həyat qarşısında, ömür qarşısında məsuliyyət hisslərimizi yada salır. Beləliklə, biz uzun bir dövrü, demək olar ki, bütöv bir əsri ruhi-mənəvi dünyamıza çəkir, onun bütün mənzərəsini görməklə bahəm, bu əsrə qədər zaman içərisində yaşamış olanların taleyi haqqında düşünməli oluruq. Bu, əslində, keçmiş haqqında düşünmək deyil, bu günün ziddiyyətlərini görmək üçün açardır, gələcəyin düzgün yolunu seçmək üçün imkandır. Elə ona görə də sözün həqiqi mənasında bütöv bir əsri böyük zaman və məkan içərisində göstərən *"Ziyarət"*i həm də həyatımızın romanı hesab edə bilərik. Yaddaş Sahibi isə yalnız bir adamın, bir nəslin təmsilçisi deyil, bütöv bir xalqın, etnosun dü-

şüncə sahibi olan, zamanı və tarixi birər-birər vərəqləməyə gücü çatan məhək daşı qədər saf və təmiz mənəviyyat sahibidir.

H.İsaxanlının *"Ziyarət"* poemasında müəllifin özünün maraqlı obrazlar silsiləsi var. Yaddaş Sahibinin gözü ilə baxıb gördüyü zamanın və siyasi dövrün fonunda qiymətləndirdiyi, həyatın axarında yerini gördüyü adamlardan biri də qəhrəman Qaçaq İsaxandır. Müəllif öz üslubuna uyğun olaraq Qaçaq İsaxanı çox qəribə bir təşbehlə yada salır - ***"evin divari uçanda".*** Demək, Qaçaq İsaxan tipli adamlar, əslində, cəmiyyətin mənəvi harmoniyasını qoruyan adamlardır. Belə adamların olmadığı mühitdə haqsızlıq baş alıb gedir, siyasilər xalqın başına olmazın oyunlar açırlar. Rejimlər yalnız gücə arxalanmaqla bütün qanunları ayaqlayır. Belə mühitdə qanun şah olmur, şah qanuna çevrilir. Rejimlər Qaçaq İsaxan kimilərini müqavimət hesab elədikləri üçün, qarşılarında maneə, sipər hesab elədikləri üçün onu aradan götürmək, divar olsa belə uçurmaq istəyirlər.

H.İsaxanlı 30-cu illərin mənəvi mühitini Qaçaq İsaxan obrazının vasitəsilə təqdim edir. Bu təqdimatdan göründüyü kimi, həmin mühit tor quranların, satqınlığın, yamanlığın mühitidir. Burada insanları azad yaşamağa qoymurlar. Halbuki bu, hər kəsin özünün haqqıdır - azad yaşamaq haqqı. Amma bəşərin, insanlığın, cəmiyyətin boynuna qoyulsa belə, bu günah rejimlərin, təkbəşər ideyalara xidmət edən siyasilərindir. İnsanın haqlarını qorumayan cəmiyyətdə bir qanunsuzluq digərini törədir. Müəllif həmin mənzərəni sanki təhkiyə ilə, ağır bir hekayət kimi və ən başlıcası, bədii notlar üzərində köklənsə də, bəşər tarixinin bir parçası kimi yada salır:

Tor quranlara bax, satqınlara bax,
Yamanlıq nə yaman uzağa getmiş...
Öz doğma evində azad yaşamaq,
Bu istək o qədər sadə deyilmiş -
Bəşər bu yolda çox xatalar etmiş,
Nə ayıb tanımış, nə bir ar etmiş...
Canında məhəbbət qanı da axmış,
Məsum canları da yandırıb yaxmış.

Günahsızların öldürülməsi, qəlbində yurduna, torpağına, Vətəninə, insanlara sevgi daşıyan, məğrurluq ruhu ilə yaşayan adamların öldürülməsi,köməksizlərin qətlə yetirilməsi, sürgünlərə göndərilməsi belə mühitdə adi

haldır. Ən azı ona görə ki, belə mühitdə insanın dəyəri yoxdur. İnsanın istək və arzularını rejimlər qəbul eləmir. Belə mühitdə xəyanət və xainlər, quldurluq və quldurlar hər yanı tutsa da, haqqı sevən, ədalətin keşiyində dayanan əyilməz adamlar da var. Onlar üçün yalnız iki yol var. Bunun biri ləyaqətli olumdur, başı uca yaşamaq olumudur. Bu, elə ömürdür ki, başqaları da ondan ibrət götürə bilir. Amma ikinci bir yol da var ki, bu da ölüm yoludur. Əqidəsinin, mənəvi ölçülərinin yolunda ölümdür.

H.İsaxanlının təqdimatından göründüyü kimi, onun hələ adını çəkmədiyi obrazın yaşadığı mühit yalnız bu iki yolu vəd edir. H.İsaxanlı üçüncü yolu qətiyyən təqdir eləmir. Və təqdir eləmədiyi üçün heç böyük təlaş, böyük təəssüflə yazdığı hekayətin içərisində də üçüncü yolu xatırlatmır. Bu başın əyildiyi, mənəviyyatın dağıldığı, şərəfsizlərin əlində alət edildiyi yoldur. Mən dəfələrlə adların insan taleyindəki rolu haqqında danışmışam: "Mənə elə gəlir ki, insanı öz adını təsdiq etməsi üçün bəzən bir ömür bəs eləmir. Amma yalnız bircə anda, ömrün bircə məqamında şərait yaranır ki, sən öz adını təsdiq etdiyini sübuta yetirəsən".

Və şübhəsiz, H.İsaxanlı da öz adının mənəvi tələbatı kimi, dünya ədəbiyyatının klassik obrazı olan Hamletin *"olum-ölüm"* dilemmasını yada salmalı idi. H.İsaxanlı siyasilərin bütün fəaliyyətini oyun kimi görür. Ancaq onların oyunu uşaq oyunlarından fərqli olaraq yarımçıq qalmır. Onun sonluğu var; faciələrlə, ölümlərlə, qanlarla bitən sonluğu:

Xainlə, quldurla dolsa da hər yan,
Yolundan dönərmi haqq sevən insan?!
Ya ölüm, ya olum! Nə çox, nə də az!
Oyunu ortada saxlamaq olmaz!

Bu, elə bir qəddar zamandır ki, hətta tək-tək, ayrılıqda Qaçaq İsaxanlar yox, bütün xalqlar onun qarşısında gücsüzdür, onun dəmir pəncəsi ayrı-ayrı xalqların tarixi ərazilərinin üstündə bütün qəddarlığı ilə bərqərar olur, onun dəmir caynaqlarının arasından qan süzülür. Və istər-istəməz, H.İsaxanlı xalqın çarəsizlik, əlacsızlıq girdabında çırpınmasını faciələrin tüğyan elədiyi anlarda bir ananın dilindən səslənən bayatı ilə yada salır:

Od soyuyub sönərmiş,
Sular buza dönərmiş;

Olduğu kimi qalmaq,
Demə böyük hünərmiş.

Əsərin bu parçasında hələ ki, ana görünmür. Amma onun səsi eşidilir, onun zamana nifrət, rejimlərə nifrət, xalqları didib-parçalamağa, ayaqlamağa, zəncirlərə, qandallara vurmağa cəhd göstərən fatehlərə nifrət. Dörd misranın bayatı ruhu, əslində, həm də mərdlərin, əyilməzlərin, xalq ruhunun daşıyıcıları olan hünərlilərin obrazını yaradır.

H.İsaxanlı əsərdə yeri gəldikcə həyat, cəmiyyət, insanlıq, əqidə, amal haqqında ümumiləşmiş, fəlsəfi düşüncələrini rübailər formasında da ifadə edir. Klassik forma və klassik ruh yeni məzmun kəsb edir. Güclü ironiya, zamana istehza əsərdə verilmiş rübaidə bütün çılpaqlığı ilə duyulur:

Doğru yolla getmək deyilsə asan,
Gərək sağa-sola sapmasın insan -
Əqidə nə bığdır, nə də ki, saqqal,
Hərdən uzadasan, hərdən qırxasan.

Bunlar, əlbəttə, çox sonralar olacaq. Elin bir igid oğlunun öldürülməsindən sonra sürgünlər başlayacaq, qəddarlıqlar baş alıb gedəcək, insanlıq arada itəcək, əqidə, amal mənəvi ölçülərdən uzaq olan dəyərsiz nəsnələr kimi heç yada da salınmayacaq. Bütöv bir nəsil uzaq ölümlər yolu keçəcək. O nəsildən əli qələm tutan, zəkası nur dolu bir alim - sənətkar doğulacaq, böyüyəcək. Və o, həyat və cəmiyyət haqqında, əqidə və amal haqqında özünün nəğmələrini oxuyacaq. Böyük Yaddaş Sahibi obrazı yaradacaq ki, o obrazın mənəviyyat sarayında lay divar kimi yer tutan bir kişi xarakteri görünəcək. Amma o zaman güllələrin od saça-saça sinələrə sancıldığı günlərdə yarasından qan daman bir igid ölümü ilə yaddaşlarda təzədən doğulacaq:

Güllələr işıq saçanda,
Yaralarından qan daman,
İsaxan adlı qəhrəman
Öz həyatından keçəndə
Namus, Vətən, el yolunda
Dünyadan vaxtsız köçəndə
Evin divarı uçanda.

Bu o zamandır ki, evin divarını siyasi zəlzələlər uçurub. İndi daha Qaçaq İsaxan yoxdur. Və ilk dəfə *"Ziyarət"*də Qaçaq İsaxanın adı burada çəkilir. Bəs kimdir Qaçaq İsaxan? Onun mərdliyini, qorxmazlığını kim indiki nəsillərə olduğu kimi çatdıra bilər və yenə müəllifin özü. İstər tarixi tədqiqatlarında, istərsə də yaratdığı bədii obrazlarında. Hər ikisi öyrənilməyə, əxz olunmağa, yadda saxlanılmağa müncərdir.

Yaddaş Sahibi yalnız özünün gördüyü, tanıdığı, bir sözlə həyata göz açdığı zamandan üzü bəri hadisələri yaddaşında çözələyir, onun mənəvi aləmində iz buraxmış hadisələr təzədən canlanır. İlk baxışdan oxucuya elə gələ bilər ki, onun keçmişə doğru, daha dərin qatlara doğru düşüncə hərəkəti məhduddur. Amma o, gözlənilmədən görmədiyi zamanı və tarixi yenidən canlandırmaq üçün özünün uşaq yaddaşında iz salmış özündən çox qabaqkı hadisələrə də müraciət edə bilir. Bu hadisələrdən yada düşən adamlardan bəlkə də, ən önəmlisi və dəyərlisi, həm də xalqımızın bütövlükdə tarixi üçün mühüm, mənəvi missiya daşımış Qaçaq İsaxan taleyi ilə bağlı hekayətdir.

Qaçaq İsaxan. Onun haqqında nə kimi bilgilər var? Birinci növbədə, müəllifin soyadında əbədiləşmiş, abidələşmiş ünvan yada düşür. Və H.İsaxanlının özünün qeyd etdiyi kimi, o, İsaxanın nəvəsidir. Yaxşı olar ki, müəllifin birinci şəxsin dili ilə danışan təhkiyəsini olduğu kimi xatırlayaq:

> "Uşaqlıqdan hər yerdə İsaxanla bağlı çox söhbətlərin şahidi olmuşam. Onu gözü ilə görən ağsaqqallar, ağbirçəklər, aşıqlar, hökumət adamları, ailə və nəsil, sadə insanlar, ermənilər, gürcülər və onu heç vaxt görməmiş adamlar içlərində bir İsaxan əfsanəsi yaşadır. Yeri düşən ilk anda bu barədə ehtirasla danışardılar".[1]

Demək, bu danışılanlar müəllifin heç vaxt görmədiyi babası haqqında onun düşüncəsində yetkin təsəvvür yaradır. Və sonralar xalq arasında *"Qaçaq İsaxan"* adı ilə tanınan və Azərbaycanın qaçaqçılıq tarixində mühüm rolu və xidmətləri olan haqsızlığa, işğalçılığa, antiinsani rejimlərə qarşı vuruşan, rejimlərdən əziyyət çəkən insanları müdafiə edən bir qəhrəmanın həyat yolunu öyrənməyə çalışır. Ardıcıl olaraq apardığı tədqiqatları ümumiləşdirir, müxtəlif mətbu orqanlarda nəşr etdirir (H.İsaxanlı. *"Qafqazda sovet*

---

[1] Zahid Ələmpaşalı. “Qaçaq İsaxan” dastanı. Xəzər Universitəsi Nəşriyyatı. 2009. səh. 13

*terroruna qarşı 1928-30-cu illər silahlı müqavimət hərəkatı haqqında*")[1]. Göründüyü kimi, bu, artıq onun babası haqqında xronika deyil, xalqın tarixi ilə bağlı azadlıq uğrunda mübarizə tarixinin tədqiqatıdır. İsaxan 20-30-cu illərdə sovetləşməyə qarşı mübarizənin mərkəzində olub. O qədər əhəmiyyətli dərəcədə güc sahibi olub ki, artıq dövlətin, yeni qurulmaqda olan rejimin güc qurumları onun aradan götürülməsi üçün xüsusi hazırlıqla tədbirlər planı hazırlayıb. Və təbii ki, bu tədbirlərdən biri baş tutub.

H.İsaxanlının özünün tədqiqatlarından Qaçaq İsaxanın həyatının son anları haqqında dəqiq və aydın təsəvvür yaradan parçanı oxucuların diqqətinə çatdırmamaq əslində, *"Ziyarət"* poemasının ən mühüm səhifələrindən birini yarımçıq öyrənmək demək olardı:

> "İsaxan Vorontsovkada işlərini tamamladıqdan sonra cəmi iki silahdaşı Alı Haqqalanlı və Sadıx Sadıxoğlu ilə bərabər Calaloğluna (indiki Stepanavan) yola düşdü. Calaloğlunda İsaxana qarşı böyük miqyasda milis və əsgərlərdən ibarət pusqu qurulmuşdu. İsaxanın yanına gedib-gələn və bu pusquda rəzil rol oynamış Daneliya soyadlı bir Tiflis sakininin dəfələrlə müxtəlif adamlara, o cümlədən İsaxanın ailəsinə söylədiyi (və digər şahidlərin də əsasən təsdiq etdiyi) əhvalat İsaxanın bizə məlum son saatlarını təsvir edir: Məni Calaloğlu mərkəzi milis şöbəsinə çağırıb dedilər ki, Moskvadan gəlmiş yüksək rütbəli bir məmur İsaxanın igidliyi, mərdliyi haqqında çox eşidib və onunla şəxsən tanış olmaq istəyir. Mən heç nədən şübhələnmədim və bu söhbəti İsaxana çatdırdım (özünü təmizə çıxararkən Daneliyanın səmimiliyi böyük şübhə doğurur - H.İ.) Təyin olunan vaxt Moskvadan gələn adam, iki vəzifəli milis işçisi və mən kabinetdə İsaxanı gözləyirdik. Artıq mən bilirdim ki, İsaxana tələ qurulub, onu tutub güllələmək istəyirlər. Calaloğlu milis işçiləri və əsgərlərlə dolmuşdu, milis şöbəsinin ətrafında və içində silahlı adamlar pusquda dayanmışdılar. Lakin mən heç nə edə bilməzdim, ürəyimdə deyirdim ki, bir iş çıxsa və İsaxan bura gəlməsəydi nə yaxşı olardı. Ancaq o, həm verdiyi sözə möhkəm, həm də sözə tez inanan idi. Ayaq səsləşi eşidildi və İsaxan daxil oldu. O, cavan olsa da, dünyagörüşlü adam idi və arxasınca qapılar bağlandıqca, şübhəsiz ki, məsələni başa düşmüşdü və geriyə yol yox idi. Çox

[1] Qafqazda Sovet totalitarizmi (20-30-cu illər): Elmi konfrans. Bakı, 6-7 noyabr, 1998-ci il. Xəzər Universitəsi nəşriyyatı, 1998. səh.55-58; "Mərkəzi Zaqafqaziyanın sovetləşmə və kollektivləşdirilməsi dövrünün ictimai-siyasi mənzərəsi və İsaxan üsyanı" Azərbaycanda ictimai-siyasi fikir XX əsr konfransın əsərləri, Bakı, 12 may, 1996. Xəzər Universitəsi nəşriyyatı, 1996. səh.1-16

qətiyyətli görünürdü, gülümsədi və "hə, sən burdasanmı, çox yaxşı oldu" deyib yarıistehza ilə və yarısevinmiş kimi mənə baxdı (zəhmli adamdı, amma həmişə xəfifcə gülümsəyərdi). İsaxana oturmaq təklif etdilər, o sağ ayağını sol ayağının üstə aşıraraq və kəmərdən asılmış mauzerini dizinin üstünə tərəf sürüşdürərək oturdu. Moskvadan gələn adam İsaxana müraciət etdi: "Sənin igidliyin haqqında çox eşitmişəm, biz sənə Ermənistanda yaxşı vəzifə təklif etmək istəyirik, sən öz silahını təhvil ver, sənə yenisini təqdim edəcəyik". İsaxan yenə gülümsədi və "Nə olar, qoy olsun, mauzerimi asdığım kəməri də verərdim, amma kəmər mənə yadigardır, onu götürəcəm", - deyə sakitcə kəməri açmağa başladı. Məncə heç kim deyilən sözlərə dərindən fikir vermirdi, İsaxanın aldandığını güman edərək sevincək bir-birinin üzünə baxıb rahat nəfəs aldılar. İsaxan kəməri açıb birdən mauzeri əlinə aldı: "alın, köpək uşağı" - deyə gözümüzü qırpmağa macal tapmamış üç atəş açdı. İki milis rəisi yerindəcə öldü, Moskvadan gələn adam (bilmirəm o, doğrudanmı Moskvadan gəlmişdi, amma rus idi) ağır yaralandı və bir neçə saatdan sonra o da öldü. Can şirindir, mən qorxumdan stolun altına girdim. İsaxan məni dartıb çıxartdı, mən yalvardım ki, "məni balalarının başına çevir, bilməmişəm". O, acı-acı gülümsədi: "Qorxma, səni öldürməyəcəm, səni ölümdən yadigar saxlayacam", - dedi. "Yadındamı, demişdin ki, İsaxan, sənə xain çıxsam, Allah iki qolumu qurutsun" deyib qollarıma güllələr çaxdı. Görürsünüz ki, o zamandan qollarım yoxdur. Sonra özünü pəncərəyə vurdu, şüşə parçalanıb dağıldı. O, bir an dönüb mənə baxdı, gözünü altı çapılmışdı, əli ilə axan qanı silib bayıra atıldı. Sonrasından xəbərim yoxdur, deyirlər ki, onu vurdular".

“Mən İsaxanın nəvəsiyəm. Uşaqlıqdan hər yerdə İsaxanla bağlı çox söhbətlərin şahidi olmuşam. Onu gözü ilə görən ağsaqqallar, ağbirçəklər, aşıqlar, hökumət adamları, ailə və nəsil, sadə insanlar, ermənilər, gürcülər və onu heç vaxt görməmiş insanlar içərisində bir İsaxan əfsanəsi yaşadır, yeri düşən ilk anda bu barədə ehtirasla danışardılar".[1]

Qaçaq İsaxan dastanlaşan obrazdır. Müəllifin yazdığına görə, XX əsrin ortalarından sonra o, belə bir dastanı Aşıq Alxanın dilindən eşidib. Aşıq Alxanı da el arasında Qaçaq İsaxanın aşığı kimi tanıyıblar. Göründüyü kimi, Qaçaq İsaxan obrazında dastanlaşma motivindən başqa, mənəvi hazırlıq dövrü də olub. Koroğlunun özünün aşıqlığından başqa, Koroğluluqda bir Aşıq Cünunluq yeri də var. Hər halda ola bilsin ki, Aşıq Alxanın yaratdığı

[1] Zahid Əlәmpaşalı. “Qaçaq İsaxan” dastanı. Xəzər Universitəsi Nəşriyyatı. 2009. səh. 13

dastanını yaddaşlarda nə vaxtsa bərpa eləmək mümkün olsun. Amma Zahid Ələmpaşalı sazdangəlmə bir şair Qaçaq İsaxan dastanını yaradıb. Z.Ələmpaşalının yaratdığı *"Qaçaq İsaxan dastanı"*nı nə qədər dastançılıq ənənələrinə uyğun yaradılsa da, zənnimcə, o, təkcə şifahi ədəbiyyat nümunəsi deyil, həm də tarixi hadisələri olduğu kimi öz nüvəsində saxlayan və gələcəyə ötürən yaddaş kitabıdır. Və əslində, elə H.İsaxanlı da *"Qaçaq İsaxan dastanı"*nın Ön sözündə təkcə Qaçaq İsaxanın dastanlaşmasından yox, həm də tarixin dastanlaşmasından danışır. Z.Ələmpaşalının *"Qaçaq İsaxan dastanı"* iki il əvvəl nəşr edilib. Elə H.İsaxanlının *"Ziyarət"* poemasının nəşr edildiyi dövrdə (2009).

İndi yenidən qayıdaq "Evin divarı uçanda" baş verən hadisələrin mərkəzinə. Hamı sarsılıb, qəm içindədir, tayfanın başçısı İsaxan yoxdur, rejimin cəlladları meydan sulayır, igidlər pərən-pərən düşüb. Çoxu qardaş Türkiyəyə pənah aparıb. Ev-eşik yiyəsiz, əlsiz-ayaqsızlar köməksizdir. Və yenə Qaçaq İsaxan ruhunu özünə çəkmiş olan, onun yaratdığı mühitin keşikçisi olan kimsə meydana çıxmalıdır.

Bu, nənədir. O nənə ki, Qaçaq İsaxan sevgisi ilə əyilməzlik, qorxmazlıq yolu keçib. Həyatın sınaqlarından çıxıb.

Hamı sarsılmış, qəm etmiş -
Böyüklüyü nənəm etmiş.
Başsız, yurdsuz qalanları
Yığıb başına cəm etmiş...

Tarixən elə qadınlar olub ki, onlar zamanın ən sərt küləklərinə qarşı sinələrini gərib, ətrafında olanların inamını qoruya biliblər. Təsadüfi deyil ki, tarixin ən sərt dönəmlərində qadın liderlər cəmiyyəti xaosdan, xaosun gətirdiyi fəlakətlərdən qorumaqda daha çevik, ağıl və düşüncə sahibləri olduqlarını göstəriblər. İndi nəslin yeganə ümidi sanki Qaçaq İsaxanın ruhunu daşıyan, onun güc, cəsarət, inam kimi keyfiyyətlərini özündə cəmləşdirən ana obrazını Yaddaş Sahibi təsadüfi xatırlamır. Əsərdə Nənə kimi qeyd olunan şəxsiyyət, sözün həqiqi mənasında başsız və yurdsuz qalanların hamısına böyüklük etmək gücündədir. O, nəsli gözləyən gələcək ağır günləri artıq təsəvvür edə bilir. Baxmayaraq ki, onun da bir insan kimi qəlbindən qara qanlar axır. Onun ana qəlbi başsız qalan körpələrin harayı qarşısında parçalanır. O, qəm-qüssə içindədir. Sanki onun özü də ümidini itirməkdədir:

"Əğyar bizdən nə istəyir?
Od ələyir, "qan-qan" deyir...
İnsan olan
can almaqdan nə qazandı?"
Öz-özünə xəyal etdi,
Yozub, düzüb fikrə getdi.
Allahına xitab etdi:
"Bu qan-qada
doğrudanmı sən yazandı?"

Xalqın yaşadığı ağır tale, güclü etnosun müqavimətini qırmaq üçün göstərilən təzyiqlər, ümumiyyətlə tarixi bir mərhələnin insan əleyhinə yönəlmiş yırtıcı təbiəti bu misralarda həmin mənzərəni olduğu kimi göstərə bilir. Rejimlərin qarşısında gücsüz olan ana düşmənin nə istədiyini sanki bilmir. Əlbəttə, o, həm də bilir ki, düşmən ağlın və gücün birliyi, vəhdəti olan şəxsiyyət etibarilə insanların ümidi olan qüdrətli adamları aradan götürməlidir. Amma bu cinayətlər siyasi rejimləri təmsil edən adamlara başucalığı gətirmir. Zaman keçəcək, onların cinayətlərinin üstü açılacaq. Və bunun özü də bəşər üçün, insanlıq üçün bir dərs və ibrət kitabı olacaq. Bir daha təkrar eləməyə dəyər ki, hələ tayfaya başçılıq etməkdə olan ana özünün müdrik düşüncəsilə təbiətən yırtıcı olan adamların xislətinə təsir göstərə bilmir. Onların qan-qan deyən, yırtıcı xislətləri hələ nə qədər canlar alsa da, ləyaqətli adamları gedər-gəlməzə göndərsələr də, lənətdən başqa heç nə qazana bilməyəcəklər. Bütün bunları artıq böyüklük etməkdə olan ana düşünür. Onun qəlbi parçalanıb, onun ürəyindən qara qanlar axır. Amma bu parçalanmalar, onun qəlbindən şoralanan qanlar onu öldürmək gücündə deyil. Çünki onun elə bir missiyası var ki, bu missiya onu qoruyub saxlayır. Ana yaxşı bilir ki, əgər bu yaralardan o, ruhdan düşsə, inamından olsa, düşüncədən qalsa, yazıqlaşsa, yesirləşsə, onun ətrafına cəm elədiyi tayfanın hamısı bütövlükdə məhvə məhkum olacaq. Tayfa cəm olmağın, özü olaraq yaşamağın, güc mənbəyi kimi yalnız bu ananı görür. Ana isə əlbəttə ki, sanki Tanrısına da asi olmaq dərəcəsinə qalxır. Amma elə o mərtəbədəcə asi olmur. Yenə də haqqa inama tapınır. Suallı nəzərlərilə bu qan-qada *"Doğrudanmı, sən yazandı?"* desə də, Tanrının bu haqsızlıqlarda əli olmadığına inanır. Həmin ritorik sualın özü, cavab tələb eləməyən sualın özü, əslində, Tanrını ittiham

deyil, rejimləri və onu təmsil edənləri ittihamdır.

H.İsaxanlı ən epik nəsr dililə danışdığı hekayətin çıxılmaz məqamında dərdlərin sel kimi gözünün önündə təlatümə gəldiyi məqamlarda sanki təzədən şairliyinə qayıdır. Onun poetik ruhu dilə gəlir. Bu haqsızlıqların, fəlakətlərin, dərdlərin, ağrıların, acıların mənəvi köklərini axtarır. Tapdı-tapmadı, bunun məsələyə dəxli yoxdur, amma o, bu düşüncələrini beləcə ümumiləşdirir:

Buludlar tökülən qaş-qabağımdır,
Dumanlar dağlara çökən ahımdır.
Sevincsiz, ümidsiz yol üstündəyəm,
Möhnət düşərgəmdir, qəm sabahımdır.

Buradakı bayatı ruhunu, xalq təbiətindəngəlmə hissləri və həyəcanları duymaqdan başqa həmin anda obrazın yaşadığı hissləri biz də yaşayırıq. Buludlar sıxlaşanda, günəşin qabağını kəsəndə hava qaralar, dumanlar dağların üstünə çökür. Şair buna təbiətin qaş-qabağını tökməsi kimi, dərd içində olanın ahlarının dağların başına çökən duman olduğunu göstərməklə, təbiət və insan bənzətməsi yaratmışdır. Sanki təbiət bir anaya kömək etmək iqtidarında olmadığı üçün, yol göstərə bilmədiyi üçün qaş-qabağını töküb və elə bu qaş-qabağın, bu çarəsizlikdən qaralmanın nəticəsi olaraq bir ananın dərdinə şərik olduğu üçün təbiət də ah çəkmədədir və onun ahları dağların başını örtəcək qədər, dumanlar qədər sıxdır. Sanki ananın özünü görürük. Onun bütün sevincləri, ümidləri artıq keçmişdə qalıb. O, elə bir yola çıxıb ki, o yolun sabahı da çox qəmli görünür. Səfərə çıxanın ən böyük güc mənbəyi onun ümididir. Səfərdən, bu səfərin nəticəsindən alacağı maddi və mənəvi bəhrənin özü də səfərə çıxanın ilkin sevinc mənbəyidir. Amma indi bütün bunların heç birisi yoxdur. Çünki bütün maddi imkanlardan, qoçaqlıq, igidlik rəmzi olan böyüklərdən məhrum edilmiş bir nəsil öz yerindən-yurdundan qoparılıb sabahı qaranlıq olan bir aləmə göndərilib. Yüz minlərlə insanın sürgün edildiyi, sındırılmaq üçün, mənən öldürülmək üçün, gücdən salmaq üçün elindən, obasından, Vətənindən qoparılır:

Dünyanın doldurub min fitnə-fəsad,
Ya Rəbb, bu işlərə sən özün əl qat.
Bəşəri bədəndən, nəfsdən deyil,
Ruhdan, məhəbbətdən yoğurub yarat!

Bu dördlüklərdə biz nə qədər müəllifin özünü görsək də, eyni zamanda, yenə ananı təsəvvür edirik. Artıq ana yaxşı başa düşür ki, hələlikdə tarixin çərxini döndərmək mümkün deyil. Siyasət dəyirmanı onların əleyhinə işləyir. Qeyd etdiyimiz kimi güclü etnosun mənəvi müqavimətini özünün dəyirman daşının altında dən kimi üyüdür. Bu, elə bir quruluşdur, elə bir siyasi rejimdir ki, onun təbiətinə insanlıq yaddır. Və təbii ki, böyük ananın dilindən fitnə-fəsad yuvası olan dünyaya etiraz sədaları sətirlərin arasından bütün harayı ilə eşidilir. Böyük ana bu haqsızlıqlarla barışmır. Tanrıya xitab edərək: *"Yalnız sənin qüdrətinlə ədalət, nizam bərpa ola bilər, sən özün bu işlərə qarış"* - deyə yalvarışlarını əsirgəmir. Və elə buradaca müəllifin insan və cəmiyyət haqqındakı fəlsəfi ümumiləşdirməsini mütləq təzədən diqqətə çatdırmağın yeridir: *"Bəşəri bədəndən, nəfisdən deyil, Ruhdan, məhəbbətdən yoğurub, yarat!"* İnsan övladı nə qədər ki, öz bədənində, düşüncəsində nəfs, yəni dünya tamahı yaşadır, demək, insanlıq aləmindən cinayətlər də heç vaxt qurtarmayacaq. Amma insanın nəsibi, insanın bütün varlığı ruhdan və məhəbbətdən yaransa, onda insan özünü dərk edə biləcək, onda bütün şərlərdən, yalanlardan, bədxahlıqlardan, bir sözlə, qaralardan silkinib çıxacaq.

Göründüyü kimi, bu düşüncələrin mahiyyəti yalnız bir zamanla bağlı deyil. Elə bütün zamanlarda öz əhəmiyyətini qoruyub saxlayacaq düşüncələrdir. Nə qədər ki, insan haqsızlıqla qarşılaşacaq, nə qədər ki insan şərin dəmir dabanları altında əziləcək, o zaman şairin bu müdrik düşüncələri yenə yada düşəcək. Sözlər başqa-başqa olsa da, mahiyyət yenə olduğu kimi qalacaq. Böyük Ana - Nənə artıq zamanın gedişatını yaxşı bilir. Bu xəmirin hələ çox su aparacağını da anlayır. O, bütün varlığı ilə, ağlı, idrakı ilə, iradəsi, mərdliyi ilə, ən böyük missiyasının keşiyindədir. Onun bircə işi var - ümid şamını sönməyə qoymamalı:

Sönməyə qoymadı ümid şamını,
Qanadı altına aldı hamını.
Uşağa, böyüyə unutdurmadı
Çörək qoxusunu, xörək tamını.

Həyat təcrübəsinə güvənərək olanın-olmazın arasından qənaət qazancı ilə uşağı, böyüyü acından ölməyə qoymamaq, hamıya ümid və inam bəxş edən qanadlarını nəslin üstünə gərmək. İnsanın böyüklüyünü görmək üçün,

onun hansı gücdə olduğunu, nəyin sayəsində nəsli qoruya bildiyini çatdırmaq üçün bundan artıq heç nə yazmaq lazım deyil. Böyük Ana çörək qoxusunun, xörək tamının nə demək olduğunu yaxşı bilir. İnamı qorumağın bir yolu da elə çörək qoxusundan, xörək tamından keçir.

Böyük bir nəsil düz iki il Qazaxıstan, Qırğızıstan çöllərində təbiətə və rejimlərə qarşı müqavimət göstərdi. Sərtliklərə, qəddarlıqlara davam gətirdi. Müəllif bir neçə misranın içərisində bu iki illik sürgün həyatını da çox yığcam şəkildə ümumiləşdirə bilib:

Böyük nəsil, düz iki il
Sünrgünlərdə gün keçirdi.
Söylədiyim qəmli dastan,
Qazaxıstan, Qırğızıstan
Çöllərində davam etdi,
Hər an ölüm-itim idi.
Gedəndə də, gələndə də.
Dörd tərəfi yetim idi...

Səfərin başlanğıcında da, sonluğunda da, müəllifin dililə desək, gedəndə də, gələndə də dörd tərəfi yetim olan Böyük Ananın daxili-mənəvi mühitini sanki yüz əlli il bundan əvvəl Belinski insan qəlbinin dərdlərə, ağrılara qarşı dözümünü tərənnüm edərkən hisslərinin, həyəcanlarının sözlə ifadəsini belə göstərib: "Nə qədər güclü, qüdrətli bir insan təbiəti! Onun ehtirası odlu bir dalğadır, onun dərdi ağır və çətindir: bu qorxu bilməyən elə qızğın bir kədərdir ki, öz təsəllisini qan və ölüm saçan bir hünərdə axtarır!". Dahi söz ustadı əsərin qəhrəmanının sözlərindəki, dilindəki şeiriyyətin də mahiyyətinə varır. Və onun

> "sözlərində nə qədər şeiriyyət var, bunlarda necə dərin bir ələm duyulur - bu, güclü qəlbi parçalayan, lakin öldürə bilməyən bir qəmdir, bu, bizim milli poeziyamızın əsas elementini, ürək çırpıntısını, başlıca motivini təşkil edən bir qəmdir!"[1]

- deyir. Yaddaş sahibinin ruhunu, Böyük Ananın mənəvi aləmini göstərmək üçün çox istəyərdim ki, elə bu sözləri dilimə gətirim, bu ifadələri işlədim. Ancaq Belinskinin bu pafosundan və emosiyasından üstün ola bilməyəcəkdi. Mən həmin dahiyanə təsvirdə, dərin, poetik anlamda Böyük

---

[1] V.Q.Belinski."Rus ədəbiyyatı klassikləri haqqında. Bakı, 1954, s.228.

Ananın ruhunu, qəlbini gördüm. Ona görə də ustadın qəlbi həyəcanlandıran, insanı duyğulandıran sözləri ilə fikrimi tamamladım.

*"Evin divarı uçanda"* nələr baş verir? Bu, insanın olum və ölüm arasındakı çırpıntılarıdır, yaşantılarıdır.

Hamletin *"olum"* və *"ölüm"* arasındakı həyəcanlarıdır.

# Vətən nədi, qoy desin

Vətəndən qürbətə gedişi üzü qürbətə doğru, naməlum bir məchulluğa doğru gedən karvanın apardığı həsrət yükünü kifayət qədər aydınlatmağa çalışmışdım. Evin bir divarı uçub, qalan divarlar da özülündən silkələnib. Karvan da yola cəm olub. Qürbət var, qərib var...

...Yaddaşımda oyanan və hələ çox da məndən uzaqlaşmayan beş-on il bundan əvvəlin bir təəssüratını buradaca xatırlatmaya bilmirəm:

> "Ailə içində, qardaşlar arasında çoxlu mübahisələrimiz olub. Bir dəfə də mübahisə "qərib" və "qürbət" sözlərinin üzərində dirəndi. Hər kəs qəribi və qürbəti bir cür mənalandırırdı. Mənim fikrim beləydi: Qərib vətənindən qopmuş şəxs, qürbət onun bəxtinə yazılmış məkandır". Ədəbiyyatda bu sözlər çox qarışdırılıb. Qurbət adının şəxsə verilməsi, "qərib ellər", "qərib yerlər" ifadələri, dastanlarda, bayatılarda, folklorda çox işlənib. Bunu da misal gətirib mənim fikrimi dağıtmaq istəyənlər də var idi. Bizim belə mübahisələrimizin atamız da şahidi olurdu. Televiziyadan Avdı Qoşqar da gəlmişdi. Bəlkə də, peşəsindən irəli gəldiyi üçün o, üzünü ömrünün 77-ci pilləsinə çatmış atama tutdu. - Zal əmi, sən nə deyirsən bu mübahisəyə? Elə bil ki, sözlər kişinin sinəsinin altında növbə gözləyirmiş:
>
> Qürbətdi ötən sizdən,
> Qəribdi bitən sizdən.
> Vətən nədi? - qoy desin,
> Soruşun vətənsizdən.
>
> Atamın kim olduğunu, onun hansı ruhun silkələməsi ilə danışdığını bildiyimdən tam qətiyyətlə deyirəm ki, bu misralar həmin anlarda

yaranmışdı. Həmin anların, həmin ovqatın həmin anlarda yaşadığı ağrıların sözə çevrilişi idi.

Daha heç kimin deməyə sözü qalmamışdı".

...Bəli, Vətən nədi, qoy desin, Soruşun vətənsizdən. Soruşun bütöv bir nəsli qanadlarının altına yığıb Orta Asiya səhralarını dolaşan, səhra küləklərinin göylərə sovurduğu qumların ölüm püskürən vahiməsindən keçən bir anadan. Vətənsizliyin, yurdsuzluğun qənimə dönüb, əcələ dönüb onun başının üstündə qılınc oynatdığı anlarda qəlbindən hansı duyğular keçib? Həmin anlarda Vətən nə demək olub onun üçün? Elə bilirəm ki, Vətənin nə demək olduğunu, ən düzgün cavabı elə vətənsiz verə bilər. Vətənindən, yurdundan əli üzülmüş Vətənin nə demək olduğunu daha yaxşı bilər.

Dostum Qərib Aşkari tələbəlik illərində Şəhriyarın *"Heydərbabaya salam"* əsərinə cavab yazmışdı. Bir gənc tələbənin, heç o tayı görməmiş, amma atasının, anasının vətənsizlik həsrətindən necə qovrulduğunu görə-görə böyümüş bir gənc adında daşıdığı qəriblik mahiyyətini o vaxt elə beləcə də ifadə eləmişdi: *"Bilməz idim Vətən nədi, el nədi? Vətən dərdi ürəyimi göynədi..."*

Hələ H.İsaxanlının bir ananın qəlbində daşıyıb gətirdiyi Vətən haraylarını təəssüratımın mərkəzinə çəkə bilməmişəm. Amma əsərin həsrətdən keçən, həsrəti öz içində qovuran misralarını oxuyan kimi yaddaşımda bu duyğular göyərdi.

H.İsaxanlının *"Ziyarət"* poeması öz qaynağını demək olar ki, şifahi düşüncədən götürüb, folklordan qidalanıb. Bu əsərin şirəsi, mayası xalq təfəkkürüdür. Və elə ona görə də H.İsaxanlı tez-tez bayatılara üz tutur. Həsrəti, dərdi, kədəri, vətənsizlik haraylarını bayatıların dili ilə çatdırmağa çalışır:

Dərd yaman seçdi məni,
Tapdayıb keçdi məni.
Təzə baş qaldırmışdım,
Doğrayıb biçdi məni.

İlk baxışdan bu bayatını hər bir dərdli dilindən car edə bilərdi. Bayatı şəxsin və zamanın qarşılaşması anında, zamanın ədalətsizliyi, şəxsin varlığını, mənəvi aləmini dəmir dabanları altında əzəndə onun sinəsini caynaqları ilə didib dağıdanda yaranır. Və əsərin özünə qayıdanda şairin çox böyük tə-

biilik və doğmalıqla yaratdığı Ana obrazının mənəvi simasını onun varlığında, ruhunda tüğyan edən dərdlərin miqyasını, başqa sözlə, sərhədsizliyini görürük. Başqa cür yurdundan, Vətənindən qoparılmış bir ananın bundan qeyri nə deyə biləcəyini təsəvvür etmək olar?

Dəryadayam, gəmim yox,
Çöllərdəyəm, zəmim yox.
Qəmdən zəngin olmuşam -
Kəsirim yox, kəmim yox.

Və zənnimcə, bu, Vətən ağrısı ilə ömürü başa vurmuş insanların qürbət ellərdə qəriblərin sinəsinin altında yara bağlamış Vətən həsrəti başqa nə cür dilə gətirilə bilərdi? H.İsaxanlının bayatı yaradıcılığı elə bilirəm ki, *"Ziyarət"* poemasında zirvəsinə çatıb. Və nə vaxt *"Ziyarət"* poemasının motivlərinə qayıdacaq, o zaman yeni bayatıları da yaranacaq. Başqa ovqatda inanmıram ki, *"Ziyarət"* poemasındakı bayatı ruhu bu dərəcədə öz səmimiyyətini qoruyub saxlaya bilsin.

* * *

Ruh etibarilə *"Ziyarət"* poemasının ən kövrək, ən duyğulu səhifələrini çevirirəm. İnanıram ki, Vətən həsrətilə yoğrulmuş, Vətəndən uzaqdakı dərdlərin, ağrıların sözə çevrilməsi anlarında müəllif də ən kövrək anlarını yaşayıb. Söhbət onda deyil ki, bu anlar hansı poetik səviyyədə qələmə alınıb. Ancaq onun kövrək bir aləmdən qopub gəldiyinə, o anların vətənsizlik ağrılarının təzədən yaşantılarını *"Ziyarət"* poemasının *"Yol uzundu"* kiçicik parçasında qələmə alarkən H.İsaxanlı bəlkə hələ anadan doğulmadığı, bir qərinə əvvələ qədər hiss, duyğu məsafəsi keçib. Nənəsinin nağıllarından təsirlənərək yaddaşa yığdığı hadisələri bütöv bir mərhələnin, bir neçə kəlmənin içərisində yaddaş koduna çevirərək, onun özünə əmanətlənməsinə qədərki zamanı öz varlığında dərk eləməsəydi, qavramasaydı, bu qədər kövrək notlarla vətənsizlik ağrılarını da yaza bilməzdi.

Yol uzundu. İlk baxışdan bu iki sözün içərisində cəmlənmiş mahiyyəti elə ağrısız da təsəvvür etmək olar. Bir qonaq getdiyin ölkəyəcən yol uzundu, doğulduğun torpağa, kəndə, elata, bir toya, şənliyə, lap elə bir doğmanın kədərinə şərik olmağa gedirsənsə, müəyyən vaxt və məsafə baxımından yol uzundu. Sən bir ömür yaşamalısan. Dünyaya gəlişindən gedişinəcən yaşaya-

cağın ömrün yolu uzundu. Bir sözlə, olumun və ölümün arasında zaman var, məsafə var. Amma əsərdən müvafiq parçanı oxuyan kimi bu iki kəlmənin içərisində - ***"yol uzundu"*** sözlərinin arasında nə qədər ağrı, nə qədər həsrət, nə qədər hicran, vətənsizlik dərdi deyilən bir ağırlığın olduğunu təsəvvür etmək o qədər də çətin olmur.

Tiranların ölümü labüddür. Tiranlar ölən kimi onların yaratdığı rejimin - o rejimin ki, onun hər vintindən, rıçağından qan süzülür - sonu çatır. Tarixin tərsinə çevrilmiş çərxi yenidən yerin günəş ətrafında fırlanma istiqamətinə dönür. Rejimlərin, onları təmsil edən tiranların qəddarlığı onunla ölçülür ki, sanki onların zamanında saatın əqrəbləri tərsinə fırlanır. Beləcə, tarix susa-susa təfkirinin ömrünü başa çatdırır. Cəzalanmalı olanlar haqlı cəza qarşısında qalırlar. Və beləcə, bir gün xeyir bir xəbər gəlir. İndi də Şərin hüznüdür, iblisin qılıncı korşalıb. Uzaq Orta Asiya çöllərində rejimin təmsilçisi olan komendant - komissar adamları başına yığıb tikanlı məftillərlə hasarlanmış düşərgənin ömrünün qurtardığını elan edir. *"QUL-aq arxipelaqı"* (A.Soljenitsin) çiçəklənmə dövrünü bitirir, yeni zaman başlanır. Nağıl dili yüyrək olar, H.İsaxanlının dərd-ağrı motivləri ilə qələmə alınmış bir xalq taleyini, bir etnosun iradəsinin, inamının qırılmasına, sındırılmasına yönəlik olan cinayətin etirafı:

Xeyir xəbər gəldi bir gün,
Oxudular, bu fərmanı:
Azadsınız, bitdi sürgün!
Xalq susmuşdu biixtiyar,
Danışırdı tək komissar:

Lap elə komissarın dediyi kimi, onun işlətdiyi terminlərlə, başqa sözlə, nənənin nəvəyə yaddaş kodu kimi ötürdüyü şifrələrlə danışan müəllif həmin mənzərəni gözlərimizin qabağında canlandırır. Sürgün bitib, indi hamıya azadlıq fərmanı verilib, indi komissarın özü də çox mülayim görünür:

"İstəsəniz burda qalın,
Buralar da müsəlmandı.
Uşaq xırda, ayaq yalın,
Yol uzundur, ölərsiniz...
Borcumuzdur təklif etmək,

Siz özünüz bilərsiniz -
Burda qalmaq, yoxsa getmək?"

Guya ki, müsəlman olmaq, müsəlmanın özünün müsəlmanlar arasında olması... bütün bunlar haqsız, ədalətsizcəsinə, qəddarlıqla yüz minlərlə insana qarşı soyqırımı siyasəti kimi həyata keçirilən sürgün siyasəti səhv imiş. Ona görə də komissar - buralar da müsəlmandır, - deyir. Müəllif də komissarın sözünə izah verir: *"Müsəlmandı - müsəlmançılıqdı, müsəlmanlar yaşayan yerdi"*. Nənə komissarın dilindən işlədilmiş *"buralar da müsəlmandı"* sözlərini yaddaşında necə qoruyub? Bəlkə də, qəddar tarixi gələcək nəsillərin yaddaşına ötürmək üçün həyat uğrunda mübarizə instinkti orada işə düşüb. Və həmin sözlər yaddaşa yazılıb və bir gün əli qələm tutan nəvəyə çatdırılıb. Rejimləri təmsil edənlər bacarsaydılar bütün dünyadakı qələmləri yığıb ən dəhşətli vulkan odunda yandırardılar. Axı onlar çox gözəl bilir ki, qələm onların qəddarlığını, cinayətlərini bağışlamayacaq. İndi sanki dünənki qəddarlığı ilə yox, bu günün gətirdiyi havanın təsiri altında yumşaq danışan komissar adamlara yol göstərir. *"Azadsınız, qapılar açıqdı, buyurun, gedin, hökumətimiz, partiyamız sizə qayğı göstərir..."* Bəs onda yollarda tələf olmuş minlərlə körpələrin, vaqonlarda ölmüş qocaların bir içim su götürmək üçün stansiyada düşüb vaqondan aralaşan gənci al qanına qəltan edən ölümlərin əvəzini kim verəcək, kim qaytaracaq havaya sovrulmuş ömürlərin zamanını?

Müəllif rejimin ikiüzlülüyünü, onun antiinsani mahiyyətini bir neçə misranın isərisində ironik, kinayəqarışıq bir dillə ifşa edir:

Heç bir günahı olmayan
İnsanları sürgün etmiş.
Sürgün sona yetən zaman,
"Azadsınız, gedin" demiş...
Mənim Şura hökumətim
Nə "insaflı" hökumətmiş...

Yaddaş kitabı, Yaddaş Sahibi... İinsanların dəhşətli faciələrlə üzləşdiyi dövrlərə qayıdış... bütün bunlar müəllif üçün adi təəssürat deyil. O, hər bir ifadədən yapışıb oxucusunu həmin dövrə, zamana qaytara bilir. Bir sözlə, bu obrazlar H.İsaxanlı üçün ideya mənbəyidir. Nəhayət, onun özünəməxsus

ümumiləşdirməsi, sanki uzun yola yekun vurması, mənzil başına qayıdış və bütün bunların bir ibrət, dərs kitabına inam aşılayan düşüncələri...

Ətrafı tutarsa şər,
Ürəyi boğar kədər.
Yanıb-yaxılar ürək
Yana bildiyi qədər.

Hər kəs bildiyicəndi. Hər kəsin gücü, qüdrəti - söhbət qələmdən, qələmdən yapışandan gedirsə, onda deməliyik: - sözü qədərdi, sözünün dəyəri qədərdi.

...Şair *"yol uzundu",* - deyirdi. O, hansı yolun uzunluğundan, bitməzliyindən, tükənməzliyindən danışırdı? Hər halda bir yol da var. Bu, inam yoludur. Haqqın bir gün ayaq üstə duracağına, haqqın özünə təpər alacağına inam yolu...

# Soruşun vətənsizdən

...Ruhun həsrət yolu: Bədən - Vətən. Bədən və Vətən anlamı nə qədər bir-birinə yaxındır. Elə bilirəm ki, bu sözlər qohum sözlərdir.

Sürgündən qayıtmağın, Vətənə qovuşmağın nə demək olduğunu Vətən həsrəti çəkənlər daha yaxşı bilər. Bunu kifayət qədər duyğularının tarixi yaşantılar üstündə köklənməsi ilə müəllif verə bilib və biz də bu barədə danışdıq. Əsərin oxucu ruhunda yaratdığı əhval, təəssürat, əsərin təsirilə oxucunun yaddaşında canlanmış mənzərələr, əslində, müəllifin uğurudur. Və onun özünün - səsinin, sözünün oxucu dünyasındakı əks-sədasıdır. *"Ziyarət"* poemasında sürgünün qurtardığı, Vətənə qovuşma zamanındakı təəssüratlara müəllif ***"gözüm toxdu"*** hissəsində yer ayırıb. Amma nədənsə, Vətənə qayıdıb, sanki Vətənə qayıtmaqla ayrılmış bədən və ruh təzədən bir-birinə qovuşub. Düşüncəsinin təsiri altında yaddaşında oyanan daha bir mənzərəni buradaca, bu sətirlərin arasına gətirməyə bilmərəm. Bu, görkəmli ədəbiyyatşünas alim, Dövlət mükafatı laureatı, professor Məhərrəm Qasımlının Şah İsmayıl Xətai ilə bağlı düşüncələridir. İndiki məqamlarda mənim düşüncələrimə qol-qanad verdiyi üçün, ilhamıma yeni duyğular bəxş etdiyi üçün yada salıram:

> "On altıncı yüzilliyin tarixi salnamələrindən birində Şah İsmayılın Təbrizi fəth edərək hakimiyyəti öz əlinə alması barədə poetik bir bənzətmə var: "O, Təbrizə girdi, elə bil ruh bədənə daxil oldu". Bu bənzətmədəki milli romantika indinin özündə də vətənçi duyğunu, dövlətçi düşüncəni dimdik ayaq üstə saxlamağa qadirdir. Şah İsmayılın Təbrizə girməsinin ruhun bədənə daxil olmasına bənzədilməsi onun Azərbaycan tarixi içindəki yerinin son dərəcə dəqiq ifadəsidir. O, öz keşməkeşli, yorulmaz mübarizəsi və dövlət idarəçiliyi ilə təkcə Təbri-

> zə deyil butövlükdə Azərbaycana böyük bir ruh gətirdi. Bu, milli kimlik, vətənçilik, dövlətçilik ruhu idi"[1].

Göründüyü kimi, professorun özünün də qanadlı duyğularla qələmə aldığı tarixi salnamənin hansısa bir küncünə ilişib qalmış faktın, hadisənin mahiyyəti Vətən və dövlətçilik duyğuları üstə köklənib. Əlbəttə, indiki məqamda ruh və bədən mahiyyəti məni daha çox cəlb eləyir. Və elə bu fikirlə də şərikəm ki, Vətəni olmayanın milləti də olmaz. Bütün sürgünlər, deportasiyalar, təqiblər ona xidmət edir ki, gücünü Vətəndən, yerindən, yurdundan alan insanların özlərini Vətəndən ayırsınlar. Və beləliklə, milli ruhu öldürsünlər. Təbiətdə də belədir. Bir ağacı, bitkini başqa bir şəraitdə asanlıqla yetirmək olmur. Uyğunlaşmaq üçün on illərlə vaxt lazımdır. Hindistan filini təbii şəraitdə Qafqazda təmin etmək mümkünmü? İnsan da təbiətin bir parçasıdır. Onu öz mühitindən ayıranda cismən məhv olmaqdan başqa mənən də ölümə məhkum olur. Ancaq *"Ziyarət"* poeması bir nəslin sürgünlərin, qürbətlərin bütün məhrumiyyətlərinə dözərək ağır qurbanlar bahasına təzədən yurda dönüşünü bizə təqdim edir. Yurda qayıdacaqlarına inam bu adamları qoruyub saxlayıb. Yaddaş Sahibinin dinlədiyi hekayətin mahiyyəti budur; ana Vətəndədir ruh bədəndə olduğu kimi. Bu qayıdışın ruhun bədənə təzədən qayıdışına bənzəri var. Həmin anlarda nənə hansı hissləri yaşayıb? Onu dilləndirən hansı duyğular olub?

Sürgündən dönəndə dedi:
"Şükür, şükür Yaradana
Balalarım vətəndədi..."
(Ey müqəddəs, əziz ana,
İlahi ruh, Allah eşqi
Əgər varsa, o, səndədi).

Bəli, bu, ruhun bədənə qayıdış hekayətidir. Elə bir hekayətdir ki, heç vaxt yaddaşdan çıxmamalı, heç vaxt unudulmamalıdır. Çünki yeni nəsillər bu tarixi bilmədən gələcəyin etibarlı təminatçısı ola bilməzlər. Nəslin yaşarılığını təmin etmək, nəsli qorumaq hissi ananın ehtiyat enerjisini səfərbər edib, onu uzaq yollardan keçirib, Vətənə qaytarıb ona görə ki, bu, acınacaqlı, bu dəhşətli tarixi Yaddaş Sahibinin kitabına yazsın. Artıq bu fikri neçənci

[1] Məhərrəm Qasımlı, "Şah İsmayıl Xətayinin poeziyası" , Elm, Bakı, 2002. s.3.

dəfədir ki, vurğulayırıq. İndi yurdu dirçəltmək, qürbətdə göz açmış övladlara Vətəni tanıtmaq, bəlkə, onlara gədiklərin, təpələrin, yolların, cığırların, bulaqların, talaların da adlarını demək lazım olacaq. İndi yaşamaq üçün Vətənin havası və suyu var. Bərəkət gətirən torpaq indi onların ayaqları altındadır, indi onlar kifayət qədər güclüdürlər, indi onlar halal zəhmətə, bəhrəsini görəcək zəhmətə qayıtmalıdırlar. Bəli, zillət, zəhmətlə əvəz olunmalıdır. Nənə də elə bunu deyir:

"Balalarım, zəhmət çəksək,
Bir bağ salıb, bostan əksək,
Düzəldərik ev-eşiyi;
Bəndə bağlayan qapını
O gözəgörünməz kişi
Bir gün gələr açar" - dedi.

Yeri gəlmişkən, H.İsaxanlının *"Ziyarət"* adlandırdığı epik-lirik poeması oxucuda güclü təəssürat yaradan əsərdir. Oxucunu hisslərlə silahlandırır, onu duyğulandırır, düşüncələrini əsərin ovqatı üstə kökləyir. Əsərin ayrı-ayrı fəsillərinə uyğun olaraq oxucu qəzəblənə bilir, acıyır, qürurlanır, inamın nəyə qadir olduğunu dərk edir, bəzən sevinir, bəzən kədərlənir. Əslində, elə bədii əsərin də, ədəbiyyatın da əsas məqsədlərindən biri elə budur: İnsana hisslər sahibi olduğunu xatırlatmaq. Hisslərlə qavramaq, hisslərlə düşünmək iqtidarında olan insan daha az qərəzsiz olar. Belə adamların duyğuları insana hörmət, insana ehtiram, ən başlıcası insana sevgi üstə köklənir.

# Əxlaqin meyari

H.İsaxanlının *"Ziyarət"* poemasında ayrı-ayrı hissələr müəyyən silsilə təşkil edir. Artıq qeyd olunduğu kimi bu silsiləni yaradan əsərlər nə qədər bitkin olsalar da, Yaddaş Sahibinin xatırlamaları əsasında zəncirvari əlaqə ilə bir-birini tamamlayır. Demək, *"Gözüm toxdu"* adı ilə təqdim olunan əsər də bu silsilədə xüsusi əhəmiyyət kəsb edir. Bütöv bir nəslin az qala bir əsr ərzində keçdiyi yol dəyişən kino fraqmentləri kimi gözümüzün önündən keçir. Nəhayət, bu nəsil zülmlərə məruz qalır, sürgünlərə göndərilir, ağır düşərgə həyatı yaşayır və bir gün *"QULaq arxipelaqı"* dağılır. Təsadüfi deyil ki, sovet dövründə dissident həyatı yaşamış Aleksandr Soljenitsın sovet həyat tərzini düşərgə həyat tərzi ilə epitetləmiş, ona əbədiyaşarı ədəbi damğa vurmuşdu. Bir sözlə, indi düşərgənin məftilləri kəsilməkdədir. Sürgünlərə göndərilən nəsillər, yüzminlərlə günahsız insanlar vətənlərinə, yurdlarına qayıtmaqdadır. Müəllif bu hissədə *("Gözüm toxdu")* ilk sətirlərdə artıq qürbət ağrı-acılarının sonunu qəribliyin dərdini, həsrətini daşımış insanların vətənəqovuşma, yurd vüsalına çatmanın şirin duyğularını təqdim edir. Və əlbəttə, bu motivlər də xüsusi bir kövrəkliklə qələmə alınır. Bundan sonra artıq vətənin özündə dirçəlmə, birinci növbədə mənəvi yüksəliş, sonra insanların öz həyat tərzini, normal ahəngdar yaşayışını təminetmə mərhələsi başlayır. Vətəndə yaşamağın, vətəndə özünü dirçəltməyin də problemləri, çətinlikləri var. Uzaq yollar, ağır illər arxada qalsa da, kasıblığın, yoxsulluğun caynağı hələ də Böyük Ananın ailəsinin boğazından yapışıb. Ananın çırpıntıları, onun daxili mənəvi əzabları elə ilk sətirlərdəncə görünür. O, ailəni zəhmətə alışdırmalı, yurda bağlamalı, bir növ dirçəlişin əsasını yaratmalıdır. Bir vaxt mahalda Qaçaq İsaxan adı ilə məşhur olan igidin, karlı kişinin xanım-xatın arvadı bədxah adamların, mənəvi düşkünlərin nəzər-diqqətində-

dir. Onlar bu qürurlu qadına bütün əzablara baxmayaraq xanım-xatınlığını, izzəti-nəfsini qoruyan qadına elçi düşürlər. Onu özlərinin tamahlarına qurban etmək istəyirlər:

"Ərə getmək fikri varsa?" -
Belə sevdaya düşənlər
Ağız arayanlar oldu.
Dünən küncdə büzüşənlər,
Hədə-qorxu gəldi bu gün:

Rejimlərə güvənən, siyasi-ideoloji dayağı olan adamcığazlar üçün Böyük Ananın hansı hisslərlə yaşamasının heç bir əhəmiyyəti yoxdur. Qaçaq İsaxanın adı gələndə zağ-zağ əsənlər indi hətta onun arvadının, ailəsinin ünvanına hədələr göndərir, təzyiqlər göstərirlər. Bəyliyin, ağalığın bitdiyindən danışırlar:

Dünya dəyişib büsbütün,
Ölüb getdi bəy, ağa, xan.
Alt-üst oldu köhnə dövran,
Xanım-xatınam deməsin,
Sonra məndən inciməsin.
Arvadı saxlayan ərdi,
Ya evdəki yetimlərdi?

Amma unudurlar ki, bu qadın öz ərindən güc, təpər, dəyanət dərsi alıb. Onu heç nə ilə sındırmaq olmaz. Onun tapındığı güc mənbəyi əxlaqi dəyərdir. Onun ölçüləri, qadınlıq meyarı o qədər sərt, o qədər bütövdür ki, sanki şəxsiyyət qayasıdır. Onun üstündən əsən zaman küləkləri qayanın üstündən heç nə apara bilməz. Amma hər halda axı o, insandır. Hələ özünə gəlməmiş, çəkdikləri zəhmətin sayəsində əlləri bir tikə çörəyə çatmamış övladlarının yoxsulluqdan, kasıblıqdan çəkdiyi əzabları da görür. Amma bütün bunlar onun qürurunu sındıra bilmir, onun dəyanətini yenə bilmir. Elə ona görə də gözləri dolsa da, kövrəlsə də, düşkünlərin, şərəfsizlərin cavabını ləyaqətlə verir:

Gəlinin gözləri dolu
"Nə yoldaş, nə sirdaş, nə ər?
Yoxdu, getdi o kişilər.

Mənə lazım deyil heç kim-
Kim olsa da, yalvarsa da,
Hökmü-divanı varsa da.
Könlümdə eşqə yer yoxdu,
Nəfsim ölü, gözüm toxdu.
Dünyanın çalxanan vaxtı,
Arzum, diləyim, tək eşqim
Evimdi, oğul-uşaqdı".

Ananın idealı, düşkünlərin idealı ilə tərs mütənasibdir. Sanki tərəflər qarşı-qarşıya dayanır. Bir tərəfdə maddiyyat, tamah, fiziki zor və bir sözlə, rejimə arxalanan qüvvələr. Digər tərəfdə ananın mənəvi saflığı, ləyaqət arzusunu, diləyini, ilk eşqini evi, oğul-uşağı bilən böyük insan, onun mənəvi ucalığı sözün həqiqi mənasında əxlaqi-meyar təsiri bağışlayır. Və biz onun gücünü görürük. Əxlaqa arxalanan gücünü, mənəvi dəyərlərə sədaqət gücünü. Əslində elə onun gücünün qaynağı bu dəyərlərdir.

H.İsaxanlının hadisələrə ibrətli ümumiləşmiş münasibəti ayrı-ayrı parçaların arasında lirik lövhələrlə sıxlaşmış qara buludları yaran şimşək kimi görünür. Dərin fikir, müdrik söz bir anda bütün qaranlığı parçalayır. Xalq təfəkküründən qaynaqlanan misralar əsərin üstündə (zamanın üstündə, insanların düşüncəsində və elə həm də bu günümüzdə) parlaq işıqla yanan alova bənzəyir. Bu alovlu işıq ən passiv beyinləri belə silkələyir, oyadır. İnsanı düşünməyə vadar edir:

Müdriklər tez od almaz,
Boş sözü saya salmaz.
Hər hürənə daş atsaq,
Yurdumuzda daş qalmaz.

Göründüyü kimi, xalq təfəkküründən qaynaqlanan və insana mənəvi güc, təpər bəxş edən bu misralar sözün həqiqi mənasında, süd aydınlığına bələnən gecənin parlaq ulduzlarına bənzəyir.

Və yenə bundan sonra ananı təmkinli görürük. Axı şairin özünün dediyi kimi - Yaddaş Sahibinin xatırladığı kimi. Hər hürənə daş atmağın nə faydası var? Axı bir də atalar *"İt hürər, karvan keçər"* deyirlər. Karvan öz əzəməti

ilə yolun ona məxsus olduğunu görür, yolundan dönəsi deyil. İtin hürməyi özünə qalacaq. Bu psixoloji hazırlıqdan sonra artıq ananın düşüncələri tam əsaslı görünür:

Düzdür, çətindir, dardayam,
Təkəm, köməyim kəsilib.
Amma dost da var, düşmən də,
Gərək göz yaşımı silib,
Cərgəyə qatılam mən də.
Hələlik bircə dərdim var -
Korluq çəkməsin uşaqlar...

Ana yaxşı bilir ki, hər batan günün bir açılan səhəri də var. Hələlik onun bircə dərdi özünün dediyi kimi, uşaqları korluq çəkməyə qoymamaqdır. O, bilir ki, zəhmət çəkən, zəhmətdən yapışan insan darda qalmaz. Demək, onun övladlarının da qarnı tox olacaq. Çünki onların heç kimin əlində gözü yoxdur. Ona görə də ananın düşüncələri nikbindir:

Qarınları tox olacaq,
Canları sağ olsun təki.
Dirçələcək oğul-uşaq,
Qarşımızda yaxşı günlər
çox olacaq...

Gərək insan nə qədər böyük gücə sahib olsun ki, zülmət qaranlığın içərisindən işığa gedən yolu görə bilsin. Ana da özünün iradəsi, dözümü ilə bu gücdədir. O, təkcə uşaqlarını cismən sağ-salamat saxlamaq fikrində deyil. Həm də onları oxutmaq, onları mənən zəngin insanlar kimi böyütmək istəyir. Axı bu həm də böyük atanın -İsaxanın arzusu idi. Demək, atanın arzusunun davamı ananın istəklərində, mübarizəsində yaşayır:

Bir də... bir də ataları deyirdi ki,
Gərək uşaqlar oxusun...
O yoxdursa mən ki, varam.
Allah üstümüzdə olsun,
Mən böyüdüb, oxudaram.

Ananın duyğularında qətiyyət görünür, təəssüf və çaşqınlıqdan əsər-əlamət yoxdur. Onun bu qətiyyəti, inamı şəxsiyyətinin bütövluyünü təsdiqləyir. Onun bir güvənci də gələcəyə inamıdır. İnam ananın nəzərində Allah timsalındadır. *"Allah üstümüzdə olsun"* deyəndə inam bizimlə olsun mahiyyəti başa düşülür. Əslində Allah özü insanın tapındığı ən uca dəyərdir, inam anlamında isə bütün parlaqlığı ilə özünü göstərir. Elə ona görə də qorxmur, heç kimsədən çəkinmir, əlbəttə, təkliyə düşəndə ürəyini yeyə-yeyə yaşayır. Məşhur Çələbilər nəslinin böyük analarından biri Zibeydə Çələbi deyərdi ki,

"Ürəyi çörəyinə yavanlıq eləməyənin qapısına salam düşmür".

Gündüzlər başı uca gəzir, haqqa-həqiqətə tapındığı üçün ümidini üzmür:

Gündüz heç qorxu bilmədi,
Gecələr içini yedi.
Gündüz vüqarlı hərləndi,
Gecə-gündüz "Allah birdi,
haqdı" dedi.

H.İsaxanlının əsərinin bu hissəsi bir oxucu kimi məndə çox dərin təəssürat oyatdı. Zənnimcə, əsl həyat həqiqətlərinə güvənən belə əsərlər insanların mənəvi harmoniyasına çox ciddi təsir göstərir. Əlbəttə, bu harmoniyanı qorumaq insanın mənəvi ucalığına xidmət etmək baxımından. Görkəmli ədəbiyyatşünas Məmməd Cəfər Lev Tolstoyla bağlı düşüncələrində maraqlı müqayisələr aparıb:

"Elm və incəsənətin bütün tarix boyu bəşəriyyətə böyük faydaları dəymişdir, lakin bəşəriyyətə xeyri dəyməyən, zərər verən elm və incəsənət də vardır. Təzə, məhvedici silahlar, toplar, daha güclü partlayıcı maddələr ixtira edən elm həqiqi elm deyildir. Hüquq gözəl elmdir, ancaq xalqın hüququnu məhdudlaşdıran hüquq elmi həqiqi elm deyildir. Tarix mənalı, faydalı elmdir, ancaq azğın hökmdarların səltənət tarixini yalanlarla bəzəyən tarix həqiqi tarix ola bilməz. Psixologiya gözəl elmdir, ancaq spiritizm ilə məşğul olmaq elm deyil, hoqqabazlıqdır. Rəssamlıq gözəl sənətdir, lakin sərgi salonlarını çılpaq qadın heykəllərilə dolduran rəsm sənəti həqiqi incəsənət deyildir. Ədəbiyyat: roman, şeir gözəl sənətdir, lakin əxlaqsızlıq təbliğ edən bədii əsərlər həqiqi ədəbiyyat deyildir. Kitab mədəniyyəti böyük mədəniyyətdir,

lakin hər il xalqa lazım olmayan milyonlarla kitab nəşr olunur ki, bunlar həqiqi kitab mədəniyyətini təşkil edə bilməz" [1].

Elə buradaca deməyin yeridir ki, böyük əxlaqı tərənnüm edən əsərlər həqiqi ədəbiyyatın səsidir, nəfəsidir, özüdür. Böyük Ananın timsalında əxlaqa tapınmanın, mənəvi ucalığın gücünü gördük.

İndi bir daha əsərin yaratdığı təəssürat əsasında Böyük Anaya ehtiram bildirməyin məqamıdır: Böyük Ananın gözü toxdur. O, sanki dünyadan bir qadın olaraq öz payına düşəcək hisslərdən çox ucadadır. Çünki o, Qaçaq İsaxan kimi bir kişinin arvadı olub. Ondan sonra, onun ünvanından sonra qətiyyən *"yastıdığını"* dəyişə bilməz. Əlbəttə, o izzəti-nəfsinə qadınlığını qurban etməsəydi, bəlkə dolanışığı üçün də kömək olardı. Amma o, bu yolu seçmir. Mənəvi toxluğu, göz toxluğunu mədə toxluğundan çox ucada tutur. Toxluq anlamı var dilimizdə. Bu anlam mənəvi mahiyyət kəsb edəndə şəxsiyyətin gücünü göstərir, onun ləyaqət, dəyanət rəmzinə çevrilir, filankəs gözü tox adamdır - deyirik. Demək, o, ləyaqətli adamdır. Dünya oduna yanmağı onun gözündə heç nədir. Təki onun adı, ünvanı gələcək nəsillər tərəfindən hörmət və ehtiramla xatırlansın. Bax, budur Böyük Ananın gücü, qüdrəti! Göründüyü kimi, *"Gözüm toxdu"* adı ilə başlayan hissə toxluğun mənəvi mahiyyətini, başqa sözlə fəlsəfi mahiyyətini açır. Sənət həyatın özü ilə birgə dünyaya gəlib. Həyatı Tanrı yaradıb. İlk əvvəl təbiət obrazı olaraq yaradıb, bir gözəllik obrazı olaraq, paklıq, saflıq obrazı olaraq təbiət ilk növbədə Tanrının əsəridir.

> "...Sənətin mənşəyi həyatın özünün mənşəyi qədər qədimdir, çətin dərk olunandır. Ancaq hər şeyi dərk etmək mümkün deyil, bəlkə heç buna lüzum da yoxdur... İnsan hisslərinin nəhayətsizliyi, çoxölçülü tutumu çox vaxt ağlın açmağa gücü çatmadığı hadisələri, anlayışları yozmaqla, özünəməxsus şəkildə şərh etməklə boşluğu doldurur, insanı ovundurur, beləliklə, bir növ, onun canını mübhəm sarsıntılardan qurtarır"[2].

Və sonra düşünən insan yaranır. Və insan özü də əbədiyyət arzusunda olur. Və bununla da özünün sənətini yaratmağa başlayır. Qobustan rəsmləri, qaya yazıları təkcə yazı olaraq, sənət olaraq yaşamır. Həm də o, insanların özlərini yaşadır. H.İsaxanlının *"Ziyarət"* peoması onun mənəvi aləmindəki fırtınaların, təlatümlərin poetik əks-sədasıdır. Yaddaş Sahibi obrazının tim-

[1] Məmməd Cəfər. "Seçilmiş əsərləri ". "Çinar-Çap". Bakı, 2003, s. 318.
[2] Kamil Vəli Nərimanoğlu. "Özümüz-Sözümüz". Çinar-Çap. Bakı, 2005, s. 437.

salında o, bu daxili sarsıntılardan ovunmağın yeganə yolunu sənətdə görür. Məlum olduğu kimi sənət qədər insanın başqa heç bir məşğuliyyəti - elmdən tutmuş müxtəlif peşələrə qədər onu ovundura bilməz.

*"Ziyarət"* həm də yalnız bir müəllifin özünü ovundurmaq istəyinin bəhrəsi deyil. Bütöv bir tarixin, bir nəslin sarsıntılardan xilas olmaq, ovunmaq istəyinin bəhrəsidir.

# Dərdini göyə açanda

Şübhəsiz, bir elm adamı, təhsil təşkilatçısı olaraq özünün ləyaqətli yerini elm və maarif sahəsində zəhməti və zəkası ilə təsdiq etmiş H.İsaxanlı birçə misra yazmasaydı belə, yenə də adı hörmət və iftixarla çəkiləcək ziyalılarımızdandır. Ancaq Tanrı ona səmimiyyətlə silahlanmış poetik istedad da bəxş edib. 30-40 il ərzində elmin dərinliklərinə doğru yeridikcə şairliyi, poetik istedadı onun mənəvi qida mənbəyi, ruhunun daşıyıçısı olub. Dünyanı gəzə-gəzə bu mənəvi gücə tapınıb. Həyatın ona qucaq açdığı sevincli günlərdə də, kədərli anlarında da uzaq kənddən, dünyanın mənəvi səmasından ucuşundan bəri onun poetik nəfəsi həmişə qəlbində yaşayıb. Şeriyyəti, şairliyi poeziyası ilə sonsuz sevgilərlə munis olub. Klassik təbircə desək, onun həbibi, munisi olan poeziyası bir qayda olaraq tənhalığında onun çiyinləri üstündə qanad gərib. Və beləcə H.İsaxanlı həmişə şeirlə nəfəs alıb. Şeri ilə, poeziyası ilə şan-şöhrət azarına tutulmayıb. Ruhunun, paklığının müqəddəsliyini qoruya-qoruya poeziyanın İlahi yüksəkliyində, uçalığında mənəvi rahatlıq tapıb. Yoxsa, başqa cür bir ana ruhunun mənəvi dünyasını misra-misra, söz-söz o necə gəzə bilərdi?

Ananı müxtəlif məqamlarda həyatın qərəzlə başının üstündə qılınc oynatdığı anlarda da, ağzının duası ilə dərdini göylərə açanda da, iztirablarla çırpındığı məqamlarda da, görə bilir. Bu fərqli anların ovqatını özü təzədən yaşayır. Yaddaş Sahibi olaraq əlli il bundan əvvəlki dövrün xarakterini, təbiətini ananın öz dili ilə təqdim edir. Ananın gələcəyə olan ümidi balaları ilə böyüyür. Onun övladları gün-gün, ay-ay, fəsil-fəsil boy atır və onların hər birinin simasında ananın dərdləri dağ buzlaqları kimi əriməyə başlayır. Ananın tənhalıq anları nə qədər orijinaldı. Ana haqqında saysız duyğular, düşün-

cələr qələmə alınıb. Və bu *"Odisseya"*nın, *"İlliada"*nın, Qorqudluğun məğzində Hamletin dərdini göylərə açan Anasının (əsərdə nənənin) obrazı xarakter etibarı ilə tarixi anaların banisi olduğu kimi həm də çox fərqlidir. Öz düşüncələri ilə saflığı ilə, müasir günümüzün anasına daha yaxındır. Ana tənhadır və bu tənhalıqda onun bir munisi də öz Tanrısıdır. ***"dərdini göyə açardi"*** adı ilə təqdim olunan hissədə Tanrıya dualar pıçıldayan ananın bütün aləmini görə bilirik. Onun həlimliyini, müqəddəsliyini övlad sevgisini, dünyaya, bəşərə əmin-amanlıq arzularını müəllif çox səmimi duyğularla təsvir edir. Və təbii ki, ananın öz dilindən, öz səsi ilə yaradılan mənzərə kifayət qədər bəs eləyir ki, biz onun zəngin aləmini görə bilək:

"Kiminin körpə balası var,
Ona dəyməsin tufanlar.
Kasıb, varlı, gədə, ya şah,
Kim nədirsə, özü bilər...
İlan yerisin, ay Allah,
Dalınca da balaları,
İçində də mənimkilər".

Ana dualarında da son dərəcə ədalətlidir. Çünki Tanrı özü ədalətli olduğu üçün ananın düşüncəsinə görə onun dərgahında yalnız ədalət arzulayan dualar qəbul ola bilər. Ona görə də ana əslində Tanrıya dua eləyəndə təkcə öz övladı üçün dua eləmir. Onun nəzərində kasıb, varlı, gəda ya şah hamısı insandır. Və ona görə də kimin nə dərəcə haqlı-haqsız olduğunu öz ixtiyarına buraxır. Hətta Tanrının yaratdığı bütün varlıqları yaşarı hesab edir. Və yenə yalnız nənənin dilində öz gücünü göstərə bilən xalq ifadəsi oxucunun ruhuna hədsiz estetik zövq bəxş edir: *"İlan yerisin, ay Allah, dalınca da balaları; içində də mənimkilər".*

Müəllif nənənin mənəvi durumunu bu cür təqdim edir. Və onun yaşantılarını əslində həyatının mənası hesab edir. Və sanki nənənin dünyasına əlavə nə isə deməyin xələl gətirəcəyini düşünərək öz sözünü və həm də illərin üstündən keçib gələrək bu günkü sözünü deyir: *"Özü kimi gözəl idi arzuları, duaları..."* Ana obrazı bütün əzəməti ilə H.İsaxanlının yaradıcılığında illər boyu özünü hifz edəcək gücdə yaradılıb.

Dərdini göyə açanda insan hansı hisslərlə yaşayırsa, şair də poeziyanın ecazkar aləmində özünü o cür hiss edir. Saf, sevgili duyğuların tərənnümü poeziyanın uğur mənbəyidir.

Bir anlığa düşünək ki, H.İsaxanlı tarixi keçmiş, yaşarı dəyərlər, adət-ənənələr, nəsilə-kökə bağlılıq motivləri ilə süslənmiş *"Ziyarət"* əsərini yaratmasaydı, məhz bu əsərdə ifadə elədiyi düşünəcələri başqa hansı mövzuda bu qədər mükəmməl ifadə edə bilərdi? Zənnimcə, hər hansı bir məzmunun mükəmməl ifadəsi üçün onun özünə uyğun forma tapılmalıdır. Başqa sözlə, cırtdana nəhəngin paltarını (yaxud əksinə) geydirmək mümkün olmadığı kimi, məzmunun tələb elədiyi forma - həm də kifayət qədər mükəmməl, fikrin ifadəsinə şərait yaradan, meydan açan düşüncələrə qol-qanad verən forma olmadan kamil əsər də yaratmaq mümkün deyildir. Hegel təsadüfi demirdi ki,

> "İncəsənət mənzərələr yaratmaq üçün yalnız subyektiv obrazlardan, təsəvvürlərdən ibarət xarici materiala deyil, ruhi məzmunu ifadə etmək üçün həm də incəsənətin duyduğu və özündə yaşatdığı anlama malik təbiət formalarına ehtiyac duyur. Təbiətdəki bütün formalardan ən alisi və həqiqisi insan biçimidir, çünki yalnız onda ruh öz bədənini və əyani ifadəsini tapa bilər"[1].

İndiki məqamda müəyyən tarixi şəraitdə övladları üçün gözünün işığını verən, ürəyinin yağını əridən bir ananın obrazını yaratmaq üçün şair Yaddaş Sahibinin düşüncələrinə güvənir. Və o düşüncələrdə ən istinadlı obraz olaraq nənəni görür. Nənə ruh etibarilə sağlam adamdır. Həyat ona hər cür pislik etmişdir. Hətta rejimlərin yumuşalmasından sonra müəyyən itkilərdən, ölümlərdən, böyük əzab və əziyyətlərdən keçərək yenidən yurda qayıda bilsə də, rejimin tör-töküntüləri yenə də onu rahat buraxmır. Ana bütün bunlara təmkinlə zirvədən baxırmış kimi nəzər salır, dözür. Bütün bunlarla belə yenə də onun qəlbində heç kimə qərəz yoxdu. Ancaq üzünü Tanrıya tutanda, dərdini göylərə açanda pisliklərə şərait yaradan mühitin dəyişməsini diləyir. Böyük Ananın dilindən verilmiş və kökünü xalqdan alan, şirəsini xalq təfəkküründən götürən, qaynağını sağlam mənəvi aləmdən başlayan bir düşüncə ilə arzulayır:

Dağların qarı ərisin,
Balamın suru yerisin.

---

[1] Hegel "Ruh fəlsəfəsi", Bakı, 2003, s. 426.

Çox məharətlə ananın dilindən verilmiş mövzuya tabe etdirilən xalqdangəlmə alqış (alxış) kimi *"Dağların qarı"* ifadəsinin hansı məzmunu daşıdığını anlamaq o qədər də çətin deyil. Əvvəla, dağların qarı əriyərsə düzlərə su gələr, torpağa bərəkət gələr. Dağların başı açılar, sinəsi çiçəklərlə, çəmənlərlə bəzənər. Amma əlbəttə, bu misranın alt qatında insanların arzu və diləklərini, istəklərini donduran mənəvi mühitdə qış sərtliyi yaradan rejimin ünvanına da bir ananın deyə biləcəyi qədər fikir yönəlikdir. *"Sur"* bağlı-bağatlı vadi, gücün təsdiqi olan şeypur səsi (İsrafil surunu yada salaq), güc rəmzi buğa, öküz mənalarını özündə cəmləyir. Buradaca qeyd etmək yerinə düşər ki, xalq təfəkkürü, *"sur"* sözünün hökm, güc mənasını ananın dilindən həmin misradaca təsdiqləyir. Əgər dağların qarı ərisə, böyük ananın övladının da haqqı-hüququ tapdanmaz. Onun nəslinin hökmü yeriyər. Hökmü ayaq tutar. Tanrının iradəsilə dağların qarının əriməsi həqiqətə yol açar. Ananın övladını oxşaması onun övladına məhəbbəti bir sözlə, ananın ailə dünyasına sədaqəti Tanrıya şükranlığında bir daha görünür:

Balam oxşar bəyə, xana, padşaha,
Qurban olum onu verən Allaha.

Ana halal zəhməti ilə böyütdüyü övladının çatdığı bəyzadəliyi, yetdiyi ağlı, kamalı alqışlayır və bunu Allahın haqqın tərəfində olması ilə bağlayır. Və buradaca yenə ananın ləyaqətini görürük, onun qəlbinin genişliyini duyuruq. Çünki o, öz övladlarına arzuladıqlarını hamıya arzulayır. Dualarının əvəzində Tanrıdan alacaqlarını hər kəsin arasında bərabər bölür. Ana üçün sosial ədalət ən böyük meyardır:

Evində çırağı yansın hər kəsin,
Quru çörək üstə dava düşməsin.

Biz burada Böyük İnsanı görürük. Ruhu ilə bədənin, cismi ilə canının vəhdətində təzahür edən *"təbiətin ən ali formasını"* görürük. Yuxarıda qeyd etdiyimiz kimi Hegelin insan biçimi ruhun öz bədənini və əyani ifadəsini tapan forma haqqındakı düşüncələrini təsadüfi xatırlamadıq. Əslində Hegel həmin düşüncələrə gələnə qədər insanı ifadə edən formanın mahiyyəti haqqında öz sözünü demişdi:

> "İnsanı ifadə edən formaya misal onun şaquli durmasını, əllərinin mütləq alət kimi inkişafını, onun ağız quruluşunu, gülüşü, ağlamasını və s. göstərmək olar, özəlliklə ali bir təbiətin ifadəsi kimi insan bədənini bilavasitə xarakterizə edən bütün varlığında axan mənəvi ton söylənilənləri daha da təsdiqləyir"[1].

Yaddaş Sahibi nənəni elə beləcə də olduğu kimi təqdim edir. Və əsər boyu onun mənəvi aləmində ucalığa doğru yüksəlişini, kamilləşmə yolunu göstərir. Başqa sözlə, məzmun forma ilə vəhdətdə addımlayır. Ana yaşa dolduqca daha da kamilləşir, müdrikləşir. Müəllif öz üslubuna sadiq qalaraq sanki əsərin ümumi xəttindən kənara çıxır, ayrı-ayrı hadisələrə, obrazlara münasibət bildirir. Dərdini göylərə açan ananın düşüncələrini yazarkən də belə müdaxiləyə ehtiyac duyur:

Mömin bəndə deyiləm mən,
Lakin nədir saf etiqad -
Onu duymuşam nənəmdən.
O mələkdi, ülfəti qəlbimə doldu,
Onun sığındığı Tanrı
Mənim də Allahım oldu
Mən onun, nənəmin Allahını sevdim.

İlk baxışdan bu düşüncələr əsərin ümumi xəttindən kənara çıxır. Sanki müəllif də bunu hiss etdiyindən öz düşüncələrini əsərdə formaca fərqləndirməyə çalışmışdır. Amma əslində bu düşüncələr nənənin uzaq gələcəyə ünvanlanmış gələcək nəsillər üçün örnək olacaq həyatının indiki andan keçən məqamına münasibətdir. Bu düşüncələr tarixi günümüzlə bağlayan, varisin sələflərdən gələn yolunun xələflərə çatası məsafəsində bir körpüdür. Yaddaş Sahibi öz aləmindədir. İnsanlar bu gününün dərdlərini yaşayırlar. Sanki onların ətrafında hörülmüş, torun kələfini açmağa çalışır, ancaq buna nail ola bilmirlər. Güclər toqquşur, qanlar axır, evlər yıxılır, sanki buna müvafiq olaraq təbiət də öz təbiətini dəyişir. Çaylar məcrasından çıxır, insanlar bir-birilə anlaşılmazlıq, bir-birini başa duşməmək probleminin əziyyətini çəkirlər. Və üstəlik təbiətə qarşı da özünü mühafizə üçün qüvvə ayırmalı olurlar. Yaddaş Sahibi isə bütün bunları görür. İçin-için öz ağrı-acısını

[1] Hegel "Ruh fəlsəfəsi", Bakı ,2003, s. 253.

yaşayır. Başqa sözlə, sanki insanlara çatdırmaq istəyir: keçmişinizi yaxşı öyrənin, onda bu günü yaşamaq sizin üçün çətin olmaz. Yaddaş Sahibi danışır ki, imansızlıq mühitində dünyanı qoruyub saxlayan, bəlkə də özünün tənhalığında duaları ilə Tanrıya qovuşan bir ananın Allah sevgisidir. Çünki kamil insan dərdini hər ötənə açmaz, yada, yadelliyə deməz. Yaddaşdan gələnin birgə ünvanı var bu Ulu dərgahdır, haqqın özüdür:

Sübh tezdən, axşamçağı
Sakit dua oxumağı,
Məndə min hiss oyadardı.
O ətrafda, o dünyada
İmansızlıq ruhu vardı.
Dərdi ki, açmazlar yada -
Dərdini göyə açardı...

Diqqət edin, heç kimin köməyinə ehtiyac yoxdur, heç bir yad təsir yoxdur. Bir ananın ömür yolu çözələnir, onun həyata baxışı, düşüncəsi, mənəvi aləmi gözlərimiz önündə açılır. Yaddaş Sahibinin həyatın dərinliklərindən gələn bir gücdən qaynaqlanması ilə Böyük Ana hekayəti rəvan axan bir çay kimi davam edir. Ana keçmişin ona elədiyi pislikləri, qəddarlığı özündən kənara qovur. Kinin, qərəzin yerini Allaha ibadətlə, varlığına yığdığı saf duyğularla doldurur:

Oruc, namaz, dəstəmazı
Yerindəydi, dəyişməzdi,
Ruhu dolu sevgi, vüqar,
Allahla oturub-durar.

Allaha qovuşma, ən saf duyğularla yaşama hissi xırda düşüncə sahibi olan, ömrünü qeybətlə yaşayan adamlarla onun arasında sədd yaradır. Ananın varlığına haqqın-həqiqətin rəmzi olan Tanrı hakimdir, ömrünü-gününü bəd əməllərlə aləmi bir-birinə qatan insanların (insancığazların) hakimi isə şeytandır, şər qaynağı olan iblis düşüncəsidir. Ona görə də ana qəlbində şər xisləti daşıyan insanlarla deyişmir. Sözü onların sözü ilə qarşılaşmır:

İnsanlarla deyişməzdi,
Dilindən heç vaxt düşməzdi

Allah, peyğəmbər kəlməsi.
Hələ getmir qulağımdan
"Bismillah... üssəməd" səsi
O pıçıltı, o ruh, iman
Mənimlə dünyanı gəzdi...

Yaddaş Sahibi pıçıltılarla danışır, sanki vaxtilə ananın oxuduğu xeyirxahlıq diləkləri aşılayan ərəb kəlmələrini də təkrarlayır. Bir sözlə, o pıçıltılar, o ruh, o iman anadan gəldiyi kimi Yaddaş Sahibinin dünyasında yaşayıb. Elə həmin saflıqla da özünü qoruya-qoruya gələcəyə gedir. Yaddaş Sahibi dünyanı dolansa da, o ruh onunla gəzir. Əslində o ruh həm də Yaddaş Sahibinin özünün qoruyucusuna çevrilir. Yaddaş Sahibinin mənəvi aləminin özülü böyük ananın saflıq duyğuları üzərində qurulub. Ona görə bu gün dünyanın bütün qapıları onun üzünə açıqdı. Bir vaxt nənənin duaları özünün saflığı ilə bahəm, mənəvi kamilliyi ilə bahəm həm də dini məzmun daşıyırdı. Yaddaş Sahibinin pıçıltıları Böyük Ananın yaşadığı dünyanın mükəmməl sonluğu haqqında ən dəqiq düsturdur:

Allahım, vəd etmə bol-bol,
Varsan - bəndənə kömək ol.
Yoxsan-məxluqa yaxşı yol...

Kəskin münasibətdir. Hər bir bəndənin - yaranmışın Yaradandan umacağı var. Yaradanla yaranmışın arasındakı fərq qədərdi bu umacaq. Yəni, kömək etmək, yardım etmək yalnız Yaradanın işidir. Yaddaş Sahibi yaşadığı ömrün özündə ehtiva olunan tarixin dərslərindən nəticə çıxararaq Tanrıya müraciətdə "Bəndənə kömək ol, - deyir. Əlbəttə, bu kömək yoxdursa, onda məxluqa *"yaxşı yol"* ifadəsi istehza mahiyyəti daşıyardı. İnsanın olmadığı dünya aktyorsuz səhnədir. Tamaşaçının acı təəssüf və istehzasına hədəf olan səhnə.

# Zirvədən görünən dünya

H.İsaxanlının *"Ziyarət"* poemasında ayrı-ayrı hekayətlərin gətirdiyi təəssürat şübhəsiz ki, Yaddaş Sahibi ilə bağlıdır. Bəzən onun duyğuları şahə qalxır, bütün gücü ilə haqsızlıqlara qarşı durmaq istəyir, ananın çəkdiyi əzab və iztirabların ağrılarını hisslərində, emosiyalarında əks etdirir, bəzən də bu fırtınaya çevrilən hisslər, emosiyalar sakit bir axara düşür. Düzənlikdə axan çay kimi sakit- sakit öz məcrasına doğru yolunu davam etdirir. Bu sakitlikdə bir təəssüf, ötüb keçmiş həyatın arxasınca baxmaqla artıq tarixə, yaddaşa çevrilmiş insanları əbədiyyət yuxusundan qaldırmaq, onlara layiq olduqları haqqı vermək istəyi də duyulur. *"Ziyarət"* poemasında Böyük Ana hekayəti ilə bağlı növbəti hissə ***"neyləyək, qismət bu imiş"*** adlanır. Həyatın min cür zülmünü görmüş, cəfasını çəkmiş ana özünün ağlı, düşüncəsi ilə ətrafında hörülmüş hiylə, qəddarlıq torlarını dağıdır. Özünə yol açmaqla övladlarına yol açır. Bəlkə də ananın hansısa arzuları başa çatmadı:

Zülm gördü, cəfa çəkdi,
Ayaq altında qalmadı.
Arzusu gözündə qaldı,
İmanı zədə almadı.

Zənnimcə, müəllifin ananın arzusunun gözündə qalması ilə bağlı qənaəti doğrudur. Əlbəttə, nə qədər şübhəli olsa da. Çünki ana bu yolları – övladlarını böyütmək, boya-başa çatdırmaq yolları ömür-gün yoldaşı ilə adı artıq elatda, bütün Borçalıda dastanlaşan Qaçaq İsaxanla birgə keçməli idi. Əlbəttə, zaman, rejim buna imkan versəydi. Hər halda onun bu arzusu gözündə qalsa da, imanı zədə almır. El arasında müdriklərə alxış eləyəndə nisbətən cavanlar deyərlər: *"İmanın kamil olsun"*. İmanı kamil olmaq insanın xeyirə

çalışmağı, insanlığı hifz etmək üçün səyləri ilə bağlıdır. Belə insanın dilindən yalan çıxmaz. Əlindən hiyləyə qulluq edən əməl gəlməz. Bu ana da gözləri ilə od götürsə də, özü oda dönüb heç vaxt ətrafı yandırmır. Amma işığa çevrilir- insanların ətrafındakı qaranlıqları qovan işığa. Başına gələnlərə görə nə qohumu, nə də yadı töhmətləmir, qınamır, heç kimdə günah görmür. Bununla da, əslində övladlarına kinsizlik, qərəzsizlik dərsi keçir. Elə bir öyüd verir ki, onun övladları gələcəyin insanları ilə ləyaqətlə davransınlar. Ən kamil insan özündən sonra kin, qərəz, münaqişə ocağı qoyub getməyəndir.Yaddaş Sahibinin yaşantılarında biz də Böyük Ananı beləcə görürük:

Nə yalan çıxdı dilindən,
Nə hiylə gəldi əlindən.
Gözü od-alov görsə də,
Oda dönmədi heç vədə.
Nə qohumu, nə də yadı,
Töhmət edib qınamadı.

Böyük Ana çox istəyərdi ki, dünyanın az qala yarısından çoxunun qiblə hesab elədiyi Məkkəyə getsin, müqəddəs ocaqda gələcək naminə dualar etsin. Əlbəttə, bu onun zamanında mümkün deyildi. Və Yaddaş Sahibi də elə bunu deyir:

Məkkəyə yolu düşmədi -
Tikanlı, məftilli dünya...
O vaxt Məkkə nəydi? Xülya...
İndi Məkkəyə gedərdi.

Əgər Böyük Ananın arzusu bu idisə, bu da - indi rejimlərin çökdüyü, imperiyaların dağıldığı, idealogiyaların insan istəklərinə rəğmən puç olduğu günlərimizdə mümkün olardı. Və buna Yaddaş Sahibinin özünün gücü yetərdi. Çünki o, Böyük Ananın mənəvi olaraq ona bəxş elədiyi sərvətin sayəsində uzaq yolları yaxın eləmək iqtidarındadır. Amma əlbəttə, zaman ötmüş, karvan getmişdir:

Buna hünərim yetərdi,
Neyləyək, qismət bu imiş.
Artıq nə etsəm hədərdi -
Olan olmuş, keçən keçmiş...

İndi təəssüf qalır. Amma əlbəttə, bu təəssüf nikbin, sabaha ümidli bir təəssüfdür. Yaddaş Sahibi sinəsində alovlanan bir yanğını da pıçıltıları ilə onu dinləyənlərə çatdırmalı olur. Nənə ömrünü şam kimi əridib, dünyadan köçür. Və son günündə şamın sönən anında nəvəni istəmişdi. Yaddaş Sahibi həmin anda onun görüşündə ola bilmədiyi üçün indi də ürəyində bir nisgil daşıyır:

Son günü məni istəmiş -
Eşidəndə içim yandı.
Nənə-nəvə görüşmədi,
Bir daha fürsət düşmədi,
Arada divar dayandı.

Nənə artıq əbədiyyətdədir. Yaddaş Sahibi bunun qanunauyğun olduğunu bilir. Axı filosoflar demiş: dünyanın dəyişkənliyi haqqında qanundan başqa hər şey dəyişilməyə məruz qalır. Yaddaş Sahibinin şəffaf eynəyinin arxasından nəzərləri dünyanın uzaq üfüqlərinəcən çata bilir. Çünki o, dünyaya zirvədən baxır. Bu sərraf nəzərlər Misir ehramlarını da görür, bir təpəlikdə adı qalmış Semiramidanın asma bağlarını da. Bu nəzərlər Rodos nəhənginin əzəmətini min illər boyu parçalanmış daşlarda saxlayan insan hisslərinin də gücündə dayanır...

İnsan təfəkkürünün möcüzələri ardıcıl sıralanır. *"Avesta"*, Dədə Qorduq möcüzələri, Firdovsi, Xəyyam, Nizami, Nəsimi, Füzuli, Xətai...sözün, mənəvi gücün vəhdəti Yaddaş Sahibinin mənəvi aləmindən süzülüb gələn dünya, cəmiyyət, həyat, zaman haqqında fəlsəfi ümumiləşdirmələrə çevrilir:

Tale hər vaxt nəvazişə qərq etməz,
Günəşlər də nəhayətsiz bərq etməz.
Ölüm haqdır, dadacaqdır hər insan,
Dəli olsun, dahi olsun, fərq etməz.

Nə qədər kükrəsə, aşıb-daşsa sel,
Qoynunda ram eylər onu dəniz, göl.
Həyatın axarı-çıxarı budur:
Əvvəl sel kimi coş, qayna...sonra öl.

Nədəndir gen dünya mənə dar gəlir?
Sevinc üz döndərir, intizar gəlir?
Kişiyə ağlamaq yaraşmasa da,
Bəzən ağlamamaq mənə ar gəlir.

Ölüm deyil həyatda ən böyük zülm,
Yaşamaqdır bu dünyada ən ağır iş,
Varlığımız yoxluğa doğru bir giriş,
Həyatımız ölümə gedən yol imiş.

Bu dördlüklərdə, daha dəqiq desək, insanı mənən zənginləşdirən, ona sonsuz estetik zövq bəxş edən bu rübailərdə Xəyyam ruhu duyulur, Məhsəti Gəncəvi nəfəsi hiss edilir. İnsan hissləri və duyğuları o qədər təbii axarla bu rübailərdə bir-birini tamamlayır ki, yaradılan təəssüratı dağıtmamaq xatirinə şairin mənəvi aləmindən gələn ecazkar duyğulardan alınan zövqü oxucunun öz ixtiyarına buraxmaq daha yaxşıdır - qənaətindəyəm. Bundan sonra nəsə yazmaq, nəsə demək bəlkə də artıq olardı, amma ruhən, qəlbən sevdiyim Belinski sanki bir əsr yarım bundan əvvəl elə indiki məqamda mənim yazacaqlarımı demək istəyib:

> "Daha nə deyim? Bəlkə indiyə qədər dediklərimin özü də sizi çox az razı salmışdır. Nə etməli? Gözəlliyi hiss edib anlamaq başqalarını gözəlliyi hiss edib anlamağa məcbur etməkdən dəfələrlə asandır! Əgər oxuculardan bəziləri mənim məqaləmi oxuyaraq "bu həqiqətdir" deyərlərsə, yaxud bəziləri heç olmasa "bütün bunların hamısında həqiqət də var" deyərlərsə, əgər bir başqaları məqaləni oxuduqdan sonra orada təhlil edilən əsərlərin özlərini oxumaq meylinə düşərlərsə, o zaman mən öz vəzifəmi yerinə yetirmiş və məqsədə çatmış oluram" [1].

Sözün ecazkar gücü... yalnız sənin önündə təzim etmək, yalnız sənin haləndə dolanmaq, oduna, işığına pərvanə kimi yanmaq səni duyana yeganə təsəlli olardı.

... Sözün bətnində Tanrı gücü var.

[1] V.Q Belinski. "Rus ədəbiyyatı klassikləri". Bakı, 1954, s. 285.

# Xəyalin qanadlarinda

Bədii əsər - istər poeziya olsun, istərsə də nəsr - nə vaxt oxucunu çəkir? Sözün bədii gücü nə vaxt özünü göstərə bilir, ecazkar haləsini yaradır? Bəlkə də, bədii sözü yaradanlar bu barədə ya düşünmür, ya da çox az düşünürlər. Əvəzində ədəbiyyatın sirrini axtaranlar, ədəbiyyatın eczkar mahiyyətini anlamağa çalışanlar bədii sözün dərk olunduğu gündən bəri bu suallar ətrafında baş sındırırlar. Sənətkar hər hansı bir obrazı həyatda görə bilirsə və yaxud özündən kənar xarici mühitin təsirilə onun mənəvi aləmində yaranan təəssüratlar, hadisələr müəyyən olunmuş bir xətt ətrafında düzülürsə və demək olar ki, sənətkar həmin proseslərə müdaxilə eləmirsə, demək, obrazların, hadisələrin təbiiliyi də qorunur. Sənətkar təbiiliyi, onun daxili aləmində formalaşmış obrazlara səmimi münasibətini qoruyursa, onda bədii sözün haləsində ecazkar bir mühit yaranır. Bu, cəlbedici bir mühitdir, oxucunu çəkən mühitdir. Ətrafı özünə cəzb edən, haradan baxılsa görünən bir mühitdir. Bir çəməndə bal üçün şirəsi olan çiçəyi arıya göstərən yoxdur. Amma arı özünün təbii instinkti ilə o çiçəyin xüsusi qoxusunu duyur, hiss edir və çəməndə yeganə olsa belə həmin çiçəyi tapa bilir.

Demək, əsas məsələ yazıçının hadisələrə yanaşma tərzi ilə bağlıdır. Onun daxili aləmində formalaşmış olan dünyagörüşü, məqsəd və məramı ilə bağlıdır. Beləliklə, sənətkar özünün məqsədini, məramını müəyyən hadisələrin fonunda ardıcıl olaraq diktə edir və onun oxucuya danışmaq istədiyi məzmun yaranır.

Ayrı-ayrı oxucuların belə bir qənaəti ola bilər ki, H.İsaxanlının poetik yaradıcılığında forma baxımından bir dağınıqlıq var. Doğrudur, dərzinin biçdiyi paltar sahibinin əyninə, ölçüsünə, biçisinə uyğun gələndə onu daha gözəl göstərir. Amma ən qiymətli bir paltarı belə ən mahir dərzinin əli ilə biçilmiş-tikilmiş bir paltarı, belə paltarın nə demək olduğunu bilməyən mey-

muna geydirsən onu, bəlkə də, zahirən, kənardan baxanda insana bənzədə bilər, amma meymunu döndərib insan eləyə bilməz. Deməк, əsas məsələ yazıçının, sənətkarın oxucuya aşılamaq istədiyi ideya ilə bağlıdır. H.İsaxanlı poetik lövhələrində məhz bu ölçülərə sadiqdir, başqa sözlə, mənəvi ölçülərə... Onun yaradıcılığı daxili aləmindən gələn səslərin oxucuya yad, təsirlərsiz çatdırılması ilə fərqlənir. *"Ziyarət"* poemasında da bu təbiiliyi, müəllifin daxili aləmindən gələn səslərin fərdiliyini və orijinallığını hiss edirik. Əsərin son hissələri ilk baxışdan Yaddaş Sahibinin xatırlamaları ilə əlaqəsiz, yaxud da zəif əlaqəli görünə bilər. Amma əslində, belə deyil. Yaddaş Sahibi hər şeyi danışıb. Ziyarətə çağıran ilk zəng səslərindən tutmuş, ziyarətdən sonra ziyarətçini ziyarət edənlərin münasibətlərinə qədər - nə varsa, hamısı artıq məlumdur. Bir anlığa şairi də elə belə bir müsafir kimi təsəvvür edək. O, səfərini başa vurub, olanların hamısını danışıb, onu ziyarət edənlər də dinləyiblər və nəhayət ki, hərə dağılışıb bir yana. Amma bu uzun yol müsafirinin xəyal, düşüncə aləmindən gəlmiş Yaddaş Sahibinin bir özü, bir də qəlbi tənhalıqdadır. O, öz könlü ilə danışır. Daha doğrusu, heç kimsəyə deyə bilmədiyi, heç kimsəyə aça bilmədiyi duyğularını nəğmələrə çevirir. Beləliklə, *"Ziyarət"* poemasının ***"nəğmələrin qanadında"*** adlı bir hissəsi yaranır. Yaddaş Sahibi - o, bu hissədə şairin özü ilə eyniləşib - kimsəyə danışa bilmədiklərini bəlkə də, onu bir kimsənin anlamayacağını düşündüyündən içindəki nəğmələrini həzin-həzin, özü üçün oxumağa başlayır:

Dənizlər olmayan yerdə
Çayda dənizçi olardım.
Ləpələnən boz çöllərdə
Şütüyərdim, iz salardım.
Külək içimə dolardı,
Köynəyim yelkən olardı.

Zirvədən başlanan yolun son ucu dənizdə qurtarır. Bu, bir insan ömrüdür. Bu, bir insanın həyatdan aldığı paydır. Zirvə onun həyata gəlişidir, dünyanın hər tərəfindən görünən bir məqamdır. Onun ilkin çığırtısı hər tərəfdən eşidilir; - dünyaya insan gəlir! Məhz zirvə olduğu üçün bu səsi insanlar eşidir. Amma dənizdə qurtaran yol əbədiyyətin başlanğıcıdır. Sanki əsər boyu müəllif yaddaşında oyanan nə varsa, hamısını dənizəcən keçdiyi yollarda danışır. Amma indi üzü zirvəyə tərəf. O zirvədə qoyub gəldiyi ilk çığırtısı ilə

insanlara sevinc gətirmiş güllərə tərəf nəğməsini oxuyur. Orada necə idi, hansı hisslərlə yaşayırdı? Hansı duyğuları ilə sinəsi qabarır, könlü atlanırdı? Bəlkə də, o, həmin zirvədə üzü dənizə sarı boylanıb bir dənizçi olmaq istəyirmiş. Dənizlər də onun üçün boz çöllərə bənzəyirmiş. Onun köynək yelkəni küləyin axarında qanadlarını açarmış və hərdən də dönüb ləpələrə baxar, ləpələrin yuyub apardığı izinə baxarmış. Hər halda, bu, onun ilk arzuları idi. Onu həyata, göylərinənginliyində qanadlarını çalıb süzdüyü boşluqlarda qoruyub saxlayan, onun uçuşunu təmin edən arzular idi.

İnsan dərəyə enməkdən çox dağa qalxmağı arzulayır. Eynilə bu düsturu onun həyatının mənasına da şamil etmək olar. İnsan ucalığa can atır. Mənəvi ucalıq insanın gücünün, qüdrətinin mahiyyətidir. Təbiətdəngəlmə duyğular şairin məramına, niyyətinə çevrilir:

Gül ətirli, göy yamaclı,
Dik qayalı, bulud saçlı.
Dağları seyrə dalardım,
Ucalıqdan həzz alardım.

Onun ucalıqdan, ucalıq eşqindən məmnun olması, hətta bəzən xəyalən çatdığı bu ucalığın yüksəkliyində xumarlanması, məst olması, bu ucalıq həzzini öz canında duyması onun boy artmasıdır, mənəvi böyüməsidir. Sanki həmin ucalıqdan özü boyda olan dağlara baxır, dağlarla özü arasında bir müvazilik, bir yaxınlıq, mənəvi qohumluq görür. Həmin andaca təzədən günlərimizə qayıdır. Sanki həmin o uşaqlıq arzusuna asanlıqla, xəyalən qalxdığı ucalıqlara təbəssümlə, uşaq sadəlövhlüyünə yumşaq bir istehza da duyulur onun bu münasibətində. Yağışlara vurulmaq, hələ əlinin çatmadığı, ovuclayıb bir yay gününün istisində ağzına təpəcəyi dağ qarına həsrətli sevgisini təzədən yaşayır. Bu, o qədər saf, o qədər təmiz bir sevgidir ki, hətta onun rəngini belə oxucu təsəvvür edir. Dağların ucalığındakı qarın ağlığı kimi...

Bir uşaqdım, vurulmuşdum
Asta yağan yağışlara.
Həsrətli bir sevgim vardı,
Dağ başına düşən qara.
Bir uşaqdım vurulmuşdum,
Göydə gəzən buludlara.

Uşağın mənəvi aləmi safdır, təmizdir, qərəzsizdir, uşaq nə vaxtsa qanadlarının olacağına inanır. Ona görə də bəzən vahiməli görünən, bəzən alatala, seyrək-seyrək başımızın üstündən keçib gedən buludlaracan qalxıb onun üstündə anasının yırğaladığı beşikdə olduğu kimi, əmin-amanlıqla, asudə, qollarını açıb dincəlmək, göy üzündəki buludların üstündən yerləri süzmək istəyir. Bəs onda uşaq niyə buludlara vurulmasın? Niyə buludları sevməsin? Buludlar ki, onu bu qədər ucalıqlara qaldıra bilər.

Göründüyü kimi, onun mənəvi mühitində saf bir sevginin təməli qoyulub. Bundan sonra o uşağın dünyasında heç vaxt tikanlar, qanqallar bitə bilməz. Onun ruh çəmənzarında elə ətirli güllər, elə yaşıl çəmənlər dil açıb danışacaq ki, onun səsini eşidən hər kəs bu çəmənzara gəlmək istəyəcək. Bu, həyatın gözəllik donudur, bu, həyatın həyata çağırış səsidir. Burada o, artıq özünü dərk edir. Buludların üstünə qalxmaq qanadı olmasa da, sevgi aləminin ucağılında onu saxlayacaq, onu daha da kamilləşdirəcək sevgi qanadları yaranacaq. Və bu zaman o, arxasınca baxan iki həsrətli gözü görəcək. Bu iki göz onu əbədi olaraq özünə bağlayacaq. Onun qəlbində yandırdığı odla özündən şimşək qanadları ilə onun sinəsinə köçürdüyü hisslərlə, duyğularla... Beləcə, bir gəncin sevdası başlanır. Və o, yuxusuz gecələrində ona baxan iki gözü heç vaxt unutmayacaq, həmişə ona doğru uçacaq. Çatacaq, çatmayacaq - bunu həyat bilər:

İki gözdən bir od aldım,
Alışdım, sönə bilmədim.
Gecə-gündüz qanad çaldım,
Geriyə dönə bilmədim.

Bəzən saf, təmiz məhəbbətin çiçəyi çırtlasa da, gülləri açılsa da, onun vaxtsız solduğunu, onun bar-bəhrə gətirmək üçün öz fəslinin gəlmədiyini də görürük. Əsərin qəhrəmanı ömrü boyu sinəsinin altında saxladığı bu duyğuları nəğməyə çevirib oxumasaydı, bəlkə də, bizim artıq tanıdığımız, bizə çox əziz olan Yaddaş Sahilinin obrazını bu qədər mükəmməl təsəvvür edə bilməzdik. İndi onun səmimiyyəti, onun təbiiliyi onu bizim gözümüzdə daha da ucaldır. Heç kimə heç nə deməsə də, dostları, yoldaşları, həmtayları - taytuşları onun gözündə yanan işıqların mənasını duyur, könlünün sevgi odunda yandığını hiss edirlər. Bəzən gözlər sözlərdən daha açıq danışır:

Göz qandırdı, göz yandırdı
Könül-könülə yaraşdı.
Dost-yoldaşlar utandırdı,
Söz o sözdü, yaş o yaşdı...

Beləcə, ilk gəncliyin sevgi işıqları onun yolunu nurlandırır, onun həyatına yeni məna gətirir. Onu sevgi dolu bir aləmin, bu aləmin yaşamağa haqqı olan bir sakininə çevirir. Yaddaş Sahibi sanki yuxudan ayılır. Hansı hisslərini nəğməyə çevirib oxuduğunu duyur və nəğməsini elə buradaca dayandırır. Bir sözlə, həmin o uşaqlıqdan qopmaqda olan aləmə indiki yaşından baxır:

Uşaqkən min xəyal qurdum...
Nəğmələrin qanadında.
Deyəsən sevda adında
Arzuma doğru uçurdum?!.

Nəğmələrin qanadında uçduğu anları, xəyallarında yaratdığı aləmi öz nəğmələri ilə bizə qaytaran müsafir çox böyük səmimiyyətlə etiraf edir ki, onun dənizçi olmaq, təyyarəçi olmaq, səyahətçi olmaq istəyinin hamısının məğzində, mayasında dayanan bircə həqiqət vardı. O da sevda adlı arzusuna çatmaq həqiqəti.

Zənnimcə, müəllifin sevgini, sevdaları arzuya bənzətməsi də çox maraqlıdır. Əslində, elə həyatın yaşarılığını təmin edən əsas amil arzu ilə bağlıdır. Sevdasız, sevgisiz arzu isə yəqin ki, mənasız istək olardı. Birdən onun qəlbindən bir haray sədası qalxır. Özü öz nəğmələrinin qanadında qayıdıb uşaqlıq aləmindən ayrıldığı günlərə düşən anlarda öz səsinin sehrinə düşür. Axı o, bu səsi, heç kimsəyə oxumadığı nəğmələri özü eşitdi, öz dilindən, öz ağzından çıxan nəğmələri eşidən kimi vahimələnir. Hər halda o, bu nəğmələri könül sirri kimi saxlayırdı. İndi onun sirri faş olmuşdu. Özü öz səsini eşitmişdi. Bəlkə, bu səsi eşitməklə onun nəğmələrinə bir xələllik gələr? Bəlkə, məhrəmliyini qoruduğu sirrinə xəyanət eləmiş olar? Amma yox, bu səsdəki ecaz, bu səsdəki duyğu tamam başqadır. Yerlər, göylər eşitsə də, lap Allahın özünə çatsa da - həm də Allahın da özünə çata bilər, çünki sevgi nəğmələri Tanrı yanında dualardan da müqəddəsdi - onun, o ecazkar səsin nə yerlərə, nə göylərə bir xətəri dəyməz. Tanrı dərgahından tutmuş insanla-

rın mənəvi saraylarına qədər bu səs kainatda harmoniya, ahəng yaradar. Müəllifin həmin səsi təsvir etdiyi misralara diqqət edək:

Allah, Allah, o nə səsdi,
Yerlər, göylər eşitdimi?
Duadan da müqəddəsdi.
Bülbüldümü, Rəşiddimi?
Ya, bəlkə, Şövkətdi, Xandı?
Ruh titrədi, könül yandı...

Beləcə, onun mənəvi aləmindəki titrəyişlər, həyəcanlar öz ünvanına çatır. Onun ruhunu təzədən qanadlandırır. Bu, o qədər təsirlidir ki, onun könül aləminə bir yanğı gətirir və əsərin indiki məqamında Yaddaş Sahibinin iztirablarını, onun mənəvi ağrılarını gözlərimizin önündə canlandırır. Bəlkə də, Xanın, Rəşidin, Şövkətin adlarını çəkməklə onun könül dünyasında səssiz oxunan nəğmənin səsini, sədasını bu səs qüdrətlilərinin ecazkar səsləri ilə müqayisə etməsi onu düşündürür. Bu səsin məlahətini o səslərlə qarışdırmamaq üçün son anda nəğmələrinin qanadından onu bütün ömrü boyu gəzdirən, xəyallarının atından yerə enir, bugünkü insanların arasında dayanır. Daha nəğmə yox, asta-asta onun dodaqlarının arasından pıçıltılarını eşidirik:

Ayrıca bir məlahət
olmasa da səsimdə.
Ürəyimin telləri
yanırdı nəfəsimdə.

Bəlkə də, H.İsaxanlının bu hisslərini, duyğularını daha sərrast, daha dəqiq, daha biçimli formalarda vermək cəhdləri ola bilərdi. Amma onda bu təbiiliyi və bu səmimiyyəti görə bilməzdik. Məzmun da bizi çəkməzdi. Nə qədər səmimi olmalısan ki, səsində qeyri-adi bir məlahət görməsən də, ancaq özünə aid olan səslə oxuyasan və ürəyinin də telləri öz nəfəsində yana. Zənnimcə, şair bu hissləri yaşaya bilməsəydi, bu duyğuları mənəvi aləmindən təzədən keçirə bilməsəydi, ürək tellərinin nəfəsində yandığını da hiss etməzdi. Buradaca bir sevgi-məhəbbət dastanının tarixini bir muğam kimi dinləmiş oluruq. Təsadüfi deyil ki, müəllif son misrada *"Şur"* muğamının adını xatırladır. O, lap bəmdə oxusa da, zildə oxusa da, dərdin sarı simi üs-

tündə oxuyur. Sarılıq ayrılıq, hicran rəngidir, həsrətin ifadəsidir. Filankəs elə oxuyur ki, lap sarı simə dəyir. Xalq canlı danışıqda sarı simin mahiyyətini belə ifadə edib. Və zənnimcə, müəllif də səssiz-səssiz oxuduğu nəğmələri ilə oxucusunun könül aləminin sarı simini dilləndirə bilib:

Köklənirdim "Şur" üstə,
həzin, sarı simdə də.
Oxuyurdum zildə də,
səssiz, ürəyimdə də.

Yuxarda demişdik ki, bədii əsərdə oxucunu çəkən nədir? - sualı bədii əsərin mahiyyəti haqqında düşünənləri həmişə düşündürüb. *"Ziyarət"* poemasının ayrı-ayrı hissələrində olduğu kimi, burada da sanki nəbzi əlimizdə olan insanın ürəyinin döyüntülərini hiss edirik. Biz burada bir şairin həyatdankənar, qeyri-insani bir varlığı təsvir etdiyini yox, həqiqi insanı, bizimlə danışan, bizi duyan, onu duymağımızı istəyən bir insanı görürük. Göründüyü kimi, müəllif insanlara aşılamaq istədiyi ideyanı, fikri, məqsədi - bunu mənəvi sağlamlıq kimi duymaq olar, ucalığa çağırış kimi anlamaq olar, insanın insan olduğunu təsdiq edən xeyirxah niyyət kimi başa düşmək mümkündür - öz içindən, daxili aləmindən götürüb ona nəfəs verdiyi, ona can verdiyi, ruh verdiyi obrazın timsalında təqdim edir. Görünür, mütəfəkkirlər də elə bu məqamı bu cür qavramağı daha üstün tutublar:

> "...Bitki toxumdan necə cücərib boy atırsa, hadisələr də ideyadan elə inkişaf edir. Məhz buna görə oxucular onun şəxslərində kölgələr deyil, canlı surətlər götürürlər, bunların sevincləri ilə sevinir, bunların haqqında düşünür, mühakimə edir və bir-biri ilə mübahisə edirlər, sanki söhbət doğrudan da yaşayan və onlarla tanış olan adamlar haqqında gedir..." [1].

H. İsaxanlının yaratdığı obrazın, daha dəqiq desəm, Yaddaş Sahibinin ruhumla doğmalığını hiss etməsəydim, onu özümlə müsahib kimi görməsəydim, başqa sözlə, onu dəqiq tanımasaydım, yəqin ki, ustadın fikirlərinə də, düşüncələrinə də güvənə bilməzdim.

...Özündən başqa bir kimsənin könlünü səsi ilə, sözü ilə dilləndirə bilən hər kəs sənətkardır - istər şair olsun, istər nəğməkar, müğənni...

---

[1] V.Q.Belinski. "Rus ədəbiyyatı klassikləri haqqında". Bakı, 1954, s.347.

Hər şairin dünyasında həyatın qara rənglərini görməyən saf bir aləm var. Şair yaşadığı dünyaya o təmiz aləmi verib getmək istəyir. Şairi yazmağa, yaratmağa vadar edən elə bu duyğulardır, bu hisslərdir.

# Həyat enerjisi - eşqin görünməz gücü

Cəmiyyət həmişə keçmişi idealizə etdiyi kimi, cəmiyyəti yaradan ayrı-ayrı insanlar da artıq yaşamış olduqları həyatı daha çox idealizə edirlər. Sanki sehirli bir aləmdən ayrılıblar və bir də həmin aləmə doğru həmişə can atırlar. Uşaqlarda isə əksinədir, uşaqlar böyüklərin yaşadığı həyata tələsir. Amma bu həyata çatan kimi üzü geriyə boylanır və ən gözəl günlərinin geridə qaldığını düşünürlər. Görünür, bu, həyatın özündən gələn, həyatın təbiətindən doğan bir hissdir. Və biz Yaddaş Sahibinin ***"damarlarda eşq axardi"*** xatırlaması ilə gəncliyini, yeniyetməlik çağlarını bu qədər böyük hiss və həyəcanla anmasını da həmin hisslərlə bağlamalıyıq. Və görünür, elə bu səbəbdən gənclik əldən gedəndən sonra, insanlar yenidən gəncliyə qayıtmaq, yenidən cavanlaşmaq iksirini axtarıblar. Azərbaycan nağıllarındakı sehirli almanı yada salaq: Məlikməmmədi qaranlıq dünyadan keçirərək yenidən işıqlı aləmə qaytaran hadisələrin məğzində bu sehirin, bu ovsunun tapılması əsas şərtdir. Söhbət onda deyil ki, həqiqətən belə bir sehirli alma var, ya yox?! Amma insanlar hər halda bu almanı arzulayıblar. İnsanların zahiri əlamətlərdə onları gəncləşdirən, cavanlaşdıran, yaxud gənc kimi, cavan kimi göstərən vasitələrə meyl etmələri, müəyyən forma dəyişikliklərinə can atmaları həmin istəyin nəticəsidir. Cismani əbədi həyat olmadığı kimi, insanın yaşadığı ömrə cismən qayıdışı da mümkün deyil. Mifin məntiqinə görə,

> "Ambroziya (müşkənbər) öz-özlüyündə yalnız gənclik, güc və gözəllik verirdi. O, bədənin əbədi yeniləşməsi üçün qidadır. İlahilərin ölümsüzlüyü əbədi həyatla, daimi gəncliyin və gözəlliyin birgəliyi kimi təsəvvür olunurdu"[1].

---

[1] Y.E.Qolosovker. "Mifin məntiqi". Kitab aləmi. Bakı , 2006, s.94.

Əlbəttə, söhbət mifdən gedəndə. Amma gəncliyə qayıdış bütün zahiri vasitələrdən asılı olmayaraq (zahiri vasitələr müəyyən təsəvvürlər yarada bilər), ancaq xəyalən, ruhən mümkündür, insanın həyat enerjisindən, onun daxili-mənəvi ehtiyatından, həyata sevgisindən asılıdır. Bu hiss insanda bir mənəvi səfərbərlik yaradır. Onu gənclik enerjisi ilə yazmağa-yaratmağa sövq edir (müəyyən yaş dövrünü keçirən insanların fiziki işlə də belə şövqlə işləmələri mümkündür), amma bir şərtlə, gərək insanın damarlarında qan formasında eşq (həyat enerjisi, güc) çağlamış olsun. Hər halda, Yaddaş Sahibinin belə gücünü hiss edirik. Müəllifin timsalında onun yazıb-yaratmaq həvəsi sonsuzdur və tükənməzdir.

Poeziyanın şairin varlığına hakim olan bir fikrin məhsulu olması klassiklər tərəfindən dəfələrlə ən müxtəlif forma və şəkillərdə ifadə olunub. Azərbaycan ədəbiyyatında Nizamidən, Füzulidən üzü bəri şerin sənətkarın varlığından necə doğulması, yaranışı hətta təfərrüatına qədər şərh olunub. Ancaq söhbət onda deyil ki, ən yaxşı bir fikri şair müəyyən formaya, qəlibə salır və bizə - oxucusuna təqdim edir. Xeyr, əslində, belə deyil. Şairin varlığına hakim olan fikir onun hissləri, emosiyaları ilə çulğaşır, başqa sözlə desək, qanına qarışır. Onun damarlarından axan qanın rəngini özünə hopdurur. Yalnız bu zaman şeir yaranır. H.İsaxanlının poeziyasını da əlvan rənglərə bürüyən, onu dil-dil ötməyə vadar edən, canlandıran, danışdıran öz qanının rənginə boyaması ilə bağlıdır. *"Ziyarət"*in ayrı-ayrı fəsillərində zaman, məkan dəyişir, poetik duyğuların ən müxtəlif formalarda rəngləri təzahür edir. Rənglər bəzən tündləşir, bəzən bozarır, hətta bəzən güclə seziləcək dərəcədə çalar kəsb edir. Bu, şairin damarlarından axan qanın sürəti, onun qatılaşması və bəzən də durulması ilə bağlıdır. Demək, bu poetik örnəklər yalnız ayrı-ayrı məqamlarda fikirlər şəklində təzahür eləmir, həm də şairin zəngin duyğular aləmini, onun gərginləşən, tarıma çəkilən əsəblərini, varlığını özündə ehtiva edən hisslərini bizə çatdırır. Damarlarında axan qan bu zaman şairin mənəvi aləmində fikir kimi təzahür edir. Şair bunu adicə qan hesab eləmir, insanı yaşadan vasitə, qaynaq kimi görmür. O, bu qanı həyat eşqi, yaradıcılıq enerjisi kimi təsəvvür edir. Gərək insanın qanında əvvəlcə eşqin özü yaransın, onun bəsirət gözü açılsın, o, həyatı sevsin, yaşamağın gözəlliyini duysun. Yalnız bu anlamdan sonra o, damarlarında axan mayenin qan formasında olan eşq olduğunu anlayacaq. Müəllifin düşüncəsinə görə (əsərdə Yaddaş Sahibinin qənaətinə görə), gəncliyin elə bir mərhələsi başlanır ki,

bu mərhələdə zaman da, məkan da, hərəkət də bütövlükdə ecazkar, qeyri-adi, füsunkar və cəzbedici olur. Özü də təsəvvür edin; qışda yağan qarın özü insanın damarlarında qaynayan (həm də sözün həqiqi mənasında qaynayan) qanı soyuda bilmir, onun mənəvi aləmində bir od qaynayır:

Zaman necə füsunkardı...
Qışda lopa qar yağardı,
İçimdə sönməz od vardı.

Yeraltı layların hansısa qatlarında güclü istilik enerjisi bəzən o qədər yığılır ki, yer təkinin onu boğub saxlamağa gücü çatmır. Və beləcə, vulkanlar püskürür. Şair də müəyyən mənada canlı varlıq olaraq təbiətin belə bir hadisəsinə bənzəyir. Bayırda lopa-lopa qarın yağdığı, onun özünün daxili aləmindəki alovun bu gənci təlatümə gətirdiyi dövrün özü, müəyyən mənada, açıq izah tələb edir. Onun gözlərinin önündə uzun yollar var. O, bu yolları necə keçəcək? Hələ aydın deyil, heç yolun son ucu haqqında da düşünmür. Amma bu yol ona görə cazibəlidir ki, bu yolda ona sirli baxışları ilə *"arxamca gəl, mənimlə gəl, mənə çat, əlimdən tut, mənə qovuş"* deyən, səssiz baxışlarla danışan gözəlin özü şairin ruhunu özünə çəkmiş, varlığını özündən almış dünyanın sahibi var:

O zaman uzundu yollar,
Yol boyu gəzərdi yar.
Ayaq gəzər, göz süzərdi,
Könül hər şeyi bəzərdi.

Damarlarında eşq axan, gözlərindən vurğunluq yağan gəncin həyatının mənası onun könül dünyası ilə bağlıdır. Bu könül aləmi ayaqların gəzdiyi, gözlərin süzdüyü yerlərin hamısını öz dili ilə bəzəyir. Hətta sevgilisinin gövdəsinə söykənib dayandığı ağacın yarpaqlarına, bu yarpaqların tərpənişlərinə məna verir. Sanki o yarpaqların bir səhər küləyilə tərpənişləri şairə nəyi isə danışır. Burada şair anlamını aşiq kimi düşünmək təbiidir.

Yaddaş Sahibi bəzən özünü kənara çəkir, başqa sözlə, özündən özünə baxır. Yaxud bu günün gözü ilə qayıdıb həmin günləri təzədən müşahidə edir. Bir ağacın altında dayanmış axşamın qaranlığında yolları kəsişən gənclərin gözlərinin parıltısı ilə danışması, səssiz sükutla dilləşməsi damarlarında eşq axan, sevgi çağlayan gəncliyin ömür salnaməsinin başlanğıcı olan bir

dövrdür. Bu, artıq insan həyatının elə anıdır ki, bu anın hər zərrəsi bir dünya qədər əhəmiyyət kəsb edir. Həmin anlarda gənclərə dünyanı əvəz olaraq verib odlu baxışlarla bir-birini süzməsini dəyişmək təklifinə onlar nifrətlə baxardılar. Çünki onların gözündə görünən parıltılar elə dünyanın özü deməkdir. Və nəhayət, Yaddaş Sahibi bu günün zirvəsindən boylanıb damarlarda çağlayan qanın o vaxt nə demək olduğunu bir daha etiraf edir. Bəli, bu, eşq idi:

Elə ki, axşam düşərdi,
Sevgililər qaranlıqda
Bir anlığa görüşərdi.
Gözlər həsrətlə baxardı,
Damarlarda eşq axardı.

Nizaminin uca göylər üçün mehrab hesab elədiyi, Füzulinin "*Şəfayi-vəsl qədrin hicr ilə bimar olandan sor*" hökmüdür. Yaddaş Sahibi sanki klassiklərin düsturunu özünün orijinal düşüncəsi ilə tamamlayır. Eşqin damarlarda qan şəklində çağladığı dövrlərdə insan övladı özünü nağıllar aləmində bilir. Bu nağıllar aləmi son dərəcə *"dadlı"*dır, öz dadı ilə mənəvi aləmə bir sehr, ovsun gətirən gücdədir. Həm də bir yerdə qərar tutan deyil, damarlarında eşq axmayanların bir ildə bəlkə, elə bütün ömürləri boyu gəzə biləcəkləri yerləri, məkanları bircə anda gəzib dolanırlar. Onların xəyalı, şairin dililə desək, *"atlı"*dır. Çox işlənən bir fikirlə ifadə eləmiş olsaq, deməliyik ki, bu xəyallar qanadlıdır, mələk timsallıdır. Bəli, bu həyatın sirrini, sehrini ancaq onu yaşamış olanlar duya bilər:

Nağılların dünyası da
Dadlı idi, atlı idi,
Atları qanadlı idi.
Söz-söhbət təsirli idi,
Həyat necə sirli idi!

Bir daha damarlarında eşq axan gənclərin həyatının sirrini, sehrini şairin mənəvi aləmi ilə bağlamağa cəhd edək. Onda hansı mənzərəni görərik? Bu mənzərədə şairin fikirlər aləmi ilə hisslərinin, duyğularının necə qovuşduğunu müşahidə edə bilmək, əslində, onun poeziyasının sirlərini bilmək deməkdir. Bütün zamanlar boyu öz düşüncələri ilə şairlərə və poeziyaya sadiq olan ustad bütün əsər boyu bizimlə birgə addımlamış (Yaddaş Sahibi, şair və onların həmfikri olaraq mənim özüm) V.Q.Belinski belə düşünürdü:

"...Hər bir poetik əsər - şairin qəlbinə hakim olan qüdrətli bir fikrin məhsuludur. Əgər biz bu fikri şairin ancaq əqli fəaliyyətinin nəticəsi saymış olsaydıq, bununla yalnız incəsənəti deyil, həmçinin incəsənətin yaranması imkanınını da məhv etmiş olardıq. Doğrudan da, iş təkcə bir fikri tapıb onu uydurulmuş bir formaya salmaqdan ibarət olsaydı, şair olmaq çox asan olmazdımı və hər kəs ehtiyac, fayda, yaxud həvəs üzündən şair ola bilməzdimi? Yox, öz təbiəti etibarilə və istedadına görə şair yarananlar bu yolla şair olmurlar! Təbiətcə şair olmayan şəxsin ağlına gələn fikir qoy nə qədər dərin, nə qədər həqiqi və hətta müqəddəs olursa-olsun, onun əsəri cüzi, yalan, saxta, eybəcər və cansız olacaq, bu əsər kimsəni inandırmayacaq, həmin əsərdə ifadə olunmuş fikrin düzgünlüyünə baxmayaraq, bəlkə də hər kəsi məyus edəcəkdir! Halbuki qara camaat incəsənəti nə isə məhz belə başa düşür, şairlərdən də məhz bunu tələb edir. Boş vaxtınızda onun üçün yaxşı bir şey düşünün, sonra isə qızılın ortasına alınan brilyant kimi bundan bir şey uydurub düzəldin! Bununla iş bitmiş olar! Yox, şairin başına gələn fikirlər belə fikirlər deyildir və bunlar şairin varlığına belə hakim kəsilmir, canlı əsərlərin canlı rüşeymləri belə olmur! İncəsənət mücərrəd, fəlsəfi və xüsusən düşünülmüş ideyaları yaxına buraxmır: o, yalnız poetik ideyaları qəbul edir; poetik ideyalar isə sillogizm, doqmat və qayda deyil, canlı ehtirasdır, pafosdur" [1].

Adamın heyfi gəlir, zəncir kimi bir-birilə bağlanan insan hisslərinin dərinliklərinə qədər baş vuran, sözə çevrilmiş bu duyğuların arasını harda, necə kəsmək olar? Axı bu cümlələrin qırılmaz məntiqi eynilə müəllifin mənəvi aləminin göstəricisidir. Eyni zamanda, *"Ziyarət"* müəllifinin daxili aləminin güzgüsüdür. Biz damarlarda eşq axan gənclərin ehtiraslarını, onları bir-birinə tərəf çəkən gücü görə bilirik. Başqa cür olsaydı, heç H.İsaxanlının özü də, hətta öz həyatının xatirəsi olsa belə, həmin günlərə qayıda bilməzdi. Yalnız ağlın məntiqinə söykənib hisslərdən təcrid olunar, damarlarda axanın ancaq qan olduğunu iddia edərdi. Və beləcə, damarlarında qan əvəzinə eşq axan gənclərin daxili aləmini poetik mənzərəyə, poeziyaya, şeriyyətə, şerə çevirə bilməzdi.

Bəli, poeziya emosiyaların, hisslərin, duyğuların tüğyanı ilə yaranır.

---

[1] V.Q.Belinski. Rus ədəbiyyatı klassikləri haqqında. Bakı , 1954, s.94.

# Yaddaş simfoniyasi - son akkordlar

H.İsaxanlının *"Ziyarət"* poemasını yaddaşın əzəmətli simfoniyasına bənzətmək olar. Yaddaş Sahibinin ocaq-ocaq, cığır-cığır, ev-ev və ən başlıcası, ürək-ürək gəzdiyi yerlərdə xatirələrin oyanışı hisslərə, duyğulara təsir edir, canlanmalar poetik lövhələrə çevrilir. Beləcə, əsər boyu poeziyanın incə, duyğuları titrədən, bəzən şahə qalxan, fırtınalı dalğalara bənzəyən, bəzən az qala ağacları kökündən qoparan küləklərin vıyıltısına, bəzən də bir səhər çağında bülbüllərin cəhcəhinə bənzər səsləri dinləməli olduq. Şairin orijinal, öz səsi və öz nəfəsi ilə oxunan musiqinin son akkordlarına gəlib çatırıq. Artıq ahəng dəyişib, Yaddaş Sahibi xəyalən mənəvi dünyasını - bir ömrə sığışmış olan nə varsa, hamısını gəzib, təəssüratlarını da, birinci növbədə ömrünün indiki çağları ilə bölüşüb. Şübhəsiz, bu bölgüdən onun müasirlərinə də pay çatıb. Əsərin sonluğunda - şairin ***"saf, dumduru el nəfəsi"*** adı ilə təqdim etdiyi son poetik akkordlar ruhumuza həm də bir payız nəfəsi gətirir. Həzin pıçıltılarla bu payız nəfəsinin səsini dinləməli oluruq:

Kənd dursa da, ruh dəyişib,
Qara zurna gözə dəymir;
Görən, aşıq kimdən küsüb?
Saz sinədə dastan demir.

Ömrün coşğun çağlarının ötüb-keçməsi haqqında elegiya təsiri bağışlayan bir nəğməni dinləməli olacağımızı elə bəri başdan hiss edirik. Deyəsən, Şəhriyarın ölməz *"Heydərbabaya salam"* poemasının ruhi-mənəvi təsiri də bu misralarda duyulur. Şəhriyar da əsərinin ikinci hissəsində yaddaş salnaməsinin səhifələrində ocaqların yerinin qaldığından, bulaqların quruduğun-

dan, onun uşaqlıq çağlarının şəriki olan tay-tuşlarının dünyadan köç edib getməsindən danışırdı.

H.İsaxanlı da ruhların dəyişdiyini, qara zurnanın gözə dəymədiyini, qismən dəyişmiş olsa da, qalmış kəndin fonunda yada salır. Aşıqların əvvəlki şövq ilə oxumamasının səbəbini axtarır. Bəlkə, o aşıqlar kimdənsə küsüb? *"Saz sinədə niyə dastan demir?"* sualı ilə öz könlünə müraciət edir.

Deməк, həyat öz axarını dəyişməsə də, hər axarın öz dövrü olduğunu diktə edir. Müəllifin (əsərdə Yaddaş Sahibinin) karvanı payızın qapısı ağzındadır. O, ruhuna hakim kəsilən bu fikri hissləri, duyğuları ilə sözə çevirməyə başlayır:

Karvan köçür, yola salmaq vaxtıdır,
Küsmüşəm, könlümü almaq vaxtıdır.
Laylası əskikdir nazik ömrümün,
Çal, aşıq, çal, qardaş, çalmaq vaxtıdır.

Göründüyü kimi, bu misralarda bir köç təbilinin həyəcanlarını dinləyirik. Onun aşığa müraciətlə *"çal, aşıq"* deməsi də daha əvvəlki çağların qaynarlığından xəbər vermir. Könlümüzə, duyğularımıza bir payız havası gətirir:

> "Yarpaqlar töküləndə... nələr olur? Günəşin rəngi bir az saralır, istisi də azalır. Təbiət solur. Günəşin rənginə çalır yarpaqlar. Qızılı-sarı yarpaqların tökümü başlayır. İl ömrünü başa vurur. Bəs nədən payız həmişə sevilir? Kədər gətirsə də, bir tutqunluq gətirsə də əbədi ayrılığın başlanğıcı kimi payızı qucaqlamaq istəyirsən. Bəlkə də, ürəyinin dərinliklərində heç nə ilə üstünü örtə bilmədiyin göyüm-göyüm göynəyən sevgini ona açmaq istəyirsən. Lap ona üz tutub - "Ey solğun dəm, ey xilqətin cazibəli, şux afəti" (Puşkin) məni qoyub hara gedirsən, əlimi ətəyindən üzən kimi ürəyim də üzüləcək. Axı sən mənim sevgimsən, qəlbimsən.
>
> Sanki payız də illər boyu gizlədilmiş bu sevginin vaxtı ötmüş etirafını tökülən yarpaqları ilə şabaşlara qərq etdiyi kimi, elə bu yarpaq tökümləri ilə də sənə əlvida deyir.
>
> Ayrılıqlar həmişə gözəldir. Ayrılıqlar anında insanın bütün uyğulu duyğuları dilə gəlir. Səssiz fəryadlar göylərə bülənd olur. Ancaq bu

fəryadların ahı, amanı o göylərin yeddi qatınacan qalxsa belə, onu kimsə eşitmir, kimsə bilmir, bir özün bilirsən, bir də payız... "[1]

Hər halda gənclik duyğularının yüyənsiz at kimi havanı yarıb qanad açmaq istədiyi dövrlərin arxada qaldığı zamanın onun çiyninə yığdığı yükün ağırlığı altında öz ağrıları haqqında ağır-ağır danışdığı bir hekayəti dinləyirik. Bu hekayətin sevinci və kədəri bir-birinə o qədər qovuşub ki, hətta onları ayırmaq da mümkün deyil. Yaddaş Sahibi ömrünün bu məqamını hamıya danışmaq istəməzdi. Ancaq özünün mənəvi aləmində gizləyib saxlamaq da istəmir. Ola bilsin ki, onu çoxları başa düşməsin, duymasın. Amma hər halda kimsə duyacaq və o, öz salamını da onu duya bilən kimsəyə ünvanlayır:

Bir ömürlük sevincimi, naləmi,
Yüklənərək yelkən açdı bir gəmi.
Ömür keçdi dalğalarla yan-yana,
Salam olsun bu əhvalı duyana.

İnsan nə qədər sevinclər içərisində olsa da, daxili aləmində onu həmişə vüsalına qovuşmayan arzuların iztirabları, ağrıları ilə baş-başa qoyan bir kədər yükü də var. Bəlkə də, bu kədər yükü, ağrısı olmasaydı, insan öz sevincləri ilə çox bayağı görünərdi. Hansı əsər, hansı ədəbi istedad onun daxili aləmindən gələn bu kədər duyğularını verə bilirsə, demək, oxucusuna bir qapı açır. Füzuli ona görə cazibədardır, Füzulini oxumaq insan hisslərinin dərinliklərinə baş vurmaq, insanın özünü duymaq, kədərini anlamaq deməkdir. Əlbəttə, poeziyanın öz dilini bilənlərdən söhbət gedir. Görünür, professor Kamil Vəli Nərimanoğlu Füzuli poeziyasından danışanda elə bu anlamı nəzərdə tutur:

"Yetər ki, sən kitabı aç və ilk misranı oxu. Bu dua, bu vəhy səni alıb aparacaq. Gedəcəksən və öz kədərin qədər kədərlənəcəksən, kədərlənə bildiyin qədər kədərlənəcəksən. O qədər duman, sis, ağrı gətirəcəksən. Və görəcəksən ki, bu ağrı insanı yaşadan qüdrətin özüdür. Tanrıya doğru atılan addımdır. Nəfəsdir. Bir dünyadan bir neçə dünyaya açılan qapıdır"[2].

---

[1] Ə.Xələfli."Yarpaqlar töküləndə" (esse). 30.05.2006

[2] Kamil Vəli Nərimanoğlu. "Özümüz, sözümüz". Çinar-Çap.Bakı , 2005, s.437.

İnsan hisslərini, insan duyğularını öz təravətində təzədən insanlara qaytaran səsi arzulayan şair ömrünün payız qapısında yenə nikbin duyğularla yaşayır. Axı insan nəsilləri yeni fəsillər görəcək, yeni nəsillər bu fəsillərdən keçdikcə bir vaxt Yaddaş Sahibinin dediyi kimi, damarlarında axan qanın eşq olduğunu duyacaqlar. Ona görə də, Yaddaş Sahibinin ruhu da bu yeni nəsillərlə təzədən qayıdacaq və torpağa müraciətlə tükənməz ilham çeşməsi arzulayacaq:

Ana torpaq, səslə bizi,
Tükənməz ilham çeşməsi.
Kölgə düşən qəlbimizi
İsidəcək nəğmə səsi.
Bu büsata hay verəcək
Qayalardan axan su tək
Saf, dumduru el nəfəsi.

Könülləri, kölgələnən ürəkləri *"Qayalardan axan su kimi saf, dumduru el nəfəsi"* isidəcək. Həyat yenə gözəl olacaq. Çünki həyatın nəbzi yeni nəsillərin ürəyinin ahəngi ilə döyünəcək. Amma Yaddaş Sahibi indi doğulub-böyüdüyü, arzuları ilə qucaqlaşdığı diyarda tamam başqa bir mənzərəni sanki onun özünə tərəf gələn, onun ruhunun daşıyıcısı olan körpə bir uşağı görür. Onun doğma eldə-obada, öz dünyasını yaratdığı məkanda ətrafına yığılan adamların arasında ruhu böyük hörmət-izzət görür. Onun adına, onun yaratdıqlarına ehtiramı duyur:

Doğulduğum, boy atdığım,
Arzularla qucaqlaşıb
Öz dünyamı yaratdığım
Doğma eldə, obadayam.
Yığılıbdır xeyli adam,
Bu ülfətə mən də şadam.
Üz-gözlərdə hörmət, izzət,
Hər damlaya dərya qiymət...

Şair, bəlkə də, son akkordlar kimi bir vaxt ruhunun gəzəcəyi yerlərdə sonuncu sirlərini açır.

Buna ***"istedadin sirri"*** də demək olar:

"Hər bir ədəbi istedadın cəmiyyətdən, onu əhatə eləyən mühitdən gizli qalan bir sirri var. Bəlkə də, həmin sirr nədirsə, o sirrin özü istedadı daim qıcıqlandırır, onu yazmağa, yaratmağa həvəsləndirir. Bəs bu sirr deyilən nədir? Onun - yəni hər hansı bir müəllifin geyimində, paltarında, davranışında, danışığında gizlənir bu sirr, yoxsa daha dərin qatlarda onun mahiyyətini axtarmaq lazımdır?

Zənnimcə, insanın - həm də bu yöndən istedadın yaradıcılıq potensialı onun daxili-mənəvi mühitində gizlənən enerjidir. Və bizim üçün – yaradıcı adamın müasiri üçün örtülü olan, bəlkə də, bir çox məqamlarda açıla bilməyən tərəfləri biz "sirr" adlandıraraq o daxili-mənəvi mühitdə gizlənən enerjidə axtarmalıyıq "[1].

Ayrılıqların gözəlliyi daxili aləmin içində gizlənib qalmış olan sonuncu işığın üzə çıxmasıdır. Bəlkə də, ayrılıqlara qədər aşiqin cəsarət eləyib üzə çıxarmadığı etiraflar yalnız bu ayrılıqlar anında dilə gəlir. Və *"Ziyarət"*in son misralarında Hamletin bu etiraflarını da, həm də çox səmimi etiraflarını da, dərin hisslərlə müşayiət olunan duyğulanmalarını da misra-misra ruhumuza çəkirik:

Bu yerlərə çox gəlmişəm,
Gəldikcə də kövrəlmişəm.
Nəşəm qəmlə görüşübdür,
Sevincimə xal düşübdür.
Ey Tanrıdan aldığım nur,
Sən göstərən yol doğrudur.
De, keçmişdənmi gəlmişəm,
Ya mən özüm köhnəlmişəm?

Bu, *"Ziyarət"* poemasının sonuncu misralarıdır. İlk baxışdan oxucuya elə gələ bilər ki, şair (əsərdə Yaddaş Sahibi) *"Ziyarət"*in fonunda bütün təəssüratlarını misralara çevirib, poetik lövhələrlə gələcək nəsillərə ünvanlayıb. Bəs onda nə üçün sonuncu misranın doğurduğu sual intonasiyası ilə dilemma qarşısında qaldığını etiraf edir. Bu, hansı məchulluqdur? Hansı açılmayan müəmma var ki, şair ona müdaxilə edə bilməyib? Əgər diqqət edilsə, bütün sualların cavabını əsər boyu o, özündən soruşmağa cəhd edib. Əsərin ayrı-ayrı hissələrində Tanrıya müraciətlər, insana, keçmişə, gələcəyə xitab-

[1] Ə.Xələfli."İstedadın sirri" (esse), 02.04.2010

lar, müraciətlər sıralansa da, son anda yenə o, öz qəlbinə, özünün mənəvi aləminə qayıdır - sualı da əslində, Tanrının adını çəksə də, özünə verir. Tanrı Şairlik istedadını, mənəvi aləminə, sözə aşiqlik nuru bəxş eləməklə Allahlıq, Tanrılıq borcunu ödəyib. İndi qalır onun mənəvi aləminə hakim olan nur ilə, İlahi güclə onun arasındakı münasibətlərin harmoniyası, ahəngi...

Şairin qənaətinə görə bu nur, bu İlahi missiya onun yolgöstərənidir. Ən düzgün yolu da yalnız bu nur göstərə bilər. Elə ona görə də müəllifin zənninə görə, az qala bir əsri əhatə edən yaddaş tarixində Yaddaş Sahibi ona aydın olmayan daxili aləmindəki müəmmaya, suala çevrilmiş əsas mətləbə yaxınlaşa bilməyib. Yəni onun öz dövründə hansı zamanın adamı olduğu sual olaraq qalır. O, keçmişdənmi gəlib, yoxsa özü keçmişdən gəlməyib, bu günün adamıdır - bunu bilmir. Ona görə də şübhəli qalan budur ki, bəlkə, özü köhnəlib? Hər halda mənəvi dəyərlərin də zamanın sınaqlarından çıxanı var, aşınmaya məruz qalanı var, yeni olanın da mənəviyyata daxil olmaqla vətəndaşlıq haqqı qazananı var. Ona görə də əslində şairin Tanrının ona verdiyi nura müraciəti gələcək nəsillərə ünvanlanmış sualdır. Bəli, bu suala gələcək nəsillər cavab verəcək. Kimin kim olduğunu aydınlaşdırmaq yalnız gələcəyin (gələcək nəsillərin) missiyasıdır.

* * *

H.İsaxanlının poeziyası daha çox musiqiyə bənzəyir. Bəzən səhradan keçən karvan yolundakı bir qatarın ağır, ləngərli yerişilə muğam sədaları dinləyirik. Bəzən simlərdə tufan yaradan sazın yanğıları bizi qovurur. Bəzən də həzin, sakit çay axarı ilə hansısa bir məbədin içərisindən, divarların, daşların arasından özünə yol tapıb çıxan orqan musiqisinin sehrinə düşürük. Simfonik sədalar bizi düşündürür, bəzən də *"Üvertüra"*nın qanı coşduran sədaları altında yumruqlarımız düyünlənir, qəzəbimiz ovxarlı qılınc kimi haqsızları doğramaq üçün qınından siyrilir.

...Şair qan istəmir, şair qan istəməz. Amma həm də qan tökməkdən, qan içməkdən gözü doymayanlara qan qusdurmağı istəyər.

H.İsaxanlının poeziyasında bəlkə də, yaşından çox böyük bir müdriklik var. Amma görünür, haqsızlıq şairin qana çevrilib dizindən yuxarı qalxanda onun müdrikliyi də kara gəlmir. İnsanın haqqını qorumaq istəyi daha ucadır.

* * *

H.İsaxanlıda sözə aşiqlik var. Bəli, təkcə poeziyaya yox, sözə aşiqlik var. Dünya fəlsəfi irsini tədqiq edəndə də, rus ədəbi irsinin ən dəyərli nümunələrini araşdıranda da sözə vurğunluğu ətrafında bir işıqlı halə yaradır. Mənəvi aləmin nuru onun sözündə açıq-aşkar görünür. Hər halda bu aşiqlik, bu vurğunluq nə qədər vurnuxsa da, nə qədər çırpınsa da, poeziya mələyinin onu oxşayan gözəgörünməz əlləri altında sakitləşir, həzin-həzin pıçıltılarla bu mələyə öz nəğmələrini oxuyur. Və yalnız bu zaman özünü daha çox bəxtiyar, daha çox xoşbəxt hiss edir. *"Bu da bir həyatdı", "Dördlüklər", "Təzadlar"* və həm də *"Ziyarət"* poemasındakı səmimi, duyğulu poetik örnəklər fikrimizin təsdiqi üçün canlı sübutlardır. Son onillik mərhələ onun poeziya ömrüdür - hökmü həmişə doğru olacaq! Onu yaşadacaq poeziya ömrü.

...H.İsaxanlı sözün bətnində hansı gücün olduğunu yaxşı bilir. Və daha çox poetik sözün daxili aləmindəki enerjinin nəyə qadir olduğunu... Əməl insanın özündən daha uzunömürlüdür, illah da, sözə, sənətə çevrilmiş əməl!

Ali Rza KHALAFLİ

# The Saga of Life

## Literary and philosophical thoughts

(On the basis of the motives of the poem
“Ziyarət (Pilgrimage)” by Hamlet İsaxanli)

Khazar University Press

2012